**AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**Atamalı ŞAHBAZOV**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ORDUSUNUN ZABİT VƏ HƏRBİ MƏMURLARI

**(tarixi oçerklər)**

**Bakı – 2020**

| | |
|---|---|
| Baş məsləhətçi və ön sözün müəllifi: | **Mehman Süleymanov**<br>Tarix elmləri doktoru |
| Məsləhətçi: | **Firdovsiyyə Əhmədova**<br>Tarix üzrə fəlsəfə doktoru |
| Rəyçi | **Kamran İsmayılov**<br>Tarix üzrə fəlsəfə doktoru |

*Atamalı Şahbazov: Cümhuriyyəti ordusunun zabit və hərbi məmurları. Bakı, " M aarif" , 2020 – 816 səh.*

*Kitabda arxiv sənədləri və nəşr olunmuş elmi əsərlər əsasında Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin faktiki fəaliyyətdə olduğu 07 noyabr 1918 - 28 aprel 1920-ci il tarixlərdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmət keçmiş zabit və hərbi məmurların xidmətlərinə baxılmışdır. Konkret dövr ərzində ilk dəfə olaraq Cümhuriyyət ordusunda xidmət etmiş zabit və hərbi məmurların dəqiq sayı müəyyən edilmiş və eləcəd də kadr heyəti ilə işlərin neçə qurulması haqqında zəngin məlumatları ilk dəfə olaraq bu kitabda təqdim edilir. Bundan əlavə, kitabda Cümhuriyyət hərbi məktəbinin məzunlarının və Cümhuriyyət ordusunda həqiqi hərbi xidmət keçmiş qeyri-azərbaycanlı zabit və hərbi məmurlar haqqında məlumatlar, onların dəqiq sayı müəyyən edilməklə oxuculara ilk dəfə olaraq təqdim edilir. Kitab Azərbaycan Ordusunun və eləcədə Cümhuriyyət Hərbi Nazirliyinin fəaliyyətə başlamasının 100 illik yubileyinə həsr olunmuşdur.*

ISBN: 978-9952-37-141-3

© *Atamalı Şahbazov, 2020*

**Azərbaycan Ordusunun və Cümhuriyyət Hərbi Nazirliyin fəaliyyətə başlamasının *100 illik* yübileyinə həsr olunur**

**2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 10 yanvar 2018-ci il*

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar

müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq

bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2017-ci il*

# ÖN SÖZ

1918-ci ilin may ayında öz müstəqilliyinə qovuşmuş Azərbaycan xalqının ordu quruculuğu sahəsindəki əldə etdiyi nəticələr hərb tariximizdə tamamilə yeni bir mərhələsini təşkil edir. Çünki bununla yeni bir dövlət sistemində, müstəqil və nizami ordunun əsası qoyuldu, zamanın və dövrün ən qabaqcıl hərbi təcrübəsinə əsaslanmaqla güclü və qüdrətli bir ordunun formalaşdırılmasına nail olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından sonra bu dövlətin hər bir vətəndaşı üçün millət və Vətən anlayışları daha konkret məzmun kəsb etdi və Cümhuriyyət ordusunun formalaşdırılmasında da bu anlayışlar aparıcı mənəvi-ideoloji xəttə çevirdi. Dövrün sonsuz siyasi, iqtisadi, mənəvi, məişət məhrumiyyətlərinə, hərbi sistemin və infrastrukturun olmamasına baxmayaraq, çoxlu sayda zabit və əsgərlərimiz Vətən və millət dəyərləri ətrafında toplaşaraq çox qısa bir zamanda çox güclü bir ordunun meydana gəlməsinə, tarix səhnəsinə qədəm qoymasına nail oldular. Bununla, xalqımızın qəhrəmanlıq tarixinə yeni bir şərəfli səhifə yazılmış oldu.

Cümhuriyyət ordusunun yaradılması, onun qısa zamandan sonra döyüşgən bir qüvvəyə çevrilməsi hər şeydən əvvəl Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin düzgün siyasətinin uğurlu nəticəsi idi. Cümhuriyyət hökumətinin rəhbərliyi Cümhuriyyət ordusunu müstəqil dövlətin mühüm atributu, müstəqilliyin müdafiəçisi kimi görürdülər. Bu məqamlar Cümhuriyyətin hərbi siyasətinin də mahiyyətini təşkil edirdi. Ölkənin nazirlər Şurasının sədri, bir müddət hərbi nazir vəzifəsini öz üzərinə götürmüş Fətəli xan Xoyski də bildirirdi ki, gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə bizim də həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun.

Azərbaycan belə bir ordunu qurmaq üçün xeyli mürəkkəb olan hərbi-siyasi şəraitdə mübarizə aparmalı oldu. Hərbi Nazirliyin və Cümhuriyyət ordusunun təşkilinə rəhbərliyi öz üzərinə götürmüş tam artilleriya generalı Səməd bəy Mehmandarov da özünün 1918-ci il noyabr ayının 7-də imzaladığı 1 nömrəli əmrində ordu quruculuğunun çətin şəraitdə aparılmalı olacağını qeyd edirdi. Səməd bəy Mehmandarov həmin əmrində yazırdı: "Vəzifələrimin icrasına başlarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə səmimi fəaliyyət və vəzifəyə təmiz münasibət bəsləndiyi halda aradan qaldırmaq mümkündür. Hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə mən bütün səviyyələrdə olan rəislərin diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin oyadılmasına, qanun-qaydaya riayət edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırıram".

Dövrün və zamanın bütün çətinliklərinə baxmayaraq, Azərbaycan hökumətinin, ordu quruculuğuna cəlb edilmiş təcrübəli generalların səyləri nəticəsində həqiqətən də qürur doğuracaq işlər görüldü, Azərbaycanın hərb tarixinə son dərəcə qiymətli səhifələr yazıldı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu əzəmətli işə qiymət verərkən belə deyirdi:

"1918-ci ildə Xalq Cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq Cümhuriyyəti hökümətinin 23 aylıq tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü, doğrudan da, böyük hörmət hissi doğurur"

Cümhuriyyətin ordu quruculuğu sahəsində bu böyük hörmət hissini doğuran başlıca səbəblərdən biri sözsüz ki, bu ordunu quranların, onun zabit və komandir heyətinin fədakar xidmətləri idi. Təxminən bir əsrlik müddətdə milli hərbi quruculuqdan məhrum olmasına baxmayaraq xalq içində milli təfəkkürün və müstəqilliyə sevginin son dərəcə güclü olması yeni bir milli ordunun formalaşdıırlmasına əsaslı zəmin yaratdı. Səməd bəy Mehmandarovun və Cümhuriyyətin Hərbi Nazirliyinin rəhbərliyinin hərb tariximizdəki dəyərli xidmətlərindən biri onda idi ki, onlar öz ətrafına Vətənin və millətin maraqlarını digər bütün maraqlardan üstün tutan generalları və zabitləri toplayaraq onların gücünü müstəqil Azərbaycan üçün gərəkli olan milli ordunun formalaşmasına səfərbər edə bildilər. Cümhuriyyət ordusunun yaradılmasında çox böyük rolu olan general Əliağa Şıxlinski də hərbi nazir adından imzaladığı əmrlərdən birində belə yazırdı: “Azərbaycanlılar həmişəlik yadda saxlmalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. O, Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır”.

Cümhuriyyət ordusunu quran, təşkilatlandıran zabitlərin və kadrların böyük əksəriyyətini məhz ölkənin ən yaxşı qüvvələri təşkil edirdilər. Belə qüvvələrin əsasını təşkil edən tam artilleriya generalları Səməd bəy Mehmandarovun və Əliağa Şıxlinskinin, general-leytenant Məmməd bəy Sulkeviçin, general-mayor Həbib bəy Səlimovun, general-mayor Murad Gəray Tlexasın, general-mayor Süleyman bəy Əfəndiyevin, general-mayor Cavad bəy Şıxlinskinin, general-mayor Həmid bəy Qaytabaşının, general-mayor Məmməd Mirzə Qacarın və digərlərinin adları qızıl hərflərlə hərb tariximizə yazılmışdır.

Məhz belə generalların və zabitlərin rəhbərliyi altında milli dəyərlərə dayaqlanan və Azərbaycanın müstəqilliyinə sədaqətli olan yeni bir ordu formalaşdırıldı, bu ordunun milli kadrlarının hazırlanmasında ciddi bir baza yaradıldı və bu bazadan səmərəli

şəkildə istifadə edildi, çoxlu sayda təcrübəli kadrlar milli ordu quruculuğuna cəlb edildi.

Hazırkı kitab Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qurulmasında, onun güclü bir orduya çevrilməsində və döyüş fəaliyyətinin düzgün istiqamətləndirilməsində böyük rolu olan zabit və məmurlar haqqındadır. Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının hərb tarixi üzrə dosenti, polkovnik Atamalı Şahbazov tərəfindən hazırlanan bu kitab Cümhuriyyət Ordusunun kadr siyasətini özündə əks etdirən tarixi bir mənbədir. Bu kitabı mütaliə etməklə Cümhuriyyət ordusunda kadr siyasətinin necə həyata keçirildiyini, bu siyasətdə hansı tendensiyaların dinamik inkişafda olduğunu görmək mümkündür. İlk növbədə kadrların hazırlanmasında, seçilməsində, təyinatında və onlara qayğı göstərilməsində və onların nəzarət altında saxlanmasında hansı prinsiplərin üstün tutulduğunu və bu prinsiplərə necə əməl edildiyi bu kitabda öz əksini tapmışdır.

Məlumdur ki, Cümhuriyyət ordusu mürəkkəb bir şəraitdə yaradılırdı, bu ordunun qurulması üçün yetərli sayda milli kadrlar çatışmırdı. Ona görə də ilk vaxtlar Cümhuriyyət ordusunun rəhbərliyi ordunun qurulmasına xeyli-sayda qeyri-azərbaycanlı zabitləri cəlb etdi. Lakin təqdim olunan kitabda öz əksini tapmış məlumatların təhlili göstərir ki, milli kadrlar və zabitlər formalaşdıqca, təcrübələndikcə onların məsul vəzifələrə təyinatı üstünlük təşkil etməyə başladı. Eyni zamanda çox fəal şəkildə yeni milli zabit kadrlarının da tərbiyələndiirlməsinə və hazırladırılmasına başlandı. Cümhuriyyətin mövcudluğu dövründə o dövrün şəraiti çərçivəsində çox böyük sayda yeni milli zabit kadrları hazırlamaq mümkün oldu ki, onların statistikası da təqdim olunan kitabda öz əksini tapmışdır.

Təqdim olunan kitabın üstünlüklərindən və faydalarından biri də budur ki, Cümhuriyyət dövründə zabitlərlə və hərbi məmurlarla işlərin necə qurulması haqqında müfəssəl təsəvvür

əldə etmək mümkündür. Bu sahədə Cümhuriyyət dövründə əldə edilmiş təcrübənin metodoloji baxımdan öz aktuallığını itirməyən xeyli dəyərli məqamları mövcuddur.

Kitabda konkret dövr ərzində Cümhuriyyət ordusunda xidmət etmiş zabitlər və hərbi məmurlar haqqında, onların xidmət yolu haqqında dəqiq məlumatlar əldə etmək mümkündür və şübhə yoxdur ki, bu kitab oxucular tərəfindən maraqla qarşılanacaqdır.

***Mehman Süleymanov***
*Tarixi elmləri doktoru*

# MÜƏLLİFDƏN

Müsəlman Şərqində ilk parlamentli Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, zəngin dövlət quruculuğu təcürbəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoymuş, xalqımızın qəlbində istiqlal eşqini yaradaraq ölkəmizin gələcək müstəqilliyi üçün zəmin hazırlamışdır. Cümhuriyyət qurucularının misilsiz xidmətləri sayəsində ölkədə son dərəcə böyük əhəmiyyətə malik tarixi addımlar atılmış və böyük uğurlar əldə edilmişdir. Bu uğurlardan biri də qısa müddət ərzində döyüşkən ordunun yaradılması olmuşdur. Belə bir ordunun yaradılması yalnız müstəqil dövlət quruculuğu baxımından deyil, həm də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünə və mövcudluğuna qarşı istiqamətlənmiş real təhlükənin qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə qarşıda dayanan vəzifələrin səmərəli həllinə nail olmaq üçün Azərbaycan höküməti tərəfindən müvafiq siyasət hazırlanmış, dövlətin və xalqın bütün potensialı bu vəzifələrin icrasına səfərbər edilmişdir. Azərbacan Xalq Cümhuriyyəti ordusunun yaradılması milli bir vəzifəyə çevrilmiş və bu prosesin milli dəyərlər üzərində aparılması milli ordunun qısa zaman ərzində formalaşmasının əsas səbəblərindən biri olmuşdur.

Müstəqilliyin ilk aylarında ordu quruculuğu Cümhuriyyət hökumətinin rəsmi dəvəti əsasında Azərbaycana gəlmiş Osmanlı Türkiyəsinin hərbi qüvvələri ilə milli hərbi qüvvələrin bazasında yaradılmış Qafqaz İslam Ordusunun tərkibində aparılsa da, Mudros sülh müqaviləsinin şərtlərinə əsasən Osmanlı hərbi qüvvələri Azərbaycanı tərk etmək məcburiyyəti qarşısında qalanda, Hökumətin qərarı ilə Cümhuriyyətin Hərbi Nazirliyi bərpa edildi və Cümhuriyyət Höküməti ordu ilə bağlı bütün məsuliyyəti öz üzərinə götürdü. Hökümətin o dövr üçün uzaqgörənliyini və ordu quruculuğuna xüsusi diqqətinin

təsdiqini Hərbi Nazirliyin təşkilatlandırılmasının çar Rusiyası ordusunda tam artilleriya generalı rütbəsinə qədər yüksəlmiş təcürbəli hərbçi Səməd bəy Mehmandarova həvalə edilməsində görmək mümkündür. Cümhuriyyət ordusu ilə bağlı aparılan araşdırmaların nəticəsi kimi tam əminliklə demək mümkündür ki, məhz general Səməd bəy Mehmandarovun əvvəlcə hərbi nazirin müavini, 25 dekabr 1918-ci il tarixdən isə Hökümətin qərarı ilə Hərbi nazir təyin edilməsi Azərbaycan Xalq Cümhuriyyətinin ordu qurculuğunun səmərəli və peşəkar səviyyədə aparılmasında və bu prosesin düzgün istiqamətləndirilməsində tarixi əhəmiyyət kəsb etdi. Bu məsuliyyətli vəzifəyə başqa birisi təyin edilmiş olsaydı, yəqin ki, Cümhuriyyət ordusunu qısa müddət ərzində formalaşdırılması da mümkün olmazdı. Çünki, Səməd bəy Mehmandarov çox zəngin hərbi təcrübəyə malik olmaqla bərabər, həm də vətəninə və xalqına sadiq peşəkar hərbçi idi. Ordunun qısa müddət ərzində formalaşdırılması üçün onun tərəfindən görülməsi və həyata keçirilməsi vacib olan işlərin yol xəritəsi müəyyən edildi. Cümhuriyyət ordusuna savadlı və peşəkar hərbçilər dəvət edildi. Ordunun lazımi hərbi təcrübübəyə malik zabit və hərbi məmurlarla komplektləşdirilməsinə və milli kadrların hazırlanmasına diqqət artırıldı. S.Mehmandarov özü və Hərbi Nazirliyin zabit və hərbi məmurları davamlı olaraq qoşunlarda xidməti ezamiyyətlərdə oldular, ordunun problemləri ilə yerindəcə tanış oldular və sonra da xidmətin daha da təkmilləşdirilməsi üçün Hökümət qarşısında vəsatətlər qaldırdılar.

Məlumdur ki, Cümhuriyyət ordusu mürəkkəb bir tarixi şəraitdə yaradılırdı, ordunun qurulması üçün bir sıra obyektiv çətinliklər kimi yetərli sayda milli kadrların olmaması idi. Bunu nəzərə alaraq, general Səməd bəy Mehmandarov ilk vaxtlar xeyli sayda qeyri-azərbaycanlı zabitləri məsul vəzifələrə təyin etdi. Lakin sonradan milli zabit kadrları yetişdikcə və təcrübə topladıqca onların məsul vəzifələrə təyinatına üstünlük verdi.

General Səməd bəy Mehmandarov Cümhuriyyət ordusunda xidmət edən zabitlərə qarşı çox yüksək tələbkarlıq nümayiş etdirirdi. O, hələ orduda zabit və hərbi məmurların kəskin çatışmadığı zamanlarda belə, intizamsızlıq etmiş və dövlət malını mənimsəmiş zabit və hərbi məmurlarlara qarşı qətiyyətli mövqe tutur, onları tutduqları məsul vəzifələrin önəmindən aslı olmayaraq Cümhuriyyət ordusudan uzaqlaşdırırdı. Bunun üçün Hərbi nazir 20 yanvar 1919-cu il tarixli 29 nömrəli və 10 fevral 1919-cu il tarixli 68 nömrəli əmrləri ilə bütün hərbi hissələrdə "Alay məhkəmələri" və "Zabit şərəf məhkəmələri"nin yaradılması barədə göstəriş verdi. Həmin məhkəmələrin tərkibinə yüksək mənəvi keyfiyyətlərə malik vətənpərvər və vicdanlı zabitlərin seçilməsi təşkil edildi. Bu qəbildən olan məqsədyönlü işlər milli, vətənpərvər və peşəkar zabit kadrların hazırlanması və onların milli ruhda tərbiyə edilməsinə təkan verdi. Bunun nəticəsi idi ki, Cümhuriyyətin süqutu ərəfəsində komanda vəzifələrinin əksəriyyətinə artıq azərbaycanlılar və ya müsəlman dinidən olan zabitlər təyin edilmişdirlər.

Cümhuriyyət Hərbi Nazirliyinin rəhbərliyi dövlətin müstəqilliyinə sədaqətli olan kadrların sağlam ruhda formalaşması onların vasitəsi ilə xalqın mübariz milli keyfiyyətlərinin ordunun şəxsi heyətinə aşılanmasına üçün də müvafiq tədbirlər həyata keçirirdi. Azərbaycan dilinin ordunun dövlət dilinə çevirilməsi, qəhramanlıq tariximizin öyrənilib təbliğ edilməsi, ordu ilə xalq arasındakı əlaqələrin gücləndirilməsi, milli dəyərlərin ordu daxilində təbliğatının gücləndirilməsi və s. belə tədbirlərdən idi. Komanda vəzifələrində olan qeyri-azərbaycanlı zabitlərin Azərbaycan dilində komanda verməsi və danışması şərt kimi irəli sürülmüşdü. Dili öyrənə bilməyən komanda vəzifələrindəki (yəni əsgərlərlə birbaşa işləyən) zabitlər isə ordudan dərhal kənarlaşdırılmışdırlar. Bunun təsdiqi kimi Cümhuriyyət ordusunda xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən

nəticələr əldə edə bilmədiyinə görə Hərbi nazirin 258 nömrəli 21 may 1919-cu il tarixli əmri ilə Cümhuriyyət ordusu sıralarından 10 (on) qeyri-azərbaycanlı zabitin tərxis edilməsində görmək olar.

Cümhuriyyət ordusu daxilində milli-mənəvi keyfiyyətlərin formalaşdırılmasında dini dəyərlərə ehtiramla yanaşmasına da xüsusi diqqət yetirilirdi. Bu zaman məsələyə prinsipal münasibət nümayiş etdirilir, dini dəyərlərin təbliğində Vətənə sədaqət hisslərinin aşılanmasına xüsusi yer verilirdi. Hərbi Nazirliyin rəhbərliyi milli ordu daxilində digər dinlərə qarşı da tolerant yanaşırdı. Məhz buna görə idi ki, həm xristian dininə mənsub hərbi qulluqçuların öz dini mərasimlərinin icrası üçün şərait yaradılmış, həm də xristian bayramlarında bu dinə mənsub hərbi qulluqçulara istirahət verilirmişdi. Hərbi nazirin 6 yanvar 1919-cu il tarixli 9 №-li əmrinə əsasən hərbi xidmətə qəbul edilən hər bir zabitin və əsgərin Azərbaycan dövlətinə sədaqət andı içməsi şərt kimi irəli sürülmüşdür. Bundan əlavə, zabit və hərbi məmurların aylıq məvacibləri ödənilməklə ildə bir dəfə 30 (otuz) gün və ya iki ildə bir dəfə 60 (altmış) gün müddətinə məzuniyyətə buraxılma qaydaları Hərbi nazirin 01 yanvar 1919-cu il tarixli 3 №-li əmri ilə müəyyən edilmişdir.

Arxiv sənədlərin təhlili zamanı aydın olur ki, Cümhuriyyət ordusunda hərbi xidmətdə olanlar iki kateqoriyaya ayrılmışdılar. Həqiqi hərbi xidmətdə olan zabitlər və xidmətə qəbul edilmiş hərbi məmurlar (həkimlər, baytarlar, molla və imamlar, inzibati və təsərüffat işçiləri). Hərbi məmurlar zabitlər kimi ərzaq payı və bütün növ təminatlar alırdılar. Zabitlərin xidmətinə tətbiq edilən tələblər və qaydalar onlara da şamil edilmişdi.

Ordu tərkibində kadr məsələləri ilə Ümumi Qərargah məşğul olurdu. Zabit və hərbi məmur heyətinin seçimi, təyini, yerdəyişməsi və tərxis əmrləri bu idarə vasitəsi ilə həyata keçirilirdi. Hərbi Nazirlikdə əmrlər qoşun növü və xidmətlər üzrə ayrı-ayrılıqda verilirdi. Cümhuriyyət Hərbi Nazirliyində zabit və hərbi məmurların təyinatı, yerdəyişməsi və tərxis

edilməsi ilə bağlı ayrıca əmrlər verilməmiş, onlar ümumi əmrlərdə, xüsusi paraqraflarda öz əksini tapmışdı. Həmin əmrlər "Ümumi qərargah", "Baş qərargah idarəsi", "Hərbi Nazirliyin Dəftərxanası", "İntendant idarəsi", "Artilleriya idarəsi", "Mühəndis idarəsi", "General-kvartirmeyster idarəsi", "Yerli briqada hissəsi", "Hərbi-məhkəmə hissəsi", "Hərbi-sanitar hissəsi" və "Hərbi-baytar hissəsi" üzrə ayrılmışdır. Əmrlər aidiyyəti üzrə həmin idarələrdə tərtib edilmiş və Hərbi nazirin imzası üçün Ümumi Qərargaha və ya Növbətçi Generala təqdim edilmişdir. Bütün əmrlərin qeydiyatı mərkəzləşdirilmiş şəkildə Hərbi Nazirliyin Dəftərxanasında aparılmışdır.

Ordu quruculuğu prosessinin aparıldığı bir vaxtda ordunun qanunvericilik bazası, hüquq və səlahiyyətləri də işlənib hazırlanırdı. Orduda zabit və hərbi məmur heyətinə qarşı xidməti tələblər müəyyənləşdirilir və onların xidmətdə irəliləmələri və yeni hərbi rütbələrə irəli çəkilmələri üçün qaydalar da təsbit edilirdi. Cümhuriyyət ordusunun qanunvericilik bazası hazırlananadək Çar ordusunda qüvvədə olmuş 1869-cu il tarixli "Hərbi Xidmət haqqında Toplu ("СВП" rus dilində)" əsas götürülmüşdü. Həmin Qanunvericilik Toplusu 1889-cu ilədək 20 il ərzində hərbi xidmətlə bağlı bütün qanunvericiliyi özündə əks etdirən 14 kitabdan ibarət olmuşdu və bu kitablar altı hissə altında birləşdirilmişdi. Bu hissələr belə idi: I hissə - Hərbi idarəçilik (Hərbi Nazirlik, Hərbi dairələr, Yerli qəza hərbi idarələri, Qoşunların hərbi dövrdə səhra idarəçiliyi), II hissə - Nizami qoşunlar (Qoşunları tərkibi və idarəşiliyi, Kompleklәşdirilmə, Hərbi Nazirlikdə həqiqi hərbi xidmət, Təltif, təqaüd və şəxsi heyətə aid digər ödəmələr), III hissə - Qeyri-nizami qoşunlar (Kazak qoşunlarının tərkibi və idarəçiliyi, Kazak qoşunlarında həqiqi hərbi xidmət, Onların hüquq və vəzifələri, Qoşun təsərrüfatı), IV hissə - Hərbi müəssisələr (İntendant, Artilleriya, Mühəndis, Hərbi-təhsil, Hərbi-islah), V hissə - Hərbi təsərrüfat (Hərbi Nazirlik üçük tədarük, Qoşunların təminatı, Qoşunlarda daxili təsərrüfat,

Hərbi Nazirlik üzrə hesabatlar və xəzinə üzrə hesabatlar), VI hissə - Hərbi cinayət, İntizam və Hərbi məhkəmə Nizamnamələri. Hərbi nazirin və Ordunun Baş Qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviçin 23 oktyabr 1919-cu il tarixdə imzaladığı 491 nömrəli əmri ilə Hərbi Nazirliyin istinad edtiyi 1869-cu il tarixli yuxarıda qeyd edilən Toplunun təkmilləşdirilməsi və Azərbaycan reallığına uyğunlaşdırılması üçün komissiya yaradılır. Həmin komissiyayanın sədri general-leytenant Məmməd bəy Sulkeviç, üzvləri isə Ümumi Qərargah, Artilleriya, Mühəndis, İntendant idarələrinin və eləcədə Hərbi-sanitar, Hərbi-baytarlıq və Hərbi-məhkəmə hissələrinin nümayəndələrindən təşkil edilir. Həmin əmrdə qeyd edilir ki, komissiya işinə dərhal başlamalı və 01 yanvar 1920-ci il tarixədək həmin qanunvericilik Toplusunun mühüm hissələrini Azərbaycan reallığına uğyunlaşdırmalıdır. Lakin Qarabağda erməni daşnaklarının xain hücumları nəticəsində başlanan hərbi əməliyyatlar və Bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi bu işi tamamlamağa imkan vermədi.

Cümhuriyyət Hərbi nazirinin əmrlərindən, habelə zabit heyətinin Azərbaycan Respublikasının Dövlət Arxivində saxlanılan təltif və attestasiya sənədlərindən orduda zabit kadrlarının və hərbi məmurların xidmətə qəbulu, təyinatı, yerdəyişməsi, tərxisi və növbəti rütbələr verilməsinin hansı qaydada həyata keçirildiyini tam aydın etmək mümkün olmuşdur. Belə ki, Hərbi Naziliyin Ümumi Qərargahı qoşunlarda vakant vəzifələrə görə zabitlərin ilkin seçilmə prosesini təşkil edir və onların müvafiq vəzifələr təyin olunması üçün Hərbi nazir qarşısında təkliflər verirdi. Öncə, meyarlara uyğun olan namizədlər Hərbi nazirin əmri ilə briqada, alay komandiri və onların müavini vəzifələrinin icrasına buraxılır və həmin zabitlər özlərini doğrultduqları halda həmin vəzifələrə təsdiq olunurdurlar. Hərbi hissələrdə müvafiq vəzifələrə təyin olunmaları üçün isə zabitlər diviziya və ya əlahiddə hissə komandirlərinin sərəncamına göndərilirdilər. Bəzi hallarda isə

kiçik zabit heyətinin birbaşa Hərbi nazirin əmri ilə hərbi hissələrdə müvafiq vəzifələrə təyin olunduğunu görmək mümkündür. Bu katerqoriyadan olan zabit heyətinin təyini zamanı onların əvvəlki xidmətləri və təcürbələri nəzərə alınırdı. Ümumiyyətlə isə, diviziya komandirləri və tabeliyində hərbi hissələr olan idarə rəisləri kiçik komandir vəzifələrində olan zabitlərin hərbi hissə daxilində yerdəyişmələrini aparma səlahiyyətinə malik olmuşdurlar.

Hərbi məmurların xidmətə qəbulu isə diviziya və idarə rəislərinin əmrləri ilə həyata keçirilir və həmin komandirlərin vəsatəti əsasında Hərbi nazirin əmrlərinə daxil edilirdi. Məhz bu səbəbdən, Hərbi nazirin hərbi məmurların xidmətə qəbul və ya xidmət yerlərinin dəyişdirilməsi əmrlərində vəzifələrin icrasına başlama tarixləri əmrlərin imzalama tarixlərindən fərqlidir. Yəni onların vəzifələrə təyin olunma tarixləri hissə komandirlərinin bu barədə verdikləri əmrin tarixindən götürülürdü.

Xidmətə qəbul üçün birbaşa Hərbi Nazirliyin Ümumi Qərargahına müraciət edən hərbi məmurlar isə Hərbi nazirin əmri ilə bir qayda olaraq qoşunlarda vakant olan vəzifələr təyin edilir və ya müvafiq vəzifələrə təyin edilməsi üçün hərbi hissə komandirlərini sərancamına göndərilirdi. Diviziya və ya tabeliyində hərbi hissələr olan idarə rəisləri hərbi məmur ştat kateqoriyalı vəzifələr üzrə hərbi hissə daxili yerdəyişmə aparma səlahiyyətlərinə malik idilər. Həm zabit, həm də hərbi məmur heyətinin hərbi hissələr arasındakı yerdəyişmələri və ya ehtiyata buraxılmaları isə Hərbi nazirin səlahiyyətlərinə aid olmuşdu. Hərbi hissələrdəki daxili yerdəyişmələr barədə diviziya qərargahları və idarələr mütəmadi olaraq Ümumi Qərargaha məlumat verirdirlər. Bütün zabit və hərbi məmurların uçotu məhz Ümumi Qərargahda aparılırdı. General vəzifələrinə təyin edilmə və həmin kateqoriyada olan heyətin yerdəyişmələri isə Nazirlər Şurası Sədrinin səlahiyyətlərinə daxil olmuşdur. Hərbi nazir öz əmri ilə general vəzifələrinə təyin edilməsi üçün planlaşdırılan zabitləri öncə vəzifələrin icrasına buraxır və bir

müddətdən sonra həmin zabitlərin vəzifələrə təyin olunması barədə Hökümət qarşısında vəsatət qaldırırdı.

Növbəti hərbi rütbələrin verilməsi qaydaları da Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 nömrəli əmri ilə təsdiq edilmişdi. Həmin əmrdə hərbi rütbədə olma müddətləri bitmiş zabitlərə növbəti hərbi rütbələrin ildə üç dəfə verilməsi müəyyən edilmişdi. Həmin tarixlər "Novruz Bayramı", "Ramazan", və "Qurban Bayram"larına təsadüf edirdi. Xidmətdə və eyni zamanda döyüş əməliyyatlarında fərqlənənlər üçün isə vaxtından əvvəl növbəti hərbi rütbələrin verilməsinə məhdudiyyət qoyulmamışdır. Hərbi nazirin 22 yanvar 1919-cu il tarixli 38 nömrəli əmri ilə zabitlər yalnız Cümhuriyyət ordusunda 6 (altı) ay həqiqi hərbi xidmət keçdikdən sonra növbəti hərbi rütbələrə təqdim oluna bilərdilər. Hərbi nazir həmin əmrində Cümhuriyyət ordusunda xidmətdə olan bütün zabit heyəti üçün (yeni hərbi hərbi rütbə alan və ya xidmətə qəbul edilənlər istisna olmaqla) hərbi xidmətə başlama tarixinin 25 noyabr 1918-ci il tarixi müəyyən etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Hərbi nazir yalnız Cümhuriyyət dövründə ilkin zabit hərbi rütbəsi olan "praporşik" (kiçik leytenant) hərbi rütbəsi vermə səlahiyyətinə malik olmuşdur. Digər zabit hərbi rütbələri yalnız Hərbi Nazirliyin vəsatəti əsasında Nazirlər ŞurasıSədrinin əmri ilə verilirmişdir.

Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 nömrəli əmrində zabit və hərbi məmur heyətinin ildə dörd dəfə olmaqla (1 yanvar, 1 aprel, 1 iyul və 1 oktyabr tarixlərinə) xidməti və mənəvi keyfiyyətləri haqqında Hərbi Nazirliyin Ümumi Qərargahına məlumat verilməsi tələb olunurdu. Bununla bir növ zabit və hərbi məmur heyətinin attestasiyası aparılırdı. Haqqında mənfi rəylər verilən zabitlər əsasında müvafiq qərarlar qəbul edilirdi. Bununla da Cümhuriyyət ordusunda kadrlarla işin tamamlanmış bir sistemi yaradılmışdı. Bu sistem kifayət qədər işlək və milli maraqlara cavab verən bir sistem idi. Bunun nəticəsi idi ki, vaxt ötdükcə ordu tərkibində milli

kadrların sayı artır və onlar daha məsuliyyətli vəzifələrə irəli çəkilirdilər.

Digər bir maraqlı məqam isə, Cümhuriyyət Hərbi Nazirliyinin Naxçıvan bölgəsində də zabit kadrlarının hazırlanmasında göstərdiyi səylərdir. Bu kitabda 1919-cu ilin əvvələrində Naxçıvan bölgəsinə xüsusi tapşırıqla ezam edilmiş zabitlər və eləcədə Naxçıvan bölgəsindən olan yerli müdafiə dəstələrində xidmət edən bir qrup hərbi qulluqçular haqqında da məlumatlar öz əksini tapmışdır. Belə ki, Hərbi Nazirlik Naxçıvan bölgəsində hərbi hissələrin formalaşdırması üçün 01 mart 1919-cu il tarixdə 1-ci Cavanşir və 2-ci Bakı piyada alaylarından 12 (on iki) zabiti ora ezam edir. Həmin zabitlərə rəhbər 2-ci Bakı piyada alayının zabiti podpolkovnik Hüseyn bəy Ququşev təyin edilir və onlar Şərur-Naxçıvan qəzası qoşunları komandanı Kərbalayı Xan Naxçıvanskiyə müvəqqəti olaraq tabe edilirlər. Həmin zabitlər 01 may 1919-cu il tarixədək həmin bölgədə xüsusi ezamiyyətdə olmuşdurlar. Cümhuriyyət Hərbi Nazirliyinin Naxçıvan əhalisinin və onların yaratdıqları özünü müdafiə qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsində və peşəkar səviyyədə hazırlanmasında mühüm rol oynaması bölgənin ermənilər tərəfindən işğal edilməsinə imkan verməmişdir. Ümumiyyətlə, Cümhuriyyət Hərbi Nazirliyi Naxçıvan bölgəsi ilə daimi sıx əlaqədə olmuşdur. Hərbi Nazirliyini Ümumi Qərargaha və Növbətçi Generala adi arxiv sənədlərində Şərur-Naxçıvan qəzası qoşunları komandanı Kərbalayı Xan Naxçıvanskinin Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarova ünvanladığı çoxlu sayda məktub və raportlar saxlanılmaqdadır. Həmin raportlardan aydın olur ki, Naxçıvan bölgəsində xidmət edən yerli zabit heyətinə ilkin və növbəti hərbi rütbələrin verilməsi məhz Cümhuriyyət Hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarov tərəfindən aparılmışdır. Kərbalayı Xan Naxçıvanskinin Naxçıvan şəhərindən 27 fevral 1919-cu il tarixdə Hərbi nazirə ünvanladığı raportların birində

Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə 25 (iyirmi beş) hərbi qulluqçuya ilkin zabit hərbi rütbələrin verilməsi barədə vəsatət qaldırması və Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri 15 nəfərə "milis praporşiki", 10 nəfərə isə piyada qoşunları üzrə "praporşik" hərbi rütbəsi verilməsi bunun bariz nümunəsidir.

Cümhuriyyət Hərbi Nazirliyi eyni zamanda ölkənin digər güc strukturlarında xidmət edən və əvvəllər orduda hərbi xidmətdə olmuş zabitlərin həmin qurumlarda xidmətə qəbulu və növbəti hərbi rütbələrdə irəli çəkilməsində də söz sahibi olmuşdur. Belə ki, həmin Nazirliklər namizədləri xidmətə qəbul və ya növbəti rütbəyə təqdim etməzdən öncə Hərbi nazirlə razılaşdırmışdırlar. Bununla da Hərbi Nazirlik tərəfindən bir növ ehtiyatda olan zabit kadrlarının uçotu aparılmışdır.

Təqdim olunan hazırkı kitabda ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin mövcüd olduğu müddətdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətdə olmuş general və zabitlər və eləcədə hərbi məmurlar haqqında sistemli məlumatlar öz əksini tapıb. Hərbi Nazirliyin ilk əmrinin imzalandığı 07 noyabr 1918-ci il tarixindən 28 aprel 1920-ci il tarixinədək, yəni Cümhuriyyətin süqutunadək Cümhuriyyət ordusunda xidmət etmiş zabit və hərbi məmurların əlifba ardıcıllığıilə soyadları, vəzifələri, aldıqları rütbələr, xidmət dövründəki təltif və cəzaları (verilmə səbəbləri) və xidmətdə olduqları müddətdə ordu quruculuğu və ölkənin müdafiə qüdrətinin yüksəldilməsi prosesindəki nailliyətləri verilmişdir. Zabit və hərbi məmurlar haqqında məlumatlar əsasən iki hissəyə ayrılmışdır. Belə ki, zabit və hərbi məmurlar haqqında məlum olan şəxsi məlumatlar ilə yanaşı onların xidmət dəftərçələrindəki xidmət üzrə yerdəyişmələri göstərilmişdir. Vəzifələrə təyin edilmə və hərbi rütbələr barədə məlumatlar ardıcıl olaraq xidmət dəftərçəsinə uyğun

olaraq oxuculara təqdim olunur. Həmin xidmət dəftərçələrində hər bir general, zabit və məmurun hansı vaxtdan hansı vaxta kimi və kimin əmri ilə vəzifəyə təyin edildiyini aydın şəkildə görmək olur. Bəzi general və zabitlərin çar ordusundakı xidmətləri də ayrıca verilmişdir. Cümhuriyyətin süqutundan sonra digər ölkələrdə xidmət etmiş bəzi Cümhuriyyət zabitlərinin də xidmətlərinə ayrıca aydınlıq gətirlimişdir.

Kitabda eyni zamanda ilk dəfə olaraq Cümhuriyyət ordusu sıralarında xidmət etmiş qeyri-azərbaycanlı zabit və hərbi məmurların dəqiq sayı və adları milli mənsubiyyətinə görə ayrıca verilmişdir. Belə ki, Cümhuriyyət Hərbi Nazirliyinin 07 noyabr 1918-ci il tarixdən 28 aprel 1920-ci il tarixədək mövcud olduğu dövrdə Cümhuriyyət ordusundakı bütün mövcud olmuş ştatlarda 1140 (min yüz qırx) zabitin və 406 (dörd yüz altı) hərbi məmurun adı keçir. Həmin zabit heyətindən Hərbi Məktəbin 24 aprel 1920-ci il tarixli son buraxılışını 132 nəfər ilkin zabit hərbi rütbəsi alan yunkerləri çıxmaq şərti ilə 1008 müxtəlif vaxtlarda Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətlərdə olmuşdurlar. Cümhuriyyət ordusunda yuxarıda göstərilən tarixlərdə 27 general həqiqi hərbi xidmətdə olmuşdur. Onlardan 2-si tam artilleriya generalı, 2-si general-leytenant, 23-ü isə general-mayor olmuşdur. Həmin generalların milli mənsibiyyəti belə idi: 16 azərbaycanlı, 6 gürcü, 3 rus, 1 çərkəz və 1 polşa tatarı. Zabitlərin milli mənsubiyyəti isə xidmət dəftərçələrindəki qeydlərə əsasən bu şəkildə olmuşdur: 72 gürcü, 155 rus, 14 ukraynalı, 6 tatar, 6 türk, 6 polyak, 5 ləzgi,1 osetin, 1 çeçen, 1 avar, 3 litvalı, 4 alman (rus mənşəli) və 77 nəfər milli mənsubiyyətini müəyyən etmək mümkün olmayan digər millətlərin nümayəndələri. Hərbi məmurlarda isə milli mənsubiyyətə görə məlumatlar bir qədər fərqli şəkildə olmuşdur: 6 gürcü, 100 rus, 18 ukraynalı, 12 yəhudi, 5 yerli alman və 2 litvalı.

Hər iki kateqoriyadan (zabit və hərbi məmurlar) olan heyətin milli mənsubiyyətinə görə məlumatlarının təhlili onu göstərir ki, hərbi məmurlara nisbətən zabit heyəti əsasən azərbaycanlılardan ibarət olmuşdur. Bu nisbət xüsusi ilə də Cümhuriyyətin süqutuna doğru daha da artmışdır.

Eyni zamanda, bu kitabda ilk dəfə olaraq Hərbi Nazirliyin hərbi məktəblərindən buraxılmış məzunların (çar Rusiyasında yunkerlər) dəqiq sayı, adları da müəyyən edilməklə buraxılış illərinə və ixtisaslarına görə göstərilmişdir. Cümhuriyyət Hərbi Nazirliyinin yalnız Gəncə Praporşiklər Məktəbi (sonralar Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 nömrəli əmri ilə "Hərbi Məktəb" kimi təşkil olunmuş) zabit rütbəsində buraxılışlar etmişdir. Digər mövcud olmuş (mühəndis, hərbi dəmir yolu, hərbi feldşer, baytar, sürücü) hərbi məktəbləri çavuş və əsgər heyətinə aid təkmilləşdirmə və ya ixtisas artırma və ya ixtisas dəyişmə məktəbləri kimi fəaliyyət göstərmişdir. Həmin hərbi məktəblərdən yalnız Mühəndis Məktəbində zabit rütbəsində olan hərbi qulluqçuların ixtisas dəyişmə kurslarında iştirak etməsi Hərbi nazirin müvafiq əmrlərində öz əksini tapır.

Kitabın son bölümündə Cümhuriyyətin istiqlaliyyəti uğrunda aparılan döyüş əməliyyatlarında şəhid olmuş zabit və hərbi məmurların milli mənsubiyyəti, xidmət etdiklər hərbi hissələr və şəhid olduqları tarix göstərilməklə adlı siyahıları verilmişdir. Həmin bölümdə eyni zamanda Cümhuriyyət dövründə mövcud olmuş hərbi və məmur rütbələri, çar ordusundakı orden və medallar və eləcə də Cümhuriyyət zabitlərinin bitirdikləri Rusiya hərbi məktəbləri haqqında əlavə məlumatlar da verilmişdir. Bütün məlumatlar Hərbi nazirin 07 noyabr 1918-ci il - 28 aprel 1920-ci il tarixləri arasındakı şəxsi heyət üzrə əmrlərindən, Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan təltif və attestasiya sənədlərindən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində olan sənədlərdən və Cümhuriyyətin süqutundan sonra digər ölkələrin ordularına pənah aparmış Cümhuriyyət zabitlərinin xatirələrindən alınmşdır.

Ümid edilir ki, mötəbər sənədlər əsasında bu kitaba toplanmış olan məlumatlar kütləvi informasiya vasitələrində Cümhuriyyət ordusunun ayrı-ayrı zabit və məmurları haqqında tez-tez rast gəlinən qeyri-obyektiv məlumatların düzgün qiymətləndirilməsinə də kömək edəcəkdir.

Kitabın ərsəyə gəlməsində yaratdıqları şəraitə və dəstəyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının, Azərbaycan Respublikası Dövlət Arxivinin və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin rəhbərliyinə və bütün əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm.

***Atamalı Şahbazov***
*Polkovnik,*
*Silahlı Qüvvələrin Hərbi Akademiyasının*
*Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə dosenti*

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Azərbaycan Respublikası Prezidentinin Sərəncamları | 4-8 |
| Ön söz | 9-13 |
| Müəllifdən | 14-26 |
| Giriş | 27 |
| Cümhuriyyət ordusunun zabitləri | 28-616 |
| Cümhuriyyət ordusunun hərbi məmurları | 617-752 |
| Gümhuriyyət generalları (siyahılar) | 753-754 |
| Cümhuriyyət ordusunda xidmət etmiş zabitlərin milli mənsubiyyətinə görə adlı siyahısı | 755-766 |
| Şəhid olmuş zabitlərin adlı siyahısı | 766-767 |
| Cümhuriyyət ordusunun hərbi məktəbinin məzunlarının buraxılış illəri üzrə adlı siyahısı | 767-784 |
| Cümhuriyyət ordusunda xidmət etmiş hərbi məmurların milli mənsubiyyətinə görə adlı siyahısı | 785-792 |
| Cümhuriyyət ordusunun molla və imamları | 792 |
| Cümhuriyyət ordusunun qadın hərbi məmurları | 793 |
| Şəhid və ya xidməti vəzifələrinin icrası zamanı həlak olmuş hərbi məmurlar | 794-795 |
| Cümhuriyyət ordusunda mövcud olmuş hərbi və mülki rütbələr və onların uyğunluq dərəcəsi | 796 |
| Çar ordusundakı orden vəmedalların iyerarxiyası | 797 |
| Cümhuriyyət zabitlərinin Çar ordusunda bitirdikləri hərbi təhsil müəssisələrinin siyahısı | 798-802 |
| Cümhuriyyət ordusuna aid foto şəkillər | 802-811 |
| İstifadə olunmuş mənbə və ədəbiyyat | 812-814 |

# *ZABİTLƏR*

1. **Podpolkovnik ABASİEV**

28 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 01 yanvar 1919-cu il tarixli 3 №-li əmri Gəncə şəhərinin komendantı vəzifəsinin icraçısı təyin edilib. 09 mart 1919-cu il tarixdə Gəncə şəhərinin Dondukov küçəsində mülki şəxsləri qarət edən 3-cü Gəncə piyada alayının 7-ci piyada bölüyünün silahlı əsgərlərinin itkisiz tərki-silah edilməsində göstərdiyi şücaətə və xidməti vəzifəsini vicdanla icra etdiyinə görə Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmri ilə "Təşəkkür" elan alıb. 29 iyun 1919-cu il tarixdən Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 314 №-li əmri ilə öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

2. **Ştabs-kapitan ABBASOV** Əli Abbas

Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə rəsmi olaraq 26 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Bakı İstehkam rayonunun qərargahı rəisinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi Bakı İstehkam rayonunun qərargahının adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

3. **Podporuçik ABBASOV** Əli bəy Seyid Əli bəy oğlu

20 avqust 1893-cü il tarixdə Yelizavetpol quberniyasının Zaqatala qəzasında zadəgan ailəsində anadan olub. Zaqatala Ali ibtidai məktəbini bitirib. 01 fevral 1918-ci il tarixdə 3-cü Ləzgi müsəlman süvari alayına 2-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 01 sentyabr 1918-ci il tarixdən Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib.18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və "podpraporşik" hərbi rütbəsi

verilməklə Gəncə Podpraporşiklər Məktəbi rəisinin sərancamında xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının xəzinədarının köməkçisi vəzifəsinə təyin edilib. 22 mart 1919-cu il tarixdə Hərbi nazirin 139 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsinə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

4. **Praporşik ABBASOV** Məmmədbağır Hacı Əhəd oğlu

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 05 may 1919-cu il tarixli 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. 09 iyul 1919-cu il tarixdə xidməti vəzifəsinin icrası zamanı həlak olduğuna görə Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

5. **Praporşik ABBASOV** Zeyalabdin

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 05 may 1919-cu il tarixli 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri il 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib.

Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

6. **Praporşik ABBASOV** Məmmədtağı

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. 11 may 1919-cu il tarixdə Hərbi nazirin 243 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rürbəsi verilib. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə yeni yaradılan 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rürbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

7. **Poruçik ABBASOV** Hacıbala

01 aprel 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 05 yanvar 1920-ci ildə Hərbi nazirin 5 №-li əmri ilə 4-cü Quba piyada alayından Baş Qərargah idarəsinin Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamına keçirilib. 02 mart 1920-ci ildə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 128 №-li əmri ilə Ordunun Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi

Ordunun Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamında xidmət edib.

8. **Kapitan ABAKARİLOV** Ahbulaq

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "ştabs-kapitan" hərbi rütbəsində Nuxa piyada bölüyündə həqiqi hərbi xidmətini davam etdiyi göstərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 4-cü Zaqatala piyada alayı kimi təşkil olunub və 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayının 4-cü Nuxa piyada bölüyünün komandiri təyin edilib. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı həmin tarixdən 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və həmin alayın 3-cü Nuxa piyada taborunun piyada bölük komandiri təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının 3-cü Nuxa piyada taboru nəzdində iki piyada taborlu 8-ci Ağdaş piyada alayı yaradılıb və Cümhuriyyətin süqutuna kimi 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

9. **Praporşik ABAKAROV** Həbibulla Əhməd oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının Əlahiddə Zaqatala piyada taborunun 2-ci piyada bölüyünə kiçik zabit vəzifəsinə təyin edilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə "praporşik (piyada

üzrə)" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 4-cü Zaqatala piyada alayı kimi təşkil olunub və xidmət yeri həmin alayın tərkibində saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

10. **Rotmistr** Knyaz **ABAŞİDZE** Vladimir

Milliyəti gürcü. 07 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 414 №-li əmri ilə "ştabs-rotmisrt" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və 2-ci piyada diviziyasının adyutantı vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə nümunəvi xidmətlərinə görə "rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində 2-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

11. **Kapitan ABDULLA-ZADƏ** Naim bəy

06 fevral 1920-ci il tarixdə Hərbi nazirin 07 fevral 1920-ci il tarixli 77 №-li əmri ilə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

## 12. **Ştabs-kapitan ABDULLAYEV**

11 dekabr 1918-ci il tarixdə Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Qazaxda dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına (Göndəriş vərəqəsi №232) göndərilib. 18 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 28 №-li əmri ilə xidmət yeri 1 №-li Zirehli qatara dəyişdirilib. 01 may 1919-cu il tarixdə Hərbi nazirin 231 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və siyahılardan çıxarılıb.

## 13. **Podporuçik ABDULLAYEV** Ağababa

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi həqiqi hərbi xidmət keçməyib.

## 14. **Praporşik ABDULLABƏYOV** Əmir

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 21 iyun 1919-cu il tarixdə Hərbi nazirin 305 №-li əmri ilə 2-ci Bakı piyada alayının şəxsi heyətinin siyahısında saxlanılmaqla Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamında xidməti ezamiyyətdə olub.

15. **Əsgər** (əvvəlki hərbi rütbəsi “praporşik” olub)
**ABBASOV** Mehdi

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. 11 may 1919-cu il tarixdə Hərbi nazirin 243 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Alayın Zabit Şərəf Məhkəməsinin qərarı ilə “Mənəvi və işgüzar keyfiyyətləri aşağı olduğuna və zabit şərəfinə ləkələyən hərəkətlərə yol verdiyinə görə “əsgər” hərbi rütbəsinədək hərbi rütbəsi endirilməsi barədə Hərbi nazirin qarşısında vəsatət qaldırılıb (səbəbi məlum deyil). Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə hərbi rütbəsi “əsgər” hərbi rütbəsinə endirilməklə zabit heyətinin siyahılarından çıxarılmaqla əsgər kimi həqiqi hərbi xidmətini davam etdirmək üçün 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib.

16. **Podporuçik ABBASOV** Süleyman

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb.

14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li

əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 190-ci il tarixli 167 №-li əmri ilə nümunəvi xidmətlərinə görə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

17. **Praporşik ABDURƏHİMOV** Abdurəhim Hacı Səlim oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərəncamına göndərilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. 30 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 553 №-li əmri ilə Xaçmaz dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 561 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərəncamına xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri təkrarən 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

18. **Podporuçik ABDURƏHİMBƏYOV** Yusif

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

19. **Praporşik ABBASOV** İzmayıl

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

20. **Praporşik ABDULLAYEV** Mameliya

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

**Podporuçik ABDULLAYEV** Abdulla

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

21. **Praporşik ABDULLAYEV** Həsən

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

22. **Kornet ABDULQASIMOV** Xəlil bəy

10 oktyabr 1893-cü il tarixdə Yelizavetpol quberniyasında bəy ailəsində anadan olub. 10 sentyabr 1914-cü ildə könüllü olraq Tatar süvari alayında həqiqi hrəbi xidmətə qəbul edilib. 06 dekabr 1914-cü il tarixdən alayla Qərb cəbhəsinə yollanıb. 27 may 1915-ci il tarixdə “kiçik uryadnik” hərbi rütbəsi verilib. 17

oktyabr 1916-cı il tarixdə isə “milis yünkeri” hərbi rütbəsinə layiq görülüb. 06 dekabr 1914-cü il tarixdən 1917-ci ilin noyabr ayına kimi Avstrya-Alman cəbhəsində vuruşub. Döyüşlərdə fərqləndiyi üçün Korpus üzrə 63 №-li əmrlə 04 fevral 1916-cı il tarixdə “4-cü dərəcəli Georgi xaçı (№267788)” və “Georgi (№37526) ” medalı ilə təltif edilib. 10 yanvar 1918-ci il tarixdə 2-ci Müsəlman süvari alayına xidmət yeri dəyişdirilib. Həmin alayın tərkibində bolşevik-daşnak qüvvələrinə qarşı kəşfiyyatçı-süvari vəzifəsində döyüş əməliyyatlarında iştirak edib. 25 iyun 1918-ci il tarixdə Müsəlman Korpusu komandirinin 183 №-li əmri ilə 2-ci Müsəlman süvari alayına 2-ci Cavanşir süvari alayı adlanıb. Həmin alayda həqiqi hərbi xidmətdə olduğu zaman xidmətdə fərqləndiyinə görə alay komandiri tərəfindən ilkin “praporşik” zabit rütbəsi verilməsi barədə Korpus komandiri qarşısında vəsatət qaldırılıb. Hərbi rütbəyə təltif edilmə barədə əmrin tarixi bilinmir. 21 avqust 1918-ci il tarixdə isə Azərbaycan Əlahiddə Korpusu üzrə 745 №-li əmrlə alay 2-ci Qarabağ süvari alayı adlanıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli əmri 563 №-li əmrləri ilə növbəti “kornet (süvari üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “kornet” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

### 23. Podpolkovnik ABRAMOV

13 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusuna “podpolkovnik” hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. 30 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 548 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun

3-cü yüngül artilleriya batareyası tam tərkində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun tərkibinə verilib və xidmət yeri həmin diviziona dəyişdirlib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

24. **Podporuçik ABUTALIBOV** Məmməd

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

25. **Praporşik ABUBƏKİR-ZADƏ** Salim

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci Piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına verilməklə Ləki stansiyasındakı artilleriya anbarına xidmətinin davam etdirmək üçün ezam edilib. Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı

kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının şəxsi heyətinin siyahısında saxlanılmaqla Ləki stansiyasındakı artilleriya anbarında həqiqi hərbi xidmətdə olub.

26. **Praporşik ABUZƏROV** Əli Şöfkət

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (süvari üzrə)" hərbi rütbəsində süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına təyin edilib. 12 fevral 1920-ci il tarixdə Hərbi nazirin 92 №-li əmri ilə həqiqi hərbi xidmətinin davam etdirmək üçün Kürd süvari divizionu komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd süvari divizionunda həqiqi hərbi xidmətdə olub.

27. **Praporşik ADIGÖZƏLOV** Məlik Məmməd

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

28. **Praporşik ADIGÖZƏLOV** Həmid

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

29. **Podporuçik ADIGÖZƏLOV** Süleyman bəy

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə nümunəvi xidmətlərinə görə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

30. **Praporşik ADİNAYEV** Hüseyn Bala

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və

xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

31. **Podporuçik AXUNDOV** Süleyman

12 mart 1899-cu il tarixdə Yelizavetpol quberniyasında zadəgan ailəsində anadan olub. Yelizavetpol Mixayılovski Məktəbini bitirib. 03 noyabr 1917-ci il tarixdə Milli təlim komandasında könüllü həqiqi hərbi xidmətə qəbul edilib. 25 may 1918-ci il tarixdə xidmət yeri 1-ci atıcı alaya dəyişdirilib. 25 avqust 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib və 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib. Həmin tarixdən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına təyin edilib. Həmin alayın 3-cü piyada taborunun 8-ci piyada bölüyünün komandiri vəzifəsini icra edib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 3-cü piyada taborunun 11-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsinə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

32. **Praporşik AXUNDOV** Abdul Səməd

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

33. **Praporşik AXUNDOV** İbrahim Xəlil

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarına pulemyot komandasına təyin edilib. 02 avqust 1919-cu il tarixdən Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 561 №-li əmri ilə 2 №-li Zirehli qatarın kiçik zabiti vəzifəsinə təyin edilmiş hesab edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

34. **Praporşik AXUNDOV** Əbdurəhman

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası

üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarına artilleriya komandasına təyin edilib. 02 avqust 1919-cu il tarixdən Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 561 №-li əmri ilə 2 №-li Zirehli qatarın kiçik zabiti vəzifəsinə təyin edilmiş hesab edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

35. **Praporşik AXUNDOV** Abdul Əli

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (süvari üzrə)" hərbi rütbəsində süvari ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd süvari divizionu komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

36. **Praporşik AXUNDOV** Sarı

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

37. **Praporşik AXUNDOV** Abdullahüseyn

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

38. **Podporuçik AXUNDOV** (Şamaxinski) Əli

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

39. **Podporuçik AXUNDOV** Abbas

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

40. **Podporuçik AXUNDOV** Məmmədrza

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

41. **Podporuçik AXUNDOV** (Naxçıvanski) Əli

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

42. **Podporuçik AXUND-ZADƏ** İbrahim Məşədi İsmayıl oğlu

20 oktyabr 1899-cu il tarixdə Yelizavetpol quberniyasında ruhani ailəsində anadan olub. Yelizavetpol Müəllimlər Seminariyasında təhsil alıb. 24 yanvar 1918-ci il tarixdə könüllü olaraq Müsəlman Korpusunda həqiqi hərbi xidmətə qəbul edilib və Müsəlman ehtiyat alayın siyahılarına daxil edilib. 29 yanvar 1918-ci il tarixdə alayın mirzəsi vəzifəsinə təyin edilib. 22 fevral 1918-ci il tarixdə alay komandirinin 64 №-li əmri ilə baş mirzə vəzifəsinə təyin edilir. 28 mart 1918-ci il tarixdə Müsəlman ehtiyat alayı 1-ci müsəlman atıcı alayı kimi adlanır. 20 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə təhsil almaq üçün göndərilir və sınaq imtahanı keçirilmədən 21 iyun 1918-ci il tarixdə yunkerlər siyahısına daxil edilir. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində piyada ixtisası üzrə birinci dərəcə ilə bitirib və Məktəb rəisinin sərancamında xidmətini davam etdirmək üçün saxlanılıb. Məktəb rəisinin 20 noyabr 1918-ci il tarixli əmri ilə yünker bölüyü komandirinin müavini vəzifəsinin icraçısı təyin edilir. 28 noyabr 1918-ci il tarixdə isə Məktəb rəisinin əmri ilə adyutantın köməkçisi vəzifəsinin icrasına buraxılır. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdə Hərbi Məktəb adlanıb və həmin məktəbin qeyri-nizami hissə rəisi təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi Məktəbinin qeyri-nizami hissə rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

43. **Praporşik AXUNDOV** Cəfər İbrahim oğlu

1899-cu ildə Yelizavetpol quberniyasının Gəncə şəhərində dindar ailəsində anadan olub. Gəncə Təhsil Seminariyasının 3 sinifini bitirib. 17 dekabr 1917-ci il tarixdə Təlim artilleriya briqadasına 1-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 20 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci ildə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və həqiqi hərbi xidmətini davam etdirmək üçün Gəncə Podpraporşiklər Məktəbi rəisinin sərancamında saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə xidmət yeri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının təlim komandasının kiçik zabiti vəzifəsinə dəyişdirlib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

44. **Praporşik AXUNDOV** Cavad

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

45. **Praporşik AXUNDOV** Vahab

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podpraporşik" hərbi rütbəsində xidmətdə olduğu qeyd edilib. 01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına təyin edilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

47. **Praporşik AXUNDOV** Ağahüseyn

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podpraporşik" hərbi rütbəsində xidmətdə olduğu qeyd edilib. 01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına təyin edilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

48. **Ştabs-kapitan ALEKSEYEV** Nikolay

Milliyəti rus. 19 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına göndərilib. Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar Hərbi Nazirliyin Mühəndis şöbəsi həmin tarixdən Hərbi Nazirliyin Mühəndis idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmrləri ilə növbəti "ştabs-kapitan (mühəndis qoşunları üzrə)" hərbi rütbəsi verilib. 18 mart 1920-ci il tarixdə orduda aparılan ştat dəyişikliyi ilə əlaqədar Hərbi Nazirliyin Mühəndis idarəsi Ordunun Mühəndis təchizatı idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

49. **Kapitan ALEKSANDROV**

Milliyəti rus. 17 mart 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 28 mart 1919-cu il tarixli 398 №-li əmri ilə 30 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

50. **Milis praporşiki ALLAVERDİYEV** Vəli ağa

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni

quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

51. **Milis praporşiki ALLAVERDİYEV** Məmməd Riza bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

52. **Praporşik ALLAHVERDİYEV** Səfərəli

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

53. **Ştabs-kapitan AMASSİYSKİ**

21 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri ilə 01 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

54. **Poruçik ALİMOV**

05 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına göndərilib. Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar Hərbi Nazirliyin Mühəndis şöbəsi həmin tarixdən Hərbi Nazirliyin Mühəndis idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Hərbi nazirin 02 aprel 1919-cu il tarixli 171 №-li əmri ilə 20 mart 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

55. **Kornet ALLAHVERDİYEV** Süleyman bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmrləri ilə növbəti "kornet (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

56. **Praporşik ALLAHVERDİYEV** Əli

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Alayın 2-ci pulemyot komandasının rəisi vəzifəsini icra edib. Cümhuriyyətin

süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında “praporşik” hərbi rütbəsində həqiqi hərbi xidmətdə olub.

57. **Podporuçik ALLAHİYAROV** Heydər

Cümhuriyyət ordusuna daxil olma tarixi bilinmir, lakin hərbi məktəbə “podpraporşik” hərbi rütbəsində qəbul edilib. 24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə Hərbi Dəmiryolçular Məktəbi rəisinin sərancamına göndərilib.

58. **Rotmistr ATABƏYOV** Yusif bəy Abdullayeviç

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində “ştabs-rotmisrt” hərbi rütbəsində Əlahiddə Zaqatala piyada taborunun təsərrüfat hissəsinin rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 18 iyun 1919-cu il tarixdə Hərbi nazirin 302 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının 1-ci süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “rotmist (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayında “rotmistr” hərbi rütbəsində həqiqi hərbi xidmətdə olub.

59. **Podporuçik ATAKİŞİYEV** (Seyfulla) Hacı Ağa

1895-ci ildə Şamaxıda anadan olub. Şamaxı Realnı məktəbinin 5 sinfini bitirib. 1918-ci ilin mart qırgınlarında Şamaxı ətrafında erməni-daşnak qüvvələrinə qarşı yerli özünü müdafiə dəstəsinin tərkibində vuruşub. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində birinci dərəcə ilə artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. 04 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 453 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna xidmət yeri dəyişdirlib. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmrləri ilə "podporuçik" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

60. **Podporuçik ATAKİŞİYEV** Həsən Məmməd Cəfər oğlu

29 dekabr 1900-cu il tarixdə anadan olub. 15 may 1918-ci il tarixdə Gəncə Kişi Gimnaziyasının 6 sinfini müvəffəqiyyətlə bitirib. 17 may 1918-ci il tarixdə Müsəlman Korpusunda həqiqi hərbi xidmətə qəbul edilib. Şamxor stansiyasında eşalonların tərksilah edilməsində iştirak edib. Bakının azad edilməsi uğrundakı döyüşlərə görə "Hərbiyə" medalı ilə təltif edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində birinci dərəcə ilə artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə

“praporşik (artilleriya üzrə)” hərbi rütbəsi verilib. 01 fevral 1920-ci il tarixdə Hərbi nazirin 62 №-li əmri ilə Bakı İstehkam rayonunun mövqe batareyası komandirinin sərancamına ezam edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmrləri ilə “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.

61. **Praporşik ATAKİŞİYEV** Əli

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

62. **Ştabs-rotmistr ATA-ZADƏ** Vasfi bəy

22 sentyabr 1919-cu il tarixdə “ştabs-rotmistr” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 438 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının 4-cü süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayının 4-cü süvari bölüyünün komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

63. **Podpolkovnik ARTYOMENKO** Fyodor Kiprian

Milliyəti ukraynalı. 14 yanvar 1919-ci il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 16 yanvar 1919-cu il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahı nizami komandasının komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmrləri ilə növbəti “podpolkovnik (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Hərbi Nazirliyin Nizami komandasının komandiri vəzifəsində xidmətdə olub.

64. **Poruçik ARTYOMOV** Aleksey Serqeyeviç

Milliyəti rus. 08 yanvar 1920-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 31 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi prokurorun katibi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi prokurorun katibi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

65. **Poruçik ASLANBƏYOV** Maqomet

Milliyəti avar. 16 mart 1894-cü il tarixdə Dağıstan vilayətinin Kyrinski dairəsində bəy ailəsində anadan olub. Temir Xan Şurinski Realnı Məktəbini biririb. 01 oktyabr 1914-cü il tarixdə Tiflis Nikolayev Hərbi Məktəbinə daxil olub və 01 fevral 1915-ci il tarixdə “praporşik” hərbi rütbəsində həmin məktəbi bitirib. 07 fevral 1915-ci il tarixdə Qafqaz cəbhəsinin 155-ci Quba piyada alayına təyinat alıb. 15 noyabr 1915-ci il tarixdə “podporuçik” və 12 dekabr 1916-cı il tarixdə

isə “poruçik” hərbi rütbələri verilib. 25 iyul 1915-ci il tarixdə “İgidliyə görə 4-cü dərəcəli müqəddəs Anna”, 20 dekabr 1915-ci il tarixdə “3-cü dərəcəli müqəddəs Stanislav” (qılıncla) və 17 iyul 1916-cı il tarixdə isə “3-cü dərəcəli müqəddəs Anna” (qılınc və bant ilə) ordenləri ilə təltif edilib. 14 mart 1918-ci il tarixdə Tatar süvari alayının 1-ci süvari bölüyünün kiçik zabiti vəzifəsinə keçirilib. 14 aprel 1918 – 01 avqust 1918-ci il tarixlərdə Bakı cəbhəsində aparılan döyüşlərdə iştirak edib.

Cümhuriyyət ordusunun şəxsi heyəti əmrlə elan edilərkən Hərbi nazirin 03 fevarl 1919-cu il tarixli 55 №-li əmrində “poruçik” hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 08 iyul 1918-ci il tarixdə polkovnik Səlimov qərargah rəisi kimi onun haqqında 1-ci Tatar süvari alay komandirinə göndərdiyi məlumatda yazırdı: “Poruçik Aslanbəyov Tatar süvari alayının bir çox zabitlərindən fərqli olaraq özünü yaxşı cəhətdən göstərib, müsəlman zabit olaraq alayda onun xidmət etməsi faydalıdır. Məncə, məvacib alması üçün onun alaylardan birinin siyahısına daxil edilməsi məqsədəuyğundur və daha doğrusu vacibdir. Tiflisdə təmtaraqlı həyat sürməyi üstün tutan bir çox zabitlərdən fərqli olaraq poruçik Aslanbəyov dəstədə yorulmadan çalışır. Əla xidmətlərini və xidmət etmək istəyini nəzərə alaraq onu dəstədən buraxa bilmərəm, böyük təəssüflə bildirirəm ki, belə vicdanlı zabitlər hal-hazırda çox azdır. Dəstədə kimin paqon və məvacib üçün xidmət etdiyini kimin isə əqidə və vəzifə borclarına sadiq olduğunu aydın şəkildə görmək mümkündür. Vicdanlı xidmətinə görə zabiti cəzalandırmaq düzgün olmazdır.”

Müəllifdən: Həqiqətən də arxiv materiallarından da aydın görmək olur ki, Qafqaz İslam Ordusu Azərbaycanı tərk etdikdən sonra hərbi hissələr zabit və əsgərlərin məvaciblərinin verilməsində və yeni yardılan hərbi hissələrin ştatlarının təsdiq edilməsində bir çox problemlərlə üzləşib. Belə ki, Qafqaz İslam Ordusunda hərbi qulluqçuların mərkəzləşdirilmiş qeydiyyatı

aparılmadığı üçün Cümhuriyyət Hərbi Nazirliyi fəaliyyətə başladığı ilk aylarda hərbi hissələrdə olan hərbi qulluqçuları siyahıya almağa başlayır ki, onları qanunla müəyyən edilmiş qaydada təminat növlərinə qoysun. Bu zaman Hərbi nazirin əmrlərindən keçməmiş ştatdan kənar qalmış bir çox zabitlər müəyyən edilir. Məhz bu səbəbdən, Nazirliyin Ümumi Qərargahı tərəfindən onların yenidən əmrləşdirilməsi prosesinə başlanılır. Bəzi hallarda hərbi hissələrdə vakant vəzifələr olmadığı üçün ştatdan kənar qalmış zabitlər hərbi hissə komandirləri tərəfindən hərbi xidmətdən kənarlaşdırılmışdır. Ümumi Qərargahın rəisi polkovnik Səlimov da bu zabiti şəxsən tanıdığı üçün onun müvafiq vəzifəyə təyin edilməsini hərbi hissə komandirinə tövsiyyə edir.

Poruçik Maqomet Aslanbəyov Hərbi nazirin 01 may 1919-cu il tarixli 231 №-li əmri ilə 27 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və Bakı qəzasına qeydiyyata göndərilib.

66. **Poruçik AĞAYEV** Bəhrəm bəy

25 fevral 1919-cu il tarixdə “poriçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 mart 1919-cu il tarixli 130 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. Piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

67. **Poruçik AĞAYEV** Paşa bəy

04 yanvar 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci

piyada diviziyasının 3-cü Gəncə piyada alayının Qazaxda dis-lokasiya edilmiş 3-cü piyada taboru komandirinin sərancamına göndərilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmrləri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının piyada bölük komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

68**. Praporşik AĞAYEV** Abdulla bəy

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 166 №-li əmri ilə "praporşik (süvari üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 03 avqust 1919-cu il tarixli 347 №-li əmri ilə 29 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

69. **Praporşik AĞAYEV** Məmməd bəy

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 166 №-li əmri ilə "praporşik (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

70. **Praporşik AĞAYEV** Hacıbala

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

71. **Praporşik AĞAYEV** Abbas

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirlib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

72. **Praporşik AĞAYEV** Abdulla

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (süvari üzrə)" hərbi rütbəsində süvari ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

73. **Praporşik AĞAYEV** Məmməd

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

74. **Praporşik AĞAYEV** Mütalib

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

75. **Praporşik AĞAYEV** Tofiq

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası

üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

76. **Milis praporşiki AĞAYEV** Əli

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

77. **Praporşik AĞAYAROV** İrza

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

78. **Podporuçik AĞALAROV** Davud bəy

13 mart 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 153 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü

Gəncə piyada alayının şəxsi heyətinin siyahısında saxlanılmaqla Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı Diplomatik Missiyasının Hərbi Attaşesinin tapşırıqlar üzrə ikinci kiçik zabiti vəzifəsini icra etmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı Diplomatik Missiyasının Hərbi Attaşesinin tapşırıqlar üzrə ikinci kiçik zabiti vəzifəsini icra edib.

79. **Ştabs-rotmistr AĞALAROV** Əfrasiyyəb bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 28 mart 1919-cu il tarixli 7 №-li və Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmrləri ilə "poruçik (süvari üzrə)" hərbi rütbəsi verilib. 29 mart 1919-cu il tarixdə Hərbi nazirin 156 №-li əmri ilə eyni zamanda Baş Qərargahın Əks kəşfiyyat bölməsinin rəisinin vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. 03 iyun 1919-cu il tarixdə Hərbi nazirin 276 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının tapşırıqlar üzrə baş zabiti vəzifəsinə keçirilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmrləri ilə "ştabs-rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. 01 mart 1920-ci il tarixdən Hərbi nazirin 12 mart 1920-ci il tarixli 157 №-li əmri ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə baş zabit vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmist" hərbi rütbəsində Hərbi nazirin tapşırıqlar üzrə baş zabiti vəzifəsinidə xidmətdə olub.

80. **Praporşik AĞAMİROV** Abutalib

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 05 aprel 1920-ci il tarixli 193 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

81. **Poruçik ACALOV** Vəli bəy

19 aprel 1920-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 216 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

82. **Praporşik AĞABABAYEV** Məmməd Əli

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 21 iyun 1919-cu il tarixli 305 №-li əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 11 mart 1920-ci il tarixdə isə 145 №-li əmrlə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına xidmət yeri dəyişdirilib. 2-ci piyada taborunun

5-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.



83. **Polkovnik AĞALAROV**
Fərhad bəy Əbülfət bəy oğlu

10 noyabr 1868-ci ildə Tiflis şəhərində anadan olub. 1886-cı ildə Şuşa Realnı məktəbini bitirib. 1888-ci ildə Nikolayev Süvari Məktəbini “kornet” hərbi rütbəsində bitirib və 43-cü Tver drqaun alayına təyin edilib. Daha sonra xidmət yeri 6-cı Qluxov draqun alayına dəyişdirilib və 1912-ci ilədək həmin alayda xidmət edib. Birinci Dünya müharibəsi başlayanda ehtiyatdan hərbi xidmətə çağırılıb və 23-cü Qafqaz hərbi dairəsi komandirinin sərancamına verilib. 26 iyul 1916-cı il tarixdən 23-cü Qafqaz araba taborunun komandiri vəzifəsində xidmət edib. 11 dekabr 1917-ci il tarixdə Qafqaz cəbhə komandanının 155 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına göndərilib. 18 dekabr 1918-c il tarixdə Hərbi nazirin 24 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının komandiri vəifəsinə təsdiq edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 166 №-li əmri ilə İngilis Komandanlığının razılığı ilə Bakı şəhərində dislokasiya edilən ilk hərbi dəstənin komandiri və həmin hissələrin qarnizon rəisi vəzifəsi həvalə edilib. 17 iyun 1919-cu il tarixdə Hərbi nazirin 299 №-li əmri ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin ehtiyat üzvü seçilib. 30 avqust 1919-cu il tarixdə Hərbi nazirin 379 №-li əmri ilə Bakı Hərbi Limanının komendantı vəzifəsinin müvəqqəti icraçısı təyin edilib (alay komandiri vəzifə maaşı verilməklə). 30

sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 446 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin ehtiyat üzvülüyündən azad edilib.

Hərbi xidməti dövründə 1905-ci ildə “3-cü dərəcəli müqəddəs Stanislav”, “2-ci dərəcəli müqəddəs Anna” və “3-cü dərəcəli müqəddəs Anna” ordenləri ilə təltif edilib. 05 yanvar 1919-cu il tarixdə Hərbi nazir tam artilleriya generalı Səmədbəy Mehmandarov tərəfindən onun komandiri olduğu alay təftiş edilərkən alaydakı səliqə sahmana və nizam intizama görə ona 09 yanvar 1919-cu il tarixli 15 №-li əmri ilə “Təşəkkür” elan edib. 17 aprel 1919-cu il tarixdə Hərbi nazirin digər 205 №-li əmri ilə alaydakı nümunəvi nizam-intizama, şəxsi heyətin yüksək mənəvi hazırlığına və Bakıya daxil olan hərbi hissənin şəxsi heyətinin və atların nümunəvi hazırlığına görə bir daha “Təşəkkür” elan edilib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Bakı Hərbi Limanının komendantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

## 84. **Ştabs-rotmistr ALIPKAYEV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Süvari diviziyasının 1-ci Tatar süvari alayında “ştabs-rotmistr” hərbi rütbəsində həqiqi hərbi xidmətdə olub. Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 46 №-li əmri ilə 18 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.



## 85. **General-mayor AMAŞUKELİ**
Zaxariy Vasilyeviç

Milliyəti gürcü. 30 iyun 1862 Kutaisi quberniyasında zadəgan ailəsində anadan olub. Həqiqi hərbi xidmətə 1881-ci ildə qəbul eilib. 1883-cü ildə Nikolayev Süvari Məktəbini 1-ci

dərəcə ilə bitirib. Birinci Dünya müharibəsində iştirak edib. Çar ordusunda sonuncu vəzifəsi Revel sərhəd alayının komandiri olub. Hərbi xidməti dövründə 15 oktyabr 1916-cı ildə “4-cü dərəcəli müqəddəs Georgi”, 1890-cı ildə “3-cü dərəcəli müqəddəs Stanislav”, 1901-ci ildə “3-cü dərəcəli müqəddəs Anna”, 1915-ci ildə “2-ci dərəcəli müqəddəs Anna (qılıncla)” və 1915-ci ildə “4-cü dərəcəli müqəddəs Vladimir (qılınc və bant ilə)” orednləri ilə təltif edilib.

19 yanvar 1919-cu il tarixdə “general-mayor” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 22 yanvar 1919-cu il tarixli 35 №-li əmri ilə Süvari diviziyasının Qərargah rəisi vəzifəsinin icraçısı və eyni zamanda Hərbi Şuranın üzvü təyin edilib. Süvari diviziya komandiri general-mayor Şahzadə Qacar Bakı şəhərinə müalicəyə getdiyi üçün Hərbi nazirin 16 fevral 1919-cu il tarixli 76 №-li əmri ilə Süvari diviziya komandiri vəzifəsinin müvvəqəti icraçısı təyin edilib. 03 avqust 1919-cu il tarixdə Hərbi nazirin 347 №-li əmri ilə öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxs edilib.

Hərbi nazirin onun tərxisə buraxılma 347 №-li əmrində bunlar qeyd edilmişdir: “Öz arzusu ilə tərxis edilməsi üçün müraciət etmiş general-mayor Amaşukeli 7 (yeddi) ay öncə Ordu quruculuğunun çətin dövründə Cümhuriyyət ordusu sıralarında xidmətə qəbul edilmişdir. Diviziya komandirinin xəstə olması ilə əlaqədar olaraq, faktiki olaraq 5 ay diviziyaya komandanlıq etmişdir. Əla xidməti və insani keyfiyyətləri ilə öz bilik və bacarığını doğma ordumuzun formalaşmasına sərf etmişdir. Çox təəssüf hissi ilə generalla xidmətdən ayrılarkən ona Cümhuriyyət ordu quruculuğundakı xidmətlərinə görə səmimi qəlbdən “Təşəkkür” elan edirəm”.

### 86. **Podpolkovnik AMAŞUKELİ** Pavel Nikolayeviç

Milliyəti gürcü. 08 sentyabr 1919-cu il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi

xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. 01 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 451 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirlib. 2-ci piyada taboru komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

87. **Poruçik** Knyaz **AMİLAXVARİ** Levan

Milliyəti gürcü. 25 avqust 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 avqust 1919-ci il tarixli 386 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının 2-ci süvari bölüyünün komandiri təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

88. **Poruçik AMİLAXVARİ** Xristofor

Milliyəti gürcü. 05 noyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 noyabr 1919-cu il tarixli 545 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

89. **Praporşik AMİNOV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahı-

larında “praporşik” hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya batareyasında xidmdət etdiyi qeyd edilib. 18 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 477 №-li əmri ilə Bakı İstehkam rayonunun mövqe batareyasına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.

90. **Podpolkovnik ANDREYEV** Boris Mixayloviç

Milliyəti rus. 17 mart 1919-cu il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 mart 1919-cu il tarixli 146 №-li əmri ilə Gəncə qəza hərbi rəisinin köməkçisi vəifəsinə təyin edilib. 18 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 424 №-li əmri ilə Göyçay qəza hərbi rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi xidməti dövründə Gəncə qəza hərbi rəisi idarəsinin əsgərlərinin şikayəti əsasında Gəncə qarnizonu rəisi tərəfindən aparılmış təhqiqatın nəticəsi olaraq, hərbi qəza idarəsinin əsgərlərinə qarşı yola salma məntəqəsi rəisinin qanunsuz hərəkətlərinin və kobudluğunun qarşısının alınmasında fəaliyyətsizliyinə görə Hərbi nazirin 01 sentyabr 1919-cu il tarixli 385 №-li əmri ilə intizam cəzası qaydasında hauptvaxtada saxlanılmaqla 7 (sutka) həbs cəzası verilmişdir. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Göyçay qəza hərbi rəisi vəzifəsinin müvəqqəti icraçısı kimi həqiqi hərbi xidmətdə olub.

Hərbi xidmətə qəbul edilməmişdən öncə Tiflis şəhəri Nikolayevsk küçəsi 64, ev 4 ünvanında qeydiyyatda olub.

91. **Rotmistr ANNENKOV**

Milliyəti rus. 03 mart 1919-cu il tarixdə “rotmistr” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul

edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 174 №-li əmri ilə Xankəndi yerli lazaretin mirzəsi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Xankəndi yerli lazaretində həqiqi hərbi xidmətdə olub.

92. **Praporşik ANSEXSKİ** Əbdülqədir Əfəndi

Milliyəti ləzgi. 15 avqust 1895-ci il tarixdə Dağıstan vilayətində zadəgan ailəsində anadan olub. Temir-Xan Şura Peşə məktəbinin 2 sinfini bitirib. 02 mart 1917-ci il tarixdə Ləzgi süvari alayında həqiqi hərbi xidmətə qəbul edilib. 12 iyun 1917-ci il tarixdə "kiçik uryadnik", 21 iyul 1917-ci il tarixdə "baş uryadnik", 30 iyul 1917-ci il tarixdə "vaxmistr" və 22 avqust 1917-ci il tarixdə isə döyüşlərdə fərqləndiyinə görə "yunker" hərbi rütbələrinə layiq görülüb. Alayın tərkibində Maştağa, Binə, Zığ və Hövsan istiqamətində bolşevik-daşnak qüvvələrinə qarşı döyüş əməliyyatlarında iştirak edib. 14 sentyabr 1918-ci il tarixdə eskadronda zabit heyətinin çatışmazlığı nəzərə alınaraq ona eskadronu Zığ yüksəkliyində mövqe tutmuş üstün düşmən qüvvələrinin üzərinə hücuma aparması tapşırılmışdır. Onun çevik və məharətli komandanlığı nəticəsində eskadron düşmən qüvvələrini Zığ yüksəkliyindən vurub çıxarmış və onun geriyə çəkilməsinə nail olmuşdur. Bu zaman bir ədəd "Maksim" pulemyotu qənimət kimi ələ keçirilmişdir. Daha sonra 08 oktyabr 1918-ci il tarixdə Qarabağda Pircamal kəndi uğrunda erməni daşnaklarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 08 oktyabr 1918-ci il tarixdə Osmanlı Türkiyəsinin "İgidliyyə görə" medalı ilə təltif edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik (süvari üzrə)" hərbi rütbəsi verilməklə Cümhuriyyət ordusunda zabit kimi həqiqi hərbi xidmətə qəbul edilib. 10 aprel 1919-cu il tarixdə Hərbi nazirin 194 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taborunun 4-cü əlahiddə Nuxa piyada bölüyü komandirinin sərancamına göndərilib. 01 iyun

1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayın Nuxa bölüyündə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb.

31 mart 1919-cu il tarixdə Hərbi nazirin müavini general-leytenant Əliağa Şıxlinski tərəfindən Əlahiddə Zaqatala piyada taborunun 4-cü əlahiddə Nuxa piyada bölüyü təftiş edilərkən əsgər Salam Seyid onun praporşik Ansexski Əbdülqədir Əfəndi tərəfindən sərxoş halda döyüldüyünü bildirilmişdir. Araşdırma zamanı müəyyən olunmuşdur ki, praporşik Ansexski Əbdülqədir Əfəndi həmin gün növbədə olmuş lakin sərxoş olmamışdır. Hərbi hissədən icazəsiz şəhərə çıxdığına və yalan danışaraq icazəli olduğunu bildirdiyinə görə əsgəri geri hərbi hissəyə gətirərkən onu təpiklə vurmuşdur. Əsgərə fiziki güc tətbiq etdiyinə görə praporşik Əbdülqədir Əfəndi Ansexskiyə Hərbi nazir müavini tərəfindən intizam cəzası qaydasında 12 aprel 1919-cu il tarixli 198 №-li əmrlə 3 (üç) sutka həbs cəzası verilmişdir.

Hərbi nazirin 30 sentyabr 1919-cu il tarixli 446 №-li əmri ilə 22 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 93. **Praporşik ANSEXSKİ** Cavad Xan

Milliyəti ləzgi. 22 iyul 1896-cı il tarixdə Dağıstan vilayətində zadəgan ailəsində anadan olub. Temir-Xan Şura Peşə məktəbinin 3 sinfini bitirib. 01 fevral 1913-cw il tarixdə 1-ci Dağıstan süvari alayında həqiqi hərbi xidmətə qəbul edilib. 01 dekabr 1913-cü il tarixdə "kiçik uryadnik" hərbi rütbəsi verilib. 22 fevral 1914-cü il tarixdə "baş uryadnik" və 16 iyul

1916-cı il tarixdə isə “yunker” hərbi rütbələrinə layiq görülüb. 05 may 1917-ci il tarixdə 1-ci Dağıstan süvari alayının ləğv edilməsi ilə əlaqədar olaraq Ləzgi süvari alayına keçirilib. 1914-cü ilin sentyabr ayından 1917-ci ilin fevral ayına kimi Avstriya-Alman cəbhədində vuruşub. “4-cü dərəcəli Georgi xaçı” ilə təltif edilib. Ləzgi alayının tərkibində isə Maştağa, Binə və Zığ yüksəkiliyi uğrunda bolşevik-daşnak qüvvələrinə qarşı döyüş əməliyyatlarında iştirak edib. 03 sentyabr 1918-ci il tarixdə alayın 3-cü eskadronunun 1-ci süvari taqımı ilə Hövsan kəndini mühafizə edərkən düşmənin üç pulemyot və iki topla gücləndirilmiş iki süvari bölüyü onların mövqeylərinə əks hücuma keçir. Yunker Cavad Xan Ansexskinin komandanlığı altındakı 1-ci taqım əlavə qüvvələr gələnədək dörd saat ərzində kəndə düşmən qüvvələrinin girməsinə imkan verməmişdir. 15 sentyabr 1918-ci il tarixdə isə onun komandanlıq etdiyi süvari taqımı Qara şəhər tərəfdən Bakı şəhərinə birinci daxil olaraq Tağıyev zavodunda mövqe tutmuş düşmən qüvvələrinin həmin mövqeyi atıq qaçmasına nail olmuşdur. Bu zaman bir “Maksim” pulemyotu qənimət kimi götürülmüşdür. 1918-ci ilin oktyabr ayında isə Qarabağda erməni daşnaklarına qarşı döyüş əməliyyatlarında iştirak edir. Göstərdiyi igidliyə görə Osmanlı Türkiyəsinin “İgidliyə görə” medalı ilə təltif edilir. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə “praporşik (süvari üzrə)” hərbi rütbə verilməklə Cümhuriyyət ordusunda zabit kimi həqiqi hərbi xidmətə qəbul edilib. Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 194 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi

nazirin 30 sentyabr 1919-cu il tarixli 446 №-li əmri ilə 22 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

94. **Praporşik AŞUMOV** Əli Muxtar

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

95. **Praporşik AŞUMOV** Atakişi

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

96. **Podporuçik AŞUMOV** Eynulla

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 1-ci Artilleriya briqadasın komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

97. **Polkovnik** Şahzadə **AVAMED**

Milliyəti gürcü. 27 noyabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

98. **Podpolkovnik AVANDELBAUM**

21 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-cu il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 1-ci yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 548 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 1-ci yüngül artilleriya batareyası tam tərkində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun tərkibinə verilib və xidmət yeri həmin briqadaya dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül

artilleriya divizionunun 1-ci yüngül artilleriya batareyası komandiri kimi həqiqi hərbi xidmətdə olub.

99. **Podporuçik AVATVNEV**

12 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının artilleriya texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

100**. Kapitan AVALİANİ** İrakliy

Milliyəti gürcü. 06 iyul 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. Piyada taboru komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

101. **Podporuçik AVALİANİ**

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

102. **Podporuçik AVALİANİ** Pavel İvanoviç

Milliyəti gürcü. 10 avqust 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 386 №-li əmri ilə 2-ci piyada diviziyası İntendantının tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

103. **Podporuçik BABAYEV** İsmayıl

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podporuçik" hərbi rütbəsində bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 548 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun şəxsi heyəti tam tərkində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun tərkibinə verilmişdir. 31 mart 1919-cu il tarixdə Hərbi nazirin 169 №-li əmri ilə "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri əmri ilə "podporuçik (artilleriy üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

104. **Praporşik BABAYEV** Məmməd Əli

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

105. **Praporşik BABAYEV** Ağa Baba (Nuxinski)

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

106. **Praporşik BABAYEV** Əli Abbas

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə

Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

107. **Praporşik BABAYEV** Ağa Baba (Bakinski)

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (süvari üzrə)" hərbi rütbəsində süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına göndərilib. 05.05.1919-cu ildə Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib. 12 fevral 1920-ci il tarixdə Hərbi nazirin 92 №-li əmri ilə Kürd süvari divizionu komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd süvari divizionunda həqiqi hərbi xidmətdə olub.

108. **Praporşik BABAYEV** Qafar

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarda pulemyot komandasının kiçik zabiti təyin edilib. Hərbi nazirin 11 fevral 1920-ci il tarixli 90 №-li əmri ilə yeni yaradılan 3 №-li Zirehli qatarda pulemyot komandasına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 3 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

109. **Praporşik BABAYEV** İsrafil

01 sentyabr 1919-cu il tarixdən Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

110. **Polkovnik BASOV** Kozma

Milliyəti rus. 01 aprel 1920-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 182 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

111. **Praporşik BABAXANOV** İsa

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

112. **Podporuçik BABAYEV** Acar

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına

göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

113. **Praporşik BABAŞOV** Məmmədağa

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik piyada üzrə" hərbi rütbəsində piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

114. **Polkovnik BABİLUA**

Milliyəti gürcü. 01 sentyabr 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Alayın təsərrüfat hissə rəisi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

115. **Praporşik BAYRAMOV** Suriya

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada

diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

116. **Podporuçik BAYRAMOV** Məmməd Həsən

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 11 may 1919-cu il taricli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

117. **Praporşik BAYRAMOV** Muxtar

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

118. **Podporuçik BAYRAMƏLİBƏYOV** İbrahim Teymur bəy oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taborunun 3-cü piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayın 1-ci piyada taborunun 3-cü piyada bölüyündə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. 09 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 20 sentyabr 1919-cu il tarixdə 419 №-li əmri ilə Bakı dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Bakı dəmir yolu stansiyası komendanturasında həqiqi hərbi xidmətdə olub.

119. **Praporşik BABAŞBƏYOV** İsfəndiyar

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına göndərilib. 01 aprel 1920-ci il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

120. **Podporuçik BƏDİRXANOV** Əziz

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 08 iyul 1919-cu il tarixdən Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

121. **Praporşik BAQİROV** Rəhim

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi

rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

122. **Praporşik BAĞIROV** Səyyad

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. 11 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 145 №-li əmr ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

123. **Podporuçik BAQİROV** Hacı Məmməd İsmayıl oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taborunun 3-cü piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada

diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayın 1-ci piyada taborunun 3-cü piyada bölüyündə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. 09 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixdə 407 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

124. **Praporşik BAQİROV** Talış

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini (Kürd bölməsi) "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 219 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

125. **Praporşik BAĞIROV** Əlihüseyn

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

126. **Praporşik BAĞIROV** Cəlil

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. 08 fevral 1920-ci ildə Hərbi nazirin 22 aprel 1920-ci il tarixli 232 №-li əmri ilə Ləki stansiyasındakı artilleriya anbarının əsgər komandasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ləki stansiyasındakı artilleriya anbarının əsgər komandasının rəisi kimi həqiqi hərbi xidmətdə olub.

127. **Poruçik BASARİYA**

Milliyəti gürcü. 09 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-ci il tarixli 323 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. 09 sentyabr 1919-cu il tarixdə xidmət yerini özbaşına tərk etdiyinə görə Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

128. **Podporuçik BAXŞƏLİYEV** Məmmədhəsən

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

129. **Poruçik BALIKOV** Arif Xayruloviç

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmrində "podporuçik" hərbi rütbəsində Yevlax dəmir yolu stansiyasının komendantı vəzifəsinin icraçısı kimi xidmətini davam etdiyi qeyd edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 26 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. 30 iyul 1919-cu il tarixdən Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 365 №-li əmri ilə Ağstafa dəmir yolu stansiyasının komendantı vəzifəsinə təyin edilib. 09 fevral 1920-ci il tarixdən Hərbi nazirin 08 fevral 1920-ci il tarixli 86 №-li əmri ilə Gəncə dəmiryolu stansiyasının komendantı vəzifəsinə xidmət yeri dəyişdirlib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Gəncə dəmiryolu stansiyasının komendantı kimi həqiqi hərbi xidmətdə olub.

130. **Polkovnik BALIŞEV**

Milliyəti rus. 02 yanvar 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 12 sentyabr 1919-cu il tarixli 403 №-li əmri ilə 2-ci piyada diviziyasının qərargahına keçirilib. 23 sentyabr 1919-cu il tarixdən 27 sentyabr 438 №-li əmrlə daha

yuxarı vəzifəyə 2-ci piyada diviziyasının intendant xidmətinin rəisi təyin edilib. Hərbi nazirin 11 oktyabr 1919-cu il tarixli 458 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından öz arzusu ilə tərxis edilib.

Müəllifdən: Cümhuriyyət Parlamenti Hərbi nazirə zabit və hərbi məmurların həqiqi hərbi xidmətlərinə ciddi tələblərin qoyulması məqsədi ilə xidmət etmək istəməyən və ya xidməti vəzifələrinin icrası zamanı ciddi intizamsızlığa yol verən müsəlman dinindən olan və Cümhuriyyət vətəndaşı olan zabitlərə dövlət müəssisələrində işləmə, digər millətlərdən olan zabitlərin isə tərxis edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüquqlarından məhrum edilmə hüququnu tətbiq etmə səlahiyyəti vermişdir. Hər bir zabitin Cümhuriyyət ordusunda xidmətə qəbul edilməsi üçün müraciəti hərtərəfli araşdırılmış və onlara vicdanla xidmət etmədikdə nə ilə üzləşəcəkləri izah edilmişdir. Məhz bu səbəbdən, bəzi zabitlərin tərxis edilmə əmrlərində onların "dövlət müəsissələrində işləmək hüququndan məhrum edilməsi" və ya "Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüquqlarından məhrum edilməsi" kimi ifadələrə rast gəlmək olur.

### 131. **Poruçik BARKOVSKİ** Yuriy

Milliyəti rus. 08 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusuna "podporuçik" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi veriiib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

132. **Praporşik BANANİYARSKİ** Heydərağa

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

133. **Praporşik BANANİYARSKİ** Məsuməli

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

134. **Milis praporşiki BANANİYARSKİ** Əmir Əli

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

135. **Ştabs-kapitan BEQLƏRBƏYOV** (Bəylərbəyov) Əli bəy

15 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusuna "poruçik" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28. İyul1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cüQubapiyada alayı komandirinin sərancamına göndərilib.Piyada taboru komaniri vəzifəsinin icraçısı təyin edilib. Nümunəvi xidmətinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-cipiyada diviziyasının 4-cüQubapiyada alayında həqiqi hərbi xidmətdə olub.

136. **Praporşik BEQDƏMİROV** (BƏYDƏMİROV) Mövsüm

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamınagöndərilib. 14 mart 1920-ci ildə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ciŞirvanpiyada alayı yaradılıb və xidmət yeri 7-ci Şirvan piyada alayında saxlanılıb. Cümhuriyyətinsüqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

137. **Podpolkovnik BEXTEREV** Baqirağa

12 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusuna "kapitan" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-cu il tarixli əmri ilə 1-ci piyada diviziyası qərargahının baş adyutantı vəzifəsinə təyin edilib.

Həmin əmrlə müvəqqəti olaraq Ümumi Qərargahın Müfəttiş bölməsinə ezam edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “podpolkovnik (piyada ürə)” hərbi rütbəsi verilib. 19 aprel 1920-ci il tarixdə Hərbi nazirin 216 №-li əmri ilə Ordu Qərargahı rəisinin sərancamına verilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

138. **Ştabs-kapitan BEXTEREV**

13 iyul 1919-cu il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 avqust 1919-ci il tarixli 351 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kvartirmeysteri vəzifəsinə təyin edilib. 15 oktyabr 1919-cu il tarixdən Hərbi nazirin 18 oktyabr 1919-cu il tarixli 477 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə Cümhuriyyət Ordusundan tərxis edilib.

139. **Kapitan BELOZIQİN** Dmitriy Mixayloviç

Milliyəti ru. 25 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusuna “ştabs-kapitan” hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib və piyada taborunun komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti “kapitan (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

140. **Polkovnik BEKOV** Boris Konstantinoviç

Milliyəti rus. 25 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar 15 fevral 1919-cu il tarixdən Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsi Mühəndis idarəsi adlandırılıb və xidmət yeri həmin idarədə saxlanılıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "polkovnik (mühəndis üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Mühəndis idarəsi təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

141. **Praporşik BEHBUDOV** Ələkpər

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. 10 aprel 1920-ci il tarixdə Qarabağda aparılan döyüş əməliyyatları zamanı həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

142. **Polkovnik BERZİN**

Milliyəti rus. 15 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda məmur kimi xidmətə qəbul edilib və Hərbi nazirin 18

noyabr 1919-cu il tarixli 535 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kapelmeysteri (mülki məmur) vəzifəsinə təyin edilib. Sənədləri yoxlanıldıqdan sonra 19 aprel 1920-ci il tarixdən "polkovnik" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 216 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamında həqiqi hərbi xidmətə başlayıb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

143. **Podporuçik BSİFBƏYOV** Ağabəy

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

144. **Polkovnik BRILKİN** Vladimir

Milliyəti rus. 28 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Salyan qəza hərbi rəisi (Salyan və Lənkaran qəzaları daxil olmaqla) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Salyan qəza hərbi rəisi kimi həqiqi hərbi xidmətdə olub.

145. **Ştabs-kapitan BUQASKİ**

Milliyəti rus. 06 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li

əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

146. **Praporşik BUDAQOV** Məmməd

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

147. **Polkovnik BUTAKOV**

Milliyəti rus. 01 yanvar 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 yanvar 1919-ci il tarixli 16 №-li əmri ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti təyin olunub. 06 mart 1919-cu il tarixdən Hərbi nazirin 07 mart 1919-cu il tarixli 110 №-li əmri ilə ştat ixtisarı ilə əlaqədar olaraq Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

148. **Praporşik BUTAYEV** Səid

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi

rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 149. **Ştabs-kapitan BUKAÇ**

25 aprel 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 aprel 1919-cu il tarixli 224 №-li əmri ilə Hərbi Nazirliyin Artilleriya idarəsinin tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin olunub. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 517 №-li əmri ilə 07 noyabr 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət Ordusu sıralarından tərxis edilib.

### 150. **Polkovnik BULQAKOV** Ömər Mirzə

Milliyəti tatar. 28 may 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 01 iyun 1919-ci il tarixli 275 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 12 iyul 1919-cu il tarixdən xəstəliyə görə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

Hərbi nazirin 20 avqust 1919-cu il tarixli 369 №-li əmri ilə 16 avqust 1919-cu il tarixdən təkrarən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin nizami hissə üzrə köməkçisi vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi

“polkovnik” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

151. **Poruçik BOQDANOVİÇ**

Milliyəti rus. 27 noyabr 1918-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li əmri ilə 01 fevral 19190cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

152. **Poruçik BOQOLYUBOV** Pyotr Leonidoviç

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə “praporşik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-cu il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Briqadanın təlim komandasının rəisi vəzifəsini icra edib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “poruçik (artilleriya üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

153. **Podporuçik BOQDANOV** Vyaçeslav Vasilyeviç

Milliyəti rus. 04 fevral 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 60 №-li əmri ilə Hərbi Nazirliyin Qoşunların daşınması üzrə idarəinin kargüzarı vəzifəsinə təyin edilib. 31 oktyabr 1919-cu il tarixdə Hərbi Nazirliyin Qoşunların daşınması idarəsi ləğv edilib və Baş Qərargah

idarəsinin nəzdində Hərbi Nəqliyyat idarəsi yaradılıb və Hərbi nazirin 508 №-li əmri ilə xidmət yeri yeni yaradılan idarədə saxlanılıb. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 552 №-li əmri ilə 01 dekabr 1919-cu il tarixdən Hərbi Nəqliyyat idarəsinin baş adyutantı vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti "podporuçik (mühəndis qoşunları üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi Nəqliyyat idarəsinin baş adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

154. **Poruçik BOQATIREV** Maqomet

25 iyul 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 iyul 1919-cu il tarixli 344 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 30 dekabr 1919-cu il tarixli 604 №-li əmri ilə 21 dekabr 1919-cu il tarixdən Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

155. **Poruçik BORİSEVİÇ**

Milliyəti rus. 11 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli 22 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 2-ci piyada taborunun piyada bölük komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda xidmət etdiyi 5 ay ərzində yerli dili öyrənə bilmədiyi və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258

№-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

Müəllifdən: Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov Cümhuriyyət ordusuna qəbul edilən hər bir qeyri-azərbaycanlı zabitlərin və hərbi məmurların qarşısında onların tez bir zamanda azərbaycan dilinin (türk dili) öyrənilməsini şərt kimi qoymuşdur. Xüsusi ilə də komanda vəzifələrində olan zabitlər ən azı iki ay ərzində türk dilində komandalar verməyi bilməli idilər. Əks halda onların ordudan tərxis edilməyə təqdim edilməsini tələb kimi Hərbi nazirin 16 fevral 1919-cu il tarixli 76 №-li əmrində göstərilmişdir.

156. **Praporşik BORSUKOV** Fyodr

Milliyəti rus. 22 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə Mühəndis Məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri əmri ilə növbəti "podporuçik (mühəndis qoşunları üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Mühəndis Məktəbində həqiqi hərbi xidmətdə olub.

157. **Ştabs-rotmistr BOLOTİNSKİ** Yusuf bəy

Polşa tatarı. 30 may 1919-ci il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 10 iyun 1919-cu il tarixli 190 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının rabitə rəisi vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "ştabs-rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb.

Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

Cümhuriyyətin süqutundan sonra Polşa ordusunda xidmət etmiş Vəli bəy Yadigarın (Cümhuriyyət ordusunda Yadigarov Vəli bəy Sadıq bəy oğlu kimi adı keçir) 1960-cı ilin aprel ayının 27-də Argentinada mühacirətdə olarkən "Mücahid" jurnalında çap olunan "40 illik köləlik nizamı" adlı xatirələrində ştabs-rotmistr Bolotinskidən bəhs edir. Onun 3-cü süvari bölüyünün komandiri olduğunu (Cümhuriyyət ordusunda diviziya komandirlərinin bölük komandiri və bölüyün kiçik zabiti vəzifələrinə təyin etmə səlahiyyətləri olduğuna görə onun bu vəzifəsdə olması böyük ehtimalla mümkündür) və Gəncə üsyanında yaxından iştirak etdiyi həmin xatirələrdə qeyd edilib.

### 158. **Poruçik BƏDİRBƏYOV** Ağalar bəy

27 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-ci il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin

sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

159. **Praporşik BƏDƏLOV** Süleyman

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbinin kiçik zabiti (Gəncə Praporşiklər Məktəbi - Hərbi Məktəbi adlanıb) vəzifəsinə təyin edilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Bakı qala taborunda həqiqi hərbi xidmətdə olub.

160. **Poruçik BİARSLANOV**

24 iyun 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri ilə 31 iyul 1919-cu il tarixdən Cümhuriyyət Ordusu sıralarından tərxis edilib.

161. **Podpraporşik CABBAROV** Cadil

18 noyabr 1918-ci i tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə xidmət yerini özbaşına tərk edtiyinə görə 10 aprel 1919-cu il tarixdən Cümhuriyyət Ordusu siyahılarından çıxarılıb və məsuliyyətə cəlb edilməsi üçün axtarışa verilib.

162. **Milis praporşiki CAMALBƏYOV** Məşədi Ələkpər bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

163. **Kapitan CAMBULATOV** İsrafil bəy

29 iyun 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 1-ci yüngül artilleriya divizionunun 2-ci yüngül artilleriya batareyasının komandiri vəzifəsini icra edib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci süvari-dağ artilleriya batareyası komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "kapitan"

hərbi rütbəsində 1-ci süvari-dağ artilleriya batareyasında həqiqi hərbi xidmətdə olub.

164. **Ştabs-rotmistr CAKELİ**

Milliyəti gürcü. 07 may 1919-cu il tarixdə "ştabs-rotmistr" Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə 07 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

165. **Praporşik CAVANŞİR** Bəhrəm

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

166. **Poruçik CAVAYEV**

20 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 avqust 1919-cu il tarixli 374 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 535 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 01

oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

167. **Kornet CEVDETOĞLU** Faik

Milliyəti türk. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmrində "kornet" hərbi rütbəsində Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin mühafizə bölüyündə həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Parlament bölüyündə 2-ci pulemyot komandasının komandiri vəzifəsini icra edib.

168. **Podpolkovnik CEVULSKİ**

Milliyəti polyak. 03 fevral 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 oktyabr 1919-cu il tarixli 477 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 01 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib.

169. **Podporuçik CƏBİYEV** Əli Hacı

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüşlərdə fərqləndiyinə görə

Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

170. **Kornet CEMELİNSKİ** (Cəmilinski)

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin üzləşmə siyahılarında "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 19 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

09 yanvar 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusu sıralarında həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 15 oktyabr 1919-cu il tarixdə 473 №-li əmrlə Süvari diviziyasının 1-ci Tatar süvari alayına xidmət yeri dəyişdirlib. 08 mart 1920-ci il tarixdə həlak olduğuna görə Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb.

171. **Praporşik CƏFƏROV** Abbas

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 21 iyun 1919-cu il tarixdə Hərbi nazirin 305 №-li

əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 17 fevral 1920-ci il tarixdə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün qaytarılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

172. **Praporşik CƏFƏROV** Hacıbaba

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

173. **Podporuçik CƏFƏROV** Cəfər

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri Hərbi Məktəbdə xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

174. **Podporuçik CƏFƏRBƏYOV** Camal bəy

Şuşa Ali ibtidai məktəbində təhsil alıb. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi

rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin alayın 9-cu piyada bölüyü komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının 1-ci piyada taborunun 1-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

175. **Podporuçik CƏLİLOV** Hacıbaba

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 7-ci Şirvan piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.



176. **Kapitan** Knyaz **CORCADZE** İrakliy Dmitriyeviç

Milliyəti gürcü. 01 sentyabr 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 433 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin baş adyutantının köməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 520 №-li əmri ilə 11 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

177. **Polkovnik ÇAPLIQİN** Konstantin Pavloviç

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "polkovnik" hərbi rütbəsində Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə qərargah zabiti vəzifəsində xidmət etdiyi qeyd edilib. 10 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 17 №-li əmri ilə Süvari diviziyasının İntendantı vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 164 №-li əmri ilə 03 mart 1919-cu il tarixdən Hərbi Nazirliyin İntendant idarəsi rəisinin köməkçisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. 23 noyabr 1919-cu il tarixdən isə Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 556 №-li əmri ilə 2-ci piyada diviziyasının intendantı vəzifəsinə təyin edilib.13 dekabr 1919-cu il tarixdə 572 №-li əmrlə Süvari diviziyasının intendantı vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Süvari diviziyasınında həqiqi hərbi xidmətdə olub.

178**. Kapitan ÇAEVSKİ** Viktor

Milliyəti rus. 01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusuna "ştabs-kapitan" hərbi rütbəsinəd həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə Hərbi nazir müavinin adyutantı vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində Hərbi nazir müavinin adyutantı kimi həqiqi hərbi xidmətdə olub.

179**. Poruçik ÇAÇUA**

Milliyəti gürcü. 08 noyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 532 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının şəxsi heyətinin siyahılarında saxlanılmaqla Mühəndis məktəbinə xidmətini davam etdirmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Mühəndis məktəbində xidməti ezamiyyətdə olub.

180**. Polkovnik ÇİKALİN**

Milliyəti rus. 25 mart 1919- cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 02 aprel 1919-cu il tarixli 171 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsi rəisinin Mənzil təminatı üzrə köməkçisi təyin edilib. Hərbi nazirin 358 №-li əmri ilə 05 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

181**. Podporuçik ÇİPADZE** David

Milliyəti gürcü. 10 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusuna "praporşik" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 573 №-li əmri ilə Baş Qərargah idarəsinin Rabitə komandasının rəisi vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Baş Qərargah idarəsinin Rabitə komandasının rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

182**. 2-ci dərəcəli kapitan ÇİLİNQİR-ZADƏ** Həsən

10 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusuna həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 oktyabr 1919-cu il tarixli 470 №-li əmri ilə Hərbi dəniz limanı komendantının köməkçisi vəzifəsinə təyin edilib. Hərbi xidmətə qəbul edilməzdən öncə mülki dəniz kapitanı hərbi rütbəsində olub. 29 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 57 №-li əmri ilə "Ardoqan" sahil keşikçi gəmisinin komandiri təyin edilib və Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 92 №-li əmri ilə mülki dəniz kapitanı rütbəsi hərbi dəniz qüvvələrinin 2-ci dərəcəli kapitan hərbi rütbələrinə uyğunlaşdırılıb. Cümhuriyyətin süqutuna kimi "2-ci dərəcəli kapitan" hərbi rütbəsində "Ardoqan" sahil keşikçi gəmisinin komandiri kimi həqiqi hərbi xidmətdə olub.

183. **Podporuçik ÇANTURİYA** Aleksandr

Milliyəti gürcü. 26 dekabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 595 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinin kiçik iş icraçısı vəzifəsinə təyin

edilib. Xidmət yerinə gəlib çıxmadığına görə Hərbi nazirin 04 fevral 1920-ci il tarixli 70 №-li əmri ilə 26 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb və barəsindəki hərbi xidmətə qəbul əmri ləğv edilib.

184. **Kapitan ÇİÇİNADZE** Konstantin Konstantinoviç

Milliyəti gürcü. 01 fevral 1920-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 02 fevral 1920-ci il tarixli 65 №-li əmri ilə Bakı qəza hərbi rəisinin köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində Bakı qəza hərbi rəisinin köməkçisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

185. **Poruçik ÇİCAVADZE** İvan İliç

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 04 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 453 №-li əmri ilə xidmət yeri 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna dəyişdirilib. Batareya komandiri vəzifəsini icra edib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

186. **Starşına ÇİMERİN**

Milliyəti rus. 17 dekabr 1918-ci il tarixdə "starşina" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Gəncə dəmir yolu stansiyasının komendantı vəzifəsinə təyin

edilib. Osmanlı Silahlı Qüvvələrindən qalmış əmlakın Gəncə dəmir yolu stansiyasında çeşidlənməsi və qəbulu üzrə komissiyanın üzvü olub. Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə 27 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

187. **Ştabs-rotmistr ÇERVİNOV**

Milliyəti rus. 08 yanvar 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 12 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

188. **Poruçik ÇEYŞVİLİ**

Milliyəti gürcü. 22 iyul 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 avqust 1919-cu il tarixli 347 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

189. **Poruçik** (rabitə üzrə) **ÇEVANİN**

Milliyəti gürcü. 06 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il 11 №-li əmri ilə Ümumi Qərargahın Rabitə rəisi vəzifəsinin müvəqqəti icraçısı

təyin edilib. Hərbi nazirin 11 fevral 1919-cu il tarixli 71 №-li əmri ilə 10 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və siyahılardan çıxarılıb.

190. **Podpolkovnik ÇUQUNKOV**

Milliyəti rus. 28 dekabr 1918-ci il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Süvari diviziyası qərargahının baş adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 23 oktyabr 1919-cu il tarixli 490 №-li əmri ilə 12 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və siyahılardan çıxarılıb.

191. **Podpolkovnik ÇUMAKOV** Vladimir Nikolayeviç

Milliyəti rus. 19 fevral 1919-cu il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 97 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 4-cü dağ artilleriya batareyasının komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24.03.1920 167 №-li əmri ilə “podpolkovnik (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

192. **Podporuçik ÇOKUYEV** Qana

Milliyəti ləzgi. 06 iyun 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 295 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı

komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 193. **General-mayor ÇXEİDZE** Konstantin Davıdoviç

Miliyyəti gürcü. 10 avqust 1853-cü ildə Kutaisi quberniyasında anadan olub. Kutaisi Klassik Gimnaziyasını və 1877-ci ildə Tiflis Mixayılovski Piyada Məktəbini bitirib. 1877-1878-ci illər rus-türk və 1904-1905-ci illər rus-yapon müharibələrində iştirak edib və yaralanıb. Çar ordusunda sonuncu xidmət yeri 153-cü Bakı piyada alayı olub. 1910-cu ildə geyim forması daşımaq hüququ verilməklə ehtiyata buraxılıb. Hərbi xidməti dövründə 1904-cü ildə "3-cü dərəcəli müqəddəs Anna (qılınc və bant ilə)", "2-ci dərəcəli müqəddəs Stanislav (qılıncla)" və 1906-cı ildə "4-cü dərəcəli müqəddəs Vladimir (qılınc və bant ilə)" ordenlləri ilə təltif edilib.

13 avqust 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 avqust 1919-cu il tarixli 371 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 01 dekabr 1919-cu il tarixli 551 №-li əmri ilə Cümhuriyyət Hərbi Məktəbinin rəisi təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li

əmri ilə “General-mayor” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “general-mayor” hərbi rütbəsində Cümhuriyyət Hərbi Məktəbinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

194. **Poruçik ÇXENİDZE** Qeorqiy

Milliyəti gürcü. 21 oktyabr 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 518 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “poruçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

195. **Podporuçik DADAŞOV** Kazım

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri Astrabad hərbi gəmisinə təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

196. **Podporuçik DADAŞOV** Xeyrulla

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 1-ci Artilleriya briqadası komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib.

Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

197. **Podporuçik DADAŞOV** Əlidadaş

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

198. **Podporuçik DADAŞEV** İshaq

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri Cümhuriyyət Hərbi Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

199. **Praporşik DADAŞEV** Əli Hüseyn

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il

tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

200. **Praporşik DADAŞOV** Sultan

01 sentyabr Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 mart 1920-cu il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

201. **Kapitan DAQİROV** İslam Gəray

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə zabit heyətinin hərbi hissələr üzrə adları qeyd edilərkən "ştabs-kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briadasının 1-ci yüngül artilleriya divizionunda xidmətini davam etdirir kimi qeyd edilib. 18 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 414 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 2-ci yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Hərbi nazirin 30 noyabr 1919-cu il tarixdə 548 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 2-ci yüngül artilleriya batareyası tam tərkində 1-ci

Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun tərkibinə verilmişdir və xidmət yeri 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna dəyişdirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

### 202. **Ştabs-rotmistr DATİYEV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında xidmətini davam etdirir kimi qeyd edilib. Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə 26 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 203. **Kapitan DATİAŞVİLİ**

Milliyəti gürcü. 15 iyun 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 323 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Xidmət yerini özbaşına tərk etdiyinə görə Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə 30

avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

204. **Poruçik DATİAŞVİLİ**

Milliyəti gürcü. 15 iyun 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 323 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Hərbi nazirin 12 sentyabr 1919-cu il tarixli 403 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 06 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib.

205. **Ştabs-kapitan DANÇEVSKİ** Vladimir

Milliyəti rus. 15 fevral 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 fevral 1919-cu il tarixli 84 №-li əmri ilə Ləki stansiyasındakı Artilleriya anbarı rəisinin köməkçisi vəifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-ci il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "ştabs-kapitan (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Ləki stansiyasındakı Artilleriya anbarında həqiqi hərbi xidmətdə olub.

206. **Praporşik DANİLEVSKİ** Aleksandr Semenoviç

Milliyəti rus. 17 aprel 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 may 1919-cu il tarixli 239 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və Dəri intendant zavodunun rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilatı-ştat dəyişikliyi ilə əlaqədar olaraq "praporşik" hərbi rütbəsində Ordunun İntendant idarəsində həqiqi hərbi xidmətdə olub.

207. **Podporuçik DAUŞVİLİ** Parmen Varfolomyeviç

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 iyul 1919-cu il tarixdə Hərbi nazirin 328 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 3-cü piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 3-cü piyada bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

208. **Praporşik DAVIDOV** Burau

Milliyəti rus. 01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 06 mart 1920-ci il tarixli 131 №-li əmri ilə Ordu Qərargahına xidmətini davam etdirmək üçün keçirilib. Cümhuriyyətin süqutuna kimi

“praporşik” hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

209. **Praporşik DAŞDƏMİROV** Böyükkişi

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 08 fevral 1920-ci il tarixdən Hərbi nazirin 22 aprel 1920-ci il tarixli 232 №-li əmri ilə Gəncə şəhərindəki artilleriya anbarının əsgər komandasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Gəncə şəhərindəki artilleriya anbarında həqiqi hərbi xidmətdə olub.

210. **Podporuçik DƏLİBOZOV** Siracəddin

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

211. **Ştabs-kapitan DOROŞEV**

Milliyəti rus. 09 noyabr 1919-cu il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 92 №-li əmri ilə Süvari-dağ batareysının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-kapitan” hərbi rütbəsində Süvari-dağ batareysında həqiqi hərbi xidmətdə olub.

212. **Podpolkovnik DOMRAÇYEV**

Milliyəti rus. 21 dekabr 1918-ci il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 2-ci yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidməti zamanı ordu üçün atların alınması komissiyasının sədri olub. Hərbi nazirin 27 avqust 1919-cu il tarixli 374 №-li əmri ilə Cümhuriyyət Ordusu sıralarından 13 avqust 1919-cu il tarixdən tərxis edilib.

213. **Podporuçik DONES** Artemiy Maksimoviç

20 mart 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə Mühəndis Anbarı rəisi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Mühəndis Anbarı rəisi kimi həqiqi hərbi xidmətdə olub.

214. **Ştabs-kapitan DUNDUA** Yakov Pavloviç

Milliyəti gürcü. 28 may 1890-cı il tarixdə Kutaisi quberniyasının Sinak qəzasında anadan olub. 24 avqust 1919-cu il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixli 413 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin əşya hissəsi üzrə kargüzar köməkçisi vəzifəsinə təyin edilib. Hərbi Nazirliyin İntendant idarəsinin əşya hissəsi üzrə kargüzar köməkçisi vəzifəsində olarkən “Ərzaq kisələrinin sayını və miqadını müəyyənləşdirən dövlət komissiyası”nın üzvü kimi vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Bakı şəhərində vətəndaş Kulovdan müsadirə edilməsi

olan kisələrin əvəzində ondan 18 oktyabr 1919-cu il tarixdə 10000 (on min) rubl rüşvət almışdır. Azərbaycan Xalq Cümhüriyyəti Hərbi Məhkəməsinin 04 dekabr 1919-cu il tarixli hökmü ilə bütün rütbələrdən məhrum edilərək, əmlakı müsadirə edilmək yolu ilə 3 (üç) il müddətinə mülki islah işlərinə cəlb edilməyə məhkum edilmişdir. Törətdiyi cinayət Hərbi nazirin 16 fevral 1920-cu il tarixli 107 №-li əmri ilə bütün şəxsi heyətə elan edilmişdir. Məhz bu səbəbdən, Hərbi nazirin 27 oktyabr 1919-cu il tarixli 500 №-li əmri ilə Cümhuriyyət ordusunun zabit heyəti siyahılarından həbs edildiyi 20 oktyabr 1919-cu il tarixdən çıxarılmışdır.

215. **Podporuçik DOVQELYUK**

11 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından 31 may 1919-cu il tarixdən tərxis edilib.

216. **General-mayor DUBROVSKİ** Vasiliy İvanoviç

Milliyəti rus. 12 yanvar 1919-cu il tarixdə "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Cümhuriyyəti Hərbi məhkəməsinin sədri vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) təyin edilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il tarixli və Hərbi nazirin 27 may 1919-cu il tarixli 269 №-li əmri ilə Cümhuriyyəti Hərbi məhkəməsinin sədri vəzifəsinə təsdiq edilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 321 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi

məhkəmə hissə rəisi (əvvəlki vəzifə maaşı saxlanılmaqla və birbaşa Hərbi Nazirə tabe edilməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində Hərbi Nazirliyin Hərbi məhkəmə hissə rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

217. **Podporuçik DUMBADZE** Nestor

Milliyəti gürcü. 21 dekabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 dekabr 1919-cu il tarixli 595 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

218. **Ştabs-rotmistr DUDAROV** Aslan Gəray

02 mart 1920-ci il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 128 №-li əmri ilə Bakı qəza hərbi rəisi idarəsi nəzdində yola salma məntəqəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmistr" hərbi rütbəsində Bakı qəza hərbi rəisi idarəsində həqiqi hərbi xidmətdə olub.

219. **Podpolkovnik DUNİN-MARSİNKEVİÇ**

Milliyəti rus. 13 sentyabr 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixli 407 №-li əmri ilə 2-ci Artilleriya briqadasının yüngül artilleriya divizionu komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 511 №-li əmri ilə 25 oktyabr 1919-cu il

tarixdən 1-ci süvari-dağ artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Hərbi xidməti dövründə batareyada atların pis saxlanılmasına və eləcədə təsərüffat işlərinin aparılmasında buraxdığı ciddi nöqsanlara görə Hərbi nazir tərəfindən intizam cəzası qaydasında 05 fevral 1920-ci il tarixdə 72 №-li əmrlə "Töhmət" elan edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci süvari-dağ artilleriya batareyasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

220. **Polkovnik DİBİROV** Əhməd bəy Məhəmməd Əfəndi

1860-cı ildə Balakən rayonunu Mahmalar kəndinə anadan olub. 02 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 yanvar 1919-cu il tarixli 53 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taborunun komandiri vəzifəsinə təyin edilib. 24 aprel 1919-cu il tarixdə Hərbi nazirin 215 №-li əmri ilə eyni zamanda Zaqatala qarnizonunun rəisi vəzifəsi həvalə edilib. Hərbi nazir müavini general-leytenant Əliağa Şıxlinski tərəfindən taborun döyüş hazırlığı və nizam-intizamının yoxlanılmasının nəticələrinə görə Hərbi nazir tərəfindən 21 aprel 1919-cu il tarixdə 211 №-li əmrlə ona "Təşəkkür" elan edilib. Nazirlər Şurası Sədrinin 09 aprel 1919-cu il tarixli 15 №-li və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə vaxtından əvvəl "polkovnik (piyada üzrə)" hərbi rütbəsi verilib.

01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayın komandiri kimi saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və həmin alayın komandiri vəifəsinə təsdiq edilib.

Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

221. **Kornet DİMBAZOV** Murtuz Əli

14 avqust 1875-ci il tarixdə Zaqatala qəzasında zadəgan ailəsində anadan olub. Zaqatala şəhər məktəbinin 3 sinfini bitirib. 02 aprel 1917-ci il tarixdən 18 iyul 1918-ci il tarixədək Zaqatala qəzasında polis mühafizə rəisi olub. 18 iyul 1918-ci il tarixdə Ləzgi süvari alayında həqiqi hərbi xidmətə qəbul edilib. 19 avqust 1918-ci il tarixdə "yunker" hərbi rütbəsinə layiq görülüb. Bolşevik-daşnak qüvvələrinə qarşı Şamaxı şəhərində, Kəlbaşı və Nəvai kəndlərində döyüş əməliyyatlarında iştirak edib. Masazır, Xocavənd, Fatmai, Maştağı və Binə kəndlərinin erməni daşnak və rus qüvvələrindən azad edilməsi uğrunda döyüşlərdə yaxından iştirak edib və 04 sentyabr 1918-ci il tarixdə Binə kəndi yaxınlığındakı döyüşlərdə yaralanıb. Belə ki, Binə kəndinin mühafizəsi üçün pulemyot komandasının rəisi kimi üstün düşmən qüvvələrinin üç hücumunun qarşısın alarkən sol qol sümüyünü və ayagını dəlib deşən güllə yarası almasına baxmayaraq döyüş mövqesini tərk etməmiş və düşmənin əks hücumlarının dəf edilməsinə rəhbərlik etmişdir. Göstərdiyi igidliyə görə hətta dəstə komandiri Hüseyn bəy (türk zabiti) tərəfindən ilkin zabit rütbəsi verilməsi münasibəti ilə şəxsi heyətin qarşısında təbrikdə edilib. Lakin ilkin zabit hərbi rütbə verilmə əmri xidmət yerinə göndərilməyib. Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 194 №-li əmri ilə ilkin "praporşik (süvari üzrə)" zabit hərbi rütbəsi verilməklə Cümhuriyyət ordusunda zabit kimi həqiqi hərbi xidmətə qəbul və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil

edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin əmri 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kornet (süvari ürə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

222. **Praporşik DİMBAZOV** Məmməd

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li ilə növbəti əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

223. **Poruçik DMİTRİYEV** Dmitriy

Milliyəti rus. 01 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 dekabr 1919-cu il tarixli 55 №-li

əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına xidmət yeri dəyişdirilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarizli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

224. **Polkovnik DEMBİNSKİ-PİORO** Kazimir

21 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "polkovnik (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

225. **Polkovnik DYAÇKOV** Mixayıl İvanoviç

Milliyəti rus. 17 mart 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 2-ci piyada taboru komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi Nazirliyin Hərbi sanitar idarəsi rəisinin yoxlama nəticələrinə görə tabeliyində olan 2-ci piyada taborundakı anti-sanitariya vəziyyətinə görə Hərbi nazirin 01

may 1919-cu il tarixdə 232 №-li əmri ilə intizam cəzası qaydasında "Töhmət" elan edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə yuxarı vəzifəyə yeni yaradılan 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı komandirinin müavini vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasına 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda alay komandirinin müavini kimi saxlanılıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "polkovnik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasına 2-ci Zaqatala piyada alayı komandirinin müavini vəzifəsində həqiqi hərbi xidmətdə olub.

### 226. **Podporuçik DVALİ**

Milliyəti gürcü. 23 oktyabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 511 №-li əmri ilə Süvari-dağ batareyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Süvari-dağ batareyasında həqiqi hərbi xidmətdə olub.

### 227. **Podpolkovnik DZEVULSKİ**

Milliyəti polyak. 03 fevral 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 158 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmk üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi

“podpolkovnik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

228. **Kapitan ERXAN** Mixayıl

13 mart 1919-cu il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 mart 1919-cu il tarixli 130 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “kapitan (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

229. **Kornet** Knyaz **ERİSTOV** İrakliy

Milliyəti gürcü. 04 avqust 1919-cu il tarixdə “kornet” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 16 avqust 1919-cu il tarixli 359 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 10 sentyabr 1919-cu il tarixli 410 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə və Azərbaycan ərazisindən çıxarılmaqla Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

230. **Praporşik EMİNBƏYOV** Mikayıl

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə

ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 3-cü piyada taborunun 9-cu piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

231. **Praporşik EYVAZOV** Hüseyn

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

232. **Praporşik EYYUBOV** Ömər

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

233. **Polkovnik ƏLİBƏYOV** Əli bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının

əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında “podpolkovnik” hərbi rütbəsində Hərbi Nazirliyin Ümumi Qərargahının Ümumi şöbəsinin baş adyutantı vəzifəsində xidmətini davam etdirdiyi qeyd edilib. Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 44 №-li əmri ilə Hərbi Məhkəmənin müvəqqəti üzvü təyin edilib. 03 mart 1919-cu il tarixdən Hərbi nazirin 30 mart 1919-cu il tarixli 164 №-li əmri ilə Hərbi Nazirliyin İntendant İdarəsi rəisi vəzifəsinin icraçısı təyin edilib və 171 №-li əmrlə 02 aprel 1919-cu il tarixdən Məhkəmənin müvəqqəti üzvülüyündən azad edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə “polkovnik (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. 31 iyul 1919-cu il tarixdə xəstəliyi ilə əlaqədar öz xahişi ilə Hərbi nazirin 344 №-li əmri ilə aşağı vəzifəyə Hərbi Nazirliyin İntendant İdarəsi rəisinin müavini vəzifəsinə keçirilib. Hərbi nazirin 01 dekabr 1919-cu il tarixli 551 №-li əmri ilə Artilleriya Baş idarəsi rəisinin müavini vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar Artilleriya Baş idarəsi Ordunun Artilleriya təchizatı idarəsi adlanıb və Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə 15 mart 1920-ci il tarixdən Ordunun Artilleriya təchizatı idarəsinin rəisi təyin edilib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Ordunun Artilleriya təchizatı idarəsinin rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

234. **Kapitan ƏLİYEV** Cəbrayıl bəy

10 fevral 1919-cu il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 82 №-li əmri 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar

olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 1-ci pulemyot komandasının rəisi təyin edilib və həmin əmrlə eyni zamanda Cümhuriyyət Hərbi Məhkəməsinin müvəqqəti üzvü təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.



235. **Podpolkovnik ƏLİYEV** Nağı bəy

1897-ci ildə Bakı şəhərində anadan olub. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrndə "rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu göstərilir. Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 44 №-li əmri ilə 09 mart 1919-cu il tarixədək Hərbi Məhkəmənin müvəqqəti üzvü olub. 09 mart 1919-cu il tarixdə Hərbi nazirin 118 №-li əmri ilə Cümhuriyyət Parlamentinin mühafizə rəisi vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 07 mart 1919-cu il tarixli 7 №-li və Hərbi nazirin 19 mart 1919-cu il tarixli 135 №-li əmri ilə növbəti "podpolkovnik (süvari üzrə)" hərbi rütbəsi

verilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət Parlamentinin mühafizə rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.



236. **Podpolkovnik ƏLİYARBƏYOV** Tərlan bəy Abdulla bəy oğlu

28 noyabr 1892-ci ildə Şamaxıda anadan olub. 1915-ci ildə Tiflis Mixayılovsk Piyada məktəbini 1-ci dərəcə ilə bitirib. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 19 dekabr 1918-ci il tarixdən “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 07 mart 1919-cu il tarixli 117 №-li əmri ilə Bakı qəza hərbi rəisinin müavini vəzifəsinin icraçısı təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-ci il tarixli 563 №-li əmri ilə növbəti “podpolkovnik (piyada üzrə)” hərbi rütbəsi verilib. 21 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 586 №-li əmri ilə Bakı qəza hərbi rəisi vəzifəsinin sınaq müddətinə müvəqqəti icraçısı təyin edilib. 24 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 30 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin müvəqqəti üzvü seçilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Bakı qəza hərbi rəisi vəzifəsinin sınaq müddətinə müvəqqəti icraçısı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

237. **Rotmistr ƏLİYEV** Əli bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə

siyahılarında “ştabs-rotmistr” hərbi rütbəsində Nazirlər Şurası Sədrinin Konvoy taqımı komandiri vəzifəsində xidmətini davam etdirdiyi qeyd edilib. 06 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 9 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 32 №-li əmri ilə isə 10 yanvar 1919-cu il tarixdən 1 №-li Zirehli qatar rəisi vəzifəsinin icraçısı təyin edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə “rotmistr (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “rotmistr” hərbi rütbəsində 1 №-li Zirehli qatar rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

238. **Ştabs-rotmistr ƏLİYEV** Səid

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamında həqiqi hərbi xidmətini davam etdirdiyi qeyd edilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

239. **Praporşik ƏLİYEV** Məmməd Hüseyn

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində -ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

240. **Podporuçik ƏLİYEV** Maqsud

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 25 may 1919-cu il tarixdə Hərbi nazirin 266 №-li əmri ilə Mühəndis Məktəbi rəisinin sərancamına ixtisas dəyişmə kursuna göndərilib. 13 mart 1920-ci il tarixdə kursu bitirib və Hərbi nazirin 153 №-li əmri ilə həmin Məktəb rəisinin sərancamında xidmətini davam etdirmək üçün saxlanılıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin əmri 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçuk (mühəndis qoşunları üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Mühəndis Məktəbində həqiqi hərbi xidmətdə olub.

241. **Praporşik ƏLİYEV** Bahadur

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 12 fevral 1920-ci il tarixdə Hərbi nazirin 92 №-li əmri ilə Kürd süvari divizionuna keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd süvari divizionunda həqiqi hərbi xidmətdə olub.

242. **Praporşik ƏLİYEV** İsgəndər

05 may 1897-ci il tarixdə Yelizavetpol quberniyasında anadan olub. Gəncə Gimnaziyasının 4 sinifini bitirib. 05 aprel 1918-ci il tarixdə Milli qvardiyaya könüllü kimi həqiqi hərbi

xidmətə qəbul edilib. 06 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-cu il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının pulemyot bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Erməni-daşnak qüvvələrinin Xankəndi və Şuşa qarnizonlarına gecə qəfil hücumları nəticəsində 23 mart 1920-ci il tarixdə həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

243. **Praporşik ƏLİYEV** Cabbar

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

244. **Podporuçik ƏLİRZA** Haqqı

14 dekabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 20 dekabr 1919-cu il tarixli 582 №-li əmri ilə Hərbi Nazirliyin Avtomobil hissəsi rəisinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 30 dekabr 1919-cu ul tarixdə Hərbi nazirin 608 №-li əmri ilə Bakı İstehkam rayonu rəisinin sərəncamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Bakı İstehkam rayonunda həqiqi hərbi xidmətdə olub.

245. **Praporşik ƏLİYEV** Mansur

10 dekabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 568 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 12 fevral 1920-ci il tarixdə Hərbi nazirin 92 №-li əmri ilə Kürd süvari divizionu komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd süvari divizionunda həqiqi hərbi xidmətdə olub.



246. **Polkovnik ƏLİYEV** Məmmədqasım bəy Hüseyn bəy oğlu

10 fevral 1882-ci ildə Yelizavetpol (indiki Gəncə) şəhərində məmur ailəsində anadan olub. 1898-ci ildə Yelizavetpol 8 illik məktəbi bitirib. 1899-cu ildə Tiflis Geodeziya məktəbinə daxil olur və 1902-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirir. 1902-ci ildə Sank-Peterburq hərbi Topoqrafiya Məktəbinə daxil olur və 1905-ci ildə həmin məktəbi "podporuçik" hərbi rütbəsində bitirərək hərbi topoqrafiya korpusuna daxil edilir. Çar ordusunda hərbi topoqraf kimi hərbi xidmətdə olduğu müddətdə Finlyandiyanın, Sank-Peterburq quberniyasının, Şimali Mançjuriyanın, Qrodnenski, Volınski və Kiyev quberniyalarının topoxəritələrinin hazırlanmasında iş icraçısı kimi iştirak edib. 29 mart 1908-ci il tarixdə Tiflisdəki Qafqaz hərbi topoqrafiya şöbəsinə xidmət yeri dəyişdirilir. 06 dekabr 1914-cü il tarixdə "kapitan" hərbi rürbəsinə layiq görülür. Hərbi topoqrafiya

sahəsindəki xidmətlərin görə 1914-cü ildə “2-ci dərəcəli müqəddəs Stanislav” ordeni ilə təltif edilir.

01 dekabr 1918-ci il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilir və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının Hərbi topoqrafiya bölməsi rəisi vəzifəsinin icraçısı təyin edilir. Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 51 №-li əmri ilə 20 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib (səbəbi bilinmir). 18 fevral 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilir və Hərbi nazirin 26 mart 1919-cu il tarixli 148 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Diplomatik Missiyasında Hərbi Attaşe (əvvəlki Hərbi topoqrafiya bölməsi rəisi vəzifəsinin maaşı verilməklə) vəzifəsinə təyin edilir. Podpolkovnik Əliyev Məmmədqasım bəy Hüseyn bəy oğlu Cümhuriyyət ordusunun ilk hərbi attaşesi olub. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “polkovnik (topoqrafiya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Diplomatik Missiyasında Hərbi Attaşesi kimi həqiqi hərbi xidmətdə olub.

247. **Praporşik ƏLİYEV** Məlik Heydər

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı

piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

248. **Praporşik ƏLİYEV** Əli Abbas

05 may 1919-cu ildə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

249. **Praporşik ƏLİYEV** Xəlil

05 may 1919-cu ildə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 5-ci batareyası komandirinin sərancamına həqiqi

hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 01 fevral 1920-ci il tarixli 62 №-li əmri ilə Bakı İstehkam rayonunun mövqe batareyası komandirinin sərancamına ezam edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında ezamiyyətdə olub.

250. **Podporuçik ƏLİYEV** Museyib

18 noyabr 1918-ci ildə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "parporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmətini davam etdirmək üçün keçirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

251. **Podporuçik ƏLİYEV** Kərim

18 noyabr 1918-ci ildə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "parporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmətini davam etdirmək üçün keçirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər

Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

252. **Podporuçik ƏLİYEV** Muxtar

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusundazabit kimi hərbi xidmət keçməyib.

253. **Podporuçik ƏLİYEV** Əlihüseyn

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

254. **Podporuçik ƏLİYEV** Fərrux

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

255. **Podporuçik ƏLİYEV**

12 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

256. **Praporşik** Məmmədağa Molla **ƏLİ-ZADƏ**

18 noyabr 1918-ci ildə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "parporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

257. **Praporşik ƏLİYEV** Məmməd Əli

18 noyabr 1918-ci ildə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib. Hərbi məktəbdə saxlanılıb və 01 sentyabr 1919-cu il tarixdə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilməklə Gəncə Praporşiklər Məktəbini

piyada ixtisası üzrə 1-ci dərəcə ilə tamamlayıb. Hərbi nazirin 01 sentyabr 1919-cu il tarixli 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 23 mart 1920-ci il tarixdə Xankəndi və Şuşa qarnizonlarına erməni-daşnak qüvvələrinin gecə qəfil hücumları nəticəsində həlak olduğuna görə həmin tarixdən Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusunun siyahılarından çıxarılıb.

258. **Podporuçik ƏLİ-ZADƏ** Hikmət

30 mart 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 176 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

259. **Kornet ƏLİYEV** Mirzə Ağabala

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətini davam etdiri kimi qeyd edilib. 05 mart 1919-cu il tarixdə Hərbi nazirin 106 №-li əmrlə Ordu üçün atların alınması komissiyasının üzvü təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "kornet" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

260. **Praporşik ƏLİYEV** Şərif

06 avqust 1877-ci il tarixdə Dağıstan vilayətində zadəgan ailəsində anadan olub. 1892-ci ildə 1-ci Dağıstan süvari alayında könüllü olaraq hərbi xidmətə qəbul edilib və təlim kurslarına göndərilib. 1893-cü ilin sentyabr ayının 5-də "kiçik uryadnik" hərbi rütbəsində təlim kursunu bitirir. 02 may 1894-cü il tarixdə "baş uryadnik" hərbi rütbəsinə layiq görülüb. 13 sentyabr 1914-cü il tarixdə Tatar süvari alayına keçirilib. 06 mart 1916-cı il tarixdə "yunker" hərbi rütbəsi verilib. Tatar süvari alayının tərkibində 1914-cü ilin sentyabr ayından 1917-ci ilin oktyabr ayına kimi döyüşlərdə iştirak edib. "4-cü dərəcli Georgi xaçı" və "3-cü və 4-cü dərəcəli Georgi" medalları ilə təltif edilib. Alayın tərkibində Hacqabulun, Kürdəmirin və Bakının bolşevik-daşnak qüvvələrindən azad edilməsi üçün aparılan döyüş əməliyyatlarında yaxından iştirak edib. 05 oktyabr 1918-ci il tarixdə Ləzgi süvari alayına keçirilib. 08 oktyabr 1918-ci il tarixdə Qarabağda erməni-daşnak qüvvələrinə qarşı aparılan döyüş əməliyyatlarında zabit heyətinin azlığını nəzərə alaraq süvari taqımına komandanlıq ona həvalə edilmiş və Pircamal kəndində yüksəklikdə olan düşmənə sol cinahdan hücüm etmə əmri verilmişdir. Hücüm zamanı yaralanmasına baxmayaraq döyüş meydanını tərk etməmiş və süvari taqımını düşmən üzərinə aparmaqda davam etmişdir. Məhz onun cəsarətli və qətiyyətli komandanlığı nəticəsində düşmən həmin yüksəklikdən geri çəkilmiş və Ləzgi süvari alayının sonrakı hücumunun itkisiz başa çatdırılması mümkün olmuşdur. Göstərdiyi igidliyə görə Osmanlı Türkiyəsinin "İgidliyə görə" medalı ilə təltif edilmişdir. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbə verilməklə Cümhuriyyət ordusunda zabit kimi həqiqi hərbi xidmətə qəbul edilib. Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 194 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboruna həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci

piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayın 1-ci piyada taborunun 3-cü piyada bölüyündə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Spiat xanımla evli olub və bu evlilikdən 1903-cü ildə Əli və Ömər adlı əkiz oğulları və 1910-cu ildə isə Pahimat adlı qızı olub.

261. **Praporşik ƏLİYEV** Hüseyn

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının adyutantı vəzifəsinin icraçısı kimi həqiqi hərbi xidmətdə olub.

262. **Praporşik ƏLİYEV** Müzəffər

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 2-ci piyada taborunun 8-ci piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

263. **Praporşik ƏLİYEV** Həmid

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

264. **Milis praporşiki ƏLİYEV** Hüseyn

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri “milis praporşiki” rütbəsi verilib.

265. **Praporşik ƏLİYEV** Həsən

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

266. **Praporşik ƏLİYEV** Fətulla

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat taborun komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

267. **Podporuçik ƏLİ-ZADƏ** Məmməd

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

268. **Praporşik ƏLİ-ZADƏ** Adil

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

269. **Poruçik ƏLİ-SOLTAN**

02 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Qazaxdakı təlim piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 06 yanvar 1919-cu il tarixli 11 №-li əmri ilə ştat dəyişikliyi ilə əlaqədar Qazaxdakı piyada taboru Qazax şəhərində dislokasiya olunmaqla 3-cü Gəncə piyada alayı tərkibinə 3-cü piyada taboru kimi daxil edilib. 08 aprel 1919-cu il tarixdə xidmət yerini özbaşına tərk etdiyinə görə Hərbi nazirin 27 apreı 1919-cu il tarixli 223 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb və tapılaraq cinayət məsuliyyətinə cəlb edilməsi barədə göstəriş verilib.

270**. Praporşik ƏLİ-İSGƏNDƏROV** Midhad

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

271. **Podporuçik ƏLİCANBƏYOV** Mustafa

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

272. **Praporşik ƏLİMƏRDANOV** Cabbar

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

273. **Ştabs-kapitan ƏLİ-MURZAYEV** Temir Xan

21 sentyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 sentyabr 1919-cu il tarixli 435 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "ştabs-kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

274. **Podporuçik ƏLİYEV** İdris

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Hərbi dəmiryolçular məktəbi rəisinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusundazabit kimi hərbi xidmət keçməyib.

275. **Praporşik ƏLİVERDİYEV** Teymur

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

276. **Praporşik ƏLƏKPƏROV** Hacı Baba

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargah rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 29 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 57 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya batareyasına xidmətini davam etdirmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya batareyasında həqiqi hərbi xidmətdə olub.

277. **Podporuçik ƏLƏKBƏROV** Həsən

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

278. **Milis praporşiki ƏLƏKPƏROV** Salah

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri “milis praporşiki” rütbəsi verilib.

279. **Praporşik ƏLƏKPƏROV** Adil

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-c il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

280. **Praporşik ƏLƏKPƏROV** Əbülfəz

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin

alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

281. **Praporşik ƏLƏSGƏROV** Həsən

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

282. **Praporşik ƏLƏSGƏROV** Abdul Xalıq

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

283. **Podpolkovnik ƏHMƏDBƏYOV** Kərim bəy

10 iyul 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 iyul 1919-cu il tarixli əmri ilə 1-ci Artilleriya

briqadasının 2-ci dağ artilleriya divizionunun 6-cı dağ artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. 18 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 414 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 6-cı dağ artilleriya batareyası tam tərkibdə yeni yaradılan 2-ci Artilleriya briqadasının tərkibinə 4-cü dağ artilleriya batareyası kimi verilib. Hərbi nazirin 11 oktyabr 1919-cu il tarixli 458 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandiri vəzifəsinin müvəqqəti icraçısı (eyni zamanda 4-cü dağ artilleriya batareyası komandiri vəzifə borclarını icra etməklə) təyin edilib. 01 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 551 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci artilleriya divizionunun komandiri vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 2-ci artilleriya divizionunun komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

284. **Podporuçik ƏHMƏDOV** Əliağa

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

285. **Ştabs-kapitan ƏHMƏTEV**

Milliyəti ləzgi. 07 may 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li

əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayın 1-ci piyada taborunun 3-cü piyada bölüyündə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 503 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

286. **Praporşik ƏRƏBOV** Abdulla

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

287. **Podporuçik ƏRƏBSKİ** Rza

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

288. **Poruçik ƏRTUQANOV**

17 mart 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 13 iyul 1919-cu il tarixdə briqada komandirinin yanına gələrək 1-ci divizionun bir zabitinin saxta sənədlər əsasında xəzinədən ayrılan pulların yalan məlumatlar əsasında silməsi haqqında məlumat vermiş və məlumatın yoxlanılması üçün dərhal briqada komandirinin əmrinə əsasən komissiya təşkil edilmişdir. 1-ci divizionda mal və ərzağın alınması sənədlər əsasında yoxlanılmış və yoxlama zamanı məlum olmuşdur ki, bütün mal və ərzaq qanuni əsaslarla alınmış və sənədlər tam qaydasındadır. Eyni zamanda diviziona mal tədarükü edən tədarükçülərin də sənədləri yoxlanılmış və qeyri-qanuni heç nə aşkar edilməmişdir. Əlavə olaraq, briqadanın bütün bölmələrində eyni qaydada təftiş aparılmışdır.

Məlum olmuşdur ki, Ərtuqanov komandirinin qanuni tələbkarlığı qarşısında ondan qisas almaq məqsədi ilə ona böhtan atmaq niyyətində olmuşdur. Briqada komandirinin əmrinə əsasən dərhal zabitlərin şərəf məhkəməsi çağrılmış və Şərəf məhkəməsinin qərarına əsasən zabit yoldaşına şər və böhtan atmaqla zabit şərəfini ləkələdiyi üçün İntizam Nizamnaməsinin 163-cü maddəsinə əsasən "Zabit şərəfini ləkələyən nəlayiq hərəkətlər törətdiyinə görə" ordudan tərxis edilməsi barədə qərar qəbul edilmişdir. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 340 №-li əmri ilə Zabit şərəfini ləkələyən nəlayiq hərəkətlər törətdiyinə görə Cümhuriyyət ordusu sıralarından tərxis edilmişdir. Hərbi nazir onun tərxis əmrinin bütün orduda elan edilməsi barədə göstəriş vermişdir.

289. **Praporşik ƏSƏDOV** Mövlüdin

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

290. **Praporşik ƏSƏDOV** Qulu

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

291. **Praporşik ƏSƏDOV** Heydər Əsəd oğlu

1899-cu ildə Gəncə şəhərində kiçik tacir ailəsində anadan olub. Gəncə Ali ibtidai məktəbini bitirib. 02 sentyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə qəbul edilib və həmin tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Hərbi məktəbdə həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 01 yanvar 1919-cu il tarixdə xidmət yeri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına dəyişdirilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 21 iyun 1919-cu

il tarixdə Hərbi nazirin 305 №-li əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 28 iyul 1919-cu il tarixdə 339 №-li əmri ilə xidməti ezamiyyətdən 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına qayıtmış hesab edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

292. **Praporşik ƏSƏDULLAYEV** Ruhulla

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

293. **Praporşik ƏSGƏROV** Abdulla Əhəd

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

294. **Podporuçik ƏSGƏROV** Əsgər (Kəngərlinski) Məmməd oğlu

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Diplomatik missiyası rəhbərinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 13 may 1919-cu il tarixdə xidmət yerinə göndərilib və 14 may 1919-cu il tarixdə xidmət yerinə çatıb. 27 may 1919-cu il tarixdə Hərbi nazirin 271 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Diplomatik missiyasındakı hərbi attaşesinin tapşırıqlar üzrə baş-zabiti vəzifəsinə təsdiq olunub. Bundan əlavə praporşik Əsgər Əsgərov-Kəngərlinski həmçinin diplomatik missiyaya bağlı orada dislokasiya olunmuş 1-ci Tatar və 3-cü Şəki süvari alaylarının şəxsi heyətindən təşkil olunmuş qarışıq süvari bölməsinə də komandirlik edib. Xidmətə başlayandan dərhal sonra 20 may 1919-cu il tarixdə Tiflisdən Gəncə şəhərinə və 22 may 1919-cu il tarixdə isə Bakı şəhərinə rəsmi səfər edən polkovnik Qabbanın rəhbərlik etdiyi İtaliyan hərbi missiyasını müşayiət etmə tapşırığı alır. Verilən tapşırığın öhdəsindən layiqincə gəlir. 1919-cu ilin avqust ayında hərbi attaşe podpolkovnik Məmmədqasım bəy Əliyev tərəfindən nümunəvi xidmətlərinə görə növbəti "podporuçik" hərbi rütbəsi verilməsinə təqdim edilsədə Hərbi Nazirliyin Ümumi Qərargahı mövcud qanunvericiliyə görə rütbədə olma müddətinin 6 (altı) aydan az olduğunu əsas gətirərək vəsatəti təmin etməmişdir. Göstərilən müddət bitdikdən sonra nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin əmri 24 mart 1920-cu il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülür. Podporuçik Əsgər Əsgərov-Kəngərlinski birbaşa vəzifə borclarından başqa Missiyada kargüzar vəzifəsini də icra etmişdir. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Azərbaycan Xalq

Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Diplomatik missiyasındakı hərbi attaşesinin tapşırıqlar üzrə baş-zabiti vəzifəsində həqiqi hərbi xidmətdə olur.

Cümhuriyyətin süqutundan sonra isə 14 may 1920-ci il tarixdə Tiflis şəhərini tərk edərək Vladiqafqaz üzərindən Bakıya getməyə cəhd etsə də 17 may 1920-ci il tarixdə Vladiqafqaz şəhərində həbs edilir və Bakıya göndərilir. 07 avqust 1920-ci il tarixdə həbsdən azad edilərək Xalq Hərbi Komissarının sərancamına göndərilir. Xalq Hərbi Komissarlığının Təsərüffat hissəsinin kargüzarı vəzifəsində çalışır. 01 noyabr 1920-ci il tarixdən 1921-ci ilin fevral ayının sonunadək Azərbayca SSR-nin Tiflis şəhərindəki Diplomatik missiyasında kargüzar vəzifəsində işləyir. 1921-ci ilin fevral ayının sonunda həmin Diplomatik missiyada Xalq Hərbi Komissarlığının nümayəndəsi vəzifəsinə təyin edilir və 1921-ci ilin iyul ayının 25-dək həmin vəzifədə xidmət edir. Məhz onun fəaliyyəti nəticəsində Tiflisə mühacirət etmiş bir çox Cümhuriyyət zabitlərini ÇK-nın ölüm pəncəsində qurtarmaq mümkün olmuşdur. Buna misal olaraq, Cümhuriyyət dövründə onun rəisi olmuş Gürcüstandakı Hərbi attaşe polkovnik Məmmədqasım bəy Əliyev barəsində ölüm hökmünün ləğv edilməsi və azad edilərək Batum şəhərində Azərbaycan SSR-nin konsulu təyin edilməsini göstərmək olar. O, bu barədə “Azərbaycanın faciəsi” adlı əlyazmasında da qeyd etmişdir. Əsgər Əsgərov-Kəngərlinski 1921-ci ilin iyul ayının 25-də Azərbaycan SSR-nin Turkiyə Cümhuriyyətinin Ankara şəhərindəki Diplomatik missiyasında hərbi attaşe vəzifəsinə təyin edilir. Lakin tezliklə onun milli yönlü fəaliyyəti və Bolşevik Rusiyasının Azərbaycandakı fəaliyyətlərinə tənqidi yanaşması Diplomatik missiyanın rəhbərliyinin gözündən qaçmır. 07 may 1922-ci il tarixdə hərbi attaşe vəzifəsinin ləğv edilməsi bəhanəsi ilə konvoy nəzarətində Azərbaycana qayıtması əmr edilir. Azərbaycanda onu gözləyən təhlükəni bildiyinə görə 15 iyun 1922-ci il tarixdə Türkiyənin Samsun bölgəsində konvoy nəzarətindən qaçır. 06 may 1922-ci il tarixdə

onun evində aparılan axtarış zamanı digər sənədlərlə birlikdə götürülmüş “Azərbaycanın faciəsi” adlı əlyazması “tam məxfi” qrif altında Bakıya göndərilir. Həmin əlyzama vaxtı ilə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitunun əməkdaşı olmuş Asif Rüstəmov tərəfindən çap edilmişdir.

295. **Praporşik ƏSGƏROV** Rza

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Məktəb rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq, Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və xidmət yeri həmin məktəbdə saxlanılıb. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboruna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda həqiqi hərbi xidmətdə olub.

296. **Podporuçik ƏSGƏROV** Adil

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayına təyin edilib. 11 may 1919-cu il tarixdə Hərbi nazirin 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə

əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nümunəvi xidmətinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

297. **Praporşik ƏSGƏROV** Aslan

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

298. **Praporşik ƏHMƏDOV** Şirinbala

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayına təyin edilib. 31 mart 1919-cu il tarixdə Hərbi nazirin 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə

əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

299. **Praporşik ƏHMƏDOV** Ağakərim

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayına təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 24 mart 1920-ci il tarixdə Hərbi nazirin 167 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

300. **Praporşik ƏHMƏDOV** Məmməd

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

301. **Ştabs-kapitan ƏMİRCANOV**

09 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 mart 1919-cu il tarixli 126 №-li əmri ilə 02 mart 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib. 01 dekabr 1919-cu il tarixdə təkrarən Hərbi nazirin 04 dekabr 1919-cu il tarixli 558 №-li əmri ilə həqiqi hərbi xidmətə qəbul edilib və 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının Nuxa piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətə göndərilib. Hərbi nazirin 14 mart 1920-cu il tarixli 154 №-li əmri ilə 2-ci Zaqatala piyada alayının 3-cü Nuxa piyada taboru nəzdində 2 taborlu 8-ci Ağdaş piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanıb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

302. **Poruçik ƏMİRCANOV** Allahyar bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətini davam etdiri kimi qeyd edilib. Həmin əmrdə eyni zamanda əlahiddə Zaqatala piyada taborunun Nuxada (Şəki) yerləşən piyada bölüyünə xidməti ezamiyyətə göndərilməsi qeyd edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li əmri və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (süvari üzrə)" hərbi rütbəsi verilib. 24 mart 1920-ci il tarixdə Hərbi nazirin 163 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib.

Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

303. **Praporşik ƏMİRCANOV** Qeysər

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və həmin alayın 1-ci pulemyot bölüyünün komandiri vəzifəsinə təyin edilib. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

304. **Praporşik ƏMİRASLANOV** İslam

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

305. **Praporşik ƏMİRASLANOV** Musa

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətinin davam etdirmək üçün göndərilib. 30 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 553 №-li əmri ilə Poylu dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Poylu dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

306. **Praporşik ƏMİNOV** Mutalib

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

307. **Praporşik ƏKBƏROV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Əlahiddə Zaqatala piyada taborunun Nuxa piyada bölüyündə həqiqi hərbi xidmətini davam etdirdiyi göstərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və Nuxa piyada bölüyü həmin alayın tərkibində 3-cü Nuxa piyada taboru adlanıb. Xidmət yeri həmin tabotda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin

328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə 2-ci Zaqatala piyada alayının 3-cü Nuxa piyada taboru nəzdində 2 taborlu 8-ci Ağdaş piyada alayı yaradılıb və xidmət yeri 8-ci Ağdaş piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

308. **Əsgər (**əvvəlki hərbi rütbəsi "praporşik" olub**)**
**ƏZİMOV** Əliheydər

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Mənəvi və işgüzar keyfiyyətləri aşagı olduğuna və zabit şərəfinə ləkələyən hərəkətlərə yol verdiyinə görə həqiqi hərbi xidmətdə olduğu alayın "Zabit şərəf məhkəməsi"nin qərarına əsasən hərbi rütbəsi "əsgər" hərbi rütbəsinədək endirilməklə zabit siyahılarından çıxarılması barədə Hərbi nazirin qarşısında vəsatət qaldırlıb və Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə hərbi rütbədən məhrum edilməklə zabit heyətinin siyahılarından çıxarılıb. Əsgər kimi həqiqi hərbi xidmətini davam etdirmək üçün 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib.

309. **Praporşik ƏZİZOV** Kərim

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və həqiqi hərbi xidmətini davam etdirmək üçün 1-ci piyada diviziyasının

1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

310. **Podporuçik ƏZİZOV** Müseyib

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

311. **Milis praporşiki ƏZİMBƏYOV** Əli bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri “milis praporşiki” rütbəsi verilib.

312. **Praporşik ƏZİMBƏYOV** Bahadur

18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və həqiqi hərbi xidmətini davam etdirmək üçün 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li

əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 20 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 419 №-li əmri ilə Ağstafa dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. 09 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 522 №-li əmri ilə xidmət yeri yenidən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına dəyişdirilib. 01 aprel 1920-ci il tarixdə 182 №-li əmrlə Kürd atıcı taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

313. **General-mayor ƏFƏNDİYEV** Süleyman bəy Əlisüleyman oğlu

05 oktyabr 1864-cü ildə Ağdam qəzasında anadan olub. İlk təhsilini Gəncədəki Progimnaziyada almışdır. 1885-ci ildə Yelizavetqrad Süvari Məktəbini[1] bitirib və “praporşik” hərbi rütbəsində həqiqi hərbi xidmətini davam etdirmək üçün Qafqaz süvari ordusunun polis nəzarəti idarəsinə göndərilib. 18 may 1887-ci il tarixdə növbəti “kornet” hərbi rütbəsinə layiq görülüb. “Ştabs-rotmistr” hərbi rütbəsi alma tarixi bilinmir, lakin 1899-cu ilin mart ayının 15-də növbəti “rotmistr” hərbi rütbəsi verilməsi məlumdur. Onun çar ordusundakı həqiqi hərbi xidməti əsasən Qafqazda keçmiçdir. Növbəti “podpolkovnik” hərbi rütbə alma tarixini bilməsədə onun 1912-ci il dekabrın 6-da növbəti “polkovnik” hərbi rütbəsi alması məlumdur. Çar ordusunda həqiqi hərbi xidməti zamanı “3-cü dərəcəli Müqəddəs Anna”, “2-ci dərəcəli Müqəddəs Stanislav”, və “3-cü dərəcəli Müqəddəs Vladimir” ordenlərinə layiq görülmüşdür. Süleyman bəy Əfəndiyev 1917-ci il iyul ayından başlayaraq Azərbaycan Milli silahlı bölmələrinin yaradılması təşəbbüsündə olmuşdur. Cümhuriyyət ordusundahəqiqi hərbi xidmətə qəbul edilmə tarixi dəqiq bilinməsədə Hərbi nazirin 1918-ci ilin

noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə say tərkibinin elan edilməsi siyahılarında Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olduğu bildirilir. 02 dekabr 1918-ci il tarixdə tam artilleriya generalı Səməd bəy Mehmandarov tərəfindən Tərtərdə yerləşən alayda yoxlama aparılarkən qısa müddət ərzində yaratdığı şəraitə və hərbi hissədəki nizam-intizama görə 05 dekabr 1918-ci il tarixli 8 №-li əmri ilə ona "Təşəkkür" elan etmişdir. 18 dekabr 1918-ci il tarixdə isə Hərbi nazirin 24 №-li əmri ilə Süvari diviziyasının komandiri vəzifəsinin icrasına buraxılır. Hərbi nazirin 26 dekabr 1918-ci il tarixli 33 №-li digər əmri ilə Hərbi nazirin yanında tapşırıqçı general vəzifəsinə gətirilir. Nazirlər Şurası Sədrinin 29 dekabr 1918-ci il tarixli əmri ilə "general-mayor" hərbi rütbəsinə layiq görülür. 14 yanvar 1919-cu il tarixdə isə 22 №-li əmrlə 06 yanvar 1919-cu il tarixdən 1-ci piyada diviziyasının komandiri vəzifəsinə təyin edilir. 1919-cu ilin fevral ayının 20-dən 21-ə keçən gecə səpmə yatalaq xəstəliyindən vəfat etdiyi üçün Hərbi nazirin 24 fevral 1919-cu il tarixli 98 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb. Onun vəfatı ilə əlaqədar Hərbi nazirin 21 fevral 1919-cu il tarixdə 89 №-li xüsusi əmri olmuşdur. Həmin əmrdə deyilir: "Bu gün 21 fevral 1919-cu il tarixdə 1-ci piyada diviziyasının komandiri general-mayor Süleyman bəy Əfəndiyevin səpmə yatalaq xəstəliyindən vəfat etməsi barədə kədərli teleqramm alınmışdır. Polkovnik Əfəndiyev fevral inqilabından sonra ictimai təşkilatlarda yorulmadan çalışaraq bütün xidmətini vətənin maraqlarının qorunması işinə sərf etmişdir. Məhz onun səyi nəticəsində Gəncədə ilk dəfə təlim komandası yaradılaraq gələcək Cümhuriyyət ordusu üçün təlimatçıların hazırlanması işi təşkil edilmişdir. Həmin komanda polkovnik Əfəndiyevin başçılığı altında vətənimizin mərkəzinə çevirilmiş Gəncənin anarxiyadan qorunmasına, cəbhədən qayıdan eşalonların tərk-silah edilməsini və həmin şəhərdə toplanmış milli əmlakın qorunmasını təşkil etmişdir. Müsəlman

Korpusunun yaradılması zamanı polkovnik Əfəndiyev Gəncədə yerləşən 5-ci atıcı müsəlman alayının komandiri təyin edilmişdir. Tiflisdəki Zaqafqaziya Respublikası hakimiyyətin müsəlman hərbi hissələrinə laqeyid münasibətinə və məsuliyyətsizliyinə rəğmən məhz polkovnik Əfəndiyevin səyi nəticəsində Tiflis İntendant xidmətindən alayın ehtiyaclarının ödənilməsi üçün lazım olan əmlak alınaraq Gəncəyə gətirilmişdir. Həmin dövürdə yerlərdə ordunun təhcizatı, həqiqi hərbi xidmətə çağrışın təşkili edilməsi və həqiqi hərbi xidmətdən boyun qaçıralanların tutulması üçün mülki hakimiyyət orqanlarının olmamasına baxmayarq, əsasən könüllülərdən təşkil edilmiş 5-ci atıcı müsəlman alayı nizam-intizam və təhcizat sahəsində daimi müsbət tərəfi ilə fərqlənmişdir. Polkovnik Əfəndiyev təkcə əsgərlər üçün deyil həm də zabitlərin problemlərini diqqətdən qaçırmamışdır. Onun səyi nəticəsində Gəncədə zabitlər üçün ən ucuz əla yeməkxana təşkil edilmişdir. 5-ci atıcı müsəlman alayının ləğv edilməsi zamanı polkovnik Əfəndiyev Azərbaycan Korpusunun Qərargahına külli miqdarda əmlak və ərzaq ehtiyatı təhvil vermişdir. Bundan sonra 2-ci Qarabağ süvari alayının komandiri təyin olunan polkovnik Əfəndiyev qısa bir müddət ərzində bütün çətinlikləri dəf edərək nizam-intizamlı və döyüş qabiliyyətli hərbi hissəni Hərbi nazirə təqdim etmişdir. İşgüzarlığı ilə digər komandirlərdən fərqləndiyi üçün Hərbi nazir tərəfindən “general-mayor” hərbi rütbəsi verilməklə 1-ci piyada diviziyasının komandiri vəzifəsinə təyin edilməsi barədə Hökümət qarşısında vəsatət qaldırılmış və 06 yanvar 1919-cu il tarixdə həmin vəzifəyə təyin edilmişdir. General-mayor Əfəndiyev ailəsini Batum şəhərində saxlayaraq bütünlüklə enerjisini müstəqil Azərbaycan ordusunun möhkəmlənməsi işinə sərf etmişdir. Hətta oğlunun vəfatı xəbərini alsada belə çətin şəraitdə xidmət yerini tərk etməmişdir.

Vətən qarşısında fədakar xidmətini nəzərə alaraq, general-mayor Əfəndiyevin bütün cənazə xərcləri Hərbi

Nazirliyin hesabına həyata keçirilsin və ailəsinə əlavə olaraq 5000 (beş min) rubl birdəfəlik maddi yardım verilsin. Ailəsinin bundan sonra normal yaşaması üçün təqaüd ayrılmasını barədə Hökümət qarşısında vəsatət qaldırılsın”. Əslində Hərbi nazir bu əmrində general-mayor Əfəndiyevin Cümhuriyyət ordusundakı fəaliyyətlərini və bu gün də bizə məlum olmayan hərbi xidmətlərinə tam aydınlıq gətirmişdir. Onun vəfatından sonra Hərbi nazir ardı-ardına daha əlavə iki əmr vermişdir. Birinci 22 fevral 1919-cu il tarixli 93 №-li əmri onun cənazəsinin Ağdamdan gəriliməsi barədədir. Həmin əmrdə deyilir “Vəfat etmiş general-mayor Süleyman bəy Əfəndiyevin cənazəsi Ağdam kəndindən Gəncə şəhərinə gətiriləcəkdir. Cənazənin dəmir yolu vağzalında qarşılanması, Şah Abbas məscidinə və oradan da dəfn üçün qəbirstanlığa aparılması məqsədi ilə zabitlərin komandanlığı altında Praporşiklər Məktəbindən orkestr komandası ilə bir yunker bölüyü, 1-ci Tatar süvari alayından bir süvari bölüyü və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionundan bir artilleriya taqımından ibarət fəxri qaravul təyin edilsin. Fəxri qaravul komandasının rəisi Praporşiklər Məktəbinin rəisi podpolkovnik Kəsəmənski təyin edilir. Cənazənin fəxri qaravulla vağzala gətirilmə vaxtı əlavə olaraq bildiriləcəkdir”, digər ikinci 26 fevral 1919-cu il tarixli 100 №-li əmr isə “Həyat yoldaşının xahişi ilə əlaqədar general-mayor Əfəndiyev Gəncə şəhərində deyil Qazax qəzasında dəfn ediləcəyi bildirilir ”.

314. **Polkovnik ƏFƏNDİYEV** Rəşid bəy Mirzə Məhəmməd bəy oğlu

25 dekabr 1880-ci ildə Zaqatala qəzasında anadan olub. Atası Zaqatala qəzasında kollec asessoru olub. Bakı Realnı Məktəbini bitirib.

29 avqust 1901-ci il tarixdə Moskva (Aleksandrovsk) Hərbi Məktəbinə[1] daxil olub və 10 avqust 1903-cü il tarixdə həmin

məktəbi “podporuçik” hərbi rütbəsində 1-ci dərəcə ilə bitirərək 10-cu Türküstan atıcı taborununa təyin edilir. 31 oktyabr 1903-cü il tarixdə məzuniyyətdən sonra xidmət yerinə gəlib. 20 noyabr 1906-cı il tarixdə “poruçik’ hərbi rütbəsi verilib. 01 yanvar 1914-cü il tarixdəki xidmət dəftərçəsində olan məlumata görə 8-ci Türküstan alayının 8-ci piyada bölüyünün kiçik zabiti vəzifəsində olub. Həmin alayda həqiqi hərbi xidməti zamanı 05 noyabr 1911-ci il tarixdə növbəti “ştabs-kapitan” hərbi rütbəsi verilib. 19 sentyabr 1915-ci il tarixdə isə növbəti “kapitan” hərbi rütbəsi ilə təltif edilib. Çar ordusunda həqiqi hərbi xidmətləri zamanı 03 iyun 1915-ci il tarixdə “3-cü dərəcəli müqəddəs Stanislav (qılınc və bant ilə)”, “2-cü dərəcəli müqəddəs Anna (qılıncla)” və 06 iyul 1915-ci il tarixdə “4-cü dərəcəli müqəddəs Georgi” ordenləri ilə təltif edilib. İmperatorun 06 iyul 1915-ci il tarixli Fərmanında göstərilir ki, “15 noyabr 1914-cü il tarixdə Loviçem ətrafında Zdunı kəndində düşmənin möhkəmləndirilmiş mövqelərindəki səngərlərə tabeliyində olan piyada bölüyü ilə qəfil süngü hücumuna keçmiş və özü şəxsən əlindəki silahın qundağı ilə pulemyot komandasının tuşlayıcısını vurmuş və pulemyotu ələ keçirərək öz bölüyünün pulemyot komandasına verməklə bölüyü bu zaman kənd də süngü döyüşündə olan bizim qüvvələrin köməyinə aparmışdır”. 24 mart 1917-ci il tarixdə 8-ci Türküstan atıcı alayından tərxis edilməklə piyada ixtisası üzrə zabit kimi ehtiyata keçirilib. “Podpolkovnik” və “polkovnik” hərbi rütbələrinin alınma tarixləri bilinmir. 28 may 1918-ci il tarixdə Müsəlman Korpusunda həqiqi hərbi xidmətə qəbul edilib. 09 iyun 1919-cu il tarixdən Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 295 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmk üçün göndərilərkən “polkovnik” hərbi rütbəsində olub. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada

diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. 26 avqust 1919-cu il tarixdə Hərbi nazirin 373 №-li əmri ilə yeni yaradılan 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 09 yanvar 1920-ci il tarixli 13 №-li əmri ilə aşağı vəzifəyə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının Nuxa şəhərində yerləşən 3-cü piyada taborunun komandiri (alay komandiri vəzifə maaşı saxlanılmaqla) keçirilib. 14 mart 1920-ci il tarixdə təşkilati-ştat dəyişikləri ilə əlaqədar Hərbi nazirin 154 №-li əmri ilə 2-ci Zaqatala piyada alayının 3-cü Nuxa piyada taboru nəzdində 2 taborlu 8-ci Ağdaş piyada alayı yaradılıb və 8-ci Ağdaş piyada alayının Nuxada yerləşən piyada taborunun komandiri kimi vəzifəsində saxlanılıb.

Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 8-ci Ağdaş piyada alayının Nuxada yerləşən piyada taborunun komandiri kimi həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Sırdarinski vilayətindən müsəlman dininə mənsub xanım olub. Xidmət dəftərçəsində həyat yoldaşının soyadı və övladları haqqında məlumatlar göstərilməyib.

### 315. **Ştabs-kapitan ƏFƏNDİYEV-MUSABƏYOV** Əhməd bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu göstərilib. 01 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 2 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahına ezam edilir (polkovnik Əfəndiyevin tapşırıqlar üzrə zabiti kimi vəzifəsini icra etmək üçün). Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə isə 25 yanvar 1919-cu il tarixdən 1-ci piyada

diviziyası qərargahının baş adyutantı vəzifəsinə təyin edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyası qərargahının baş adyutantı kimi həqiqi hərbi xidmətdə olub.

316. **Praporşik ƏFƏNDİYEV** Mahmud Əli

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının piyada bölük komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

317. **Ştabs-kapitan ƏFƏNDİYEV** Mahmudəli bəy

24 may 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 25 may 1919-cu il tarixli 266 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

318. **Podporuçik FƏTTAHOV**

02 dekabr 1918-ci il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-cu il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 aprel 1919-cu il tarixli 210 №-li əmri ilə Gəncə qəza hərbi rəisi idarəsinin yola salma məntəqəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidməti dövründə Gəncə qəza hərbi rəisi idarəsinin əsgərlərinin şikayəti əsasında Gəncə qarnizonu rəisi tərəfindən aparılmış təhqiqatın nəticəsi olaraq, tabeliyində olan hərbi qəza idarəsinin əsgərlərinə qarşı qanunsuz hərəkətlərinə, kobudluğuna və bölmədəki intizamsızlığa görə intizam cəzası qaydasında hauptvaxtada saxlanılmaqla Hərbi nazir tərəfindən 01 sentyabr 1919-cu il tarixli 385 №-li əmrlə 1 (bir) ay müddətinə həbs cəzası alıb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Gəncə qəza hərbi rəisi idarəsində həqiqi hərbi xidmətdə olub.

319. **Poruçik FƏTƏLİ-ZADƏ** Məmmədtağı

25 sentyabr 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 30 sentyabr 1919-cu il tarixli 443 №-li əmri ilə 2-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 92 №-li əmri ilə 04 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

320. **Podporuçik FƏRƏCOV** Cavad

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli

220 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusundazabit kimi hərbi xidmət keçməyib.

321. **Praporşik FƏRRUXOV** Hüseyn

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

322. **Ştabs-kapitan FƏHMİYEV** Həsən

14 sentyabr 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 1-ci piyada taboru komandiri vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 30 mart 1920-ci il tarixli 176 №-li əmri ilə 08 mart 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

323. **Polkovnik FLAMİN**

Milliyəti rus. 12 fevral 1920-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 06 mart 1920-ci il tarixli 131 №-li əmri ilə Ordu Qərargahı rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Cümhuriyyətin Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

324. **Podporuçik FƏTƏLİBƏYOV** Məmməd

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

325. **Podporuçik FƏTƏLİYEV** Yaqub

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

326. **Podporuçik FƏRƏCOV** İsgəndər

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

327. **Podpolkovnik FEDEROV**

Milliyəti rus. 14 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazaxda yerləşən Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün

göndərilib. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə ştat dəyişikliyi ilə əlaqədar təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taboru kimi təşkil edilib (dislokasiya yeri Qazax şəhərində saxlanılmaqla). Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taborunda həqiqi hərbi xidmətdə olub.

328. **Kapitan FEDOROV** Leonid Fedoroviç

Milliyəti rus. 15 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Ümumi Qərargahın 24 №-li Göndəriş vərəqi ilə həqiqi hərbi xidmətini davam etdirmək üçün Qazaxda yerləşən Təlim taboru komandirinin sərancamına göndərilib. Hərbi nazirin 19 dekabr 1918-ci il tarixli 20 №-li əmri ilə Osmanlı Silahlı Qüvvələrindən qalmış əmlakın Gəncə dəmir yolu stansiyasında çeşidlənməsi və qəbulu üzrə komissiyanın sədri təyin edilib. 18 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 28 №-li əmri ilə ştat dəyişikliyi ilə əlaqədar Təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının dislokasiya yeri Qazaxda olmaqla həmin alayın 3-cü piyada taboru kimi adlanıb və xidmət yeri 3-cü piyada taborunda piyada bölük komandiri kimi saxlanılıb. 01 aprel 1920-ci il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

329. **Ştabs-kapitan FEDEROV**

Milliyəti rus. 13 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 yanvar 1919-cu il tarixli 55 №-li əmri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı

komandirinin sərancamına təyin edilib, lakin xidmət yerinə gedib çıxmadığı üçün Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə 13 yanvar 1919-cu il tarixli əmr ləğv edilib.

### 330. **Podporuçik FEDEROV**

Milliyəti rus. 28 yanvar 1919-cu il tarixli "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-ci il tarixli 60 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 20 fevral 1919-cu il tarixdə intihar edərək özünü öldürdüyünə görə Hərbi nazirin 17 aprel 1919-cu il tarixli 205 №-li əmri ilə 20 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

### 331. **Kornet FON-FREYMAN**

08 yanvar 1919-cu il tarixdən "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə 11 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 332. **Kornet FRİDUNOV** Şamil

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında "praporşik" hərbi rütbəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-ci ildə 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə

növbəti “kornet (süvari üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “kornet” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

### 333. **Kapitan FON-BERİNQ** Yevqeniy

Milliyəti alman. 25 dekabr 1918-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 37 №-li əmri ilə 1-ci Artilleriya briqadası 2-ci dağ-artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Divizionun adyutantı vəzifəsini icra edib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “ştabs-kapitan (artilleriya üzrə)” hərbi rütbəsi verilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə vaxtından əvvəl “kapitan (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 1-ci Artilleriya briqadası 2-ci dağ-artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.



### 334. **Poruçik GÜLMƏMMƏDOV** Osmanağa Gülməmməd oğlu (Türk Ordusunda Osman Kazak soyadı ilə həqiqi hərbi xidmətdə olub)

16 avqust 1892-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Salahlı kəndində bəy ailəsində anadan olub. 01 sentyabr 1914-cü il tarixdə Tatar süvari alayında könüllü olaraq həqiqi hərbi xidmətə qəbul edilir. 08 yanvar 1915-ci il tarixdə “kiçik uryadnik”, 22 mart 1916-cı il tarixdə isə “baş uryadnik” hərbi

rütbələrə layiq görülüb. Alayın tərkibində 25 avqust 1914-cü il tarixdən 22 avqust 1917-ci il tarixədək Avstrya və Rumın cəbhələrindəki döyüşlərdə iştirak edib. 15 fevral 1915-ci il tarixdə Avstrya cəbhəsində Briqenom ətrafındakı döyüşlərdə yaralanıb. 25 fevral 1918-ci il tarixdə döyüşlərdə fərqləndiyinə görə "praporşik" ilkin zabit hərbi rütbəsinə layiq görülüb. Alayın tərkibində bolşevik-daşnak qüvvələrinə qarşı Kürdəmir, Müsüslü və Sanqaçal döyüşlərində və Bakı ətrafında ingilislərə qarşı hücumlarda iştirak edib. 17 avqust 1918-ci il tarixdə Bakı üzərinə növbəti hücum zamanı praporşik Gülməmmədov kəşfiyyata göndərilərkən Balaxanının şimal-qərb istiqamətində olan yüksəklikdə yerləşən düşmən qüvvələrinin arxa cinahına keçərək düşmənin güclü pulemyot və silah atəşinə rəğmən süvari bölmələrini Nobel rezervuarlarındakı düşmən mövqelərinə hücuma aparmış və düşmən qüvvələrinin Bakı istiqamətinə geri çəkilməsinə nail olmuşdur. Qəfil hücumdan təlaşa düşən düşmən geri çəkilmiş və bizim qüvvələrin sonrakı hücumu üçün həmin istiqamətdə boşluq yaranmışdır. Hücum zamanı 105 əsgərin, 3 zabitin, 1 həkimin əsir götürülməsində və 3 pulemyotun ələ keçirilməsində şəxsən iştirak edib. 15 sentyabr 1918-ci il tarixdə Qafqaz İslam Ordusunun tərkibində Tatar süvari alayı ilə birlikdə məhşur Bakı hücumunun iştirakçısı olub. 06 mart 1919-cu il tarixdə 1-ci Tatar süvari alayı komandiri tərəfindən təsdiq edilmiş xidmət dəftərçəsinə əsasən çar ordusunda həqiqi hərbi xidmət dövründə sıravi heyət üçün nəzərdə tutulmuş 2-ci, 3-cü və 4-cü dərəcəli "Georgi xaçı" ordenləri və 2-ci, 3-cü və 4-cü dərəcəli "Georgi xaçı" medalları ilə təltif edildiyi göstərilir. Xidmətdə fərqləndiyinə görə 01 noyabr 1918-ci il tarixdə "kornet" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyət Hərbi Nazirliyinin fəaliyyətə başlamasından sonra Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayının 3-cü süvari bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il tarixli 26 №-li və

Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə “poruçik (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayının 3-cü süvari bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.



335. **Praporşik GÜLMƏMMƏDOV** Gülağa (Gülməmməd) Məmməd ağa oğlu

06 dekabr 1899-cu il Gəncə quberniyasının Qazax qəzasının Salahlı kəndində bəy ailəsində anadan olub. Poruçik Gülməmmədov Osmanağanın qardaşı oğludur. Cümhuriyyətin süqutundan sonra Türk ordusunda Gül Məmməd Kazak soyadı ilə həqiqi hərbi xidmətdə olub. 1917-ci ildə Qori Müəllimlər Seminariyasını bitirib. Həqiqi hərbi xidmətə 30 yanvar 1918-ci il tarixdə 1-ci Müsəlman süvari alayında başlayıb. 01 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olur. Bolşevik-daşnak qüvvələrinə qarşı Bakı istiqamətindəki döyüşlərdə iştirak edir. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini piyada ixtisası üzrə “podpraporşik” hərbi rütbəsində 1-ci dərəcə ilə bitirir və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilir. 20 noyabr 1918-ci il tarixdə xidmət yerinə gəlir. 1-ci piyada diviziyasının baş adyutantı kapitan Baqirağa Bexterevin 01 mart 1919-cu il tarixdə imzaladığı xidmət xidmət dəftərçəsinə əsasən 22 noyabr 1918-ci il tarixdə 1-ci piyada diviziyasının rabitə rəisi vəzifəsini icra etmək üçün diviziya qərargahına ezam edilir. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə isə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi alır. 09 iyul 1919-cu il tarixdə xidmət yeri Hərbi nazirin 320 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayına dəyişdirlir. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi

rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

336. **Praporşik GÜLMƏMMƏDOV** Vəli

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayına dəyişdirlib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

337. **Podporuçik HACI-ZADƏ** Noman Fikret

01 yanvar 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1920-ci il tarixli 7 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü piyada alayının şəxsi heyətinin siyahılarında saxlanılmaqla Hərbi dəmiryolçular məktəbinə həqiqi hərbi xidmətini davam etdirmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi dəmiryolçular məktəbində həqiqi hərbi xidmətdə olub.

338. **Podporuçik HACIYEV** Məcid

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

339. **Ştabs-kapitan HACIYEV** Musa Abbas oğlu

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində "poruçik" hərbi rübəsində Poylu stansiyası komendantının köməkçisi-körpü mühafizə dəstəsinin rəisi kimi həqiqi hərbi xidmətini davam etdirdiyi qeyd edilib. 06 iyun 1919-cu il tarixdə Hərbi nazirin 282 №-li əmri ilə Bakı və Biləcəri dəmir yolu stansiyalarının komendantı vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" növbəti hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Bakı və Biləcəri dəmir yolu stansiyalarının komendantı vəzifəsinin müvəqqəti icraçısı kimi həqiqi hərbi xidmətdə olub.

340. **Milis praporşiki HACIYEV** Kərbalay Muxtar

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

341. **Podporuçik HACIYEV** Əli

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün

göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının gənc əsgərlər komandasının rəisi vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

342. **Podporuçik HACIYEV** Nazim

18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

343. **Podporuçik HACIYEV** Süleyman

18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün

göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 2-ci pulemyot komandasının rəisi təyin. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

344. **Podporuçik HACIYEV** Eyyub Əhməd oğlu

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

345. **Podporuçik HACIYEV** Qəzənfər

18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 4-cü dağ artilleriya batareyasının zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 may 1919-cu il tarixli 274 №-li əmri ilə növbəti “praporşik (artilleriya üzrə)” hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Hərbi nazirin 24 mart 1920-ci il tarixli 163 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionuna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

346. **Praporşik HACIYEV** İsfəndiyar

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

347. **Praporşik HACIYEV** Yusif

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci

dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

348. **Praporşik HACIYEV** Misir

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 27 mart 1920-ci il tarixdə Hərbi nazirin 168 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

349. **Praporşik HACIYEV** Ələkpər

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Ümumi Qərargahın Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 02 mart 1920-ci il tarixdə təşkilati-ştat tədbirləri ilə əlaqədar Ordunun Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ordunun Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamında xidmət edib.

350. **Praporşik HACIBƏYOV** Heydər

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

351. **Praporşik HACIBƏYOV** Hacıağa

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 15 dekabr 1920-ci il tarixdə Hərbi nazirin 576 №-li əmri ilə xidmət yeri Bakı İstehkam rayonunun mövqe batareyasına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.



352. **Polkovnik HACIBƏYLİNSKİ** İrza bəy

04 aprel 1874-cü ildə İrəvan quberniyasında anadan olub. 1896-cı ildə Yelizavetqrad Süvari Məktəbini "praporşik (süvari üzrə)"hərbi rütbəsində bitirib. 27 aprel 1898-ci il tarixdə növbəti "kornet" hərbi rütbəsinə layiq görülür və 21-ci draqun alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilir. 19

mart 1902-ci il tarixində növbəti “poruçik”, 01 sentyabr 1905-ci il tarixində isə “ştabs-rotmistr” rütbələrini alıb. 25 aprel 1912-ci il tarixdə isə “rotmistr” hərbi rütbəsinə layiq görülüb. Birinci Dünya müharibəsində 7-ci Belarus qusar alayının tərkibində döyüşlərdə iştirak edib. Döyüşdə fərqləndiyinə görə “3-cü dərəcəli Müqəddəs Anna”, “4-cü dərəcəli Müqəddəs Anna (qılıncla), “2-ci dərəcəli Müqəddəs Anna” (qılıncla) və “2-ci dərəcəli Müqəddəs Stanislav” (qılıncla) ordenləri ilə təltif edilib. 20 iyul 1916-cı il tarixində növbəti “podpolkovnik” hərbi rütbəsi verilib.

31 avqust 1916-cı il tarixdə Qafqaz Ordusunun qoşunların daşınması hissəsi müdirinin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilir. 1918-ci ilin ilk aylarından Müsəlman Korpusuna “podpolkovnik” hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilir. Həmin Korpusun tərkibinə həqiqi hərbi xidmətdə olarkən “polkovnik” hərbi rütbəsi alıb, lakin tarixi bilinmir. Qafqaz İslam Ordusunun tərkibində Qarayazı süvari alayının komandiri olmuşdur. 1918-c ilin noyabr ayının əvvələrində Hərbi Nazirliyin zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında “polkovnik” hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayının komandiri kimi həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 18 dekabr 1918-ci il tarixdə Hərbi nazirin 24 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib (səbəbi bilinmir).

Hərbi nazirin 20 sentyabr 1919-cu il tarixli 419 №-li əmri ilə 17 sentyabr 1919-cu il tarixdən təkrarən həqiqi hərbi xidmətə qəbul edilib və Bakı İstehkam rayonunun qərargah rəisi (diviziyanın qərargah rəisi səlahiyyətləri və vəzifə maaşı verilməklə) vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 506 №-li əmrində Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın üzvü təyin edildiyi qeyd edilib. 01 mart 1920-ci il tarixdən Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ordu Qərargahının General

Kvartirmeyster idarəsinin Əməliyyat-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Ordu Qərargahının General Kvartirmeyster idarəsinin Əməliyyat-kəşfiyyat şöbəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

353. **Podporuçik HACIBƏYLİNSKİ** Acar

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

354. **Praporşik HACIQASIMOV** Eyvaz

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

355. **Podporuçik HACIMƏLİKOV** Əli

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Təşkilati-ştat

tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 3-cü piyada taborunun 10-cu piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

356. **Praporşik HACINSKİ**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

357. **Praporşik HACINSKİ** Ağacəfər

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 08 dekbr 1919-cu il tarixdə Hərbi nazirin 561 №-li əmri ilə Xaçmaz dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. 08 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 140 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

358. **Praporşik HACIMƏMMƏDOV** İsfəndiyar

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-cu il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

359. **Podporuçik HACƏLİBƏYOV** Qaçan

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndə-

rilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

360. **Praporşik HƏSƏNOV** İsmayıl

30 mart 1920-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 176 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 8-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

361. **Podporuçik HƏSƏNOV** Məmməd

19 aprel 1891-ci ildə Yelizavetpol quberniyasında kəndli ailəsində anadan olub. Mixaylovsk Peşə Məktəbində təhsil alıb. 05 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Gəncə Podpraporşiklər Məktəbi rəisinin sərancamında saxlanılıb. Məktəb rəisinin əmri ilə 6-cı yunker bölüyünün komandiri vəzifəsinin icraçısına buraxılıb. 05 yanvar 1919-cu il tarixdə xidmət yeri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına dəyişdirilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

362. **Praporşik HƏSƏNOV** İslam İsa oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xəzinədar vəzifəsində olub. Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

363. **Praporşik HƏSƏNOV** Abbasqulu

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb.

Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

364. **Praporşik HƏSƏNOV** Qurban

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Haubitsalı artilleriya divizionu komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Haubitsalı artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

365. **Praporşik HƏSƏNOV** Əli Mirzə

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

366. **Praporşik HƏSƏNOV** Həsən

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

367. **Podporuçik HƏSƏN-ZADƏ** Əliyusif

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

368. **Praporşik HƏSƏN-ZADƏ** Edham Hüseyn oğlu

10 dekabr 1899-cu il tarixdə Tiflis quberniyasının Tiflis şəhərində anadan olub. Tiflis 3-cü Kişi Gimnaziyasının 6 sinfini bitirib. 01 sentyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Gəncə Podpraporşiklər Məktəbi rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə xidmət yeri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına dəyişdirilib və həmin alayın 6-cı piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin

süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

369. **Praporşik HƏSƏNBƏYOV** Dadaş bəy

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının 1-ci piyada taborunun 4-cü piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

370. **Praporşik HƏSƏNƏLİYEV** Baxşəli

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarın pulemyot komandasına təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

371. **Praporşik HƏSƏNOV** Cəbrayıl

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

372. **Praporşik HƏSƏNOV** Həsən

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

373. **Praporşik HƏSƏNOV** Əlibala

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

374. **Praporşik HƏSƏNOV** Məmməd

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

375. **Praporşik HƏNİFƏYEV** Məmmədhüseyn

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

376. **General-mayor HƏŞİMBƏYOV** Əlyar bəy Mehdi oğlu

08 mart 1856-cı ildə Bakı şəhərində anadan olub. 1871-1873-cü illərdə Tiflis Piyada Məktəbində[1] təhsil alıb. 06 dekabr 1908-ci il tarixdə Çar ordusunda "general-mayor" hərbi rütbəsinə layiq görülüb. Qars vilayətinin hərbi rəisi vəzifəsində xidmətdə olub. Birinci Dünya müharibəsində 3-cü Qafqaz

araba-kravan briqadasının komandiri olub. 1917-ci ildə həqiqi hərbi xidmətdən istefaya çıxıb.

03 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 506 №-li əmri ilə eyni zamanda Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın üzvü seçilib. Xəstəliyi ilə əlaqədar vəzifəsini icra edə bilmədiyinə və Daxili İşlər Nazirliyində yeni təyinat aldığına görə Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə 19 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və siyahılardan çıxarılıb.

377. **Rotmistr HƏŞİMBƏYOV** İsmayıl bəy

01 dekabr 1918-ci il tarixdə "rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmət yerinə gedib çıxmadığına görə Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə 01 dekabr 1918-ci il tarixli 55 №-li əmr ləğv edilib və hərbi xidmətə qəbul edilməmiş hesab edilib.

378. **Praporşik HƏŞİMOV** Mahmud

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada

taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

379. **Praporşik HÜSEYNOV** Məhərrəm

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

380. **Praporşik HÜSEYNOV** Əli Qulu

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru

1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

381. **Praporşik HÜSEYNOV** Sadıx

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində süvari ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 29 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 57 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

382. **Podporuçik HÜSEYNOV-VƏLİMƏMMƏDOV** Məmməd Yusuf

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionunun 4-cü batareya komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 fevral 1920-ci il tarixdə Hərbi

nazirin 62 №-li əmri ilə xidmət yeri Bakı İstehkam rayonunun mövqe batareyasına dəyişdirilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.

383. **Praporşik HÜSEYNOV** Ağasi

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Təşkilati-ştat dəyişilikləri ilə əlaqədar Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi Hərbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və xidmət yeri həmin Məktəbdə saxlanılıb. 17 yanvar 1920-ci il tarxidə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboruna dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda həqiqi hərbi xidmətdə olub.

384. **Praporşik HÜSEYNOV** Məhərrəm

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

385. **Praporşik HÜSEYNOV** Mehrəli

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 553 №-li əmri ilə Yevlax dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. 11 yanvar 1920-ci il tarixdə isə Hərbi nazirin 21 №-li əmri ilə 01 yanvar 1920-ci il tarixdən xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

386. **Praporşik HÜSEYNOV** Əliş

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

387. **Praporşik HÜSEYNOV** Səməd

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

388. **Podporuçik HÜSEYNOV** Məmmədhüseyn

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

389. **Podporuçik HÜSEYNOV** Surxay

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

390. **Podporuçik HÜSEYNBƏYOV** Feyzulla bəy

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik (piyada üzrə)" piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada

diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

391. **Praporşik HÜSEYNXANOV** İbrahim

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik (piyada üzrə)” piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

392. **Podporuçik HÜSEYNXANOV** Mustafa

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

393. **Podporuçik HÜSEYNOV** Məhmət

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri

ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

394. **Podporuçik HÜSEYNOV** İsa Ömər oğlu

22 fevral 1900-cu il tarixdə Yelizavetpol quberniyasında anadan olub. 01 may 1918-ci il tarixdə Yelizavetpol Mixayılovsk Peşə məktəbinin tam kursunu bitirib. 15 may 1918-ci il tarixdə Müsəlman Korpusunda həqiqi hərbi xidmətə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində birinci dərəcə ilə artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

395. **Praporşik HÜSEYNOV** Abuzər

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

396. **Praporşik HÜSEYNOV** Hüseyn

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib.15 dekabr 1919-cu il tarixdə xidmət yeri Hərbi nazirin 576 №-li əmri ilə Bakı İstehkam rayonunun mövqe batareyasına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.

397. **Praporşik HÜSEYNOV** Sultan

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

398. **Praporşik HÜSEYNOV** Mövsüm

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

399. **Praporşik HÜSEYNOV** Məmmədhəsən

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

400. **Praporşik HÜSEYNOV** Eyyub

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru

nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

401. **Kapitan HÜSEYN-ZADƏ** Sultan bəy

28 noyabr 1915-ci il tarixdən 01 fevral 1918-ci il tarixədək Qafqaz cəbhəsindəki 15-ci Qafqaz atıcı alayının tərkibində həqiqi hərbi xidmətdə olub. Təltif kartındakı qeydlərə görə Hərbi məktəbi “podporuçik” hərbi rütbəsində bitirib. “Poruçik” hərbi rürbəsi alma tarixi bilinmir, lakin “ştabs-kapitan” hərbi rütbəsi 20 aprel 1917-ci il tarixdə aldığı barədə qeydlər var. 01 fevral 1918-ci il tarixə kimi 15-ci Qafqaz atıcı alayın atıcı piyada bölüyünün komandiri olub. Çoban-Dədə qalası uğrunda döyüşlərdə kontuziya alıb. Xidmətdə və döyüşlərdə fərqləndiyinə görə “4-cü dərəcəli müqəddəs Anna”, “3-cü dərəcəli müqəddəs Stanislav (qılınc və bantla)”, “3-cü dərəcəli müqəddəs Anna (qılınc və bantla)”, “2-ci dərəcəli müqəddəs Stanislav (qılıncla)” və “4-cü dərəcəli müqəddəs Vladimir (qılınc və bantla)” medalları ilə təltif edilib.

01 fevral 1918-ci il tarixdə Müsəlman Korpusunda həqiqi hərbi xidmətə qəbul edilib. 26 iyun 1918-ci il tarixdə isə Əlahiddə Azərbaycan Korpusunun tərkibinə keçirilib. 08 sentyabr 1918-c il tarixdə Azərbaycan Korpusu qərargahında tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin edilib. 20 noyabr 1918-ci il tarixdə Hərbi Nazirliyin Ümumi Qərargahı rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 164 №-li əmri ilə aşağı vəzifəyə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 11-ci piyada bölüyü komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazir 31 mart 1919-cu il tarixli 166 №-li əmrində 1-ci piyada diviziya komandirinə ştabs-kapitan Hüseyn-zadə Sultan bəyin xidmət yerinə gəlib

çatan kimi itizam cəzası qaydasında 1(bir) ay müddətinə həbs edilməsi barədə əmr verilib. Böyük ehtimalla intizamsızlığına görə aşağı vəzifəyə keçirildiyi üçün Hərbi nazir belə əmr vermişdir. 21 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 426 №-li əmri ilə xidmət yeri dəyişdirilərək Lənkaran ehtiyat piyada taborunda piyada bölük komandiri vəzifəsinə təyin edilir. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 27 yanvar 1920-ci il tarixli 54 №-li əmri ilə 25 yanvar 1920-ci il tarixdən Lənkaran ehtiyat piyada taboru komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilir. Hərbi nazirin 154 №-li əmri ilə 14 mart 1920-ci il tarixdən Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və həmin alayın piyada tabor komandiri vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında piyada taboru komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

402. **Podporuçik HÜSEYN-ZADƏ** Əmiraslan

1898-ci ildə Gəncə quberniyasının Şuşa şəhərində anadan olub. Bakı Kişi Gimnaziyasının 4 sinfini bitirib. 05 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına göndərilib. 06 yanvar 1919-cu il tarixdə həmin tabor 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının tərkibinə 3-cü piyada taboru kimi daxil edilib və xidmət yeri həmin taborda saxlanılıb. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada

alayına dəyişdirilib. Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə Bakı Hərbi komendantı idarəsi rəisinin sərancamına xidməti vəzifəsinin icrası üçün ezam edilib. 04 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 453 №-li əmri ilə 01 oktyabr 1919-cu il tarixdən Bakı Hərbi komendant idarəsinin kiçik adyutantı vəzifəsinə təyin edilmiş hesab edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Bakı Hərbi komendant idarəsində həqiqi hərbi xidmətdə olub.

### 403. **Praporşik HÜSEYN-ZADƏ** Salman

20 fevral 1898-ci il tarixdə anadan olub. Yelizavetpol Ali ibtidai məktəbində tam təhsil alıb. 1918-ci ilin iyul-avqust aylarında Şamaxı ətrafında 2-ci Artilleriya briqadasının tərkibində könüllü kimi döyüşlərdə iştirak edib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində birinci dərəcə ilə artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin divizionun artilleriya taqımı komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. 12 yanvar 1920-ci il tarixdə xidməti vəzifəsinin icrası zamanı həlak olduğuna görə Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 57 №-li əmri ilə həlak olduğu tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

### 404. **Praporşik HÜSEYN-ZADƏ** Abdul Əli

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə

siyahılarında “podpraporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Döyüşlərdə fərqləndiyinə görə Qarabağ Qoşunları Komandanının 13 aprel 1920-ci il tarixli 127 nömrəli təqdimatına əsasən Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

405. **Praporşik HÜSEYNXANOV** Hüseyn

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

406. **Praporşik HEYBƏTOV** Həsən

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

407. **Praporşik HEYBƏTOV** Əli

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 23 yanvar 1920-ci il tarixdə xidməti vəzifəsinin icrası zamanı həlak olduğuna görə Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 57 №-li əmri ilə həlak olduğu tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

408. **Ştabs-kapitan XACİYEV** Feodr Konstantinoviç

01 noyabr 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 noyabr 1919-cu il tarixli 513 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi Ordunun İntendant idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Ordunun İntendant idarəsində həqiqi hərbi xidmətdə olub.

409. **Kapitan XAN XOYSKİ** Teymur Xan

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində "kapitan" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 09 mart 1919-cu il tarixdə Hərbi nazirin 118 №-li əmri ilə Hərbi məhkəmənin müvəqqəti üzvü seçilib. 29 aprel 1919-cu il tarixdə Hərbi nazirin 225 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının 2-ci piyada taborunun komandiri (Bakı

şəhərində dislokasiya edilmiş) vəzifəsinə təyin edilib. 17 may 1919-cu il tarixdə 255 №-li əmrlə Hərbi məhkəmənin müvəqqəti üzvülüyündən azad edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və həmin alayın 2-ci piyada taborunun komandiri vəzifəsinə təsdiq olunub. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 04 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 558 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının piyada tabor komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının piyada tabor komandiri kimi həqiqi hərbi xidmətdə olub.

410. **Kapitan XANHÜSEYNOV** Fərəculla bəy

21 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 35 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

411. **Poruçik XANTOV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. Xidmət yerini özbaşına tərk etdiyinə görə Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 13 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb və tutularaq məsuliyyətə cəlb edilməsi əmr edilib.

412. **Podporuçik XANBUDAQOV** Əliş bəy

10 aprel 1897-ci il tarixdə Gəncə quberniyasında zadəgan ailəsində anadan olub. Gəncə Mixayılovski Peşə Məktəbində təhsil alıb. 03 sentyabr 1917-ci il tarixdə Milli Qvardiyada könüllü həqiqi hərbi xidmətə qəbul edilib. 13 sentyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 2-ci piyada bölüyü komandiri vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Döyüş xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada

alayında 2-ci piyada bölüyü komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

413. **Polkovnik XARKEVİÇ** Vladimir Samsonoviç

Milliyəti rus. 19 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 4-cü dağ artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 51 №-li əmri ilə isə 11 yanvar 1919-cu il tarixdən 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.

414. **Ştabs-kapitan XARAİDZE** Akakiy İosifoviç

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və 5-ci piyada bölüyü komandiri vəzifəsinə təyin edilib. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

415. **Poruçik XARAİDZE**

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul

edilib və Hərbi nazirin 15 iyul 1919-ci il tarixli 323 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334 №-li əmri ilə 21 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

416. **Poruçik XAYATOV** Adil bəy

01 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

417. **Praporşik XASAYEV** Məmməd

23 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda məmur kimi xidmətə qəbul edilib və Hərbi nazirin 310 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinin məmuru (8-ci

dərəcə ilə) vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 mart 1920-ci il tarixli 132 №-li əmri ilə 01 mart 1920-ci il tarixdən Ordu Qərargahının Hərbi-topoqrafiya şöbəsinin hərbi topoqarfiya çəklişləri üzrə kiçik iş icraçısı vəzifəsinə keçirilib. 24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbinin Kürd bölməsini zabit sınaq imtahanlarında iştirak etməklə "praporşik (topoqrafiya üzrə)" hərbi rütbəsində bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri ilə Ordu Qərargahının Hərbi-topoqrafiya şöbəsi rəisinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

418. **Poruçik XƏLİLOV** Məmməd

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Rəislərinə hörmətsizlik etdiyinə və əmri icra etmədiyinə görə barəsində cinayət işi qaldırılmış və Nazirlər Şurası Sədrinin 08 oktyabr 1919-cu il tarixli əmri ilə cinayət işinin istintaqına dayandırılmışdır. Cinayət işinə xitam verilməsi Hərbi nazirin 29 oktyabr 1919-cu il tarixli 499 №-li əmri ilə elan edilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının qeyri-nizami bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının qeyri-nizami bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

419. **Praporşik XƏLİLOV** Məcid İsmayıl oğlu

20 avqust 1899-cu il tarixdə Yelizavetpol quberniyasının Zaqatala qəzasında kəndli ailəsində anadan olub. Zaqatala Ali ibtidai məktəbinində təhsil alıb. 10 yanvar 1918-ci il tarixdə 3-cü Ləzgi müsəlman süvari alayında 2-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 20 aprel 1918-ci il tarixdə "kiçik uryadnik" hərbi rütbəsinə layiq görülüb. 01 iyun 1918-ci il tarixdə "baş uryadnik" hərbi rütbəsi verilib. 01 sentyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Gəncə Podpraporşiklər Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 5-ci piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 3-cü Gəncə piyada alayı komandirinin 01 mart 1919-cu il tarixdə tərtib etdiyi attestasiyaya vərəqində "tutduğu vəzifəyə uyğun olmadığı" qeyd edilib. 01 aprel 1919-cu il tarixdə xidmət yerini özbaşına tərk etdiyi üçün Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb və tutularaq məsuliyyətə cəlb edilməsi əmr edilib.

420. **Praporşik XƏLİLOV** Bəhram

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 19 aprel 1920-ci il tarixdə Hərbi nazirin 216 №-li əmri Kürd atıcı taboruna xidmət yeri dəyişdirilib.

Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

421. **Praporşik XUDİYEV** Cəlil

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

422. **Rotmistr XUDAVERDİYEV** Xudad bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 194 №-li əmrində “ştabs-rotmisrt” hərbi rütbəsində Süvari diviziyası qərargahının Baş adyutantı vəzifəsində həqiqi hərbi xidmətini davam etdirdiyi qeyd edilib. 09 mart 1919-ci il tarixdən 25 iyun 1919-cu il tarixədək Hərbi məhkəmənin müvəqqəti üzvü olub. 12 iyun 1919-cu il tarixdə Hərbi nazirin 289 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının nizami şöbəsinin baş adyutantı vəzifəsinin icraçısı təyin edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə “rotmistr (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin Hərbi nəqliyyat şöbəsi rəisi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “rotmistr” hərbi rütbəsində Ordu Qərargahının General Kvartirmeyster idarəsinin Hərbi nəqliyyat şöbəsi rəisi vəzifəsinin icraçısı kimi həqiqi hərbi xidmətdə olub.

423. **Poruçik XUDAVERDİYEV** Həsən

14 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

424. **Praporşik XUDADATOV** İbat

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada

diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

425. **Praporşik XUDAZADOV** Nəsirağa

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

426. **Praporşik XOCAYEV** Nəcməddin Kibiş oğlu

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında “praporşik” hərbi rütbəsində Əlahiddə Zaqatala piyada taborunda həqiqi hərbi xidmət keçməsi qeyd edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci

piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

427. **Praporşik XOMERİKİ**

Milliyəti gürcü. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "praporşik" hərbi rütbəsində 1-ci Piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmət keçməsi qeyd edilib. Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə 22 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

428. **General-mayor XLEBNİKOV**

Milliyəti rus. 01 aprel 1920-ci il tarixdə "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə Hərbi Məktəbin müəllimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində Hərbi Məktəbin müəllimi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

429. **Ştabs-rotmistr XVASTUNOV**

Milliyəti rus. 20 dekabr 1918-ci il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 438 №-li əmri ilə 20 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

430. **Praporşik XİMULYA**

Milliyəti gürcü. 20 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Gəncə dəmir yolu stansiyasının komendantı vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 102 №-li əmri ilə 25 fevral 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

431. **Ştabs-rotmistr İBRAHİMBƏYLİ**

11 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 24 yanvar 1919-cu il tarixdən 07 aprel 1919-cu il tarixədək Hərbi Məhkəmənin müvəqqəti üzvü olub. 31 mart 1919-cu il tarixdə Hərbi nazirin 176 №-li əmri ilə Hərbi Nazirliyin Qoşunların daşınması üzrə şöbəsi rəisinin köməkçisi və Gəncə dəmiryolu stansiyasının komendantı vəzifəsinin müvəqqəti icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 23 iyul 1919-cu il tarixli 333 №-li əmri ilə 20 iyul 1919-cu il tarixdən aşağı vəzifəyə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına hərbi xidmətini davam etdirmək üçün göndərilib. 07 avqust 1919-cu il tarixdə Hərbi nazirin 351 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı 3-cü süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

432. **Podpolkovnik İBRAHİMBƏYLİ** Lətif bəy

24 may 1919-cu il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 25 may 1919-cu il tarixli 266 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 26 dekabr 1919-cu il tarixli 595 №-li əmri ilə Bakı İstehkam rayonunun Qala taboru (Bakı şəhərində yeni yaradılan) komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Bakı İstehkam rayonunun Qala taborunun komandiri kimi həqiqi hərbi xidmətdə olub.

433. **Podporuçik İBRAHİMOV** Mirzəxan

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

434. **Praporşik İBRAHİMOV** Mehti

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilir. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 166 №-li əmri ilə növbəti “praporşik (süvari üzrə)” hərbi rütbəsi verilib. 12 fevral 1920-ci il tarixldə Hərbi nazirin 92 №-li əmri ilə Kürd süvari divizionuna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin

süqutuna kimi “praporşik” hərbi rütbəsində Kürd süvari divizionunda həqiqi hərbi xidmətdə olub.

435. **Praporşik İBRAHİMOV** Mövsüm

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında “podpraporşik” hərbi rütbəsində Ümumi Qərargahda həqiqi hərbi xidmət keçməsi qeyd edilib. Təşkilatı-ştat tədbirləri ilə əlaqədar Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ordu Qərargahının qeyri-nizami bölüyünün zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə növbəti “praporşik (süvari üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Ordu Qərargahının qeyri-nizami bölüyündə həqiqi hərbi xidmətdə olub.

436. **Praporşik İBRAHİMOV** Mürsəl

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” həri rütbəsində bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti “praporşik (piyada ürə)” hərbi rütbəsi verilib. 01 aprel 1920-ci il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə xidmət yeri Kürd atıcı taboruna dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

437. **Praporşik İBRAHİMOV** Teymur

05 may 1919-cu ildə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə

bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 438. **Poruçik İQNATOV-İQNATEV**

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 06 mart 1919-cu il tarixdən öz arzusu ilə Hərbi nazirin 09 mart 1919-cu il tarixli 118 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 439. **Poruçik İOSEBAŞVİLİ**

Milliyəti gürcü. 01 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 397 №-li əmri ilə Hərbi Nazirliyin Avto hissə rəisininköməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 10 fevral 1920-cu il tarixli 96 №-li əmri ilə 06 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 440. **Podporuçik İSAYEV** Eyyub Əsgər oğlu

1899-cu il tarixdə Yelizavetpol quberniyasının Gəncə şəhərində anadan olub. Gəncə Ali ibtidai məktəbində təhsil alıb. 18 yanvar 1918-ci il tarixdə 1-ci Müsəlman atıcı alayında 2-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 07 iyun

1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbində hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Gəncə Podpraporşiklər Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə xidmət yeri dəyişdirilərək 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının pulemyot komandasının kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 21 iyun 1919-cu il tarixdə Hərbi nazirin 305 №-li əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 03 avqust 1919-cu il tarixdə Hərbi nazirin 347 №-li əmri ilə ezamiyyətdən 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına geri qaytarılıb VƏ pulemyot komandasının komandiri təyin edilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-cu il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

441. **Poruçik İSMAYIL** Haqqı-Əfəndi

1916-cı ildə Sank-Peterburq Hərbi Məktəbini[1] bitirib. Birinci Dünya müharibəsində Belçikada vuruşub. 06 may 1919-cu il tarixdə Osmanlı Hərbiyyə Nazirliyinə azərbaycan türkü olaraq Osmanlı ordusunda xidmət etmək və Osmanlı vətəndaşlığını qəbul etmək üçün müraciət edib. Məktubunda təhsilini rusca aldığı üçün türkcə bilmədiyini, lakin orduya qəbul edilərsə türkcə öyrənəcəyini və Azərbaycan Xalq Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınmasından sonra Cümhuriyyət ordusunda xidmət edəcəyini bildirmişdir. Eyni zamanda onun Osmanlı ordusunun süvari bölmələrində

həqiqi hərbi xidmətə qəbul edilməsini xahiş etmişdir. 12 may 1919-cu il tarixdə Osmanlı Xarici İşlər Nazirliyinin 483 nömrəli və 15 may 1919-cu il tarixdə isə Osmanlı Daxili Nəzarət üzrə Əmniyyət Müdirliyindən verilən cavab məktublarında ona vətəndaşlıq verilməsinin mümkün olmadığını, lakin Azərbaycan vətəndaşı kimi Osmanlı ordusunda xidmət edə biləcəyi bildirilmişdir. Böyük ehtimalla 19 aprel 1920-ci il tarixədək Osmanlı ordusunda xidmət etmişdir. Məktubunda onun Üsküdarda Sultantəpə məhəlləsində Ali Rza bəyin 13 nömrəli evində kirayədə yaşadığı qeyd edilmişdir.

İsmayıl Haqqı-Əfəndi 19 aprel 1920-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 216 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Bəzi mənbələrdə yanlış olaraq onun türk vətəndaşı olduğu, yarbay (podpolkovnik) hərbi rütbəsində 1920-ci ilin mart-aprel aylarında Cümhuriyyət ordusunun tərkibində Qarabağda erməni daşnaklarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etdiyi qeyd edilib. Əslində onun Osmanlı ordusuna hərbi xidmətə qəbul üçün ünvanladığı müraciətdə “poruçik (indiki baş leytenant hərbi rütbəsinə bərabər)” olduğu və türk vətəndaşı deyil azərbaycan vətəndaşı olduğu özü tərəfindən aydın şəkildə qeyd edilib. Onun məhz Cümhuriyyət ordusuna qəbulu özünündə öncə bəhs etdiyimiz müracətində də qeyd etdiyi kimi Cümhuriyyətin 1920-ci ilin yanvar ayında dünya dövlətləri tərəfindən tanınmasından sonra baş tutmuşdur. Poruçik İsmayıl Haqqı-Əfəndi Cümhuriyyət ordusuna qəbul edilərkən Qarabağda aparılan döyüş əməliyyatlarının əsas mərhələsinin bitdiyini və təyin olunduğu hərbi hissənin Bakı şəhərində yerləşdiyinin nəzərə alsaq, onun həmin əməliyyatlarda iştirakı qeyri-mümkün görünür. (Bax: İstifadə olunmuş mənbə və ədəbiyyat “*Azerbaycan Cumhuriyyeti 1918-1920, Osmanlı Arşiv Belgeleri, TEAS Press – 2018*”).

442. **Praporşik İSMAYILOV** Əlia Ağa

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. 04 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 453 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına təyin edilir. Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 30 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboruna keçirilir. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda həqiqi hərbi xidmətdə olub.

443. **Praporşik İZMAYILOV** Ağaəmi

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə ştat dəyişikliyi ilə əlaqədar Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və həmin tarixdən Hərbi Məktəbin Kürd bölməsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Hərbi Məktəbin Kürd bölməsinin rəisi vəifəsində həqiqi hərbi xidmətdə olub.

444. **Praporşik İSMAYILOV** Bəşir

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə

ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 19 oktyabr 1919-cu il tarixdə xidməti vəzifəsinin icrası zamanı həlak olduğuna görə Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 511 №-li əmri ilə həlak olduğu tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

445. **Podporuçik İSMAYILBƏYOV** Həmid

19 aprel 1896-cı il tarixdə Yelizavetpol quberniyasında zadəgan ailəsində anadan olub. Gəncə Müəllimlər Seminariyasında təhsil alıb. 20 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 7-ci piyada bölüyü komandiri vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 08 oktyabr 1919-cu il tarixli 40 №-li və Hərbi nazirin 23 oktyabr 1919-cu il tarixli 492 №-li əmri ilə "podporuçik" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

446. **Podporuçik İSMAYILOĞLU** İbrahim

Milliyəti türk. 01 oktyabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Mühəndis Məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətinin davam etdirmək üçün göndərilib.

Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Mühəndis Məktəbində həqiqi hərbi xidmətdə olub.

447. **Polkovnik İSRAFİLOV** İsrafil bəy Məhəmmədnəbi oğlu

(Polyak hərbi mənbələrində Bey Muchamed İsrafil, Bey İsrafil Yedigar və ya İsrafil bəy İsrafilbəyli kimi də tanınır)

07 avqust 1988-ci il tarixdə Tiflis quberniyasının Tbilis şəhərində anadan olub. 1910-cu ildə Tiflis Piyada Məktəbində təhsilini tamamladıqdan sonra "podporuçik" hərbi rütbəsində Çar ordusunda həqiqi hərbi xidmətə başlayıb. Birinci Dünya Müharibəsində Varşava yaxınlığında avstriyalılrar qarşı vuruşub. 1915-ci ildə Qafqaz cəbhəsinə keçirilib. Daha sonra Odessda və Fars körfəzindəki döyüş əməliyyatlarında iştirak edib. 1916-cı ildə "kapitan" hərbi rütbəsində Qafqaz piyada diviziyasının tərkibində Rumıniya cəbhəsinə göndərilib. Müsəlman Korpusunda həqiqi hərbi xidmətə başlama tarixi bilinmir.

Müəllifdən: "Müsəlman Korpusunun və Qafqaz İslam Ordusunun arxiv sənədləri mövcud olmadığı üçün həmin korpusun tərkibində xidmət etmiş zabit heyəti haqqında məlumatların əldə edilməsi qeyri-mümkündür. 1918-ci ilin noyabr ayının əvvələrində Cümhuriyyət Hərbi Nazirliyinin fəaliyyətə başlamasından sonra zabit heyətinin uçotu bərpa edilmişdir və məhz bu səbəbdən, zabit heyətinin xidmətini bu günə kimi saxlanılmış həmin sənədlər əsasında müəyyən etmək olur. Bəzi məndələrdə onun "rotmistr" hərbi rütbəsinə olması qeyd edilsədə bu həqiqətə uyğun deyil. Birincisi "rotmistr" hərbi rütbəsi Çar ordusunda və eləcədə Cümhuriyyət ordusunda süvari qoşun hissələrinə aid hərbi rütbə olub. Bu hərbi rütbə zabitin təhsil aldığı hərbi məktəbdə yiyələndiyi ixtisas görə verilib. Arxiv sənədlərində və İsrafil bəy İsrafilovun özünün də xatirələrində qeyd etdiyi kimi onun Tiflis Piyada Məktəbini

bitirdiyi bizə məlumdur. Tiflis Piyada Məktəbi isə Çar ordusunda piyada qoşunları üçün zabitlər hazırlayan hərbi məktəb olub. Bundan əlavə Cümhuriyyət Hərbi Nazirliyinin fəaliyyətə başlamasından sonra bütün yazışmalarda və əmrlərdə onun "kapitan" hərbi rütbəsində olduğu qeyd edilir. Ümumiyyətlə, həm Çar ordusunda həm də Cümhuriyyət ordusunda piyada qoşunlarındakı "kapitan" hərbi rütbəsi süvari qoşunlarındakı "rotmistr" hərbi rütbəsinin ekivalenti olub. Bu oxucularda çaşqınlıq yatarmamalıdır."

Kapitan İsrafilov İsrafil bəy barəsində Cümhuriyyət ordusunda ilk məlumat onun Ümumi Qərargah rəisinin 19 dekabr 1918-ci il tarixli 461/170 nömrəli təcili teleqrammı ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərildiyinin qeyd edilməsidir.

Hərbi nazir 05 yanvar 1919-cu il tarixli təcili teleqrammasında Nazirlər Şurası Sədrinə 1-ci Cavanşir piyada alayı komandiri polkovnik Vəkilovun məsuliyyətsizliyi ücbatından alayda vəziyyətin acınacaqlı olduğunu ona görədə daha məsuliyyətli və işğüzar kapitan İsrafilovun növbəti hərbi rütbə verilmələ həmin vəzifəyə təyin edilməsi barədə vəsatətlə çıxış edir və Hökümətin qərarı barədə onu məlumatlandırmasını xahiş edirdi. Məhz Hökümətin müsbət qərarından sonra Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli 22 №-li əmri ilə 12 yanvar 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri vəzifəsinə təyin edilir. Nazirlər Şurası Sədrinin 11 yanvar 1919-cu il tarixli 228 №-li və Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli 22 №-li əmri ilə isə vaxtından əvvəl "podpolkovnik" hərbi rütbəsi verilir. 25 fevral 1919-cu il tarixdə Hərbi nazirin 99 №-li əmri ilə tutuduğu vəzifədən azad edilib və 22 fevral 1919-cu il tarixdən Qoşunlarda pulemyot işi üzrə təlimatçı vəzifəsi həvalə edilməsi üçün Hərbi Nazirliyin Ümumi Qərargahına ezam edilib. 02 mart 1919-cu il tarixdə 104 №-li əmrlə Gəncə Praporşiklər

Məktəbində yunkerlərə (kursantlara) pulemyot işi üzrə dərslərin keçirilməsinə cavabdehlikdə ona həvalə edilib. 09 mart 1919-cu il tarixdən 07 aprel 1919-cu il tarixədək Hərbi məhkəmənin müvəqqəti üzvü seçilib (Hərbi nazirin 118 və 181 №-li əmrləri). Hərbi Nazirliyin ştatları təsdiq edildikdən sonra Hərbi nazirin 14 mart 1919-cu il tarixli 130 №-li əmri ilə 01 mart 1919-cu il tarixdən Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti (Qoşunlarda pulemyot işi üzrə təlimatçı vəzifəsini icra etməklə) vəzifəsinə təyin edilmiş hesab edilib. Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 175 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının komandiri vəzifəsinin müvəqqəti icraçısı (alay komandiri polkovnik Məmmədovun səpmə yatalaq xəstəliyinə xəstəlməsi ilə əlaqədar) təyin edilib. 14 aprel 1919-cu il tarixdə isə Hərbi nazirin 202 №-li əmri ilə 08 aprel 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin müavini vəzifəsinə təsdiq olunub. 26 may 1919-cu il tarixdə xidmət yeri Hərbi nazirin 30 may 1919-cu il tarixli 274 №-li əmri ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə dəyişdirilib. Hərbi nazirin 25 iyun 1919-cu il tarixli 311 №-li əmri ilə 23 iyun 1919-cu il tarixdən yeni yaradılan 5-ci Bakı piyada alayının komandiri vəzifəsinə təyin edilir. Həmin alay 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının bir piyada taborunun bazasında yaradılıb. 2-ci Bakı piyada alayı isə öncə 2-ci Quba daha sonra Hərbi nazirin 328 №-li əmri ilə 4-cü Quba piyada alayı kimi 2-ci piyada diviziyasının tərkibinə daxil edilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 5-ci Bakı piyada alayı da yeni yaradılan 2-ci piyada diviziyasının tərkibinə daxil edilmişdir. Alay komandiri kimi nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-cu il tarixli 167 №-li əmri ilə vaxtından əvvəl “polkovnik (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində 2-ci

piyada diviziyasının 5-ci Bakı piyada alayının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

Polkovnik İsrafil bəy İsrafilov aprel işğalından sonra Türkiyəyə gedir. 1924-cü ildə isə Polşaya keçir. Polşa ordusunda müqavilə əsasında xidmətə başlayır. 1926-1928-ci illərdə Varşava Ali Hərbi Məktəbində təhsil alır. Əvvəlcə 36-cı piyada alayında, 1939-cu ilin yazında isə artıq Qrodno şəhərində yerləşən 29-cu piyada diviziyasında qərargah zabiti vəzifəsində xidmət edir. İkinci Dünya müharibəsi ərəfəsində podpolkovnik rütbəsində Polşa Silahlı Qüvvələrinin 11-ci süvari alaynda xidmət keçməsi haqda məlumat mövcuddur.

448. **Praporşik İSRAFİLBƏYOV** Məcid

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini artilleriya ixtisası üzrə "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 5-ci dağ-artilleriya batareyasının zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 may 1919-cu il tarixli 274 №-li əmri ilə növbəti "praporşik (dağ artilleriyası üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

449. **Praporşik İSGƏNDƏROV** Məhərrəm

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

450. **Praporşik İSGƏNDƏROV** Davud

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

451. **Podporuçik İSGƏNDƏROV** İsgəndər

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

452. **Praporşik İSGƏNDƏRBƏYOV** Şamil

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Alayın rabitə komandasının rəisi vəzifəsini icra edib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına keçirilib. 07 fevral 1920-ci il tarixdə xidmət yeri Hərbi nazirin 77 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi

rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

453. **Poruçik İSMAYIL-ZADƏ** Ənvər

12 fevral 1920-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 93 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandiri sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

454. **Praporşik İSFƏNDİYAROV** Yahya

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

455. **Praporşik İLYASOV** Xaylar

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

456. **Podporuçik İHALİBƏYOV** Zaal

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Hərbi məktəb rəisinin sərancamında saxlanılıb. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

457. **Milis praporşiki İMANOV** Hacı Xəlil

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

458. **Praporşik İMANOV** Rəhim

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna

kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

459. **Praporşik İMANOV** Sadıx

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Məktəb rəisinin sərancamına xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi - Hərbi Məktəbi adlanıb və Hərbi Məktəbin 2-ci yünker bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

460. **Praporşik İMANOV** Qəmbər

09 may 1898-ci il tarixdə Gəncə quberniyasının Şuşa qəzasında anadan olub. Şuşa Ali İbtidai məktəbini bitirib. 02 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 1-ci piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 01 aprel 1920-ci il tarixdə xidmət yeri Hərbi nazirin 182 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

461. **Poruçik İKONNİKOV** Qriqoriy

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Qazaxda yerləşən Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib (Göndəriş vərəqəsi №251). Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə Təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının Qazax şəhərində dislokasiya edilməklə 3-cü piyada taboru adlanılıb və xidmət yeri həmin piyada taborunda saxlanılıb. 27 aprel 1919-cu il tarixdə Hərbi nazirin 223 №-li əmri ilə xidmət yeri Süvari diviziyasının 3-cü Şəki süvari alayına dəyişdirilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

462. **Polkovnik İVANOV**

Milliyəti rus. 05 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Hərbi Nazirliyin Komendantı vəzifəsinin icraçısı təyin edilib. 27 dekabr 1918-ci il tarixdə Hərbi nazirin 37 №-li əmri ilə Hərbi Nazirliyin Komendantı vəzifəsinin icraçısı vəzifəsində saxlanılmaqla Gəncə şəhərinin Komendantı vəzifəsidə ona həvalə edilib. Təşkilati-ştat tədbirlərinin aparılması ilə əlaqədar olaraq Hərbi nazirin 30 sentyabr 1919-cu il tarixli 446 №-li əmri ilə 28 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

Hərbi nazirin 02 fevral 1920-ci il tarixli 65 №-li əmri ilə təkrarən 01 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusunda

həqiqi hərbi xidmətə qəbul edilib və Gəncə qəza hərbi rəisinin müavini vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Gəncə qəza hərbi rəisinin müavini kimi həqiqi hərbi xidmətdə olub.

463. **Podpolkovnik İVANOV** Qeorqiy

Milliyəti rus. 20 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 yanvar 1919-cu il tarixli 53 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsi həmin tarixdən Mühəndis idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Gürcüstan Respublikasının Hərbi Nazirliyindən hərbi əmlakın alınması üzrə komissiyanın üzvü olub (Hərbi nazirin 20 iyun 1919-cu il tarixli 304 №-li əmri). Hərbi nazirin 27 avqust 1919-cu il tarixli 374 №-li əmri ilə 26 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

464. **Ştabs-kapitan İVANOV**

Milliyəti rus. 10 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam edtirmək üçün göndərilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyi və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

465. **Poruçik İVANOV**

Milliyəti rus. 01 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Qazaxda yerləşən Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə Təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının Qazax şəhərində dislokasiya edilməklə 3-cü piyada taboru adlanılıb və xidmət yeri həmin piyada taborunda saxlanılıb. Hərbi nazirin 04 may 1919-cu il tarixli 234 №-li əmri ilə 01 may 1919-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

466. **Poruçik İVANOV** Nikolay

Milliyəti rus. 18 yanvar 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Gəncə intendant əşya anbarı rəisinin köməkçisi vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar "poruçik" hərbi rütbəsində Ordunun İntendant idarəsinin Gəncə intendant əşya anbarı rəisinin köməkçisi kimi həqiqi hərbi xidmətdə olub.

467. **Poruçik İOSSELİANİ** David

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334№-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin

sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 30 mart 1920-ci il tarixdə Hərbi nazirin 176 №-li əmri ilə Kürdəmir dəmir yolu stansiyasının komendantı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Kürdəmir dəmir yolu stansiyasının komendantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

468. **Kapitan İŞMUHƏMMƏDOV** Muhəmməd Əli

01 sentyabr 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 süntyabr 1919-cu il tarixli 433 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Ordu Qərargahının General-Kvartirmeyster idarəsi adlanıb və həmin idarənin adyutantı vəzifəsində saxlanılıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində Ordu Qərargahının General-Kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.

469. **Praporşik İZMAYILOV** Hilal

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Hərbi nazirin 23 fevral 1920-ci il tarixli 114 №-li əmri ilə 01 yanvar 1920-ci il tarixdən Hərbi Zavodun

əsgər komandasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Hərbi Zavodda həqiqi hərbi xidmətdə olub.

470. **Praporşik İZMAYILOV** İzmayıl

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

471. **Kapitan JELEYŞİKOV** Pyotr Yakovleviç

Milliyəti rus. 20 dekabr 1918-ci il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və xidmət yeri yeri həmin Məktəbdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

472. **Poruçik JUQAYEVİÇ**

Milliyəti rus. 14 sentyabr 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 426 №-li əmri ilə Hərbi Nazirliyin Baş Artilleriya idarəsinin kiçik zabiti vəzifəsinə təyin edilib. Təşkilatı-ştat tədbirləri ilə əlaqədar

olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Baş Artilleriya idarəsi həmin tarixdən Ordunun Artilleriya təchizatı idarəsi adlanıb və həmin idarənin kiçik zabiti təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordunun Artilleriya təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

473. **Podpolkovnik JUKOVSKİ** Stanislav Vikenteviç

Milliyəti rus. 17 mart 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahı rəisinin sərancamına ezam edilib. Təşkilatı-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ordu Qərargahında xidmət yeri saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

474. **Poruçik JURAVİN** Nikolay Andrianoviç

Milliyəti rus. 30 mart 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 10 aprel 1919-ci il tarixli 194 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üşün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci

piyada diviziyasının 2-ci Zaqatala piyada alayında adyutant vəzifəsində həqiqi hərbi xidmətdə olub.

475. **Polkovnik JİLYAYEV** Fedor İvanoviç

Milliyəti rus. 11.02.1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 82 №-li əmri ilə Ümumi Qərargahının baş adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 13 noyabr 1919-cu il tarixli 527 №-li əmri ilə Hərbi Nazirliyin və bütün hərbi hissələrin qəfil təftişi üzrə xüsusi komissiyanın üzvü seçilib. 10 dekabr 1919-cu il tarixdən Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə Ümumi Qərargahının Növbətçi General vəzifəsinin icraçısı təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirildiyi üçün 01 mart 1920-ci il tarixdən Hərbi nazirin yanında tapşırıqlar üzrə general vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Hərbi nazirin yanında tapşırıqlar üzrə general vəzifəsində həqiqi hərbi xidmətdə olub.

476. **Podpolkovnik KADONSEV** Pyotr

Milliyəti rus. 30 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-ci il tarixli 37 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podpolkovnik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci Artilleriya

briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

477. **Poruçik KAMİL-ZADƏ** Məhərrəm

03 oktyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 oktyabr 1919-cu il tarixli 477 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Alayın təlim komandasının rəisi vəzifəsini icra edib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

478. **Ştabs-kapitan KAMİL-ZADƏ** Məhərrəm

24 aprel 1920-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 225 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

479. **Polkovnik KAMIŞOV** Nikolay Vasilyeviç

Milliyəti rus. 13 fevral 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 fevral 1919-ci il tarixli 87 №-li əmri ilə 1-ci piyada diviziyasının İntendantı vəzifəsinin müvəqqəti icraçısı (Gəncə şəhərində yerləşən intendant müəssisələrinə nəzarət həvalə edilməklə) vəzifəsinə təyin edilib. 19 aprel

1920-ci il tarixdə Hərbi nazirin 216 №-li əmri ilə vəzifəsinin icrasından azad edilib və diviziya komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

480. **Polkovnik KANÇELİ**

Milliyəti gürcü. 12 fevral 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 30 mart 1919-cu il tarixli 164 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin müavini vəzifəsinə təyin edilib. General-mayor Usubovun yoxlamasına əsasən alayda qoşun təsərrüfatına nəzarətsizliyinə, nizam-intizamın aşağı olmasına və xidməti vəzifəsinin icrasına səhlənkar yanaşdığına görə Hərbi nazirin 14 aprel 1919-cu il tarixli 202 №-li əmri ilə 08 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

481. **Kapitan KANDELAKİ** Nikolay Nesteroviç

Milliyəti gürcü. 01 avqust 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 365 №-li əmri ilə 2 №-li Zirehli qatarın rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 2 №-li Zirehli qatarın rəisi kimi həqiqi hərbi xidmətdə olub.

482. **Podporuçi**k **KAPLANOV** Ramiz

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri 8-ci Ağdaş piyada alayı komandirinin sərancamın göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

483. **Poruçik KARNAUXOV** Andrey

Milliyəti rus. 09 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib (Göndəriş vərəqəsi №163). Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə Təlim taboru Qazax şəhərində dislokasiya olunmaqla 3-cü piyada taboru kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının tərkibinə daxil edilib və xidmət yeri 3-cü piyada taborunda saxlanılıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taborunda (Qazax şəhəri) həqiqi hərbi xidmətdə olub.

484. **General-mayor KARQALETELİ** Vasiliy Dmitriyeviç

Milliyəti gürcü. 29 iyun 1880-ci ildə Tiflis şəhərində anadan olub. Tiflis Klassik Gimnaziyasında təhsil alıb. 1901-ci ildə Moskva Hərbi Məktəbini və 1913-cü ildə isə Baş Qərargahın Nikolayev Hərbi Akademiyasının 1-ci dərəcə ilə bitirib. Çar ordusundakı hərbi xidməti dövründə 1903-cü ildə "3-cü dərəcəli müqəddəs Anna" və 1907-ci ildə "3-cü dərəcəli müqəddəs Stanislav" ordenləri ilə təltif edilib.

15 iyul 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 325 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin rəisi vəzifəsinə təyin edilib. 30 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 506 №-li əmri ilə

Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın, 17 fevral 1920-ci il tarixdə isə 105 №-li əmrlə Ümumi Qərargahın yenidən təşkil edilməsi üzrə komissiyanın üzvü seçilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirildiyi üçün Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin rəisi vəzifəsinə yenidən təsdiq edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "general-mayor" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "generla-mayor" hərbi rütbəsində Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

485. **Ştabs-kapitan KARABANOV**

Milliyəti rus. 21 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsi 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlanıb və xidmət yeri həmin yeni yaradılan idarədə saxlanılıb. Hərbi nazirin 22 may 1919-cu il tarixli 264 №-li əmri ilə 20 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.

486. **Aviasiya poruçiki KALENİN** Ömər

Milliyəti tatar. 06 iyul 1919-cu il tarixdə "aviasiya poruçiki" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li

əmri ilə Baş Qərargah rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 02 fevral 1920-ci il tarixli 65 №-li əmri ilə Lənkəran ehtiyat piyada taboruna xidmət yeri dəyişdirilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "aviasiya poruçiki" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

487. **Podporuçik KAZIMOV** İsrail

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.



488. **Polkovnik KAZIMBƏYOV** Cahangir bəy (mühacirətə getdikdən sonra Cahangir bəy Kazım soyadını istifadə etmişdir)

1888-ci ildə Gəncə şəhərində anadan olub. 1902-ci ildə Gəncə Kişi Gimnaziyasını bitirir və elə həmin ildə Sankt-Peterburq Hərbi Məktəbə daxil olur. 1905-ci ildə həmin məktəbi "praporşik (indiki kiçik leytenant)" hərbi rütbəsində bitirərək Çar ordusundakı süvari birliklərdə xidmət edir. Birinci Dünya müharibədə iştirak edib. Onun Çar ordusundakı həqiqi hərbi xidməti zamanı hərbi rütbələr verilmə tarixləri haqqında məlumatlar yoxdur. Lakin 28 noyabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilərkən "podpolkovnik" hərbi rütbəsində

olması qeyd edilib. Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 28 noyabr 1918-ci il tarixdən Qazax şəhərində dislokasiya olunan Təlim taboru komandirinin müavini vəzifəsinə təyin edilib. 24 dekabr 1918-ci il tarixdə Hərbi nazirin 29 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından ehtiyata buraxılır (səbəbi bilinmir).

02 yanvar 1919-cu il tarixdə təkrarən hərbi xidmətə qəbul edilir və Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli 22 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilir. Podpolkovnik Cahangir Kazımbəyovun təkrarən həqiqi hərbi xidmətə çağrılması Hərbi nazirin 19 mart 1919-cu il tarixli 136 №-li əmrində səhvən ikinci dəfə keçmişdir. Hərbi nazirin 03 iyun 1919-cu il tarixli 276 №-li əmri ilə 01 iyun 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının komandiri vəzifəsinin icraçısı təyin edilir. 24 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 167 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının komandiri vəzifəsinə təsdiq olunur. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Azərbaycanda Sovet işğalı ilə barışmayaraq 1920-ci ilin may-iyun aylarındakı Gəncə üsyanının rəhbərlərindən biri kimi erməni-bolşevik birləşmələrinə qarşı mübarizəyə qalxır. Üsyan yatırıldıqdan sonra Türkiyəyə mühacirət edir və ordan 1923-cü ildə Polşaya mühacirət edir. Müqavilə ilə Polşa ordusuna həqiqi hərbi xidmətə qəbul edilir və Skeyneviç şəhərindəki 26-cı süvari dviziyasına təyinat alır. Əvvəlcə tabor daha sonra isə alay komandiri vəzifəsinə yüksəlir. 1939-cu ildə Almaniyanın Polşanı işğal etməsi ilə əlaqədar əsir düşür və əsirlikdən azad olduqdan sonra siyasi mühacir kimi Avropada Sovet İttifaqının müstəmləkə siyasətinə qarşı siyası mübarizəyə qatılır.

Həyat yoldaşı: Hüseynqulu xan Xoyskinin qızı Valiyə xanımla ailə həyatı qurub. Həmin evlilikdən Abbas, Mustafa və Əli adlı oğulları olub.

489. **Podporuçik KAZIMOV** İsa Kazım oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və həmin alayın 1-ci piyada taborunun 1-ci piyada bölüyü komandiri vəzifəsinin icraçısı təyin edilib. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayın 1-ci piyada taborunda 1-ci piyada bölük komandiri kimi saxlanılıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının 1-ci piyada taborunun 1-ci piyada bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

490. **Praporşik KAZIM-ZADƏ** Hacı Ağa

15 may 1898-ci il tarixdə Tiflis quberniyasında zadəgan ailəsində anadan olub. Tiflis Kommersiya Məktəbində təhsil alıb. 03 aprel 1918-ci il tarixdə Milli Qvardiyada könüllü kimi

həqiqi hərbi xidmətə qəbul edilib. 06 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 1-ci piyada taborunun 3-cü piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 1-ci piyada taborunun 3-cü piyada bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

491. **Podpolkovnik KOBORDO** Nikolay Kazimoviç

13 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyasının baş zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 97 №-li əmri ilə 19 fevral 1919-cu il tarixdən 1-ci Artilleriya briqadası 2-ci dağ artilleriya divizionunun 5-ci dağ artilleriya batareyası komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podpolkovnik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci Artilleriya briqadası 2-ci dağ artilleriya divizionunun 5-ci dağ artilleriya batareyası komandiri kimi həqiqi hərbi xidmətdə olub.

492. **Kapitan KOBORDO** Konstantin

13 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-cu il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briqadası 2-ci dağ artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

493. **Polkovnik KOÇLADZE** Qeorqiy Dmitriyeviç

Milliyəti gürcü. Çar ordusunda 2-ci Qafqaz dəmir yolu taborunun komandiri olub. 20 sentyabr 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 oktyabr 1919-cu il tarixli 459 №-li əmri ilə Hərbi dəmir yolçular məktəbinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Hərbi dəmir yolçular məktəbinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

494. **Kapitan KORKUNOV**

07 mart 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 117 №-li əmri ilə Bakı qəza hərbi rəisinin yolasalma məntəqəsi rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 05 avqust 1919-cu il tarixli 350 №-li əmri ilə 01 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

495. **Poruçik KORNUP** Vladimir

Milliyəti rus. 12 may 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 may 1919-cu il tarixli 254 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun texniki vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun texniki kimi həqiqi hərbi xidmətdə olub.

496. **Poruçik KORCAXİYA**

Milliyəti gürcü. 20 iyul 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Artilleriya idarəsi rəisinin 09 sentyabr 1919-cu il tarixdə Hərbi nazirə yazdığı raportdan aydın olur ki, Bakı şəhərindən Gəncə çəhərinə hərbi hissələr üçün nəzərdə tutulmuş ingilis atları, ikitəkərli arabalar, qoşqu ləvazimatları və döyüş sursatları göndərilən eşalondan Bakı və Biləcəri stansiyaları arasında bir ingilis ikitəkərli arabası üç yəhərlə birlikdə platformadan düşmüş və nəticədə itirlimişdir. Yoxlama zamanı məlum olmuşdur ki, poruçik Korcaxiya platformanın rəisi kimi platformanın nasaz olduğunu bildiyi halda qabaqlayıcı tədbirlər görməmiş və nasazlıq barədə yuxarı komandanlığa məlumat verməmişdir. Bahalı dövlət əmlakına belə laqeyidsizliyinə görə Hərbi nazir onu 24 sentyabr 1919-cu il tarixdə 429 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin

dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə dərhal Cümhuriyyət ordusundan tərxis etmişdir.

497. **Ştabs-kapitan KOSTANTİNOV**

Milliyəti rus. 07 dekabr 1918-ci il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-ci il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 02 aprel 1919-cu il tarixli 171 №-li əmri ilə 01 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

498. **Kapitan KOSTANTİNOVİÇ**

Milliyəti rus. 17 mart 1919-cu il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

499. **Podpolkovnik KOLLERT** Nikolay Nikolayeviç

26 mart 1919-cu il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Briqadanın təsərrüfat hissə rəisi vəzifəsini icra edib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

500. **Poruçik KOYFMAN**

28 dekabr 1918-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Ümumi Qərargahın rəisinə həqiqi hərbi xidmətə qəbul ilə əlaqədar ünvanladığı 13 dekabr 1918-ci il tarixli 29 nömrəli raportda əvvəllər 4-cü müsəlman atıcı alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 06 yanvar 1919-cu il tarixli 11 №-li əmri ilə Təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının tərkibinə Qazax şəhərində dislokasiya olunmaqla 3-cü piyada taboru kimi daxil edilib və xidmət yeri həmin taborda saxlanılıb. Sıra hazırlığı zəif olduğuna və intizamsızlığına görə Hərbi nazirin 17 fevral 1919-ci il tarixli 80 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

501. **Podporuçik KOZLOV**

Milliyəti rus. 01 fevral 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Ərzaq mağazasının kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 76 №-li 16 fevral 1919-cu il tarixli əmrini (bütün hərbi qulluqçuların baş geyim forması olan furajkanın papaq ilə əvəz edilməsi barədə) icra etmədiyinə görə Hərbi nazirin 31 mart 1919-cu il tarixli 166 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

502. **Poruçik KAVTARADZE** Solomon

Milliyəti gürcü. 20 yanvar 1920-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 30 №-li əmri ilə 3-cü Zirehli qatar rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə 16 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

503. **Kapitan KİKNADZE**

Milliyəti gürcü. 01 avqust 1919-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 avqust 1919-cu il tarixli 353 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin baş adyutantı vəzifəsinə təyin edilib. 27 yanvar 1920-ci il tarixdə xidməti vəzifəsinin icrası zamanı həlak olduğuna görə Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 57 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb. Həmin əmrlə bütün dəfn xərclərini Hərbi Nazirlik öz üzərinə götürüb.

504. **Podporuçik KİKNADZE** Vasiliy

Milliyəti gürcü. 30 mart 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 176 №-li əmri ilə Ordunun General-Kvartirmeyster idarəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Ordunun General-kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.

505. **Kapitan KİSLİÇENKO**

Milliyəti ukraynalı. 08 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahına kargüzarlıq fəaliyyəti aparmaq üçün ezam edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ümumi Qərargahla Baş Qərargah idarələri birləşdirilərək Ordu Qərargahı adlandırıldığı üçün həmin Qərargahda kargüzarlıq fəaliyyəti aparmaq üçün saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

506. **Kapitan KİSLİÇENKO**

Milliyəti ukraynalı. 04 yanvar 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin Yerli briqadası idarəsinin baş adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 02 oktyabr 1919-cu il tarixli 448 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

507. **Praporşik KİPÇAKSKİ**

28 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 iyun 1919-cu il tarixli 307 №-li əmri ilə 19 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

508. **Baş leytenant KİTAPÇİ-ZADƏ**

10 oktyabr 1919-cu il tarixdə "mülki dəniz ştabs-kapitanı" rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 oktyabr 1919-cu il tarixli 470 №-li əmri ilə "Astrabad" hərbi gəmisinin komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 92 №-li əmri ilə hərbi rütbəsi hərbi dəniz qüvvələri rütbələrinə uyğunlaşdırılaraq "baş leytenant" hərbi rütbəsi kimi hesab edilib. Cümhuriyyətin süqutuna kimi "baş leytenant" hərbi rütbəsində "Astrabad" hərbi gəmisinin komandiri kimi həqiqi hərbi xidmətdə olub.

509. **Ştabs-kapitan KERVALİDZE** Aleksandr

Milliyəti gürcü. 14 fevral 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı həqiqi hərbi xidmətdə olub.

510. **Praporşik KAZIMOV** Ələkpər

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 13 mart 1920-ci il tarixdə Hərbi nazirin 150 №-li

əmri ilə Ordu Qərargahının qeyri-nizami bölüyünün komandiri vəzifəsinə təyin edilib. Həbs edilərək istintaq altında olduğu üçün Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə 20 aprel 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və siyahılardan çıxarılıb.

511. **Praporşik** **KAZIMOV** İzmayıl

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.



512. **Polkovnik** **KƏSƏMƏNSKİ** Şirin bəy Cəfər oğlu

17 oktyabr 1887-ci il tarixdə Gəncə quberniyasının Qazax qəzasının Qıraq Kəsəmənli kəndində anadan olub. 1905-ci ildə Tiflis Kadet Korpusunu bitirib. 2-ci Konstantin Artilleriya Məktəbinin[1] məzunudur. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmrində "podpolkovnik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbinin rəisi kimi həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 08 aprel 1919-cu il tarixdə Hərbi nazirin 186 №-li əmri ilə 07 aprel 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 09 aprel 1919-cu tarixli 12 №-li və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə növbəti "polkovnik (süvari üzrə)" hərbi

rütbəsi verilib. Alay komandiri təyin olunmasından sonra qısa müddət ərzində alayda döyüş hazırlığının və nizam-intizamın yüksəldilməsi sahəsində səylərinə görə Hərbi nazir tərərfindən 21 aprel 1919-cu il tarixli 211 №-li əmrlə "Təşəkkür" elan edilib. 25 iyun 1919-cu tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb. 14 iyul 1919-ci il tarixdə Hərbi nazirin 328 №-li əmri ilə təkrarər təşkilati tədbirlərin keçirilməsi ilə əlaqədar olaraq 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Həmin 328 №-li əmrlə 14 iyul 1919-cu il tarixdən yeni yaradılan Xaçmaz dəstəsinin rəisi (diviziya komandirinin müavini maaşı verilməklə, eyni zamanda 4-cü Quba piyada alayının döyüş hazırlığına və formalaşmasına cavabdeh) təyin edilib. 18 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 535 №-li əmri ilə Xaçmaz dəstəsinin ləğv edilib və yeni yaradılan Quba dəstəsinin rəisi vəzifəsinə (diviziya komandirinin müavini maaşı verilməklə, eyni zamanda 4-cü Quba piyada alayının döyüş hazırlığına və formalaşmasına cavabdeh) təyin edilib. Həmin əmrlə Qusar qarnizonunun rəisi vəzifəsi də ona həvalə edilib. Eyni zamanda Qusar qəza hərbi rəisi də ona tabe edilib. 07 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 560 №-li əmri ilə 2-ci piyada diviziyası komandirinin müavini vəzifəsinə təyin edilir.

04 yanvar 1920-ci il tarixdə Tiflis şəhərində maleriya xəstəliyindən vəfat etdiyinə görə Hərbi nazirin 07 yanvar 1920-ci il tarixli 12 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb. Vəfatı ilə bağlı Hərbi nazir 10 yanvar 1920-ci il tarixdə polkovnik Şirin bəy Kəsəmənski haqqında 17 №-li əmr imzalamışdır. Həmin əmrdə deyilir: "04 yanvar 1920-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Hərbi attaşesindən uzun müddət ağır xəstəlikdən müalicə olunan polkovnik Kəsəmənskinin vəfat etməsi ilə bağlı kədərli teleqramma alınmışdır. Vətənini hədsiz dərəcədə sevən polkovnik Kəsəmənski hara təyin olunmasından

və hansı tapşırıq almasından aslı olmayaraq öz gücünü həmin vəzifələrin öhdəsindən bacarıqla gəlməyə yönəltmiş, manelər tanımadan verilən tapşırıqları yüksək səviyyədə icra etmişdir. 1918-ci ildə Praporşiklər Məktəbinin rəisi təyin olunandan sonra qısa müddət ərzində ordu üçün yeni zabit kadrlarının hazırlanması işinin təməlini qoymuşdur. 1919-cu ildə 2-ci Bakı piyada alayında (indiki 4-cü Quba piyada alayı) tam anarxiyanın olması ortaya çıxanda polkovnik Kəsəmənski həmin alaya komandir təyin edilmişdir. Alayda komandanlığı qəbul edərkən alaydakı xaosla yanaşı kütləvi şəkildə şəxsi heyətin məhvinə gətirib çıxaran səpmə yatalaq epidemiyası ilə üz-üzə qalmışdı, amma polkovnik Kəsəmənski manelərin qarşısında dayanmadan qısa müddət ərzində dağılmış alayı yaxşı səviyyədə döyüşkən bir hərbi hissəyə çevirmişdir. Daha sonra Xaçmaz dəstəsinin rəisi vəzifəsinə təyinat aldıqdan sonra burda da dəstənin yaradılması, döyüş mövqelərinin möhkəmləndirilməsi və dəstənin qarşısına qoyulan tapşırıqların yerinə yetirilməsi sahəsində böyük əzimkarlıq və fədakarlıq göstərmişdir. Tam əminliklə demək olar ki, harada polkovnik Kəsəmənski vardı orda işlərin ləngiməyəcəyini, uğur və inkişafın olacağını rahatlıqla gözləmək olardı. Məhz bu səbəbdən, Dəstə ilə bütün çətinlikləri dəf edərkən ağır formada maleriya xəstəliyinə tutulmuşdur. 2-ci piyada diviziyası komandirinin müavini təyin olunduqdan sonra isə müalicə üçün Tiflis şəhərinə getmiş və orada vəfat etmişdir. Polkovnik Kəsəmənskinin timsalında ordu ağır itki ilə rastlaşdı. Qoy onun adı bizim gənc ordumuzun alaylarında əbədi olaraq qalsın və onun xidməti bütün şəxsi heyət üçün nümunə olsun. Əmri elan etməklə onun ailəsinə səmimi qəldən heyfsləndiyimi bildirmək istərdim". Həmin əmrdə Hərbi nazir cənazəsinin gətirilməsinin dövlət vəsaiti hesabına təşkil edilməsi və ailəsinə müalicə üçün çəkilən xərclərin qarşılanması məqsədi ilə 10000 (on min) rubl həcmində birdəfəlik yardım verilməsi barədə göstəriş vermişdir.

513. **Poruçik KƏSƏMƏNSKİ** Abuzər

Hərbi nazirin 22 dekabr 1918-ci il tarixli 26 №-li əmri əmri ilə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Qazax şəhərində dislokasiya edilən Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Ümumi Qərargah rəisinə həqiqi hərbi xidmətə qəbul ilə əlaqədar olaraq ünvanladığı 19 dekabr 1918-ci il tarixli raportda əvvəllər Qafqaz İslam Ordusunun tərkibində Qazax şəhərində xidmət etdiyini bildirir. 06 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 11 №-li əmri ilə ştat dəyişikliyi ilə əlaqədar Qazaxdakı Təlim taboru Qazax şəhərində dislokasiya olunmaqla 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının tərkibinə 3-cü piyada taboru kimi daxil edilib və xidmət yeri həmin 3-cü piyada taborunda saxlanılıb. Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 01 iyul 1919-cu il tarixdən Gəncə hərbi komendantının baş adyutantı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində Gəncə hərbi komendantının baş adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

514. **Praporşik KƏRİMOV** Kərim

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 23 iyun 1919-cu il tarixdə Hərbi nazirin 310 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinə ezam edilib (hərbi topoqrafiya işinin öyrənilməsi və sonra hərbi topoqrafiya şöbəsində müvafiq

vəzifəyə təyin olunması məqsədi ilə). 13 mart 1920-ci il tarixdə Hərbi nazirin 150 №-li əmri ilə Ordunun Qərargahına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

515. **Praporşik KƏRİMOV** Məmməd Əmin

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

516. **Praporşik KƏRİMOV** Sultan Əziz

01 sentyabr 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

517. **Podporuçik KƏRİMBƏYOV** Bəhrəm

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri

ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

518. **Ştabs-rotmistr KƏRİMOV** Məmməd bəy

Cümhuriyyət ordusundahəqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir lakin Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmət keçdiyi qeyd edilib. Həqiqi hərbi xidməti dövründə alay üçün nəzərdə tutulmuş qəzetlərin ona verməməsini əsas gətirərək Bərdə poçt-teleqraf bölməsinin rəisi vətəndaş Antonoviçə qarşı kobud rəftar etdiyinə görə Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 181 №-li əmri ilə intizam cəzası qaydasında 30 (otuz) sutka həbs cəzası alıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (süvari üzrə)" hərbi rütbəsi verilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə vaxtından əvvəl "ştabs-rotmistr" hərbi rütbəsinə layiq görülüb. Qarabağda erməni daşnaklarına qarşı aparılan döyüş əməliyyatları zamanı yaralanaraq 14 aprel 1920-ci il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 219 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

519. **Ştabs-kapitan KƏRİMOV-YERİVANSKİ** Məmməd Kərim

18 iyun 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 302 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının Avtomobil hissə rəisinin köməkçisi vəzifəsinə

təyin edilib. Hərbi nazirin 20 avqust 1919-cu il tarixli 369 №-li əmri ilə 20 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

520. **Praporşik KƏRİMOV** Xasay

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

521. **Praporşik KƏRBALAYEV** Məcid Molla Bayram oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə növbəti "praorşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 21 iyun 1919-cu il tarixdə Hərbi nazirin 305 №-li əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 21 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 426 №-li əmri ilə xidmət yeri olan 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına ezamiyyətdən qayıtmış hesab edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci

Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

522. **Praporşik KƏNGƏRLİNSKİ** Qəhraman bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

523. **Praporşik KƏNGƏRLİNSKİ** Adil bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

524. **Milis praporşiki KƏNGƏRLİNSKİ** Süleyman ağa

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

525. **Praporşik KƏLƏNTƏROV** Cabar bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

526. **Polkovnik KLİMENTOV** Aleksandr İvanoviç

Milliyəti rus. 04 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Yerli briqadanın rəisi vəzifəsinin icraçısı təyin edilib. 24 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 429 №-li əmri ilə aşağı vəzifəyə Yerli briqada rəisinin tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Yerli briqadada həqiqi hərbi xidmətdə olub.

527. **Podpolkovnik KLİMENTOV** Vladimir

Milliyəti rus. 02 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə Gəncə dəmiryolu stansiyasının komendantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 176 №-li əmri ilə Hərbi Nazirliyin Qoşunlarin daşınması üzrə şöbənin rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Təşkilatı-ştat tədbirlərinin aparılması ilə əlaqədar olaraq Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 508 №-li əmri ilə 01 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib. Hərbi

nazirin 30 noyabr 1919-cu il tarixli 554 №-li əmri ilə tərxis olunması ilə bağlı 508 №-li əmr ləğv edilib və 30 noyabr 1919-cu il tarixdən Hərbi Nazirliyin İntendant idarəsinin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilmiş hesab edilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidməti zamanı Hərbi Nazirliyin Qoşunlarin daşınması üzrə şöbəsinin rəisi vəzifəsində nümunəvi xidmətinə və məsuldar əməyinə görə Hərbi nazir tərəfindən 08 dekabr 1919-cu il tarixdə 561 №-li əmrlə "Təşəkkür" elan edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq "podpolkovnik" hərbi rütbəsində Ordunun İntendant idarəsində həqiqi hərbi xidmətdə olub.

528. **Ştabs-kapitan KLİMENTOV** Feofilakt

Milliyəti rus. 10 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

529. **Ştabs-kapitan KLİMENTOV** Boris

Milliyəti rus. 10 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

530. **Praporşik KLİMENTOV**

Milliyəti rus. 11 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.

531. **Polkovnik KODİN** Yevqeniy Konstantinoviç

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Ümumi Qərargahın Ümumi şöbəsinin baş adyutantının köməkçisi vəzifəsinin icraçısı təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirildiyi üçün Ordu Qərargahının Növbətçi General idarəsinin Ümumi şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordu Qərargahının Növbətçi General idarəsində həqiqi hərbi xidmətdə olub.

532. **Miçman KLOSSOVSKİ**

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə "miçman" hərbi rütbəsində Artilleriya

İdarəsi rəisinin tapşırıqlar üzrə baş-zabiti vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Öz arzusu ilə 26 aprel 1919-ci il tarixdə Hərbi nazirin 224 №-li əmri ilə 1-ci Artilleriya briqadasına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 12 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 403 №-li əmri ilə 01 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

533. **Ştabs-kapitan KRİVSOV**

Milliyəti rus. 19 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 16 fevral 1920-ci il tarixli 107 №-li əmri ilə 01 fevral 1920-ci il tarixdən Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

534. **Kapitan KUROVİSKİ** Nikolay Andreyeviç

Milliyəti rus. 14 may 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 may 1919-cu il tarixli 248 №-li əmri ilə Xaçmaz dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. 01 iyul 1919-cu il tarixdən Hərbi nazirin 23 iyul 1919-cu il tarixli 333 №-li əmri ilə Yevlax dəmir yolu stansiyasının komendantı vəzifəsinin icraçısı vəzifəsinə keçirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi

“kapitan” hərbi rütbəsində Yevlax dəmir yolu stansiyasının komendantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

535. **Kapitan KUTATELADZE** David

Milliyəti gürcü. 09 iyul 1919-cu il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 18 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 414 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 1-ci yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

536. **Podpolkovnik KUTATELADZE** Bidzin

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdən “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və 3-cü piyada taborunun komandiri vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 5-ci Bakı piyada alayı yeni yaradılan 2-ci piyada diviziyasının tərkibinə daxil edilib və xidmət yeri həmin alayda saxlanılıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podpolkovnik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Gürcüstan ilə Azərbaycan arasında 1919-cu ilin iyun ayında imzalanan anlaşmaya əsasən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmiş gürcü zabitlərinin döyüş əməliyyatlarında iştirakına məhdudiyyət qoyulmasına

baxmayaraq könüllü olaraq 1920-ci ilin mart-aprel aylarında Qarabağda erməni daşnaklarına qarşı aparılan döyüş əməliyyatlarında iştirak etmiş və yaralanmışdır. Hərbi nazir 24 aprel 1920-ci il tarixli 224 №-li əmri ilə onun müalicəsi üçün Hərbi Nazirliyin hesabından 10000 (on min) rubl həcmində maddi yardım ayırmışdır. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

537. **Kornet KUNDUXOV** Aytek

Milliyəti osetin. 26 iyul 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 16 avqust 1919-cu il tarixli 359 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının adyutantı vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kornet (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayının adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

538. **Kapitan KUZNESOV** İvan İvanoviç

Milliyəti rus. 01 aprel 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 aprel 1919-cu il tarixli 202 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala

piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “kapitan (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının 1-ci piyada taboru komandiri kimi həqiqi hərbi xidmətdə olub.

539. **Praporşik KYATANBƏYOV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyinin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında 1 №-li Zirehli qatarda “praporşik” hərbi rütbəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 561 №-li əmri ilə 02 avqust 1919-cu il tarixdən 2 №-li Zirehli qatarın kiçik zabiti vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

540. **Podpolkovnik QABULOV** Aleksey

21 dekabr 1918-ci il tarixdə “rotmistr” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Nuxa qəza hərbi rəisi vəzifəsinin icraçısı (Zaqatala dairəsi, Nuxa və Areş qəzaları daxil olmaqla) təyin edilib. 30 aprel 1919-cu il tarixdə Hərbi nazirin 228 №-li əmri ilə Şuşa qəza hərbi rəisi təyin edilib. 27 may 1919-ci il tarixdə Hərbi nazirin 268 №-li əmri ilə Şuşa qəza hərbi rəisi vəzifəsinə təyin olunması barədə əmr ləğv edilib. Həmin tarixdən 268 №-li əmrlə Gəncə qəza hərbi rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Gəncə qəza hərbi rəisi idarəsinin əsgərlərinin şikayəti əsasında Gəncə

qarnizonu rəisi tərəfindən aparılmış təhqiqatın nəticəsi olaraq, hərbi qəza idarəsindəki intizamsızlığa görə Hərbi nazir tərəfindən 01 sentyabr 1919-cu il tarixli 385 №-li əmrlə intizam cəzası qaydasında “Töhmət” elan edilib. Həmin əmrdə bir daha belə hallar baş verdiyi təqdirdə vəzifəsindən azad ediləcəyi göstərilmişdir. Xidmətində dönüş yaratdığına görə 24 mart 1920-ci il tarixdə Hərbi nazirin 167 №-li əmri ilə Gəncə qəza hərbi rəisi vəzifəsinə təsdiq olunub. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podpolkovnik (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Gəncə qəza hərbi rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olub.

541. **Podporuçik QABUNİYA** Foka

Milliyəti gürcü. 27 iyun 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-ci il tarixli 320 №-li əmri ilə Gəncə hərbi komendantının kiçik adyutantı vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Gəncə hərbi komendantının kiçik adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.



542. **General-mayor** şahzadə Feyzulla Mirzə **QACAR** Şəfi Xan oğlu

15 dekabr 1872-ci il tarixdə Yelizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. (Atası – Şəfi Xan Qacar “polkovnik” hərbi rütbəsində 46-cı

draqun Pereyaslavcki III İmperator Aleksandr alayının komandiri olmuşdur. 19 yanvar 1908-ci il tarixdə "əlahəzrət" tituluna layiq görülüb və 02 yanvar 1909-cu il tarixdə Sank-Peterburqda vəfat edib. Şahzadə Feyzulla Şəfi Xanın yeganə oğul övladı olmuşdur).

1891-ci ildə Tiflis Kadet Korpusunu bitirdikdən sonra həmin ilin 30 avqust tarixində Nikolayevsk Süvari Məktəbinə[1] daxil olub. 07 avqust 1893-cü il tarixdə həmin məktəbi "kornet" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirərək 43-cü draqun Tver alayına təyinat alır. 11 iyun - 11 sentyabr 1897-ci il tarixlərdə Tiflis şəhərində barəsində açılan cinayət işinin istintaqı ilə əlaqədar ezamiyyətdə olub. Qafqaz Hərbi Dairə məhkəməsinin 08 avqust 1897-ci il tarixli hökmü ilə 1869-cu il tarixli 2-ci nəşr XXII kitab "Hərbi Xidmət haqqında Toplunun" ("СВП" rus dilində) 148, 190 və 192-ci maddələrinin 2-ci hissəsinə əsasən hərbi rütbəsi "sıravi" hərbi rütbəsinə endirilməklə bütün hüquqlardan məhrum edilməklə məhkum edilmişdir[1]. Atası Şəfi Xanın xahişi və Hərbi Dairə komandanının müsbət xasiyyətnaməsinə əsasən İmperatorun 08 sentyabr 1897-ci il tarixli əmri ilə höküm 3 (üç) aylıq hauptvaxta ilə əvəz edilmiş və bütün hüquqları saxlanılmışdır. 17 yanvar 1897-ci il tarixdə şahzadə Feyzulla Mirzə Qacar həbsdən öz xidmət yerinə qayıtmışdır. 15 mart 1899-cu il tarixdə növbəti "poruçik" hərbi rütbəsi verilib. 25 iyun – 05 iyul 1899-cu il tarixlərdə Qafqaz süvari diviziyasının süvari zabitlərinin xüsusi səhra çıxışında olmuşdur. 01 sentyabr 1899-cu il tarixdə Yelizavetpol quberniyasının Areş qəzasına hərbi atların siyahıya alınması üçün ezam edilir. 15 avqust 1901-ci il tarixdə isə Qafqaz Hərbi Dairəsi qərargahına yüksək cinsli atların yoxlanılması üçün ezam edilir. 20 noyabr 1901-ci il tarixdə alayda silahlara cavabdeh və qeyri-nizami hissənin komandiri vəzifələrini icra edir. 05 mart – 01 iyun 1902-ci il tarixlərdə Tiflis şəhərində müalicə alır. 05 mart 1903-cü il tarixdə hərbi atların siyahıya alınması üçün Yelizavetpol qəza hərbi rəisinin sərəncamına

ezam edilir. 15 mart 1903-cü il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsi verilir. 17 - 23 sentyabr 1903-cü il tarixlərdə 2-ci Qafqaz ordu korpusunun zabitləri ilə Tiflis ətrafında səhra çıxışında iştirak edib və səhra çıxışında "yaxşı" qiymət alıb. 02 oktyabr 1903-cü il tarixdə xidmət etdiyi alaya geri qayıdıb. 05 aprel 1904-cü il traixdə Petrovsk şəhərinə Yaponiya ilə müharibə üçün polkovnik Hüseyn Xan Naxçıvanskinin komandanlığı altında formalaşdırılan 2-ci Dağıstan süvari alayına ezam edilir. 26 mart 1904-cü il tarixli əmrlə 2-ci Dağıstan süvari alayına hərbi rütbəsi "podyesaul"[2] hərbi rütbəsinə dəyişdirilməklə təyinat alır. 02 - 10 may 1904-cü il tarixlərdə müvəqqəti olaraq həmin alayın 1-ci süvari bölüyünə komandanlıq edir. 26 iyun 1904-cü il tarixdə Mancuriya sərhədini keçir. 1904-1905-ci illər rus-yapon müharibəsində, 11 iyul – 18 avqust 1904-cü il tarixlərdə Tayszıxe çayı üzərindəki, 07 sentyabr 1904-cü il tarixdə Dolinsk aşırmındakı, 25 dekabr 1904-cü il tarixdən 07 yanvar 1905-ci il tarixədək isə İnkoua basqınındakı döyüşlərdə iştirak etmişdir. Bundan əlavə general-leytenant P.İ.Mişenkonun dəstəsi ilə 28 dekabr 1904-cü il tarixdə Xunxe çayı üzərindəki Kalixa kəndindəki və 14 yanvar 1905-ci il tarixdə 2-ci Dağıstan süvari alayının Landunqou kəndindəki yapon artilleriya batareyasına qarşı məhşur hücum döyüşlərində iştirak etmişdir. 14 yanvar 1905-ci il tarixdə Landunqou kəndindəki döyüşdə sağ baldır sümüyünü parçalayan güllə yarası alır (Rusiya Qızıl Xaç cəmiyyətinin Libavsk sanitar dəstəsinin zabit lazaretinin 16 mart 1905-ci il tarixli 109 №-li şəhadətnaməsi). Döyüşlərdə fərqləndiyinə görə 25 iyun 1905-ci il tarixdə "yesaul" hərbi rütbəsinə layiq görülür. Müharibə bitdikdən sonra 43-cü draqun Tver süvari alayına hərbi rütbəsi "rotmistr" hərbi rütbəsinə dəyişdirilməklə geri qaytarılır. 16 noyabr 1905-ci il tarixdə həmin alayın 4-cü eskadronunun komandiri təyin edilir. 26 dekabr 1906-cı il tarixdən 01 yanvar 1907-ci il tarixədək Çarskie Kolodsı məntəqəsindən Tiflisə və geriyə 130 verstlik yürüşdə iştirak edir. 26 yanvar – 05 may

1907-ci il tarixlərdə 4-cü eskadronun yarı heyəti ilə Mixaylovka və Aşağı Maçxanı kəndlərində yerli hakimiyyət orqanlarına dəstək üçün ezam edilir. 29 yanvar 1907-ci il tarixdə alay məhkəməsinin üzvü seçilir. 19-27 iyun 1907-ci il tarixlərdə Qafqaz süvari diviziyasının qərargahında Aleksandrovsk yaralılar komitəsində şəhadətləndirilmək üçün ezamiyyətdə olub. Aleksandrovsk yaralılar komitəsi tərəfindən 3-cü qrup əlillik dərəcəsi ilə şəhadətləndirilir (102604 №-li 06.09.1907-ci il tarixli şəhadətnamə). 19 yanvar 1908-ci il tarixdə İmperatorun sərancamı ilə atası ilə birlikdə "əlahəzrət"[3] titulu alır. 31 iyul 1908-ci il tarixdən 03 fevral 1909-cu il tarixədək alay məhkəməsinin üzvü olub. 28 oktyabr 1908-ci il tarixdən isə "Zabit şərəf məhkəməsi"nin üzvü seşilib. 19 noyabr 1909-cu il tarixdə təkrarən "Zabit şərəf məhkəməsi"nin üzvü seçilib. 26 avqust – 09 sentyabr 1910-cu il tarixlərdə zabit heyətinin səhra çıxışlarında olub. 03-12 noyabr 1910 və 02 fevral – 11 mart 1912-ci il tarixlərdə alay komandirinin təsərrüfat hissəsi üzrə müavini vəzifəsini müvəqqəti icra olub. Xidmətdə fərqləndiyinə görə 26 avqust 1912-ci il tarixdə növbəti "podpolkovnik" hərbi rütbəsinə layiq görülüb. 1914-cü ilin sentyabr ayında Qafqaz süvari yerli diviziyasının ("Vəhşi diviziya" belə adlanırdı) Tatar süvari alayına ezam edilir. 31 avqust 1914-cü il tarixdə Setulo kəndini hücum edərək aldığı üçün ona 05 yanvar 1915-ci il tarixdə vaxtından əvvəl "polkovnik" hərbi rütbəsi verilib. 04 mart 1915-ci il tarixdə Qafqaz süvari yerli diviziyasının Çeçen süvari alayının komandiri təyin edilir. 09 dekabr 1916-cı il tarixdə Rumıniyanın Vali-Salçi kəndi yaxınlığındakı döyüşdə ağır yaralandığı üçün diviziyanın sanitar hissəsinə alınmış və oradan da Rusiyaya göndərilmişdir. 25 fevral 1917-ci il tarixdə müalicədən sonra xidmət yerinə qayıdır. 07 may 1917-ci il tarixdə "general-mayor" hərbi rütbəsinə layiq görülüb. 30 may 1917-ci il tarixdə Qafqaz süvari yerli diviziyasının 2-ci süvari briqadasının komandiri təyin edilir. Həmin briqadanın tərkibində Çeçen və Tatar süvari alayları daxil idi. 16 iyul

1917-ci il tarixdə yaralarına görə təcili olaraq Rumıniya cəhbəsindən Mineral sularda müalicə üçün göndərilir. 30 sentyabr 1917-ci il tarixdə yeni yaradılan Qafqaz süvari korpus komandirinin əmri ilə 1-ci Qafqaz süvari yerli diviziyasının komandiri (Ali Baş Komandan general Kornilovun 21.08.1917-ci il tarixli əmri ilə "Vəhşi diviziya"nın nəzdində iki Qafqaz süvari yerli diviziylaradan ibarət Qafqaz süvari yerli korpusunun formalaşdırılmasına başlanır. 1-ci Qafqaz süvari yerli diviziyasının tərkibində iki briqada formalaşdırılmışdır. 1-ci briqada Çerkez və Kabardin süvari alayları, 2-ci briqada isə Çeçen və Tatar süvari alaylarından ibarət idi) vəzifəsinin icrasına buraxılır. 1917-ci ilin sentyabr-oktyabr aylarında Korpus Pskov quberniyasından Qafqaza dislokasiya edilir və 1-ci Qafqaz süvari yerli diviziyasının qərargahı diviziya komandiri general-mayor şahzadə Feyzulla Mirzə Qacar ilə Pyatiqorskda yerləşdirilir. 1-ci Qafqaz süvari yerli diviziyasının Tatar süvari alayı Yelenodorf (indiki Göygöl rayonu) şəhərinə dislokasiya edilir. 1917-ci ilin oktyabr ayında baş verən bolşevik inqilabı Qafqaz süvari yerli korpusunun formalaşdırılması ideyası tam başa çatdırmağa imkan vermir və yerli süvari alayları mənsub olduqları vilayətlərə qayıdırlar.

General-mayor şahzadə Feyzulla Mirzə Qacar hərbi xidməti dövründə 06 avqust 1898-ci il tarixdə "4-cü dərəcəli Şir və Günəş" (İmperator tərəfindən gəzdirilməsinə icazə verilib) və 28 yanvar 1907-ci il tarixdə "3-cü dərəcəli Şir və Günəş" (İmperator tərəfindən gəzdirilməsinə icazə verilib) fars ordenləri ilə təltif edilib. Bundan əlavə 09 yanvar 1905-ci il tarixdə yaponiya ilə müharibədə fərqləndiyinə görə "3-cü dərəcəli müqəddəs Stanislav" (qılınc və bant ilə), 31 yanvar 1915-ci il tarixdə "2-ci dərəcəli müqəddəs Stanislav" (qılıncla), 19 mart 1905-ci il tarixdə "4-cü dərəcəli müqəddəs Anna" (üzərində igidliyə görə yazısı ilə), 09 yanvar 1905-ci il tarixdə 11 iyul – 10 avqust 1904-cü il tarixlərdə Bensixudəki döyüşlərdə fərqləndiyinə görə "3-cü dərəcəli müqəddəs Anna"

(qılınc və bant ilə), 09 sentyabr 1915-ci il tarixdə 03 avqust 1914-cü il tarixdə Kusokovsı kəndi uğrundakı döyüşlərə görə "2-ci dərəcəli müqəddəs Anna" (qılıncla), 17 mart 1915-ci il tarixdə 11 sentyabr 1914-cü il tarixdə Rostoki kəndi uğrundakı döyüşlərə görə "4-cü dərəcəli müqəddəs Vladimir" (qılınc və bant ilə), 15 iyul 1915-ci il tarixdə "3-cü dərəcəli müqəddəs Vladimir" (qılıncla) ordenləri ilə təltif edilmişdir. 12 iyul 1915-ci il tarixdə isə 8-ci ordu üzrə 155 №-li əmrlə 15 fevral 1915-ci il tarixdə Çeçen süvari alayının komandiri kimi şəxsi təşəbbüskarlıq göstərərək Uman kazak alayının cəmi bir zabiti olan 4 bölüyünə komandanlığı öz üzərinə götürərək düşmənin güclü silah və pulemyot atəşi altında həmin süvari bölüklərini hücuma apardığına və Brın kəndini düşmənlərdən azad etdiyinə görə "4-cü dərəcəli müqəddəs Georgi" ordeni ilə təltif edilir. 1916-cı ilin yayındakı məhşur "Brusilov açılması"na görə isə (Bu açılmaya görə rus ordusu avstrya-macar qüvvələrinin müdafiə zolağını yarmış və nəticədə böyük ərazini tutmuşdurlar. Həmin döyüşdə avstrya-macar qüvvələri yarım milyona yaxın şəxsi heyətini itirmişdir) 2-ci Qafqaz süvari yerli briqada komandiri tərəfindən "3-cü dərəcəli müqəddəs Georgi" ordeninə təqdim edilmişdir. Təqdimat diviziya komandiri general-leytenant knyaz D.P.Baqration, 33-cü ordu korpusunun komandiri tam piyada generalı K.A. Krılov və 23 mart 1917-ci il tarixdə 9-cu ordunun komandiri tam piyada generalı P.A.Leçiskim tərəfindən təsdiqlənmişdir. 29 aprel 1917-ci il tarixdə Qərargah rəisi general-leytenant V.N.Minutım tərəfindən həmin təqdimat Petroqrada "Georgi Duması"na göndərilmiş və "Georgi Duması"nın dəftərxanasında 31 may 1917-ci il tarixdə 1681 nömrə ilə qeydiyyatdan keçmişdir. Böyük ehtimalla Duma oktyabr inqilabınadək həmin sənədi təsdiqləyə bilməmişdir.

1918-ci ilin dekabrında 1-ci Qafqaz yerli süvari diviziyasının komandiri general-mayor Feyzulla Mirzə Qacar Gəncə şəhərinə qayıdır və Cümhuriyyət ordusunun ilk və

yeganə Süvari diviziyasının komandiri kimi həqiqi hərbi xidmətə başlayır. Hərbi nazirin 18 dekabr 1918-ci il tarixli 24 №-li əmri ilə isə Cümhuriyyət ordusu sıralarından tərxis edilir.

26 dekabr 1918-ci il tarixdə təkrarən həqiqi hərbi xidmətə qəbul edilir və Hərbi nazirin 33 №-li əmri ilə Süvari diviziyasının komandiri vəzifəsinə təyin edilir. 09 yanvar 1919-cu il tarixdə 20 №-li əmrlə Gəncə qarnizonunun rəisi vəzifəsi ona həvalə edilir. Hərbi nazirin 17 iyun 1919-cu il tarixli 299 №-li əmri ilə xəstəliyə görə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

Həyat yoldaşı: Gövhər xanım Qaibova (Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbovun kiçik qızı) ilə 1910-cu ildə ailə həyatı qurub. Bu nigahdan: İsmayıl adlı oğlu, Surəyya və Nigar xanım adlı qızları olub.

Müəllifdən: [1]1869-cu il "Hərbi Xidmət haqqında Toplu" ("СВП" rus dilində) rus ordusunda hərbi xidmətlə bağlı qanunlar toplusu olub. 1889-cu ilədək 20 il ərzində hərbi xidmətlə bağlı bütün qanunvericiliyi özündə əks etdirən cəmi 14 kitab nəşr edilmişdir. Kitablar altı hissə altında birləşdirilmişdir. Feyzulla Mirzə Şəfi Xan oğlu Qacarın hərbi rütbəsi "sıravi" hərbi rütbəsinə endirilməklə bütün hüquqlardan məhrum edilməklə məhkum edilmə barədə məhkəmənin istinad etdiyi 1869-cu il tarixli "Hərbi Xidmət haqqında Toplunun" ("СВП" rus dilində) 2-ci nəşr XXII kitabı sonuncu VI hissəsinə ("Hərbi-cinayət, intizam və hərbi-məhkəmə nizamnamələri"nə) aiddir. Həmin kitabın 148-ci maddəsi – Yuxarı rəislərin və ya vəzifəli şəxslərin vəzifə borclarının yerinə yetirilməsinə hüququ və ya bunun üçün qanuni səlahiyyəti olmadığı halda maneçilik törətmə, 190-cı maddə - Sərxoşluq və az əhəmiyyətli hərbi ədəb qaydalarının pozulması, 192-ci maddə isə - Ədəb qaydalarının ictimai yerlərdə və ya iclaslarda pozulması, savaşqanlıq və ədəbsizlik etmədir. Kornet Feyzulla Mirzə Şəfi Xan oğlu Qacarın törətdiyi əməl məlum olmasa da onun xidmət dəftərçəsindən bu maddələr ilə məhkum edildiyi məlumdur.

[2] Rus İmperiyası ordusunda kazak qoşunlarında kiçik zabit hərbi rütbəsidir. Süvari qoşunlarda "ştabs-rotmistr", piyada qoşunlarında isə "ştabs-kapitan" hərbi rütbəsinə uyğun olub.

[3] Ulu babası şahzadə Bəhmə Mirzə (İran şahı Fətətli şahın nəvəsi) 1848-ci ildə Rusiya İmperiyasına köçür və ömrünün sonunadək Qafqazda yaşayır. Şahzadə Bəhmə Mirzənin oğul övladlarının və nəvələrinin çoxu rus imperiyasında hərbi xidməti seçmişdirlər. Rus imperiyasında şahzadə Bəhmən Mirzənin və onun övladlarında fars şahzadə titulu saxlanılmış və rəsmi sənədlərdə onların adlarının qarşısında qeyd edilmişdir. İmperiya Senatı İmperatorun 14 avqust və 02 noyabr 1886-cı il tarixli fərmanlarına əsasən şahzadə Bəhmən Mirzənin böyük oğlan övladlarının "əlahəzrət" titulu daşıması barədə qərar qəbul edir. Məhz bu səbəbdən, həmin nəslin böyük oğlan övladı kimi şahzadə Bəhmən Mirzənin nəvəsi 46-cı draqun Pereyaslavcki III İmperator Aleksandr alayının komandiri polkovnik Şəfi Xan da yeganə oğul övladı Feyzulla Mizrə Qacar ilə 19 yanvar 1908-ci il tarixdə İmperatorun fərmanı ilə "əlahəzrət" tituluna layiq görülür.



543. **General-mayor** şahzadə Əmir Kazım Mirzə **QACAR** Bəhmən Mirzə oğlu

1853-cü ildə Yelizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. İlk təhsilini Tiflis Kadet Korpusunda alıb. 1873-cü ildə Nikolayevsk Süvari Məktəbini "kornet" hərbi rütbəsində bitirdikdən sonra 44-cü Nijeqorod draqun alayında xidmət edib. Ən yaxşı süvari zabitləri sırasinda yesaul Əmir Kazım Mirzə 1881-ci ildə imperator III Aleksandrın tacqoyma mərasimində iştirak edib. 1895-ci ildə "podpolkovnik" hərbi rütbəsində eskadronun komandiri, 1902-ci ildə isə "polkovnik" hərbi rütbəsində alay komandirinin

müavini təyin vəzifələrini icra edib. 1910-cu ildə “general-mayor” hərbi rütbəsinə layiq görülüb.

25 (iyirmi beş) il 44-cü Nijeqorod draqun alayında qüsursuz xidmət edən Əmir Kazım Mirzə İmperiyanın yüksək orden və medalları ilə təltif olunmuşdur. 1877-1878-ci illərdə Rus-Osmanlı müharibəsində fərqləndiyinə görə "4-cü dərəcəli müqəddəs Stanislav", 1895-ci ildə Buxara Əmirliyinin "3-cü dərəcəli Parlayan ulduz", 1879-cu ildə "3-cü dərəcəli müqəddəs Anna", "2-ci dərəcəli müqəddəs Stanislav" (qılıncla birgə), 1881-ci ildə "2-ci dərəcəli müqəddəs Anna", 1887-ci ildə “3-cü və 4-cü dərəcəli müqəddəs Vladimir" və 1890-cı ildə isə İranın “4-cü dərəcəli Şiri-Xorşid" ordenləri ilə mükafatlandırılmışdır. 16 dekabr 1898-ci il tarixdə 25 il qüsursuz xidmətlərinə görə üstündə tuncdan tökülmüş atlı fiquru olan "Əmir Kazım Mirzəyə əla xidmətinə görə" sözləri yazılmış stolüstü saatla mükafatlandırılıb.

Hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra general Əmir Kazım Mirzə Qacar xalqımızın maariflənməsində də yaxından iştirak etmiş, Tiflisdə və ayrı-ayrı qəzalarda ibtidai məktəblərin açılmasına maddi cəhətdən kömək göstərmiş və kasıb balalarının onun hesabına təhil almasına maddi dəstək göstərmişdir. 1910-cu ildən Qafqaz Müsəlmanları Xeyriyyə Cəmiyyətinin fəxri üzvü olmuşdur. Onun ən böyük xidmətlərindən biri 1912-ci ildə Tiflisdə Azərbaycan Dram cəmiyyətinin təsisi və tamaşa binasının açılmasında yaxından iştirakı olmuşdur.

01 dekabr 1918-ci il tarixdə Hərbi nazir Səməd bəy Mehmandarova Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilməsi ilə bağlı aşağıdakı məzmunda raportla müraciət etmişdir:

“Əlahəzrət cənab Hərbi nazirə,

Hörmətli cənab Səməd bəy, təəssüflər olsun ki, Bakıya gəlib Siz əlahəzrətlərinə xahişimi çatdıra bilmədim. Bunun da səbəbi Hərbi Nazirliyin Gəncəyə köçürülməsi oldu. Sizinlə görüşə

bilmədiyimə çox təəssüf etdim. Bakıya gəlib Sizi tapa bilmədim. Çünki Siz xidməti işlərinizlə əlaqədar şəhərdən müvəqqəti getmişdiniz. Oğlumun və qızımın xəstəliyi haqqında evdən teleqram almışam. Tiflis şəhərinə qayıdıram. İcazənizlə Sizə yazılı surətdə müraciət edirəm və bundan əlavə raport da yazmışam.

Mən otuz dörd il hərbi xidmətdə olmuşam. İki hərbi kampaniyada iştirak etmişəm: 1877-78-ci illərdə rus-osmanlı və 1904-1905 rus-yapon müharibələrində. Öz xahişimlə cəbhəyə göndərilmişəm və döyüşlərdə podpolkovnik hərbi rütbəsində iştirak etmişəm. Bir neçə döyüş təltifi alandan sonra polkovnik hərbi rütbəsinə layiq görülmüşəm. Xidmət etdiyim müddətdə iki tədris kursunu bitirmişəm: "Qafqaz süvari tədris bölüyü" və "Süvari zabit məktəbi" kurslarını. Hər iki kursu da birincilər sırasında, mükafatla. Az müddət istefada olsam da hərbi ruhda tərbiyə almış, həmişə də hərbi işlə maraqlanmış və hərbi ədəbiyyatı izləmişəm. Məhz buna görə də, hərbi qulluğun müasir tələblərinə uyğun olaraq xidmət borclarını icra etmək bacarığına və lazımi qədər fiziki qüvvəyə malik olduğumu hiss edirəm. Azərbaycan Korpusunun qərargahına təqdim etdiyim xidmət dəftərçəmdə keçdiyim hərbi xidmət haqqında tam məlumat almaq olar.

Zati-aliləri, Vətənin keçdiyi bu ağır günlərdə öz xalqıma xeyir vermək məqsədilə (bu həm də mənim ailəmin zəifləmiş iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb olardı) xahiş edirəm, Azərbaycanın hər hansı hərbi idarəsində mənə general vəzifəsindən birini, nəzarət generalı və ya məiyyət generalı və yaxud Sizin məsləhət gördüyünüz vəzifəni həvalə edəsiniz.

Sizin mənim haqqımda xeyirxah qərarınızı gözləyən bəndəniz general-mayor şahzadə Əmir Kazım Mirzə Qacar".

Bu raportdan sonra Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Gəncə şəhərinin hərbi komendantı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi

"general-mayor" hərbi rütbəsində Gəncə şəhərinin hərbi komendantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Gövhər xanım Ağa Ələkbər qızı İsmayılova ilə ailə qurmuşdur. Bu evlilikdən Darab Mirzə, Davud Mirzə adlı oğulları, Mənicə xanım, Ziba xanım, Leyla xanım və Aliyə xanım adlı qızları olmuşdur.



544. **General-mayor** şahzadə Əmənulla Mirə **QACAR** Bəhmən Mirzə oğlu

08 yanvar 1862-ci ildə Yelizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. 19 iyul 1879-cu il tarixdə Peterburq Hərbi Məktəbini "poruçik" hərbi rütbəsində bitirib. 9-cu, 3-cü Kuban kazak alaylarında həqiqi hərbi xidmətlərdə olub. 1900-cu ildə nümunəvi xidmətinə görə "yesaul" hərbi rütbəsi verilib. 1915-ci ildə "polkovnik" hərbi rütbəsində 3-cü Kuban kazak alayının komandiri olub. Birinci Dünya müharibəsində yaralandığı üçün arxa cəbhəyə keçirilib. 1917-ci ildə "general-mayor" hərbi rütbəsinə layiq görülüb. Fevral inqilabından sonra Qafqaza qayıdan Əmənulla Mirzə Qacar bir müddət Tiflisdə və Şuşada yaşamışdır.

27 yanvar 1920-ci il tarixdə "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 52 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin müavini vəzifəsinə təyin edilib. Həmin əmrlə eyni zamanda Xankəndi qarnizonunun rəisi və eləcədə Şuşa qarnizonuna ümumi nəzarət ona həvalə edilib. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində 1-ci piyada diviziyası komandirinin müavini kimi həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Nəvvab bəyim Hacı Hüseynəli bəy qızı ilə ailə həyatı qurmuş və bu nigahdan onların Səyəvuş Mirzə, Xosrov Mirzə adlı oğulları, Səfiyyə xanım adlı qızı olmuşdur.

545. **General-mayor** şahzadə Məhəmməd Mirzə **QACAR** Bəhmən Mirzə oğlu

1872-ci ildə Yelizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. Çar ordusunda general-feldmarşal Mixail Nikolayeviç adına birinci Kuban kazak alayında batareya komandiri olub. Birinci Dünya müharibəsində Kazak qoşunlarının tərkibində döyüşüb.

25 noyabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci Artilleriya briqadasının komandiri vəzifəsinin icraçısı təyin edilib. 25 iyun 1919-cu il tarixdə Nazirlər Şurası Sədrinin 28 №-li əmri və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 1-ci Artilleriya briqadasının komandiri vəzifəsinə "general-mayor (artilleriya üzrə)" hərbi rütbəsi verilməklə təsdiq edilib. Xidməti vəzifələrinin icrasına vicdanla yanaşdığına və bölmələrin hazırlığında göstərdiyi naliyyətlərə görə Hərdi nazirin 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə ona "Təşəkkür" elan edilib. Hərbi nazirin 01 dekabr 1919-cu il tarixli 551 №-li əmri ilə Artilleriya Baş İdarəsinin rəisi vəzifəsinə irəli çəkilir. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə 15 mart 1920-ci il tarixdən Ordunun Təchizat idarəsi rəisi vəzifəsinə təyin edilmiş hesab edilir. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində Ordunun Təchizat idarəsi rəisi kimi həqiqi hərbi xidmətdə olub.



**546. Polkovnik şahzadə Seyfulla Mirzə QACAR** Bəhmən Mirzə oğlu

06 mart 1864-cü il tarixdə Tiflis şəhərində anadan olub. İlk orta təhsilini ailədə və Qafqaz təlim bölüyündə alıb. 10 dekabr 1880-ci il tarixdə "praporşik" hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul edilib.

28 mart 1881-ci il tarixdə 149-cu Çernomor piyada alayına xidmətini davam etdirmək üçün göndə rilib. 25 dekabr 1881-ci il tarixdə 1-ci Qafqaz süvari alayına keçirilib. 23 mart 1884-ci il tarixdən 10 aprel 1885-ci il tarixədək alayın 4 süvari bölüyü ilə Zakaspiysk vilayətinin Mer məntəqəsinin möhkəmləndirilməsində iştirak edib. 18 dekabr 1885-ci il tarixdə Kubankazak qoşunlarının 1-ci Poltava süvari alayına ezam edilib. 04 fevral 1886-cı il tarixdə həmin alayın 3-cü süvari bölüyünün kiçik zabiti təyin edilib. 30 avqust 1884-ci il tarixdə "podporuçik" hərbi rütbəsi verilib. 1884-1885-ci il tarixlərdəki kompaniyalarda iştirak edib. 30 avqust 1888-ci il tarixdə "poruçik," 15 mart 1899-cu il tarixdə isə "ştabs-kapitan" hərbi rütbəsinə layiq görülüb . 20 oktyabr 1900-cu il tarixdə 79-cu Kurin piyada alayının piyada bölük komandiri təyin edilib. 06 may 1906-cı il tarixdə isə "kapitan" və 26 avqust 1912-ci il tarixdə isə "podpolkovnik" hərbi rütbələrinə layiq görülüb . 12 may 1913-cü il tarixdə xidmət yeri 208-ci Lori piyada alayına dəyişdirilir. 08 yanvar 1916-cı il tarixdə isə 205-ci Şamaxı piyada alayının piyada tabor komandiri təyin edilir. 06 mart 1917-ci il tarixdə isə 15-ci Zaamur sərhəd piyada alayının komandiri təyin edilir. 19 iyul 1915-ci il tarixdə "polkovnik" hərbi rütbəsinə layiq görülür. Polkovnik şahzadə Seyfulla Mirzə Qacar Bəhmən Mirəz oğlu çar ordusundakı həqiqi hərbi xidmətləri zamanı 1910-cu ildə "3-cü dərəcəli müqəddəs Anna" və 1913-cü ildə isə "2-ci dərəcəli müqəddəs Stanislav" ordenləri ilə təltif edilmişdir. 19 fevral 1917-ci il tarixdə isə 22 aprel 1915-ci il tarixdə Sedalski

kəndindən geri çəkilmək əmri verilərkən düşmənin onun taborunun mövqelərinə qəfil hücuma keçməsi zamanı kontuziya almasına baxmayaraq taboru əks hücuma apardığına və bununla da qonşu taborların geri çəkilməsinə şərait yaratdığına və tabeliyində olan taboru mühasirədən çıxardığına görə "Georgi silahı" ilə təltif edilir.

15 noyabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilir və Hərbi nazirin 2 №-li əmri ilə Hərbi Nazirliyin İntendant şöbəsi rəisi vəzifəsinin içraçısı təyin edilir. Hərbi nazirin 06 yanvar 1919-ci il tarixli 9 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının komandiri vəzifəsinə təsdiq edilir. Hərbi Nazirliyin Hərbi sanitar idarəsi rəisinin yoxlama nəticələrinə görə alaydakı anti-sanitariya vəziyyətinə görə ona Hərbi nazir tərəfindən 01 may 1919-cu il tarixli 232 №-li əmrlə "Töhmət" elan edilib. Hərbi nazirin 03 iyun 1919-cu il tarixli 276 №-li əmri ilə 01 iyun 1919-cu il tarixdən xəstəliyə görə öz xahişi ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib. 20 sentyabr 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti (Ümumi Qərargaha yazışmaların aparılması üçün ezam edilməklə) təyin edilir. 13 noyabr 1919-cu il tarixdə isə 527 №-li əmrlə Hərbi Nazirliyin və bütün hərbi hissələrin qəfil təftişi üzrə xüsusi komissiyanın üzvü seçilir. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti kimi həqiqi hərbi xidmətdə olub.

547. **Polkovnik** şahzadə Sədrəddin Mirzə **QACAR** Bəhmən Mirzə oğlu

Yelizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. 24 noyabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndə rilib. 25 dekabr 1918-ci il tarixdə 1-ci piyada diviziyasının komandiri 23 nömrəli raportla Ümumi Qərargah vasitəsi ilə Hərbi nazirin qarşısında onun diviziyanın intendant şöbəsinin rəisi vəzifəsinin icrasına buraxılması barədə vəsatət qaldırsa da Hərbi nazir öz dərkənarında "həmin vəzifənin önəmli olmasının nəzərə alaraq, bu vəzifəyə yalnız qoşunların təhcizatı sahəsində təcürbəsi olan və eyni zamanda bu sahə üzrə qanunvericiliyi bilən zabitlərin təyin olunmasəsas gətirərək podpolkovnik Sədrəddin Mirzə Qacar barəsində vəsatəti təmin etməmişdir". Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 88 №-li əmri ilə 19 fevral 1919-cu il tarixdən Gəncə qəza hərbi rəisi (Qazax qəzası daxil olmaqla) vəzifəsinə təyin edilir. 27 may 1919-ci il tarixdə isə Hərbi nazirin 268 №-li əmri ilə Bakı qəza hərbi rəisi vəzifəsinə keçirilir. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Hərbi nazirin 21 dekabr 1919-ci il tarixli 586 №-li əmri ilə 21 dekabr 1919-cu il tarixdən Hərbi Nazirliyin Dəftərxana rəisi vəzifəsinin icraçısıtəyin edilir. 19 fevral 1920-ci il tarixdə isə Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə yuxarıvəzifəyə Hərbi Nazirliyin İntendant idarəsinin rəisi vəzifəsinə təyin edilir. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ordunun İntendant idarəsinin rəisi vəzifəsinə təsdiq olunur. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordunun İntendant idarəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Günəş xanım Tağızadə (Tağıbəyova) ilə ailə həyatı qurmuş və bu evlilikdən Sürəyya adlı qızı olmuşdur.

548. **Polkovnik** şahzadə Xosrov Mirzə **QACAR** Bəhmən Mirzə oğlu

Yelizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "podpolkovnik" hərbi rütbəsində Süvari diviziyasının 1-ciTatar süvari alayı komandirinin sərancamındahəqiqi hərbi xidmət keçdiyi qeyd edilib. 16 mart 1919-cu il tarixdə Hərbi nazirin 14 mart 1919-cu il tarixli 130 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 09 aprel 1919-cu il tarixli 12 №-li və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə növbəti "polkovnik (süvari üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə 07 dekabr 1919-cu il tarixdən yuxarıvəzifəyə Süvari diviziyası komandirinin müavini vəzifəsinin müvəqqəti icraçısı təyin edilir. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Süvari diviziyası komandirinin müavini kimi həqiqi hərbi xidmətdə olub.

549. **Kapitan** şahzadə Fridun Mirzə **QACAR** Seyfulla Mirzə oğlu (polkovnik şahzadə Seyfulla Mirzə Qacarın oğlu)

1890-cı ildə Tiflis şəhərində anadan olub. Nazirlər Şurası Sədrinin 28 avqust 1918-ci il tarixli 8 №-li əmri ilə növbəti "kapitan" hərbi rütbəsi verilib. Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 08 dekabr 1918-ci il tarixdən 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 1-ci yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 548 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 1-ci yüngül artilleriya batareyası tam tərkində 2-ci

Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun tərkibinə verildiyi üçün xidmət yeri həmin briqadaya dəyişdirilib. 02 mart 1920-ci il tarixdə vəfat etdiyi üçün Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə vəfat etdiyi tarixdən Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb. Hərbi nazir 13 mart 1920-ci il tarixli 151 №-li əmri ilə müalicəsi və dəfn xərclərinin qarşılanması üçün atası polkovnik şahzadə Seyfulla Mirzə Qacara Hərbi Nazirliyin hesabından 15000 (on beş min) rubl həcmində birdəfəlik yardım üçün pul vəsaiti ayırmışdır.

### 550. **Rotmistr** şahzadə Rıza Qulu Mirzə **QACAR**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləsiyahılarında "rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmət keçdiyi qeyd edilib. Hərbi nazirin 09 yanvar 1919-cu il tarixli 19 №-li əmri ilə Gəncə hərbi komendantının adyutantı vəzifəsinə təyin edilib. 11 iyun 1919-ci il tarixdə isə Hərbi nazirin 285 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının adyutantı vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Süvari diviziyası 2-ci Qarabağ süvari alayının adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

### 551**. Poruçik** şahzadə İbrahim Mirzə **QACAR**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 17 aprel 1919-cu il tarixli 205 №-li əmri ilə 07 aprel 1919-cu il tarixdən Azərbaycan Xalq Cümhuriyyəti

Hökümətinin konvoy bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. 15 iyul 1919-cu il tarixdə isə Hərbi nazirin 326 №-li əmri ilə Ümumi Qərargah rəisinin sərancamına müvəqqəti olaraq ezam edilib. 12 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 404 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Azərbaycan Xalq Cümhuriyyəti Hökümətinin konvoy bölüyünündə həqiqi hərbi xidmətdə olarkən tabelyində olan bölmədən piyada tüfənginin itirlməsi ilə əlaqədar aparılan ilkin istintaq zamanı verdiyi izahatın məhkəmə zamanı verdiyi izahatdan fərqlənməsini nəzərə alaraq, Hərbi nazir onun yüksək zabit adının daşımasına layiq olmadığı əsas gətirərək 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum etməklə Cümhuriyyət ordusu sıralarından tərxis etmişdir.

552. **Podporuçik** Darab **QACAR** Əmir Kazım Mirzə oğlu (General-mayor Əmir Kazım Mirzə Qacarın oğlu)

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci Piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

553. **Poruçik** şahzadə İdrisağa **QACAR** Qaflanağa oğlu (şahzadə Bəhman Mirzə Qacarın nəvəsidir, atası qvardiya poruçiki olub)

07 oktyabr 1889-cu ildə Tiflis şəhərində anadan olub. Tiflisdəki Kadet Korpusuna daxil olur və 29 avqust 1901-ci il

tarixdə təhsil yeri Nijeqorodda yerləşən qraf Alekseyev Kadet Korpusuna dəyişdirilir. 01 sentyabr 1905-ci il tarixdə yenidən təhsil yeri Tiflis Kadet Korpusunun 3-cü sinifinə dəyişdirilir. Ailələrinin maddi vəziyyəti ilə əlaqədar olaraq, İdris ağa Tiflis Kadet Korpusunu bitirə bilmir. Tiflisdə ixtiyar sahibi olan böyük knyaz Mixail Nikolayeviçin xüsusi icazəsi ilə 20 iyun 1915-ci il tarixdə Qafqazın yerli sakinlərindən təşkil edilmiş 4-cü süvari alayında könüllü kimi hərbi xidmətə başlayır. İdris Ağa bu alayın tərkibində 1915-ci ildə avstriyalılara qarşı vuruşur. 10 fevral 1916-cı ildə ona "uryadnik" hərbi rütbəsi verilir. 24 iyun 1916-cı ildə Delyatin kəndində gedən döyüşdə "Düşmənin kəskin atəşlərinə baxmayaraq, süngü hücumuna qalxır və hücumun uğurlu keçməsinə imkan yaradır". Şahzadə İdris ağa bu hünərinə görə "4-cü dərəcəli Georgi Xaçı" ilə təltif edilir. Nümunəvi xidmətinə görə Cənub-Qərb Cəbhəsi komandanının 26 dekabr 1916-cı il tarixli 2066 nömrəli əmri ilə ona ilkin zabit "praporşik" hərbi rütbəsi verilir.

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "poruçik (süvari)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyası 2-ci Qarabağ süvari alayının adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı**:** Münəvvər xanım Mirzə Cəlil qızı ilə ailə həyatı qurub. Xidmət dəftərçəsində övladları haqqında məlumat yoxdur.

554. **Poruçik** şahzadə Fridun Mirzə **QACAR**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyası 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

555. **Podporuçik** şahzadə Abbas Mirzə **QACAR**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində "praporşik" hərbi rütbəsində Hərbi Nazirliyin Mühəndis şöbəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsi həmin tarixdən Mühəndis idarəsi adlanır və xidmət yeri həmin idarədə saxlanılmışdır. 18 mart 1920-ci il tarixdə təkrarən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Mühəndis idarəsi Ordunun Mühəndis təchizatı idarəsi adlandırılır. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti "podporuçik (mühəndis qoşunları üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

556. **Praporşik** şahzadə Məlik Mikayıl **QACAR**

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

557. **Podporuçik QARABƏYOV** Nadir

23 noyabr 1897-ci il tarixdə Yelizavetpol quberniyasında zadəgan ailəsində anadan olub. Tiflis Gimnaziyasının 4 sinfini bitirib. 10 yanvar 1918-ci il tarixdə Milli Artilleriya divizionunda könüllü həqiqi hərbi xidmətə qəbul edilib. 25 avqust 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 5-ci piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 21 iyun 1919-cu il tarixdə Hərbi nazirin 305 №-li əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərəncamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 12 avqust 1919-cu il tarixdə ezamiyyətdən qayıtmış hesab edilib və Hərbi nazirin 354 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq

görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

558. **Praporşik QARAŞAROV** Məmməd

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 01 aprel 1920-ci il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

559. **Podporuçik QARAYEV**

22 avqust 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 avqust 1919-ci il tarixli 386 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

560. **Praporşik QARAYEV**

01 yanvar 1920-ci il tarixdə “praporşik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1919-cu il tarixli 612 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının siyahılarına

daxil edilib lakin Hərbi Nazirliyin Avtomobil hissəsinə Avtomobil məktəbinin ştatı təsdiq olunanadək ezam edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Hərbi Nazirliyin Avtomobil hissəsində xidməti ezamiyyətdə olub.

561. **Polkovnik QAUZEN** Vladimir Nikolayeviç

06 dekabr 1918-ci il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilən Təlim taborunun komandiri vəzifəsinə təyin edilib. Ştat dəyişikliyi ilə əlaqədar Təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının Qazax şəhərində dislokasiya olunmaqla 3-cü piyada taboru kimi təşkil edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib və alay komandirinin müavini vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

562. **Podporuçik QASIMOV** Əli

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

563. **Kornet QASUMOV** Hacıağa

31 mart 1919-cu il tarixdə “kornet” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və

Hərbi nazirin 166 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmət yerini özbaşına tərk etdiyi görə Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə 11 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb və tutularaq məsuliyyətə cəlb edilməsi barədə göstəriş verilib.

564. **Kornet QASUMOV** İsfəndiyar

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "kornet (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

565. **Kornet QASIMOV** Hüseyn bəy

22 iyun 1916-cı il tarixdən Tatar süvari alayında könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 05 yanvar 1917-ci il tarixdə "yunker" hərbi rütbəsi verilib. 2-ci Dağıstan süvari alayının süvari-pulemyot komandasının və Tatar süvari alayının süvari bölmələrinin tərkibində döyüş əməliyyatlarında iştirak edib. 23 oktyabr 1916-cı il tarixdə Buçaça şəhərindəki döyüşlərdə yaralanıb, lakin hərbi xidmətdə qalıb. 15 dekabr 1916-cı il tarixdə sıravi heyəti üçün nəzərdə tutulmuş "Georgi xaçı" (№ 14496) ilə təltif edilib. 05 avqust 1918-ci il tarixdə 1-ci Tatar süvari alayının 4-cü süvari bölüyünün Kürdəmir stansiyasından Qarabucaq stansiyasına hücumu zamanı

kəşfiyyat taqımın komandiri kimi 25 süvari ilə Qarabucaq stansiyasının qərbindəki üçüncü körpünün yaxınlığında düşmən qüvvələrinin süvari bölüyü ilə qarşı-qarşıya gəlmiş özünü itirmədən ani hücumla taqımı düşmənin üzərinə aparmışdır. Nəticədə düşmən ani hücumdan qorxaraq geri çəkilmiş və vağzal tərəfdəki möhkəmləndirilmiş mövqeylərindən çıxmalı olmuşdurlar. Düşmən mövqedə 15 ölü, 20 tüfəng və çoxlu patron ataraq qaçmışdır. 13 sentyabr 1918-ci il tarixdə Bakının Zığ istiqamətində kəşfiyyata gedərək düşmənin güclü artilleriya və pulemyot atəşlərinə baxmayaraq düşmən mövqeylərinə yaxınlaşmış və Adınsev adlı düşmən mühəndis təlimatçısını əsir götürməyə müvəffəq olmuşdur. Məhz həmin əsirin verdiyi məlumatlar əsasında Bakı üzərinə sonrakı uğurlu hücumu təşkil etmək mümkün olmuşdur. 1-ci Tatar süvari alayının 1-ci dərəcəli könüllü kiçik uryadniki kimi döyüş şücayətinə görə ilkin zabit "praporşik" hərbi rütbə verilməklə Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayında zabit kimi həqiqi hərbi xidmətə qəbul edilib. 17 aprel 1919-cu il tarixdə Hərbi nazirin 205 №-li əmri ilə Parlamentinin Mühafizə bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "kornet (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

566**. Praporşik QASIMOV** Qafur

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib.

Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

567. **Praporşik QASIMOV** Hüseyn

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

568. **Praporşik QASIMOV** Məmməd

09 mart 1897-ci ildə Gəncə quberniyasının Ağdaş kəndində anadan olub. Ağdaşda ilkin təhsil alıb. 26 avqust 1916-cı il tarixdə həqiqi hərbi xidmətə 1-ci Dağıstan süvari alayında 2-ci dərəcəli könüllü kiçik uryadniki kimi daxil olub. 01 oktyabr 1917-ci il tarixdə Tatar süvari alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün keçirilib. 03 iyun 1918-ci il tarixdə "yunker" hərbi rütbəsi verilib. 1-ci Dağıstan süvari və Tatar süvari alaylarının tərkibində döyüşlərdə iştirak edib. 29 iyun 1917-ci il tarixdə Kaluşa şəhəri və 02 avqust 1918-ci il tarixdə isə Bakı şəhəri uğrunda aparılan döyüşlərdə yaralanıb. 12

dekabr 1918-ci il tarixdə 1-ci Tatar süvari alayının Naxçıvanik kəndinə hücum döyüşü zamanı yunker Məmməd Qasımov Ləzgi süvari bölüyünün 2-ci süvari taqımı ilə könüllü kəşfiyyata getmiş və kəşfiyyata getdiyi taqımda süvari sayının az olmasına baxmayaraq alayın Naxçıvanikə hücümü üçün vacib yüksəklikdəki düşməni vurub çıxarmışdır. Bununlada alayın sonrakı hücumunu və Naxçıvanikin alınmasını asanlaşdırmışdır. 13 dekabr 1918-ci il tarixdə düşmənin üstün qüvvələrinin hücumu nəticəsində alayın bölmələri mövqeylərdən çəkilmək məcburiyyətində qaldığı zaman yunker Məmməd Qasımov mövqeni tərk etməmiş orada qalmış yaralı əsgəri atəş altından çıxararaq ilkin tibbi yardım edilməsi üçün Şelli məntəqəsinə gətirmişdir. 14 dekabr 1918-ci il tarixdə alayın sol cinahında pulemyot dəstəyi göstərən komandaya komandanlıq edərkən döyüş sursatının qutarmasına baxmayaraq şəxsi şücayət göstərərək komandanı düşmənin üstün qüvvələrinin hücumunu dəf etməyə ruhlandırmış və iki saat ərzində əsas qüvvələrin gəlməsinədək mövqelərin qorunub saxlamasına nail olmuşdur. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə ilkin zabit “praporşik (süvari üzrə)” hərbi rütbəsi verilməklə Süvari diviziyasının 1-ci Tatar süvari alayında zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Mastura Çərkəz qızı ilə ailə həyatı qurub. Övladları haqqında xidmət dəftərçəsində məlumat yoxdur.

569. **Podporuçik QASIMOV** Əli Ağa

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə

Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına xidmət yeri dəyişdirilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

570. **Kornet QASUMOV** Mustafa bəy

28 yanvar 1894-cü il tarixdə zadəgan ailəsində anadan olub. Kiyev Təlim Dairəsini bitirib (təhsil şəhadətnaməsi № 5660 09 sentyabr 1915-ci il tarixli). 08 may 1917-ci il tarixdə Dağıstan süvari alayında 2-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 04 sentyabr 1917-ci il tarixdə "kiçik uryadnuk", 17 yanvar 1918-ci il tarixdə "baş uryadnik" və 22 aprel 1918-ci il tarixdə isə bolşeviklərə qarşı döyüşlərdə göstərdiyi şücaətə görə "yunker" hərbi rütbəsinə layiq görülüb. 25 iyun 1918-ci il tarixdə xidmət yeri Tatar süvari alayına dəyişdirilib. 1918-ci ilin iyul ayında Kürdəmir ətrafındakı döyüşlər zamanı 2-ci süvari bölüyü 1-ci Tatar süvari alayının tərkibindən çıxarılaraq Kürdəmir stansiyasında olan düşmənin arxa cinahına keçməklə onun tərkibinin öyrənilməsi və müdafiə mövqeylərinin müəyyən edilməsi kimi tapşırıqlarla vəzifələndirilir. Alayda kiçik zabit heyətinin azlığını nəzərə alaraq, həmin süvari bölüyünə komandanlıq yunker Qasumova tapşırılır. Yunker

Qasumovun komandanlıq etdiyi süvari bölüyü tapşırığı yerinə yetirərək düşmənin süvari bölmələrini geri çəkilməyə məcbur etmiş və düşmənin səngərləri və pulemyot mövqeləri haqqında sonrakı əməliyyatlar üçün qiymətli məlumatlar əldə etmişdir. Düşmənin Kürdəmir stansiyasından geri çəkilməsi zamanı bizim əsas qüvvələrlə əlaqə kəsildiyi üçün Kürdəmir stansiyasına daxil olan 2-ci süvari alayına öz qüvvələrimiz tərəfindən güclü pulemyot atəşi açıldığını görən yunker Mustafa bəy Qasumov şəxsən irəli çaparaq şəxsi şücaət göstərməklə Kürdəmir stansiyasında olan bizim qüvvələrlə əlaqəyə girmiş və öz qüvvələrimizə qarşı güclü pulemyot atəşinin dayandırılmasına nail olmuşdur. Bununla da mənasız itkilərin qarşısını almışdır. 1918-ci ilin iyul-sentyabr aylarında aparılan döyüşlərdəki şücaətinə görə 1918-ci ilin sentyabr ayında Osmanlı İmperiyasının "Hərbi Nişanı" ilə təltif edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə ilkin zabit "praporşik (süvari üzrə)" hərbi rütbəsi verilməklə Süvari diviziyasının 1-ci Tatar süvari alayında zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "kornet (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. 12 aprel 1920-ci il tarixdə Qarabağda erməni daşnaq qüvvələrinə qarşı aparılan döyüş əməliyyatlarında həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

571. **Podporuçik QASUMOV** Mirzə bəy Məşədi İsmayıl oğlu

15 yanvar 1900-cu il tarixdə Yelizavetpol quberniyasının Gəncə şəhərində anadan olub. Gəncə Kişi Gimnaziyasının 7 sinfini bitirib. 26 mart 1918-ci il tarixdə 5-ci Müsəlman atıcı alayında 1-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 20 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər

Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və həqiqi hərbi xidmətini davam etdirmək üçün Gəncə Podpraporşiklər Məktəbi rəisinin sərancamında saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 9-cu piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsimə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

572. **Praporşik QASUMOV** Fərrux

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Xankəndi və Şuşa qarnizonlarına erməni daşnaklarının gecə qəfil hücumları nəticəsində 23 mart 1920-ci il tarixdə həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

573. **Podporuçik QASUMOV** Museyib

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala

piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

## 574. **Kornet QARATEXLİNSKİ**

11 mart 1920-ci il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 145 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.



## 575. **General-mayor QAYTABAŞI**

Əbdülhəmid bəy Şərif bəy oğlu

(atası Şərif bəy Qaytabaşı çar ordusunun ehtiyatda olan podpolkovniki olub)

10 iyul 1884-cü ildə Tiflis şəhərində zabit ailəsində anadan olub. 1908-ci ildə Pavlov Hərbi Məktəbini[1] "podporuçik" hərbi rütbəsində bitirərək Yelizavetpol (Gəncə) şəhərində

yerləşən 261-cı Şamaxı ehtiyat piyada alayına təyinat alır. Birinci Dünya müharibəsində 3-cü Qafqaz ordu korpusunun 52-ci piyada diviziyasının 205-ci Şamaxı piyada alayında xidmət edib. Müsəlman Korpusu üzrə 06 mart 1918-ci il tarixli əmrə görə həmin korpusun qərargah rəisi təyin edilib. Əlahiddə Azərbaycan Korpusunun tərkibində həqiqi hərbi xidmətdə olub. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində fəaliyyətə başlaması zamanı Hərbi nazirin 15 noyabr 1918-ci il tarixli 2 №-li əmrində "polkovnik" hərbi rütbəsində Ümumi Qərargahın Növbətçi Generalı vəzifəsinin içracısı kimi həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "general-mayor (piyada üzrə)" hərbi rütbəsi verilməklə Ümumi Qərargahın Növbətçi generalı vəzifəsinə təsdiq olunub. Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 506 №-li əmri ilə Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın üzvü seçilib. 10 dekabr 1919-ci il tarixdə Hərbi nazirin 568 №-li əmri ilə Ümumi Qərargahı rəisi vəzifəsinin müvəqqəti icraçısı (səlahiyyətləri və vəzifə maaşı verilməklə) təyin edilib. 17 fevral 1920-ci il tarixdə isə Hərbi nazirin 105 №-li əmri ilə Ümumi Qərargahın yenidən təşkil edilməsi üzrə komissiyanın üzvü seçilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirilib və 01 mart 1920-ci il tarixdən Ordu Qərargahının Növbətçi Generalı vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində Ordu Qərargahının Növbətçi Generalı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: Sara xanım Məşədi Mahmud qızı ilə ailə həyatı qurub və bu evlilikdən Lətif və Xədicə adlı övladları olub.

576. **Ştabs-kapitan QAFAROV** Ağa

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində “poruçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-ci il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “ştabs-kapitan (piyada üzrə)” hərbi rütbəsi verilib. Hərbi nazirin 08 aprel 1920-ci il tarixli 200 №-li əmri ilə 2-ci piyada diviziyasının qərargahında baş adyutant vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-kapitan” hərbi rütbəsində 2-ci piyada diviziyasının qərargahında həqiqi hərbi xidmətdə olub.

577. **Praporşik QAFAROV** Acar

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin

keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

578. **Praporşik QAFAROV** Məmməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 23 iyun 1919-cu il tarixdə Hərbi nazirin 310 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinə ezam edilib (hərbi topoqrafiya işinin öyrənilməsi və sonra hərbi topoqrafiya şöbəsində müvafiq vəzifəyə təyin olunması məqsədi ilə). 02 mart 1920-ci ildə təşkilati-ştat tədbirləri ilə əlaqədar Baş Qərargah ilə Ümumi Qərargah birləşdirilib və Hərbi nazirin 128 №-li əmri ilə Ordunun Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ordunun Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamında xidmət edib.

579. **Rotmistr QAİBOV** Yuriy Nikolayeviç

10 fevral 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 mart 1919-cu il tarixli 118 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının adyutantı

vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-ci il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "rotmistr (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayının həqiqi hərbi xidmətdə olub.

580. **Podporuçik QALAYEV** Əli

Gəncə Ali ibtidai məktəbində təhsil alıb. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin alayın 1-ci pulemyot komandasının müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 6-cı piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

581. **Poruçik QALACEV** Murtuza Əli

21 mart 1919-ci il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının adyutantı vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (süvari üzrə)" hərbi rütbəsi verilib. 02 dekabr 1919-cu il tarixdə dəmir yolu ilə hərəkət edərkən kupedə arasında məxfi sənədlər olmaqla bir neçə sənədləri unutmuşdur. Vaqonun konduktoru tərəfindən aşkar edilən sənədlər Parlamentin Dəftərxanasına təhvil verilmişdir. Öz vəzifə borclarına səhlənkar yanaşaraq məxfi sənədlərin saxlanılmasına laqeydlik göstərdiyi üçün intizam cəzası qaydasında Hərbi nazirin 23 dekabr 1919-cu il tarixli 589 №-li əmri ilə 1 (bir) ay müddətinə hauptvaxtada saxlanılmaqla həbs cəzası verilmiş və aşağı vəzifəyə Süvari diviziyasının 3-cü Şəki süvari alayının süvari bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilmişdir. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.



582. **Polkovnik QALLACEV** Daniyel bəy Abdulla bəy oğlu

05 sentyabr 1876-cı ildə Balakən qəzasında mülkədar ailəsində anadan olub. Ilk təhsilini 1895-ci ildə Stavropol Realnı məktəbində alıb. 1895-ci ildə Peterburq Mixayılovsk Artilleriya Məktəbinə[1] daxil olur və 1897-ci ildə həmin məktəbi "podporuçik" hərbi rütbəsində bitirərək Aleksandropol şəhərində yerləşən Qafqaz ordu korpusunun

39-cu artilleriya briqadasına təyinat alır. Birinci Dünya müharibəsində 1-ci Qafqaz atıcı artilleriya divizionunun 1-ci artilleriya batareyasının baş zabiti vəzifəsində xidmət edib. Həqiqi hərbi xidməti zamanı 1915-ci ildə “2-ci dərəcəli müqəddəs Stanislav” və “4-cü dərəcəli müqəddəs Vladimir” ordenləri ilə təltif edilib. 1915-ci ildə döyüşlərdə yaralandığına görə müalicə üçün cəbhədən geri qaytarılır və ehtiyata buraxılır.

01 dekabr 1919-ci il tarixdə “polkovnik” hərbi rütbəsində ehtiyatdan Cümhuriyyət ordusuna həqiqi hərbi xidmətə qəbul edilir və Hərbi nazirin 551 №-li əmri ilə 1-ci Artilleriya briqadasının komandiri vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

583. **Praporşik QAZIYEV** Mahmud Mustafayeviç

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. 07 noyabr 1919-cu il tarixdə həlak olduğuna görə Hərbi nazirin 08 aprel 1920-ci il tarixli 200 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

584. **Poruçik QAZIXAN** Novruz Xan Azaydin Xan oğlu

16 may 1919-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 22 may 1919-ci il tarixli 264 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və Gəncə intendant xidməti üzrə işçilər komandasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordunun İntendant idarəsində həqiqi hərbi xidmətdə olub.

585. **Ştabs-kapitan QOQOBERİDZE** Zurab

Milliyəti gürcü. 08 aprel 1920-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 200 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

586. **Polkovnik QOROŞENKO**

Milliyəti ukraynalı. 12 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Yerli briqada rəisi yanında qərargah zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə 22 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

587. **Praporşik QOLOÇALOV**

02 yanvar 1920-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 01 fevral 1920-ci il tarixli 62 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

588. **Podpolkovnik QOLS** Eduard

19 aprel 1920-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

589. **Podporuçik QOQORİŞVİLİ** Nikolay

Milliyəti gürcü. 21 fevral 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 133 №-li əmri ilə Xankəndi yerli lazaretin təsərüffat hissə rəisinin köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Xankəndi yerli lazaretində həqiqi hərbi xidmətdə olub.

590. **Praporşik QORÇİYEV** Əli

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

591. **Podporuçik QORÇUBAŞEV** Fuad bəy

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət Ordusunda zabit kimi hərbi xidmət keçməyib.

592. **Praporşik QONÇAROV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Cümhuriyyət ordusunda xidmət etdiyi 5 ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

593. **Praporşik QOŞQAROV** Cabar Qulu oğlu

Gəncə quberniyasının Gəncə şəhərində anadan olub. Gəncə Ali ibtidai məktəbində təhsil alıb. 28 dekabr 1917-ci il tarixdə 1-ci Artilleriya briqadasında 2-ci dərəcəli könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 28 may 1918-ci il tarixdə hərbi təhsil almaq üçün Gəncə Podpraporşiklər Məktəbinə göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və Məktəb rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 6-cı piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

594. **Kapitan QEDEVANOV** Mixayıl Vladimiroviç

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Piyada taborunun komandiri vəzifəsinin icraçısı təyin edilib. 14 iyul 1919-cu il tarixdə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

595. **Podpolkovnik QEQELAŞVİLİ** Mixail Avvakumoviç

Milliyəti gürcü. 20 avqust 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 386 №-li əmri ilə 2-ci piyada diviziyasının baş adyutantı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

596. **Poruçik QEMBİSKİ**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamında həqiqi hərbi xidmət keçdiyi qeyd edilib. 11 mart 1919-cu il tarixdə Hərbi nazirin 123 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Mühəndis şöbəsi 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlandırılmışdır və xidmət yeri həmin idarədə saxlanılmışdır. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Mühəndis idarəsi Ordunun Mühəndis təchizatı idarəsi adlandırılıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

597. **Podporuçik QƏDİROV** Cəfər

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə

Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. 11 mart 1920-ci il tarixdə Hərbi nazirin 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmət olub.

598. **Praporşik QƏTƏMBƏYOV** Heydər

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarın artilleriya bölməsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1 №-li Zirehli qatarda həqiqi hərbi xidmət olub.

599. **Praporşik QƏHRAMANOV** Nəcəf

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamın həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci

piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmət olub.

600. **Ştabs-rotmistr QƏHRAMAN-ZADƏ** Tfik bəy

20 sentyabr 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 sentyabr 1919-ci il tarixli 438 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının 2-ci süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmət olub.

601. **Rotmistr** Xan Sultan **QUAT**

10 iyul 1919-cu il tarixdə "rotmistr" həqbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 326 №-li əmri ilə Hökümətin konvoy bölüyünün komandiri vəzifəsinə təyin edilib. İstintaq altında olduğu üçün (səbəbi bilinmir) Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 511 №-li əmri ilə 22 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

602. **Polkovnik QUQUŞEV**

31 mart 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 mart 1919-cu il tarixli 176 №-li əmri ilə Biləcəri dəmiryolu stansiyasının komendantı vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 10 may 1919-cu il tarixli 241 №-li əmri ilə eyni zamanda Bakı dəmiryolu stansiyasının komendantı vəzifəsinin müvəqqəti icraçısı da ona

həvalə edilib. 06 iyun 1919-cu il tarixdə Hərbi nazirin 282 №-li əmri ilə yeni yaradılan Kürdəmir dəmir yolu stansiyasının komendantı vəzifəsinə keçirilib. 23 noyabr 1919-cu il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 553 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb.

603. **Polkovnik QUQUŞEV** Hüseyn bəy

28 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb və həmin alayın komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Həqiqi hərbi xidməti zamanı alay komandiri vəzifəsinin icraçısı kimi mövcud olan qanunvericiliyə zidd olaraq öz əmri ilə bölük komandiri vəzifələrinə zabitləri təyin etdiyinə və zabit şərəf məhkəməsinin kargüzarı işini istintaq altında olan zabitə həvalə etdiyinə görə Hərbi nazirin 07 dekabr 1919-cu il tarixli 503 №-li əmri ilə intizam cəzası qaydasında "Töhmət" alıb. Hərbi nazirin 560 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandiri vəzifəsinə təsdiq edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna

kimi “polkovnik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının komandiri olub.

604. **Podpolkovnik QUQUŞEV** İlyas bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində “kapitan” hərbi rütbəsində Kürdəmir dəmir yolu stansiyasındakı Artilleriya anbarının rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 24 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 432 №-li əmri ilə Praporşiklər Məktəbinin Tədris hissə rəisi (Siniflərin inspektoru) vəzifəsinin icraçısı təyin edilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və həmin Məktəbin Tədris hissə rəisi (Siniflərin inspektoru) vəzifəsinin icraçısı təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “podpolkovnik (artilleriya üzrə)” hərbi rütbəsi verilib. 18 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 35 №-li əmri ilə Hərbi Məktəbinin Tədris hissə rəisi (Siniflərin inspektoru) vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Hərbi Məktəbinin Tədris hissə rəisi kimi həqiqi hərbi xidmətdə olub.

605. **Praporşik QUQUŞVİLİ**

Milliyəri gürcü. 03 iyul 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li

əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 12 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

606. **Praporşik QURBANƏLİYEV** Qurban Əli

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

607**. Poruçik QURBANOV** Məmməd

30 mart 1920-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 176 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

608. **Praporşik QURBANOV** Xanlar

10 sentyabr 1901-ci il tarixdə Yelizavetpol quberniyasının Şuşa şəhərində tacir ailəsində anadan olub. Gəncə Seminariyasının 4 sinfini bitirib. 16 iyul 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub və həmin tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının rabitə rəisi

vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

609. **Praporşik QURBANOV** Muxtar

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət Ordusunda zabit kimi hərbi xidmət keçməyib.

610. **Praporşik QURBANƏLİYEV** İbrahim

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

611. **Praporşik QULİYEV** Əbülfəz

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına xidmətini davam

etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirlib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

612. **Praporşik QULİYEV** Allahverdi

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

613. **Praporşik QULİYEV** Baxış

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

614. **Praporşik QULİYEV** Salah

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 aprel 1920-ci il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə xidmət yeri Kürd atıcı taboruna dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

615. **Podporuçik QULİYEV** Süleyman

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il

tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 3-cü piyada taborunun 12-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

616. **Praporşik QULİYEV** Murtuza

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

617. **Praporşik QULİ-ZADƏ**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul olunma tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində hərbi hissələr üzrə dəqiqləşdirmə siyahılarında "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 20 sentyabr 1919-cu il tarixli 419 №-li əmri ilə Gəncə dəmir yolu stansiyası

komendantının köməkçisi vəzifəsinə təyin edilib. 31 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 508 №-li əmri ilə isə 01 noyabr 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

618. **Podporuçik QULİYEV** İdris

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət Ordusunda zabit kimi hərbi xidmət keçməyib.

619. **Kornet QULİYEV** Nəsrəddin

22 aprel 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kornet (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

620. **Praporşik QULİYEV** Məmməd Əli

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

621. **Praporşik QULİYEV** Tahir

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 01 aprel 1920-ci il tarixli 182 №-li əmri ilə Kürd atıcı taboruna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

622. **Praporşik QULUBƏYOV** Ağarəhim

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

623. **Praporşik QULUBƏYOV** Nurulla

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 13 mart 1920-ci il tarixli 150 №-li əmri ilə Ordunun Qərargahına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

624. **Podporuçik QUBAREV**

13 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidməti vəzifəsinin icrasına səhlənkar yanaşdığına görə Hərbi nazirin 06 mart 1919-cu il tarixli 108 №-li əmri ilə 04 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

625. **Poruçik QULİYEV** Həsən bəy

25 iyun 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 9-cu piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboruna xidmət yeri

dəyişdirilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

626. **Podyesaul QUSEVİÇ**

Milliyəti rus. 10 dekabr 1918-ci il tarixdə "podyesaul"[1] hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə (Göndəriş vərəqəsi №3) Qazax şəhərində dislokasiya olunmuş Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq, 18 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 28 №-li əmri ilə Təlim taboru 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının Qazax şəhərində dislokasiya edilməklə 3-cü piyada taboru kimi həmin alayın tərkibinə daxil edilib və xidmət yeri həmin taborda saxlanılıb. Cümhuriyyət ordusunda xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

Müəllifdən: "Podyesaul" hərbi rütbəsi Çar ordusunda Kazak qoşunlarına aid hərbi rütbə olub və piyada qoşunlarında "ştabs-kapitan", süvari qoşunlarında isə "ştabs-rotmistr" indiki "kapitan" hərbi rütbələrinə uyğun hərbi rütbə olub. Cümhuriyyət Hərbi Nazirliyi Çar ordusunun zabit hərbi rütbələrinin (Kazak qoşunlarındakı istisna olmaqla) Cümhuriyyət ordusunda tətbiqini qəbul etmişdir. Məhz bu səbəbdən, Kazak qoşunlarındakı hərbi rütbələrlə Cümhuriyyət ordusuna həqiqi hərbi xidmətə qəbul edilən zabitlərin hərbi

rütbələri müəyyən müddətdən sonra Hərbi nazirin əmri ilə mənsub olduqları ixtisasa uyğunlaşdırılmışdır.

627. **Podpolkovnik QİYASBƏYOV**

08 mart 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 mart 1919-cu il tarixli 159 №-li əmri ilə 1-ci haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 07 aprel 1919-cu il tarixdə Hərbi nazirin 181 №-li əmri ilə Hərbi Məhkəmənin müvəqqəti üzvü seçilib. Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 186 №-li əmri ilə 1-ci haubitsalı artilleriya divizionu komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. 24 iyul 1919-cu il tarixdə divizion komandiri kimi iki aşbaza yeməyi duzlü bişirdiyinə görə 2 (iki) sutka həbs cəzası vermiş və sonradan onların həbs cəzalarını hər bir sutkaya görə dörd saat döyüş sursatı daşıyan arabalarda silah altında qalmalarına dəyişmiş, araba olmadığı üçün yəhərdə oturmalarını əmr etmişdir. Hərbi nazir tabelçiliyində olanlara qarşı İntizam Nizamnaməsində nəzərdə tutulmayan və şəxsiyyəti alçaldan cəza tətbiq etdiyinə görə ona birinci dəfə 334 №-li əmri ilə "Töhmət" elan etmişdir. Həmin əmrdə Hərbi nazir bütün komandirlərə özlərindən cəza uydurmamalarını və yalnız İntizam Nizamnaməsində nəzərdə tutlmuş cəzalar tətbiq etməyi əmr etmişdir. 09 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 13 №-li əmri ilə 07 yanvar 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

628. **Podporuçik QRİQOREV**

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li

əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilmişdir. Cümhuriyyət ordusunda xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

629. **Podporuçik QROZDOV**

Milliyəti rus. 06 yanvar 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsi 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlandırılıb və xidmət yeri həmin idarədə saxlanılıb. Hərbi nazirin 05 avqust 1919-cu il tarixli 358 №-li əmri ilə 11 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

630. **Ştabs-kapitan QLUXOV** Qriqoriy

Milliyəti rus. 28 fevral 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 02 mart 1919-cu il tarixli 107 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsi 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlandırılıb və xidmət yeri həmin idarədə saxlanılıb. 04 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 390 №-li əmri ilə Hərbi dəmiryolçular məktəbi rəisi

vəzifəsinin müvəqqəti icraçısı (Gəncə şəhəri) təyin edilib. Hərbi nazirin 07 oktyabr 1919-cu il tarixli 459 №-li əmri ilə 20 sentyabr 1919-cu il tarixdən Hərbi dəmiryolçular məktəbi rəisinin müavini vəzifəsinin icraçısı vəzifəsinə keçirilir. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "ştabs-kapitan (mühəndis qoşunları üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Hərbi dəmiryolçular məktəbində həqiqi hərbi xidmətdə olub.

631**. Podporuçik QZƏLİYEV**

08 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmət yerinə gedib çıxmadığına görə Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 186 №-li əmri ilə həqiqi hərbi xidmətə qəbul əmri ləğv edilib və 08 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

632. **Praporşik LAZIMOV** Mirzə

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. 3-cü Ləzgi süvari alayında "podpraporşik" hərbi rütbəsində həqiqi hərbi xidmətdə olub. Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 46 №-li əmri ilə 14 yanvar 1919-cu il tarixdən Süvari diviziyasının 1-ci Tatar süvari alayına təyin edilib. Hərbi nazirin 24 mart 1920-cu il tarixli 167 №-li əmri ilə növbəti "praporşik (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

633. **Podpolkovnik LEDOMSKİ** Aleksandr Fedoroviç

Milliyəti rus. 01 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-cu il tarixli 11 №-li əmri ilə Ümumi Qərargahın Hərbi-topoqrafiya bölməsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndədrilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ümumi Qərargahla Baş Qərargah idarəsi ilə birləşdiyi üçün Ordu Qərargahının Hərbi topoqrafiya şöbəsi adlanıb və həmin şöbə rəisinin müavini vəzifəsinə təsdiq olunub. Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti "podpolkovnik (topqrafiya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Qərargahının Hərbi topoqrafiya şöbəsi rəisinin müavini vəzifəsində həqiqi hərbi xidmətdə olub.

634. **Podpolkovnik** Knyaz **LEONİDZE**

Milliyəti gürcü. 01 may 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 03 avqust 1919-cu il tarixli 347 №-li əmri ilə 28 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

635. **Praporşik LEMBARANSKİ** Cavad

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada

diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 05 aprel 1920-ci il tarixli 193 №-li əmri ilə Kürd atıcı taboruna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

636. **Podpolkovnik LEVOÇKO**

Milliyəti ukraynalı. 03 mart 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 174 №-li əmri ilə Gəncə hərbi lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsinə təyin edilib. 17 aprel 1919-cu il tarixdə Hərbi nazirin 206 №-li əmri ilə Gəncə hərbi lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsinə təyin edilməsi ləğv edilib və həmin lazaretdə xidmətini davam etdirib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Gəncə hərbi lazaretində həqiqi hərbi xidmətdə olub.

637. **Polkovnik LEVESTAM** Vladimir Mixayıloviç

06 aprel 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 186 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin müavini vəzifəsinə təyin edilib. 03 avqust 1919-cu il tarixdən 25 yanvar 1920-ci il tarixədək Hərbi nazirin 347 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandiri vəzifəsinin müvəqqəti icra edib. 25 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 27 yanvar 1920-ci il tarixli 54 №-li əmri ilə təkrarən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin müavini vəzifəsinə qaytarılır. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci piyada

diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin müavini vəzifəsində həqiqi hərbi xidmətdə olub.

638. **Podporuçik LÜTFƏLİBƏYOV** İzmayıl

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

639. **Kapitan LOPATTO** Ryaç Stepanoviç

17 mart 1919-cu il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və təsərrüfat hissəsinin rəisi vəzifəsinə təyin edilib . Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

640. **Podporuçik LOMTADZE**

Milliyəti gürcü. 08 noyabr 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 532 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının siyahılarına daxil edilib və həqiqi hərbi xidmətini davam etdirmək üçün Mühəndis məktəbinə ezam edilib. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Mühəndis məktəbində həqiqi hərbi xidmətdə olub.

641. **Ştabs-kapitan LOVEN**

04 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1 №-li Zirehli qatar rəisi vəzifəsinin müvəqqəti icraçısı vəzifəsinə təyin edilib. Xidməti vəzifəsinə səhlənkar yanaşdığına görə Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 32 №-li əmri ilə 10 yanvar 1919-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

642. **Praporşik LƏTİFOV** İbrahim

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarın pulemyot komandasına təyin edilib. Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 561 №-li əmri ilə 2 №-li Zirehli qatarın kiçik zabiti vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

643. **Polkovnik LISYAKOV** Qeorqiy İvanoviç

Milliyəti rus. 12 fevral 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 94 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahına həqiqi hərbi xidmətini davam etdirmək üçün ezam edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirilərək Ordu Qərargahı yaradıldığı üçün Ordu Qərargahının Növbətçi General idarəsinin tipoqrafiya rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində

Ordu Qərargahının Növbətçi General idarəsində həqiqi hərbi xidmətdə olub.

644. **Podpolkovnik MAQRUBOV** Yusif bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəlindəki zabit heyətinin üzləşmə siyahılarında "kapitan" hərbi rütbəsində Hərbi Nazirliyin General-Kvartirmeystr idarəsinin ümumi şöbəsinin baş adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 09 aprel 1919-cu il 13 №-li və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə növbəti "podpolkovnik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirilərək Ordu Qərargahı yaradıldığı üçün 01 mart 1920-ci il tarixdən Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin Nizami və ümumi şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Ordu Qərargahının General-Kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.

645. **Miçman MAQSUDOV** İslam bəy

19 mart 1919-cu il tarixdə "miçman" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 mart 1919-cu il tarixli 147 №-li əmri ilə Baş Qərargah rəisinin adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 avqust 1919-cu il tarixli 351 №-li əmri ilə 01 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

646. **Poruçik MAQSUD**

12 aprel 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 290 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

647. **Kornet MAQSUDOV** Maqomet Abdulloviç

01 sentyabr 1919-cu il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 433 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin baş adyutantının köməkçisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Baş Qərargah idarəsi ilə Ümumi Qərargah birləşdirilərək Ordu Qərargahı yaradıldığı üçün 01 mart 1920-ci il tarixdən Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin baş adyutantının köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Ordu Qərargahının Kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.



648. **Polkovnik MAÇUTADZE** Qeorqiy Mixayıloviç

Milliyəti gürcü. Çar ordusunda 9-cu Şərqi-Sibir atıcı alayında həqiqi hərbi xidmətdə olub. 10 yanvar 1920-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib

və Hərbi nazirin 24 aprel 1920-cu il tarixli 30 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin nizami hissə üzrə köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub

649. **Poruçik MAÇABELİ** İlya Qriqoryeviç

Milliyəti gürcü. 01 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 avqust 1919-cu il tarixli 351 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərlib. Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 535 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 04 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

650. **Podpolkovnik MANDELBAUM**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrindəki zabit heyətinin üzləşmə siyahılarında "podpolkovnik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 1-ci artilleriya batareyasının komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 03 iyun 1919-cu il tarixli 276 №-li əmri ilə 26 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

651. **Podporuçik MANAFOV** Manaf

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə

bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

652. **Praporşik MANAFOV** İsmayıl

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

653. **Praporşik MANAFOV** İsa

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il

tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 19 yanvar 1920-ci il tarixli 38 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 654. **Poruçik MANSUROV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmrində "poruçik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbində həqiqi hərbi xidmətdə olduğu qeyd edilir. 26 fevral 1919-cu il tarixdə Hərbi nazirin 100 №-li əmri ilə xəstəliyə görə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 655. **Poruçik MAKSİMOVİÇ** Aleksandr

Milliyəti rus. 13 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin əmri 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

656. **Poruçik** **MAKSİMOVİÇ** Dmitriy

Milliyəti rus. 14 dekabr 1918-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində yerləşən Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Təlim taboru Qazax şəhərində dislokasiya yeri saxlanılmaqla 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taboru adlanıb. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taborunda həqiqi hərbi xidmətdə olub.

657. **Podporuçik** **MAKSİMOVİÇ** Anatoliy

Milliyəti rus. 17 dekabr 1918-ci il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib (Göndəriş vərəqəsi №25). Hərbi nazirin 09 yanvar 1919-cu il tarixli 20 №-li əmri ilə 29 dekabr 1918-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.



658. **General-mayor** Knyaz **MAKAYEV** Avel Qavriloviç

Milliyəti gürcü. 06 iyun 1860-cı ildə zabit ailəsində anadan olub. 1877-ci ildə Yelizavetqrad hərbi gimnaziyasını və 1880-ci

ildə Kazan Piyada Məktəbini[1] bitirib. Çar ordusunda 164-cü Zaqatala piyada alayında bölük və tabor komandiri, 185-ci Başkadıklar piyada alayı komandirinin müavini daha sonra isə həmin alayın komandiri vəzifələrində xidmət edib. 1914-1916-cı illərdə 202-ci Qori piyada alayının və 16-cı Minqrel qrenader* alayının komandiri, 1916-1917-ci illərdə isə Qafqaz qrenader diviziyasının komandiri olub. 18 yanvar 1916-cı il tarixdə "general-mayor" hərbi rütbəsi verilib. Birinci dünya müharibəsində iştirak edib. Hərbi xidməti dövründə 04 mart 1917-ci il tarixdə "Georgi silahı", 1899-cu ildə "2-ci dərəcəli müqəddəs Stanislav", 1917-ci ildə "1-ci dərəcəli müqəddəs Stanislav (qılıncla)", "2-ci dərəcəli müqəddəs Anna", və 1910-cu ildə "3-cü və 4-cü dərəcəli müqəddəs Vladimir (qılıncla)" ordenləri ilə təltif edilib.

07 avqust 1919-cu il tarixdə "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin müavini vəzifəsinə təyin edilib. Həmin əmrlə Xankəndi qarnizonunun rəisi vəzifəsi ona həvalə edilib. 27 sentyabr 1919-cu il tarixdən 27 yanvar 1920-ci il tarixədək diviziya komandiri general-mayor İbrahim ağa Usubovun xarici ezamiyyətə getməsi ilə əlaqədar Hərbi nazirin 438 №-li əmri ilə 1-ci piyada diviziyası komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 561 №-li əmri ilə 1-ci piyada diviziyası komandiri vəzifəsinin müvəqqəti icraçısı vəzifəsində saxlanılmaqla əlavə olaraq Quba dəstəsinin rəisi vəzifəsinin icrasıda ona həvalə edilib. 27 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 52 №-li əmri ilə 2-ci piyada diviziyası komandirinin müavini vəzifəsinə keçirilib. Hərbi nazirin 30 mart 1920-ci il tarixli 176 №-li əmri ilə Korpus komandirinin səlahiyyət və vəzifə maaşı verilməklə Gəncə İstehkam rayonunun (Qazax, Şamxor və Gəncə qəzaları daxil olmaqla) rəisi təyin edilir. 10 aprel 1920-ci il tarixdə isə Hərbi nazirin 203 №-li əmri ilə həmin vəzifədən azad edilir və

yenidən 2-ci piyada diviziyası komandirinin müavini vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində 2-ci piyada diviziyası komandirinin müavini vəzifəsində həqiqi hərbi xidmətdə olub.

Müəllifdən: Grenader* - Fransız sözü olub XVII-ci əsrdən başlayaraq mühasirə əməliyyatlarında düşmən istehkamlarına hücum etmək üçün nəzərdə tutulmuş piyada və ya süvari dəstələri olub. Grenaderlər əl bombaları və odlu silahlarla silahlandırılıblar. Əl qumbaraları öncə "qrenada" və ya "qrenadka" adlanırdı. Bu növ silahlarla silahlanmış bölmələrin adları qrenada sözündən alınıb. Həmin bölmələr Çar ordusunda və eləcə də qərb ölkələrinin ordularında xüsusi təyinatlı piyada və ya süvari bölmələri olub.

659. **Praporşik MARSOV**

Milliyəti rus. 14 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətdə olduğu 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

660. **Poruçik MATVEYEV** Nikolay

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyinin 1918-ci ilin noyabr ayının əvvəlIərindəki zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun artilleriya texniki vəzifəsində həqiqi hərbi xidmətdə olduğu

qeyd edilib. Hərbi nazirin 27 mart 1919-cu il tarixli 160 №-li əmri ilə Artilleriya idarəsinin Artilleriya emalatxanasının artilleriya texniki vəzifəsinə keçirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlqədar olaraq, Artilleriya idarəsi Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun Artilleriya təchizatı idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordunun Artilleriya təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

### 661. **Polkovnik MAMASEV**

09 yanvar 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 20 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334 №-li əmri ilə 17 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 662. **Rotmistr MAMİN** Əli Əsgərbəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "rotmistr" hərbi rütbəsində Hərbi Nazirliyin İntendant idarəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 30 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 503 №-li əmri ilə Bakı İstehkam rayonu rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Bakı İstehkam rayonunda həqiqi hərbi xidmətdə olub.

663. **Poruçik MAMANTOV**

18 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 02 mart 1919-cu il tarixli 104 №-li əmri ilə 1 №-li Zirehli qatara həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə 05 may 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib və həmin tarixdən siyahılardan çıxarılıb.

664. **Podporuçik MAMALADZE**

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

665. **Praporşik MAHMUD-ZADƏ** Mahmud

16 sentyabr 1896-cı il tarixdə Bakı şəhərində anadan olub. Bakı №-li Kişi Gimnaziyasının tam kursunu bitirib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və 2-ci Bakı piyada alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 20 noyabr 1918-ci il tarixdə geri çağırılaraq 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etmək üçün göndərilib və briqada üzrə 15 №-lə şəxsi heyətin siyahılarına daxil edilib. Hərbi nazirin 22 mart 1919-cu

il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

666. **Praporşik MAHMUDOV** Əhməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

667. **Ştabs-kapitan MAYSUROV**

24 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə 26 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

668. **Ştabs-kapitan MAYSURADZE** İvan Fedoroviç

Miliyəti gürcü. 20 iyul 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 438 №-li əmri ilə 1-ci Artilleriya briqadasının rabitə rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

669. **Poruçik MAXOV**

05 mart 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 mart 1919-cu il tarixli 118 №-li əmri ilə Gəncə şəhər komendantının adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 314 №-li əmri ilə 29 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

670. **Praporşik MAHMUDOV** Fərəculla

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14

iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

671. **Praporşik MAHMUDOV** Həmid Məmməd Koxa oğlu

Atası Məmməd Koxa 1859-cu ildə Qazax mahalında anadan olub və 1918-1920-ci illərdə Qazax mahalının general-qubernatoru vəzifəsində işləyib. Mahmudov Həmid Məmməd Koxa oğlu 1912-ci ildə Tiflisdəki birinci klassik gimnaziyasına daxil olur və 1918-ci ildə həmin Gimnaziyada təhsilini başa vurur. 05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini "praporşik" hərbi rütbəsində süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilir. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

672. **Polkovnik MALÇUKOVSKİ**

Milliyəti rus. 08 sentyabr 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə Artilleriya idarəsi rəisinin sərancamına ezam edilir (batareyanın baş zabiti vəzifə maaşı verilməklə). Təşkilati-ştat

tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Artilleriya idarəsi Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun Artilleriya təchizatı idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordunun Artilleriya təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

673. **Kornet MQALOBLİŞVİLİ** Mixail Antonoviç

Milliyəti gürcü. 26 iyun 1919-cu il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 16 avqust 1919-cu il tarixli 359 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə 22 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

674. **Podporuçik MƏDƏTOV** Meydər

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

675. **Podporuçik MƏDƏTOV** Cəbrayıl

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

676. **Podporuçik MƏSTƏN-ZADƏ** Mirməstan

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

677. **Podporuçik MƏHƏRRƏMOV** Rəhim

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

678. **Praporşik MƏMMƏDOV** Məmməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

679. **Praporşik MƏMMƏDOV** Əbülfəz

01 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi

nazirin 30 sentyabr 1919-cu il tarixli 446 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayına keçirilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

751. **Podporuçik MEHTİYEV** Laçın

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

752. **Praporşik MEHTİYEV** Cabar

1900-cu ildə Gəncə şəhərində anadan olub. Gəncə Ali ibtidai məktəbində təhsil alıb. 01 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub və həmin tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və Məktəb rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına xidmət yeri dəyişdirilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada

diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

753. **Podporuçik MEHTİYEV** İsrafil

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podraporşiklər Məktəbini piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

754. **Podporuçik MEHTİYEV** Eyyub

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podraporşiklər Məktəbini artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 4-cü dağ-artilleriya batareyasının zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 may 1919-cu il tarixli 274 №-li əmri növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib.

Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

755. **Praporşik MEHTİYEV** Eyyub

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarın artilleriya komandasına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

756. **Poruçik MEHTİOĞLU** Məmmədrəhim

21 mart 1919-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 22 may 1919-cu il tarixli 264 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinə həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 iyun 1919-cu il tarixli 299 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına dəyişdirilib. 09 noyabr 1919-cu il tarixdə tabeliyində olan əsgərə əl qaldırdığı üçün Hərbi nazir tərəfindən birinci dəfə intizam cəzası qaydasında 1 (bir) ay müddətinə hauptvaxtada saxlanılmaqla həbs cəzası alıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.



757. **Tam artilleriya generalı**
**MEHMANDAROV** Səməd bəy
Sadıq bəy oğlu

16 oktyabr 1856-cı ildə Lənkaran qəzasında məmur ailəsində anadan olub. Orta təhsilini Bakı Realnı Məktəbində alıb. 01 sentyabr 1873-cü il tarixdə Konstantinovsk Hərbi Məktəbinə[1] daxil olub və 04 avqust 1875-ci il tarixdə həmin məktəbi artilleriya ixtisası üzrə “praporşik” hərbi rütbəsində bitirib. Hərbi məktəbi bitirdikdən sonra 12 sentyabr 1875-ci il tarixdə 1-ci Türküstan artilleriya briqadasının 3-cü artilleriya batareyasına təyin edilib. 24 noyabr 1875-ci il tarixdən 03 fevral 1876-cı il tarixədək həmin briqadanın tərkibində Kokand xanlığındakı Matçin dağlılarına qarşı döyüş əməliyyatlarda iştirak edib. 12 oktyabr 1876-cı il tarixdə Matçin dağlılarına qarşı döyüşlərdə fərqləndiyinə görə qeyri-xristianlar üçün “3-cü dərəcəli müqəddəs Stanislav” ordeni ilə təltif edilib. 09 dekabr 1876-cı il tarixdə növbəti “podporuçik” hərbi rütbəsi verilib. 26 dekabr 1877-ci il tarixdə isə “poruçik” hərbi rütbəsinə layiq görülüb. 16 aprel 1879-cu il tarixdə Sank Peterburq şəhərindəki Mixaylovsk Artilleriya Akademiyasına[1] təhsil alması üçün göndərilib və qəbul imtahanlarından keçə bilmədiyinə görə 31 oktyabr 1879-cu il tarixdə geri qaytarılıb və 2-ci Artilleriya briqadasının 6-cı yüngül artilleriya batareyasına təyin edilib. 13 mart 1881-ci il tarixdə qeyri-xristianlar üçün “3-cü dərəcəli müqəddəs Anna” ordeni ilə təltif edilir.

Hərbi xidmətdə fərqləndiyinə görə 01 avqust 1881-ci il tarixdə yenidən Baş Qərargahın Nikolayev Hərbi Akademiyasına[1] təhsil alması üçün göndərilib və yenə də qəbul imtahanlarından keçə bilmədiyinə görə 18 sentyabr 1881-ci il tarixdə briqadaya geri ezam edilib və 5-ci yüngül artilleriya batareyasına təyin edilib. 31 oktyabr 1881-ci il tarixdən 30 aprel

1882-ci il tarixədək briqada məhkəməsinin üzvü olub. 29 noyabr 1882-ci il tarixdə növbəti "ştabs-kapitan" hərbi rütbəsi verilib. 17 iyun 1885-ci il tarixdə Tiflisdə yerləşən 38-ci artilleriya briqadasının 6-cı artilleriya batareyasında xidmətini davam etdirmək üçün göndərilib. 02-12 oktyabr 1886-cı il tarixlərdə Tiflis yaxınlığında keçirilən səhra çıxışlarında iştirak edib. 08 iyul – 08 noyabr 1887-ci il tarixlərdə Qafqaz hərbi dairə məhkəməsinin müvəqqəti üzvü olub. 28 sentyabr 1888-ci il tarixdə həmin briqadanın 3-cü artilleriya batareyasına keçirilib. 31 avqust 1889-cu il tarixdə həmin briqadanın 4-cü artilleriya batareyasının təsərrüfat hissə rəisi təyin edilib. 16 dekabr 1890-cı il tarixdə növbəti "kapitan" hərbi rütbəsinə layiq görülüb. 21 may 1891-ci il tarixdə isə qeyri-xristianlar üçün "2-ci dərəcəli müqəddəs Stanislav" ordeni ilə təltif edilib. Hərbi xidmətdə fərqləndiyinə görə 03 sentyabr 1891-ci ildə briqadanın "Zabit şərəf məhkəməsinin" üzvü seçilib. 07 yanvar 1894-cü il tarixdə həmin briqadanın 2-ci artilleriya batareyasına xidmət yeri dəyişdirilib. 30 sentyabr 1894-cü il tarixdə briqadanın dislokasiya yeri Qafqaz hərbi dairəsindən Varşava hərbi dairəsinə dəyişdirilib. 12 noyabr 1894-cü il tarixdən 25 fevral 1895-ci il tarixədək briqada məhkəməsinin üzvü, 18 dekabr 1894-cü il tarixdən briqadanın "Zabit şərəf məhkəməsinin" üzvü və 25 fevral 1895-ci il tarixdən 22 mart 1896-cı il tarixədək isə briqada "Zabit şərəf məhkəməsinin" sədri olub. 30 sentyabr 1895-ci il tarixdə 2-ci artilleriya batareyasının təsərrüfat hissə rəisi vəzifəsindən azad edilib. 14 may 1896-cı il tarixdə hərbi xidmətdə fərqləndiyinə görə qeyri-xristianlar üçün "2-ci dərəcəli müqəddəs Anna" ordeni ilə təltif edilir. 22 yanvar – 01 iyun 1896-cı il tarixlərdə Varşava hərbi dairə məhkəməsinin müvəqqəti üzvü seçilib. 22 iyul 1896-cı il tarixdə həmin briqadanın 6-cı artilleriya batareyasına təyin edilib. 07 avqust 1896-cı il tarixdə həmin briqadanın 2-ci artilleriya batareyasına xidmət yeri dəyişdirilib. 05 oktyabr 1896-cı il tarixdən 14 oktyabr 1897-ci il tarixədək briqadanın "Zabit şərəf

məhkəməsinin" üzvü olub. 11 noyabr 1896-cı il tarixdə 3-cü artilleriya batareyanın təsərüffat hissəsinin rəisi vəzifəsinə təyin edilib. 22 aprel - 26 iyun 1897-ci il tarixlərdə həmin briqadanın 3-cü artilleriya batareyasının komandiri vəzifəsinin müvəqqəti icraçısı olub. 14 oktyabr 1897-ci il tarixdə "Zabit icra şurasının" üzvü seçilib.

01 yanvar 1898-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsi verilməklə 3-cü Atıcı artilleriya divizionunun 1-ci artilleriya batareyasının komandiri təyin edilib. Yeni xidmət yerinə getdiyi üçün 20 yanvar 1898-ci il tarixdə 38-ci artilleriya briqadasının 3-cü artilleriya batareyasının təsərrüfat hissə rəisi vəzifəsini, "Zabit şərəf məhkəməsinin" və "Zabit icra şurasının" üzvülüyünü təhvil verib.

3-cü Atıcı artilleriya divizionunun 1-ci artilleriya batareyasının Zabaykaliyaya dislokasiya edilməsi ilə əlaqədar 1-ci artilleriya batareyası 2-ci Əlahiddə artilleriya batareyası adlanıb və onun komandiri kimi Zabaykalye artilleriya divizionunun tərkibinə verilib. 02 may 1898-ci il tarixdə yeni xidmət yeri olan Zabaykalyenin Nerçinsk şəhərinə yollanıb və 23 avqust 1898-ci il tarixdə xidmət yerinə çatıb. 25 avqust 1898-ci il tarixdə "Zabit şərəf məhkəməsinin" üzvü seçilib. 24 sentyabr 1899-cu il tarixdə hərbi xidmətdə fərqləndiyinə görə qeyri-xristianlar üçün "4-cü dərəcəli müqəddəs Vladimir" ordeni ilə təltif edilir. Xidmət dəftərçəsində 15 dekabr 1899-cu il tarixə olan məlumata görə xidməti üzrə cəza və töhməti olmamış, subay olmuşdur.

02 iyul 1900-cu il tarixdən 26 mart 1901-ci il tarixlərdə Çin kompaniyasında iştirak edib. Çin kompaniyasında fərqləndiyinə görə 31 yanvar 1901-ci il tarixdə "polkovnik" hərbi rütbəsinə layiq görülüb. 01 may 1901-ci il tarixdə isə Çinlərə qarşı döyüşlərdə fərqləndiyinə görə "3-cü dərəcəli müqəddəs Vladimir" ordeni (qılıncla) ilə təltif edilir. 17 iyun - 17 iyul 1901-ci il tarixlərdə Zabaykalye Artilleriya divizionu komandiri vəzifəsinin müvəqqəti icra edib. 17 iyul – 10 avqust 1901-ci il

tarixlərdə Xabarovsk şəhərinə qoşqu atlarının alınması üçün ezam edilib. 18 avqust 1901-ci il tarixdən 21 mart 1902-ci il tarixədək Xulançen şəhərinin Zasunqariysk bolməsində hərbi hissəyə komandanlıq edib. 14 may - 17 iyul 1902-ci il tarixlərdə müvəqqəti olaraq Zabaykalye artilleriya divizionu komandiri vəzifəsinin icra edib. 27 yanvar 1903-cü ildə Artilleriya Məktəbinə zabit kursuna göndərilib. 01 fevral 1903-cü il tarixdə Artilleriya Məktəbinin zabit kursu[1] siyahılarına daxil edilib və 10 sentyabr 1903-cü il tarixdə həmin kursu "əla qiymətlə" bitirib. 01 oktyabr 1903-cü il tarixdə Zabaykalye artilleriya divizionunun 2-ci artilleriya batareyasının komandiri təyin edilib. 14 oktyabr 1903-cü il tarixdə Çinlərə qarşı döyüşlərdə fərqləndiyinə görə üzərində "igidliyinə görə" yazılmış qızıl silahla layiq görülüb. 18 fevral 1904-cü il tarixdə 7-ci Şərqi-Sibir atıcı artilleriya divizionunun komandiri təyin edilib, vəzifənin icrasına 12 mart 1904-cü il tarixdə başlayıb. 03 may – 21 dekabr 1904-cü il tarixlərdə Rus-Yapon müharibəsində və xüsusi ilə Port Artur qalasının müdafiəsində iştirak edib. 13 oktyabr 1904-cü il tarixdə Yaponların Port Artur qalasının 3 №-li istehkam hissəsinə hücumu zamanı başından kontuziya alıb. 13 iyul 1904-cü il tarixdə Yaponlara qarşı döyüşlərdə fərqləndiyinə görə "general-mayor" hərbi rütbəsinə layiq görülüb. 24 oktyabr 1904-cu il tarixdə Port Artur qalasının mühasirəsi zamanı Yaponlara qarşı döyüşlərdə göstərdiyi şəxsi şücaətə və igidliyə görə "4-cü dərəcəli müqəddəs Georgi" ordeni ilə təltif edilir. 23 dekabr 1904-cü il tarixdən 18 noyabr 1905-ci il tarixədək yapon əsirliyində olub. 01 may – 20 dekabr 1904-cü il tarixlərdə Port Artur qalasındakı xidməti Hərbi Nazirliyin 1905-ci il tarixli 351 №-li əmri ilə 1 (bir) il hesablanıb. Hərbi Nazirliyin 1906-cı il tarixli 494 №-li əmri ilə yapon əsirliyindəki müddət həqiqi hərbi xidmət illərinə sayılıb. 04 yanvar 1905-ci il tarixdə Yaponlara qarşı döyüşlərdəki igidliyinə görə "1-ci dərəcəli müqəddəs Stanislav" ordeni (qılıncla) ilə təltif edilib. 13 dekabr 1905-ci il tarixdə isə 75-ci

artilleriya briqadasının komandiri təyin edilib. 14 dekabr 1905-ci il tarixdə 75-ci artilleriya briqadası 7-ci Şərqi-Sibir atıcı artilleriya briqadası adlanıb. 21 yanvar 1906-cı il tarixdə "1904-1905-ci illərdə Rus-Yapon müharibəsi" gümüşü xatirə medalı ilə təltif edilib. 25 yanvar 1906-cı il tarixdə ona "Böyük knyaz Mixail Nikolayeviçin general-feldseyxmeyster vəzifəsində olmasının 50 illik yübileyi münasibəti ilə" venzel nişanının üzərində gəzdirməsinə icazə verilib. 09 fevral 1906-cı il tarixdə Sankt-Peterburq şəhərinə Port Artur üzrə təltif təqdimatlarına baxılması üçün yaradılmış komissiyanın işində iştirak etmək üçün ezam edilib. Müvəqqəti olaraq 31 iyul tarixdən 10 avqust 1906-cı il tarixədək, 16 avqust tarixdən 16 sentyabr 1906-cı il tarixədək, 31 dekabr 1906-cı il tarixdən 10 yanvar 1907-ci il tarixədək, 17-29 yanvar 1907-ci il tarixlərdə, 10-13 fevral 1907-ci il tarixlərdə, 13 martdan 11 may 1907-ci il tarixədək və 16 maydan 07 iyun 1907-ci il tarixədək 7-ci Şərqi-Sibir atıcı artilleriya briqadası komandiri, 03-26 oktyabr 1906-cı il tarixlərdə və 07 iyun tarixdən 15 iyul 1907-ci il tarixədək isə 3-cü Ordu korpusunun Artilleriya rəisi vəzifələrini icra edib. 23 dekabr 1906-cı il tarixdə "Kostantinovski artilleriya məktəbinin 100 illik" yübiley nişanının üzərində gəzdirməsinə icazə verilib. 15 iyul 1907-ci il tarixdə 3-cü Ordu korpusunun artilleriya rəisi vəzifəsinin icraçısı təyin edilib. 13 iyul 1908-ci il tarixdə "general-leytenant" hərbi rütbəsi verilməklə 3-cü Ordu korpusunun Artilleriya rəisi vəzifəsinə təsdiq olunub. 29 oktyabr 1907-ci il tarixdən 09 yanvar 1908-ci il tarixədək Sankt-Peterburq şəhərində Port Artur qalasının Yapon qoşunlarına təhvil verilməsi üzrə Ali Hərbi Cinayət Məhkəməsinin məhkəmə iclasında şahid qismində iştirak etmək üçün ezamiyyətdə olub. 03 yanvar 1909-cu il tarixdə 3-cü Ordu korpusunun tabeliyində olan hərbi hissələrdə qış təlimlərinin aparılmasının yoxlanılması üzrə komissiyanın sədri təyin edilib. 24 may 1910-cu il tarixdə 1-ci Qafqaz Ordu korpusnunun Artilleriya rəisi təyin edilib. 1910-cu ilin iyun ayına xidmət

dəftərçəsindəki məlumata görə xidməti üzrə cəza və töhməti olmamış, evli olmuşdur. 31 iyul 1910-cu il tarixdə 1-ci Qafqaz Ordu korpusununun Artilleriya üzrə müfəttişi təyin edilib. 06 dekabr 1911-ci il tarixdə hərbi xidmətdə fərqləndiyinə görə “1-ci dərəcəli müqəddəs Anna” ordeni ilə təltif edilir. 31 dekabr 1913-cü il tarixdə 21-ci piyada diviziyasının komandiri təyin edilib. Həmin diviziyanın tərkibində 81-ci Abşeron, 82-ci Dağıstan, 83-cü Samur və 84-cü Şirvan piyada alayları olub. General-leytenant Səməd bəy Mehmandarov həmin diviziya ilə Cənub-Qərb cəbhəsinin 3-cü Ordusunun tərkibində 1-ci dünya müharibəsinin ilk döyüşlərinə qatılıb. Diviziya döyüşlərdəki qəhramanlığına görə Rus ordusunda öz şöhrəti ilə fərqlənib. 27-29 sentyabr və 9-10 oktyabr 1914-cü il tarixlərdəki döyüşlərdə fərqləndiyinə görə general-leytenant Səməd bəy Mehmandarov “3-cü dərəcəli müqəddəs Georqi” ordeni və 9-10 oktyabr 1914-cü il tarixlərdə İvanqorod şəhəri yaxınlığındakı döyüşlərə görə isə “Briliyantla bəzədilmiş Georqi silahı” ilə təltif edilib. 11 dekabr 1914-cü il tarixdə 2-ci Qafqaz Ordu korpusunun komandiri təyin edilib. 2-ci Qafqaz Ordu korpusu 15 noyabr 1914-cü il tarixdən 04 may 1915-ci il tarixədək Şimal-Qərb cəbhəsinin 1-ci Ordunun, 04 may 1915-ci il tarixdən 24 iyul 1915-ci il tarixədək 13-cü Ordunun, 19 avqust 1915-ci il tarixdən 1917-ci ilin dekabr ayına kimi isə 10-cu Ordunun tərkibində olub. 02 yanvar 1915-ci il tarixdə hərbi xidmətdə fərqləndiyinə görə “2-ci dərəcəli müqəddəs Vladimir” ordeni (qılıncla) ilə təltif edilib. General-leytenant Səməd bəy Mehmandarovun komandanlığı altında 2-ci Qafqaz Ordu korpusu Alman qoşunlarına qarşı Prasnışa, Sane, Xolma və Vilna yaxınlığında aparılan ən ağır döyüşlərdə iştirak edib. Bütün müharibə dövründə korpus bir dənə də olsa silah itkisi verməyib. 20 yanvar 1915-ci il tarixdə döyüşlərdə fərqləndiyinə görə “3-cü dərəcəli müqəddəs Georgi” ordeni (Əlahəzrət İmepatorun ali əmrində göstərildiyi kimi: 21-ci piyada diviziyasının komandiri olarkən tabeliyində olan 2-ci briqada ilə

düşmənin güclü atəşi altında Visla çayını keçərək bütün döyüş dəstəyindən məhrüm olmağına baxmayaraq üç gün ərzində çayın sol sahilindəki mövqesini qoruyub saxlamış, alman qvardiya korpusunun hücumlarını dəf etmiş və hətta briqada bütün cinahlardan atəşə məruz qaldığı halda belə özü şəxsən briqadanı süngü hücumuna aparmışdır) ilə təltif edilir. 14 fevral 1915-ci il tarixdə "Briliyantla bəzədilmiş qızıl Georgi silahı"[1] ilə təltif edilib (Əlahəzrət İmepatorun ali əmrində göstərildiyi kimi: 2-ci Qafqaz Ordu korpusunun komandiri general-leytenant Səməd bəy Mehmandarov 21-ci piyada diviziyasının komandiri olarkən korpusun bölmələri ilə 09-10 oktyabr 1914-cü il tarixdə İvanqorod yaxınlığında darmadağın edilmiş alman qoşunlarını təqib edərkən Poliçno-Boqusinski meşə massivi yaxınlığında alman qoşunlarının köməyinə gedən və bizim döyüş düzlüşünün cinahını tutmaq istəyən üstün avstriya qoşunları ilə qarşılaşmış, özü şəxsən döyüş mövqeyində olmaqla süngü hücumu ilə özünü belə təhlükəyə atmaqla dəfələrlə düşmən üzərinə diviziyanı aparmış, düşmənin hücumunu dayandırmaqla onun geri çəkilməsinə nail olmuşdur. 11-13 oktyabr 1914-cü il tarixlərdə düşmənin üstün qüvvələrinin dəfələrlə qoşunlarımızın cinahına keçmək cəhdlərinin qarşısını güclü müqavimətlə almış və düşmənin tələsik əvvəlki mövqeylərinə çəkilməsinə nail olmuşdur. 11 oktyabr 1914-cü il tarixdəki döyüşdə 1 qərargah zabiti, 16 kiçik zabit, 670 kiçik çinli hərbi qulluqçu əsir və 1 pulemyotun isə hərbi qənimət kimi görürülmüşdür). 22 mart 1915-ci il tarixdə isə "tam artilleriya generalı" hərbi rütbəsinə layiq görülüb. Hərbi xidmətdə fərqləndiyinə görə 09 aprel 1915-ci il tarixdə "Ağ Qartal" (qılıncla), 15 oktyabr 1915-ci il tarixdə isə "müqəddəs Aleksandr Nevski" (qılıncla) ordenləri ilə təltif edilib. Bundan əlavə tam artilleriya generalı Səməd bəy Mehmandarov "Kokand xanlığının 1875-1876-cı illər alınması"na dair parlaq tunc yubiley, "III Aleksandrın çarlığı münasibərilə" gümüşü yubiley, "Orta Asiyaya 1853-1895-ci illər yürüşü" parlaq tunc yubiley və "1900-1901-ci illər Çinə

yürüş" gümüşü medalları ilə təltif edilib. Həmin medallara təltif edilməsi xidmət dəftərçəsində qeyd edilsə də təltif tarixləri göstərilməyib.

Fevral inqilabından sonra isə 18 aprel 1917-ci il tarixdə xəstəliyi ilə əlaqədar Korpus komandiri vəzifəsindən azad edilib və Minsk Hərbi Dairəsinin qərargahının ehtiyatına keçirilib. 07 avqust 1917-ci il tarixdə Vladiqafqazda olan "Müharibə dövründə yaralılar üzrə Aleksandrovsk komitəsi"nin üzvü təyin edilib. 1917-ci ilin sonunda isə Bakı şəhərinə qayıdıb.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının Sədrinin 01 noyabr 1918-ci il tarixli qərarı ilə Hərbi nazirin müavini təyin edilib və həmin tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. Hökümətin 25 dekabr 1918-ci il tarixli qərarı ilə isə Hərbi nazir vəzifəsinə təyin edilib. Vəzifəyə təyin edilməsi Hərbi Nazirlik üzrə 03 yanvar 1919-cu il tarixli 4 №-li əmrlə qeyd edilib. Xəstəliyi ilə əlaqədar olaraq, Hərbi Nazirlik üzrə 30 dekabr 1919-cu il tarixli 604 №-li əmrlə vəzifəsinin müvəqqəti icrasını müavininə həvalə edib. 12 fevral 1920-ci il tarixdə müalicədən qayıtdığına görə 93 №-li əmrlə vəzifəsinin icrasına başlayıb. 06 aprel 1920-ci il tarixdə təkrarən xəstəliyi ilə əlaqədar ehtiyata buraxılması üçün Hökümətə raportla müraciət edib və Hərbi nazir vəzifəsini müavininə 08 aprel 1920-ci il tarixli 197 №-li əmrlə həvalə edib. 24 aprel 1920-ci il tarixdə 222 №-li əmrlə müalicədən qayıdaraq vəzifələrinin icrasına başlamış hesab edilib. Cümhuriyyət Hərbi naziri kimi son əmrini 28 aprel 1920-ci il tarixdə imzalayıb.

Həyat yoldaşı: Yelizaveta Nikolayevna Teslav – Jitomirdə anadan olub.

Oğlu: İqor (Pir bəy) 18 noyabr 1908-ci ildə İrkutskda anadan olub.

Hərbi nazir olduğu müddətdə Bakı şəhəri, Naberejnaya küçəsi, Krasilnikov evi ünvanında yaşayıb.

[1] "Briliyantla bəzədilmiş qızıl Georgi silahı" haqqında 1913-cü il tarixli Nizamnaməyə əsasən "Həmin silahla

İmperator həzrətlərinin şəxsi icazəsi ilə parlaq hərbi qəhrəmanlığa görə hərbi sərkərdələr təltif ediliblər. Birinci Dünya müharibəsində yalnız Peremışlyanın, Ərzurumun alınması və Cənub-Qərb cəbhəsindəki uğurlu hücumlara görə rus hərbi sərkərdələrindən 9-cu Ordunun komandanı tam piyada generalı P.A.Leçiski (27.09.1914-cü il tarixdə), 3-cü Qafqaz Ordu korpusunun komandiri general-leytenant V.A.İrman (04.11.1914-cü il tarixdə), 44-cü piyada diviziyasının komandiri general-leytenant S.F.Dobrotin (20.02.1915-ci il tarixdə), Ali Baş komandan general-adyutant tam süvari generalı böyük knyaz Nikolay Nikolayeviç (kiçik) (12.04.1915-ci il tarixdə), 1-ci Qafqaz Ordu korpusunun komandiri tam süvari generalı P.P.Kalitin (19.05.1916-cı il tarixdə), Cənub-qərb cəbhəsinin komandanı general-adyutant tam süvari generalı A.A.Brusilov (20.07.1916-cı il tarixdə) və 8-ci Ordu korpusunun komandiri general-leytenant A.İ.Denikin (22.09.1916-cı il tarixdə) bu təltifə layiq görülmüşdürlər. Beləliklə general Səməd bəy Mehmandarov Birinci Dünya müharibəsində yeganə müsəlman dininə mənsub hərbi sərkərdə olaraq bu silahla təltif edilmişdir.

### 758. **Ştabs-rotmistr MEHMANDAROV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmət keçdiyi qeyd edilib. Hərbi nazirin 19 dekabr 1918-ci il tarixli 20 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi Məhkəmə hissəsi rəisinin sərancamına hərbi məhkəmə işləri üzrə namizəd kimi ezam edilib. 26 mart 1919-cu il tarixdə isə Hərbi nazirin 149 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayına xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 15 iyul 1919-cu

il tarixli 323 №-li əmri ilə 11 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

759. **Ştabs-rotmistr MELNİKOV** Lev

Milliyəti rus. 29 dekabr 1918-ci il tarixdə “sotnik” hərbi rütbəsində (Çar ordusunda Kazak qoşun hissələrinə aid hərbi rütbə “poruçik” hərbi rütbəsinə bərabər hərbi rütbə) Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti “ştabs-rotmistr (süvari üzrə)” hərbi rütbəsi verilib. 28 fevral 1920-ci il tarixdə Hərbi nazirin 124 №-li əmri ilə 1-ci piyada diviziyası qərargahına keçirilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-rotmistr” hərbi rütbəsində 1-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

760. **Polkovnik MELENTEV** İvan Nikolayeviç

Milliyəti rus. 17 mart 1919-cu il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının təsərüffat hissəsinin rəisi vəzifəsinə təyin edilib. 13-19 may 1919-cu il tarixlərində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında Dövlət Nəzarət idarəsinin müfəttişi tərəfindən maliyyə təsərüffat hissəsi üzrə təftiş aparılarkən sabiq hərbi hissə komandiri polkovnik şahzadə Seyfulla Mirzə Qacarın qarşısında etik davranış qaydalarını pozaraq müfəttişə qarşı kobudluq göstərmişdir. Hərbi nazir qoşunlarda təftişin onun göstərişi ilə aparıldığını bildirərək intizam cəzası qaydasında yol verdiyi kobudluğa görə 16 iyun 1919-cu il tarixli 297 №-li əmri

ilə ona “Töhmət” elan etmişdir. Daha sonra Diviziya komandiri tərəfindən təcili olaraq 1-ci Cavanşir piyada alayına təsərrüfat işlərinə kömək üçün ezam edilmiş, lakin ezamiyyət vərəqini götürdükdən sonra Xankəndinə deyil Bakı şəhərinə gələrək rəisinin xəbəri olmadan xəstəliyi ilə əlaqədar Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboruna xidmət yerinin dəyişdirilməsi barədə raportla müraciət etmişdir. Hərbi nazir 12 fevral 1920-ci il tarixli 102 №-li əmrində polkovnik Melentevə təcürbəli və yaşlı bir zabit kimi vacib tapşırığı yerinə yetirmək əvəzinə gizlincə öz şəxsi məsələlərini həll etməklə məşğul olmağın yaraşmadığını bildirmiş və 3-cü Gəncə piyada alayındakı xidmətlərini nəzərə alaraq, onun cinayət məsuliyyətinə cəlb edilməsini deyil Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində xidmətə qəbul edilmə hüququndan məhrum edilməklə 12 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis etmişdir.

761. **Podporuçik MİRƏHMƏDOV** Mir Mehdi

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

762. **Podporuçik MİRMƏMMƏDOV** Mirheydər

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə

əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

763. **Praporşik MİRZƏYEV** Məmməd Kərbalay Mirzə Əli oğlu

06 dekabr 1896-cı ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Sisian kəndində anadan olub. Gəncə Peşə Məktəbində təhsil alıb. 15 oktyabr 1917-ci il tarixdə 2-ci dərəcəli könüllü kimi 1-ci Müsəlman atıcı alayında həqiqi hərbi xidmətə qəbul edilib. 08 may 1918-ci il tarixdə Müsəman Korpusunun mühəndis taboruna keçirilib və 1-ci mühəndis bölüyünün feldfebeli təyin edilib. 25 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və Məktəbdə həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə xidmət yeri 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına dəyişdirilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

764. **Podporuçik MİRZƏYEV** Tovriq

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Hərbi Məktəbi rəisinin sərancamında saxlanılıb. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

765. **Polkovnik MİXAYILKOVSKİ**

Milliyəti rus. 06 yanvar 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 yanvar 1919-cu il tarixli 16 №-li əmri ilə Qoşunların daşınması üzrə idarə rəisi vəzifəsinin icraçısı təyin edilib. İstintaqa cəlb olunduğuna görə Hərbi nazirin 29 mart 1919-cu il tarixli 23 №-li əmri ilə tutduğu vəzifənin icrasından azad edilib. Hərbi Prokurorun və Gəncə Dairə Məhkəməsinin qərarlarına əsasən əməlində cinayət tərkibi olmadığına görə barəsində cinayət işinin istintaqı dayandırıldığına görə Hərbi nazirin 22 aprel 1919-cu il tarixli 212 №-li əmri ilə öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

766. **Polkovnik MİXAYLOV**

Milliyəti rus. 09 fevral 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 11 fevral 1919-cu il tarixli 71 №-li əmri ilə Hərbi Nazirliyin Dəftərxana rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 03 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

767. **Ştabs-kapitan MİXAYLOV**

Milliyəti rus. 12 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. İxtisas hazırlığı zəif olduğuna görə

Hərbi nazirin 31 mart 1919-cu il tarixli 166 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

768. **Podpolkovnik MİXAYLOVSKİ**

Milliyəti rus. 13 mart 1919-cu il tarixdə "qvardiya kapitanı" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 mart 1919-cu il tarixli 130 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və piyada taboru komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixli 407 №-li əmri ilə hərbi rütbəsi mövcud qanunvericiliyə görə piyada qoşunları üzrə "podpolkovnik" hərbi rütbəsinə uyğunlaşdırılıb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

769. **Poruçik MYAKOTİN**

Milliyəti rus. 28 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Ümumi Qərargahın Avtomobil hissə rəisinin köməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 04 may 1919-cu il tarixli 234 №-li əmri ilə 01 mart 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

770. **Poruçik MYAKOTİN**

Milliyəti rus. 27 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı

komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətdə olduğu 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-ci il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

771. **Poruçik MYAQKOV** Boris

Milliyəti rus. 25 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 15 iyul 1919-cu il tarixdə Hərbi nazirin 326 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 518 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 07 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

772. **Ştabs-kapitan NAQAYBƏYOV** İsmayıl Əhməd Muxtaroviç

Milliyəti ləzgi. 11 fevral 1920-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 93 №-li əmri ilə 1-ci süvari-dağ batareyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci süvari-dağ batareyasında həqiqi hərbi xidmətdə olub.

773. **Podporuçik NAİBOV**

10 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

774. **Poruçik NASUXOV**

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "poruçik" hərbi rütbəsində Əlahiddə Zaqatala piyada taborunun əlahiddə 4-cü Nuxa piyada bölüyünün baş zabiti vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və Nuxa piyada bölüyü 2-ci piyada taboru kimi təşkil edilib. Xidmət yeri həmin 2-ci piyada taborunda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 30 sentyabr 1919-cu il tarixli 446 №-li əmri ilə 22 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

775. **Polkovnik NASVALOV**

Milliyəti rus. 19 iyun 1919-cu il tarixdən "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 23 iyun 1919-cu il tarixli 310 №-li əmri

ilə Baş Qərargah rəisinin sərancamına keçirilib. Gürcüstan Respublikasının Azərbaycan Respublikasındakı Diplomatik missiyasının hərbi attaşesi vəzifəsinə təyin edildiyinə görə Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 365 №-li əmri ilə 10 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusunun siyahılarından çıxarılıb.

776**. Podpolkovnik NASVALOV** Viktor

Milliyəti rus. 20 iyun 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 535 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

777. **Podporuçik NAĞIYEV** Fridun

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət Ordusunda zabit kimi hərbi xidmət keçməyib.



778. **Podpolkovnik** Cəmşid Xan **NAXÇIVANSKİ** Cəfərqulu Xan oğlu

10 avqust 1895-ci ildə İrəvan quberniyasının Naxçıvan vilayətində anadan olub. 14 iyun 1914-cü il tarixdə Knyaz Mixayıl Nikolayeviç adına Tiflis Kadet

Korpusunu[1] bitirib. 30 avqust 1914-cü il tarixdə Yelizavetqrad Süvari Məktəbinə daxil olub və 01 dekabr 1914-cü il tarixdə həmin məktəbi qısaldılmış proqram üzrə "praporşik" hərbi rütbəsində 1-ci dərəcə üzrə bitirərək Qafqaz süvari yerli diviziyasının Tatar süvari alayının ehtiyat süvari bölüyünə təyinat alır. 04 mart 1915-ci il tarixdə 1-ci süvari bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilir. 19 mart - 25 aprel 1915-ci il tarixlərdə müvəqqəti olaraq alayın adyutantı vəzifəsini icra edir. 22 iyul 1915-ci il tarixdə "4-cü dərəcəli müqəddəs Anna" ordeni (üzərində igidliyə görə yazısı ilə) ilə təltif edilir. 22 avqust 1915-ci il tarixdə növbəti "kornet" hərbi rütbəsinə layiq görülüb. 25 avqust 1915-ci il tarixdə Novoselki kəndi yaxınlığındakı döyüşlərdə yaralanır və döyüşdə fərqləndiyinə görə 26 avqust 1915-ci il tarixdə "3-cü dərəcəli müqəddəs Stanislav" ordeni (qılınc və bant ilə) təltif edilir. 18 fevral 1916-cı il tarixdə 1-ci süvari bölüyünün 1-ci süvari taqımının komandiri təyin edilir. 26 yanvar 1917-ci il tarixdə "Georgi silahı"na layiq görülür. 1917-ci ildə isə süvari bölüyünün komandiri təyin edilir. Döyüşlərdə fərqləndiyinə görə 15 aprel 1917-ci il tarixdə "3-cü dərəcəli müqəddəs Anna" ordeni (qılınc və bant ilə) ilə təltif edilir. 09 may 1917-ci il tarixdə növbəti "poruçik" hərbi rütbəsinə layiq görülüb. 1917-ci ilin sentyabr ayında 1-ci Qafqaz süvari yerli diviziyasının Tatar süvari alayı Yelenodorf (indiki Göygöl rayonu) şəhərinə dislokasiya edilir. 30 oktyabr 1917-ci il tarixdə vaxtından əvvəl "ştabs-rotmistr" hərbi rütbəsi alır. "Rormistr" hərbi rütbəsinin alma tarixi bilinmir. 26 iyun 1918-ci il tarixdə Süvari diviziyasının 1-ci Tatar süvari alayının 1-ci süvari bölüyünün komandiri vəzifəsinə təyin edilir. Xidmətdə fərqləndiyinə görə 30 iyul 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsinə layiq görülür. 05 yanvar 1919-cu il tarixdə Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov tərəfindən 1-ci Tatar süvari alayı təftiş edilərkən tabeliyində olan süvari bölüyündəki səliqə-sahmana və nizam-intizama görə Hərbi nazir tərəfindən 15 №-li əmrlə "Təşəkkür" elan edilir. 24

mart 1920-ci il tarixədək Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin nizami hissə üzrə köməkçisi vəzifəsində xidmət edib. Hərbi nazirin 106 №-li əmri ilə 05 mart 1919-cu il tarixdən 04 aprel 1919-cu il tarixədək Ordu üçün atların alınması komissiyasının üzvü olub. Hərbi nazirin 24 mart 1920-ci il tarixli 163 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının komandiri vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

779. **Rotmisrt** Murad Xan **NAXÇIVANSKİ**

13 yanvar 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının 1-ci süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.



780. **Podpolkovnik** Ehsan Xan **NAXÇIVANSKİ** Cəfərqulu Xan oğlu

(şəkildə soldan birinci Ehsan Xan anası, bacı və qardaşları müəllimәsi ilə birlikdə. Şəkil 1900-cu ildə çəkilib)

01 aprel 1894-cü ildə Naxçıvan şəhərində anadan olub. 1913-cü ildə Sank-Peterburqdakı Paj Korpusunu[1] "kornet" hərbi rütbəsində birinci dərəcəli ilə bitirib və Polşanın Varşava şəhərində yerləşən Ulanalayının 6-cı eskadronuna kiçik zabit vəzifəsinə təyin edilib. Birinci Dünya müharibəsində iştirak edib. Cəbhədə göstərdiyi igidliyə görə 1914-cü ildə "3-cü dərəcəli müqəddəs Stanislav" (bant və qılınclarla) və üzərində "İgidliyinə görə" yazılmış 4-cü dərəcəli müqəddəs Anna" ordenləri ilə təltif edilib. 30 iyul 1915-ci il tarixdə "poruçik" hərbi rütbəsinə layiq görülüb. Həmin ildə "2-ci dərəcəli müqəddəs Stanislav (qılınclarla)" və "3-cü dərəcəli müqəddəs Anna (qılınc və bantla)" ordenləri ilə təltif edilib. 1917-ci ildə fevral inqilabından sonra general L.Q.Kornilovun yaratdığı Könüllü ordunun tərkibinə daxil olub. General L.Kornilovun yaratdığı Könüllü ordu 1917-ci ilin iyul ayında müvəqqəti hökumətə qarşı qiyama qalxır və avqust ayında Ehsan Xan Naxçıvanski qiyamın iştirakçısı olur.

Petroqrada müvəqqəti hökuməti devirməyə gedən Könüllü ordu müəyyən səbəblərə görə uğursuzluğa düçar olduqdan sonra, 1917-ci ilin sonlarında Naxçıvana qayıdan Ehsan Xan erməni daşnaklarına qarşı döyüşlərdə iştirak edir. Tatar süvari alayının Rusiyadan Gəncəyə qayıtmasından sonra həmin alayda hərbi xidmətə başlayır. Bakının azad edilməsi uğrunda bolşevik-daşnak qüvvələrinə qarşı döyüşlərdə iştirak edir. Onun Müsəlman Korpusu və Qafqaz İslam Ordusunun tərkibindəki hərbi xidmətləri barədə məlumatlar saxlanılmayıb. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "Qvardiya ştabs-rotmistr"i hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayının şəxsi heyətinin siyahısında saxlanılmaqla Nazirlər Şurası Sədrinin sərancamında olduğu qeyd edilib. Hərbi nazirin 06 yanvar 1919-cu il tarixli 9 №-li əmri ilə Nazirlər Şurası Sədrinin konvoy taqımının komandiri

vəzifəsinə təyin edilib. 29 aprel 1919-cu il tarixdə isə Hərbi nazirin 225 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı xidmət yeri dəyişdirilib. Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 295 №-li əmri ilə hərbi rütbəsi süvari qoşunlarının "rotmistr" hərbi rütbəsinə uyğunlaşdırılıb. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "podpolkovnik (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. 25 iyun 1919-cu il tarixdən Hərbi nazirin 311 №-li əmri Hərbi Məhkəmənin müvəqqəti üzvü seçilib. Hərbi nazirin 10 sentyabr 1919-cu il tarixli 410 №-li əmri ilə Xaçmaz dəstəsinin qərargah rəisi vəzifəsinin icraçısı (Diviziyanın qərargah rəisi səlahiyyətləri və vəzifə maaşı verilməklə) təyin edilir. Cümhuriyyətin süqutundan sonra Polşa ordusunda xidmət etmiş Vəli bəy Yadigarın (Cümhuriyyət ordusunda Yadigarov Vəli bəy Sadıq bəy oğlu kimi adı keçir) 1960-cı ilin aprel ayının 27-də Argentinada mühacirətdə olarkən "Mücahid" jurnalında çap olunan "40 illik köləlik nizamı" adlı xatirələrində podpolkovnik Ehsan Xan Naxçıvanskinin 3-cü Şəki süvari alayı komandirinin müavini vəzifəsində olduğu və onun alay komandiri podpolkovnik Səid Tonqiyevlə birlikdə Gəncə üsyanını yatırmağa gedən rus əsgərləri tərəfindən Yayla stansiyasında qətl edildiyi bildirilir.

### 781. **Polkovnik** Kərbalayı Xan **NAXÇIVANSKİ**

Hərbi Nazirliyin fəaliyyətə başladığı 07 noyabr 1918-ci il tarixdən sonra Cümhuriyyət ordusundakı həqiqi hərbi xidmətləri barədə məlumatlar yoxdur. Lakin, Nazirlər Şurası Sədrinin 09 aprel 1919-cu il tarixli 14 №-li və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmrində qvardiya ştabs-rotmistri rütbəsindən xidmət illərinə görə "qvardiya rotmistri" hərbi rütbəsinə yüksəldilməsi və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmrinin 6-cı paraqrafında isə

"qvardiya rotmistr" hərbi rütbəsinin qüvvədə olan 1869-cu il tarixli "Hərbi Xidmət haqqında Toplunun" 412 maddəsinin 7-ci bəndinə əsasən süvari üzrə "podpolkovnik" rütbəsinə uyğunlaşdırılması qeyd edilmişdir. Həmin əmrin 6-cı paraqrafında eyni zamanda Kərbalayı Xan Naxçıvanskiyə xidmətdə fərqləndiyinə görə "polkovnik (süvari üzrə)" hərbi rütbəsi verilməsi qeyd edilib. Polkovnik Kərbalayı Xan Naxçıvanski Şərur-Naxçıvan qəzası qoşunları komandanı olub.

782. **Praporşik** Fətəli Xan **NAXÇIVANSKİ**

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

783. **Praporşik** Davud Xan **NAXÇIVANSKİ**

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

784. **Praporşik** **NAMAZOV** Ələkpər

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının

komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

785. **Praporşik NAMAZƏLİYEV** Fridun bəy

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Xankəndi və Şuşa qarnizonlarına ermənilərin 23 mart 1920-ci il tarixdə gecə qəfil hücumları nəticəsində həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

786. **Podpolkovnik NEDOBROVO**

Milliyəti rus. 02 fevral 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin edilib. 20 iyun 1919-cu il tarixdə Hərbi nazirin 304 №-li əmri ilə Gürcüstan Respublikasının Hərbi Nazirliyindən hərbi əmlakın alınması üzrə komissiyanın üzvü təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 556 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 16 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

787. **Poruçik NEÇİPORENKO**

Milliyəti ukraynalı. 26 mart 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 mart 1919-cu il tarixli 160 №-li əmri ilə 1-ci haubitsalı artilleriya divizionunun artilleriya texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci haubitsalı artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

788. **Podporuçik NEMSİSVERİDZE**

Milliyəti gürcü. 09 oktyabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 oktyabr 1919-cu il tarixli 477 №-li əmri ilə Hərbi dəmiryolçular məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi dəmiryolçular məktəbində həqiqi hərbi xidmətdə olub.

789. **Kapitan NƏBİBƏYOV** Vahid bəy

05 may 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 11 may 1919-cu il tarixli 244 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Səhhətim mənə "Respublika Hökümətinə" xidmət etməyə imkan vermir ifadəsi işlətdiyinə görə Hərbi nazir tərəfindən intizam cəzası qaydasında bir ay müddətinə hauptvaxtada saxlanılmaqla həbs cəzası verilmiş və 15 iyun 1919-cu il tarixli 295 №-li əmrlə Cümhuriyyət ordusu sıralarından tərxis edilmişdir.

790. **Podpolkovnik NƏBİBƏYOV** Bəhrəm bəy

27 noyabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionuna həqiqi hərbi xidmətinin davam etdirmək üçün göndərilib. 13 mart 1919-cu il tarixdən Hərbi nazirin 14 mart 1919-cu il tarixli 126 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib (səbəbi məlum deyil).

11 may 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 244 №-li əmri ilə şəxsi işi araşdırılanadək Hərbi Nazirliyin Artilleriya idarəsi rəisinin sərancamına göndərilib. Şəxsi işi araşdırıldıqdan sonra Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyası komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilmişdir. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 548 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyası tam tərkibdə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna verilmiş və 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyası komandiri vəzifəsinin müvəqqəti icraçısı kimi yeni xidmət yerində həqiqi hərbi xidmətdə olmuşdur. 01 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 551 №-li əmri ilə yuxarı vəzifəyə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun komandiri vəzifəsinə təyin edilmişdir. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podpolkovnik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülmüşdür. Bəzi mənbələrdə onun Cümhuriyyət ordusunda Artilleriya briqadasının komandiri və 1920-ci ilin mart ayında "polkovnik" hərbi rütbəsinə layiq görülməsi fikri isə yanlışdır

və heç bir fakta əsaslanmır. Arxiv sənədlərində və Hərbi nazirin şəxsi heyət üzrə əmrlərində Bəhrəm bəy Nəbibəyovun 1918-ci ilin noyabr ayında "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilməsi və 1919-cu ilin mart ayında ordudan (səbəbi məlum deyil) tərxis edilməsi qeyd edilmişdir.

Belə mülahizə yürütmək olar ki, onun şəxsi işi olmadığına görə ordudan tərxis edilmişdir. Belə ki, təkrarən həqiqi hərbi xidmətə qəbulu zamanında da Hərbi nazir əmrində şəxsi işi araşdırılanadək onun Artilleriya idarəsi rəisinin sərancamına keçirilməsini göstərmişdir. Şəxsi işi araşdırıldıqdan sonra isə 1919-cu ilin iyul ayında müvafiq vəzifəyə təyin edilmişdir. 1920-ci ilin mart ayında artilleriya divizionu (piyada qoşunlarında tabora bərabər) komandiri kimi "podpolkovnik" hərbi rütbəsi verilməsi isə Hərbi nazirin müvafiq əmrində qeyd edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun komandiri kimi həqiqi hərbi xidmətdə olmuşdur.

### 791. **Ştabs-rotmistr NƏBİBƏYOV**

23 aprel 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 29 aprel 1919-cu il tarixli 225 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 792. **Kornet NƏBİBƏYOV** Əli bəy

01 aprel 1890-cı il tarixdə Zəngəzur qəzasında bəy ailəsində anadan olub. 10 sentyabr 1914-cü il tarixdə könüllü olaraq Tatar süvari alayında həqiqi hərbi xidmətə qəbul edilib. 10 sentyabr 1914-cü il tarixdən 01 oktyabr 1917-ci il tarixədək

Avstrya-Alman cəbhəsində vuruşub. “1,2,3 və 4-c dərəcəli Georgi xaçı” və “4-cü dərəcəli igidliyə görə Georgi” medalı ilə təltif edilib. Müsəlman Korpusunun 2-ci Cavanşir süvari alayında süvari-kəşfiyyatçı kimi həqiqi hərbi xidmət edib. 1918-ci ilin iyun ayında xidmət etdiyi həmin alay 2-ci Qarabağ süvari alayı kimi adlanıb. 1918-ci ilin iyun-sentyabr aylarında bolşevik-daşnak birləşmələrinə qarşı döyüş əməliyyatlarda iştirak edib.

“Praporşik” zabit hərbi rütbəsini alma tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində “praporşik” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 12 fevral 1920-ci il tarixdə Hərbi nazirin 92 №-li əmri ilə Kürd süvari divizionuna xidmət yeri dəyişdirilib. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “kornet (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “kornet” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olmuşdur.

Həyat yoldaşı: Şubi xanım Nəbibəyova ilə ailə həyatı qurub və bu evlilikdən Salat bəy və Əhət bəy adlı oğulları olub.

### 793. **Praporşik NƏBİBƏYOV** Şamil

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “praporşik (süvari üzrə)” hərbi rütbəsində süvari ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Süvari diviziyasının Kürd süvari divizionu komandirinin sərəncamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

794. **Podporuçik NƏCƏFOV** Heybət

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

795. **Podporuçik NƏCƏFOV** Məmməd

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

796. **Praporşik NƏCƏFOV** Yusif

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Alayın qeyri-nizami bölüyünün komandiri vəzifəsini icra edib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

797. **Praporşik NƏCƏFOV** Əli

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə

ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

798. **Praporşik NƏCƏFƏLİYEV** Hilal

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. 29 mart 1920-ci il tarixdə Qarabağda aparılan döyüş əməliyyatları zamanı həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

799. **Podporuçik NƏSRULLAYEV** Pirməmməd

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

800. **Milis praporşiki NƏSİROV** Məmməd Rəhim

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

801. **Podporuçik NƏSİBOV** Hacı

12 may 1898-ci il tarixdə Yelizavetpol quberniyasında anadan olub. Gəncə Müsəlman Dini Seminariyasında təhsil alıb. 18 fevral 1918-ci il tarixdə 3-cü Ləzgi süvari alayında könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 24 avqust 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 2-ci piyada taborunun 5-ci piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 2-ci piyada taborunda həqiqi hərbi xidmətdə olub.

802. **Podporuçik NƏRİMAN-ZADƏ** Qəzənfər

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 3-cü pulemyot komandasının rəisi təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli 45 №-li və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

803. **Kapitan NÜSRƏTBƏY**

Milliyəti türk. 30 mart 1920-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 176 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

804. **Praporşik NƏZƏROV** Cabar

05 may 1919-cu il tarixdə Gəncə Praporşiklər Məktəbini “praporşik” hərbi rütbəsində piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

805. **Praporşik NƏBİBƏYOV** Nəsib

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “praporşik (süvari üzrə)” hərbi rütbəsində süvari ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd süvari divizionu komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

806. **Praporşik NAQİYEV** Çərkəz

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “praporşik (süvari üzrə)” hərbi rütbəsində süvari ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd süvari divizionu komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

807. **General-mayor NOVRUZOV** Teymur bəy Kərim bəy oğlu

20 aprel 1880-ci ildə Yelizavetpol quberniyasının Qovlar kəndində hərbiçi ailəsində anadan olub. Bəzi məmbələrdə Teymur bəy Novruzovun general-leytenant Mirzə Hacı bəy Novruzovun oğlu olduğu göstərilsə də Cümhuriyyət ordusunun zabiti olmuş Cahangir bəy Novruzov (Cahangir Berker) öz xatirələrində onun general-leytenant Mirzə Hacı bəy Novruzovun qardaşı qvardiya polkovniki Kərim bəy Novruzovun oğlu olduğunu bildirir. Cümhuriyyət Hərbi nazirinin həmin dövrdəki şəxsi heyət üzrə əmrlərində zabitlərin ata adları qeyd edilmədiyi üçün Cahangir bəy Novruzovun xatirələrindəki versiyanın daha çox həqiqətə uyğun olmasını nəzərə alaraq onun ata adının Kərim bəy kimi qeyd edilir. Teymur bəy Novruzov Tiflis Kadet Korpusunun 6 sinfini bitirib. 17 avqust 1898-ci il tarixdə 1-ci dərəcəli könüllü kimi "sıravi" hərbi rütbəsində 44-cü draqun Nijeqorod alayında həqiqi hərbi xidmətə qəbul edilib. 18 avqust 1898-ci il tarixdə Yelisavetqrad Süvari Məktəbinə[1] göndərilir.

21 mart 1901-ci il tarixdə həmin məktəbi "kornet" hərbi rütbəsində 2-ci dərəcə ilə bitirərək 10-cu Novotroisko-Yekaterinoslavski draqun alayına təyin edilir. 06 may 1901-ci il tarixdə xidmət yerinə gəlir. 30 iyun - 12 iyul 1901-ci il tarixlərdə süvari zabiti kimi xüsusi ezamiyyətdə olur. 30 aprel - 04 avqust 1902-ci il tarixlərdə 4-cü mühəndis briqadasında mina-partlayış və teleqraf işlərinin öyrənilməsi üçün tədris kursuna göndərilir və kursu "əla" qiymətlə bitirir. 03 oktyabr 1901-ci il tarixdən 14 oktyabr 1903-cü il tarixədək alayda silah xidməti rəisi vəzifəsini icra edir. 17 avqust 1904-cü il tarixdə "iqlim şəraitinə görə" 44-cü draqun alayına 1 (bir) il müddətinə ezam edilir və 18 fevral 1905-ci il tarixdə həmin alaya daimi olaraq xidmət yeri dəyişdirilir. 03-27 iyul və 13 sentyabr - 02 noyabr 1905-ci il tarixlərdə müvəqqəti olaraq 5-ci

eskadron komandiri vəzifəsinin icra edir. 28 iyul - 11 oktyabr 1905-ci il tarixlərdə isə alayın kəşfiyyatçıları ilə Qori şəhərində yerli icra orqanlarına kömək üçün xidməti ezamiyyətdə göndərilir. 01 sentyabr 1905-ci il tarixdə “poruçik” hərbi rütbəsinə layiq görülür. 13 oktyabr 1905-ci il tarixdə tabeliyində olan eskadronu əla vəziyyətdə saxladığına görə komandanlıq tərəfindən “Təşəkkür” alır. 23 noyabr - 08 dekabr 1905-ci il tarixlərdə müvəqqəti olaraq 6-cı eskadron komandiri vəzifəsinin icra edir. 01-21 iyun 1906-cı il tarixlərdə Dəllər stansiyasında yerli icra orqanlarına kömək üçün xidməti ezamiyyətdə olub. 25 avqust - 30 sentyabr 1906-cı il tarixlərdə Bakı şəhərinə hərbi atların qeydiyyatınının aparılması üçün ezam edilir. 10 oktyabr 1906-cı il tarixdə alayın kitabxana rəisi təyin edilir. 01-09 yanvar 1907-ci il tarixdə Avçalı stansiyasına stansiyanın su nasoslarının mühafizəsi üçün ezam edilir. 13 may 1907-ci il tarixdə isə alayın 5-ci eskadronu ilə Kocarı stansiyasına ezam edilir. Ezamiyyətdən qayıtdıqdan sonra 05 avqust 1907-ci il tarixdə alayın 4-cü eskadronuna xidmət yeri dəyişdirilir. 05-15 sentyabr 1907-ci il tarixdə Tiflis şəhərinin ətrafında səhra çıxışında olur və səhra çıxışına görə “çox yaxşı” qiymət alır. 16 sentyabr 1907-ci il tarixdə komandanlıq tərəfindən ona alayın kəşfiyyatçıları ilə 5 (beş) günlük ezamiyyətdə olduğu müddətdə göstərdiyi səylərə görə “Təşəkkür” elan edilir. 10-25 oktyabr 1907 və 25 iyul – 01 sentyabr 1908-ci il tarixlərdə müvəqqəti olaraq 5-ci eskadron komandiri vəzifəsini icra edir. 26 dekabr 1908-ci il tarixdə ona 17-ci draqun (əvvəlki 44-cü) Nijeqorod alayının 200 illik yubiley (yubiley 08 sentyabr 1901-ci il tarixdə olub) döş nişanın gəzdirməsinə icazə verilir. Bu icazə yalnız nümunəvi xidmət edən zabitlərə verilirdi. 15 iyun – 08 iyul 1909-cu il tarixlərdə Poltava şəhərinə “Poltava döyüşünün” 200 illik yubileyinin keçirilməsi üçün ezam edilir. 20 iyul 1909-cu il tarixdə “Poltava döyüşünün” 200 illik yubileyi ilə əlaqdar parlaq gümüşü Andreyevski lentası üzərindəki medalı ilə təltif edilir. 01 sentyabr 1909-cu il tarixdə “ştabs-rotmistr” hərbi rütbəsi alır.

07 sentyabr 1909-cu il tarixdə ona “Şərqi Qafqazın fəth edilməsinin 50 illk xatirə yubiley” nişanının gəzdirməsinə icazə verilir. 06 dekabr 1909-cu il tarixdə isə 3-cü dərəcəli “müqəddəs Stanislav” ordeni ilə təltif edilir. 15-25 may 1910-cu il tarixdə Qrenader diviziyasının qərargahı ilə 10 (on) günlük səhra təlimində olur. 18 iyun - 17 iyul 1910-cu il tarixlərdə müvəqqəti olaraq 5-ci eskadron komandiri vəzifəsini icra edir. 14 oktyabr 1910-cu il tarixdə Süvari məktəbinə zabit təkmilləşdirmə kursuna göndərilir və 01 oktyabr 1912-ci il tarixdə həmin kursu “müvəffəqiyyətlə” bitirir. 17 oktyabr 1912-ci il tarixdə xidmət yerinə qayıdır və 03 noyabr 1912-ci il tarixdə 4-cü eskadronun komandiri vəzifəsinə təyin edilir. 10 dekabr 1912-ci il tarixdən 03 oktyabr 1913-cü il tarixədək “alay məhkəməsinin üzvü” olub. 09-20 may 1913-cü il tarixlərdə süvari divizionunun tərkibində səhra çıxışlarında iştirak edir. 21 may 1913-cü il tarixdə “rotmistr” hərbi rütbəsi alıb. 04 dekabr 1913-cü il tarixdə alayın “Zabit təşkilat komitəsinə” namizəd seçilir. 22 iyul 1913-cü il tarixdə 1812-ci il müharibəsinin “100 illik yubiley tunc medalının (Vladimir lentası üzərində)” (İmperatorun 15 avqust 1912-ci il tarixli fərmanı ilə nəsildə böyük ovlad olduğuna görə) gəzdirməsinə icazə verilib. 1913-cü ildə 3-cü dərəcəli “müqəddəs Anna” ordeni ilə təltif edilib.

13 yanvar 1914-cü il tarixə xidmət dəftərçəsindəki məlumatlara əsasən xidməti üzrə cəza və töhməti olmayıb və subay olub. 10 noyabr 1914-cü il tarixdə Kolyuşki stansiyası yaxınlığında döyüşlərdə eskandronu ilə Alman ağır batareyasını qənimət kimi götürərkən ağır yaralanıb və müalicə üçün İmperatorun Saray hospitalının nəzdindəki lazaretə yerləşdirilib. Konina şəhəri uğrunda döyüşlərə görə 24 oktyabr 1914-cü il tarixdə 4-cü dərəcəli “müqəddəs Vladimir” ordeni (qılınc və lenta ilə) təltif edilib. Daha sonra 30 dekabr 1914-cü il tarixdə Şimal-Qərb cəbhəsi qoşunları komandanının 394 №-li əmri ilə 2-cü dərəcəli “müqəddəs Anna” (qılıncla) (02 noyabr 1914-cü il tarixdə Volya-Kamiska və Tuşina rayonlarında

kəşfiyyat eskadronuna uğurlu komandirlik etdiyinə görə), 23 yanvar 1915-ci il tarixdə 1-ci Ordu komandanın 456 №-li əmri ilə 4-cü dərəcəli "müqəddəs Georgi" (10 noyabr 1914-cü il tarixdə Kolyuşki stansiyası yaxınlığında alman ağır batareyasını əsir götürdüyünə görə) və 01 aprel 1915-ci il tarixdə isə 2-ci dərəcəli "müqəddəs Stanislav" ordenləri ilə təltif edilib. Xidmət dəftərçəsində həmçinin ona 1915-ci ildə (ay yazılmayıb) əvvəllər təltif edildiyi 3-cü dərəcəli "müqəddəs Anna" ordeni üçün (08 noyabr 1914-cü il tarixdə Terezina yaxınlıqdakı döyüşlərə görə, diviziya üzrə 21 №-li əmr) qılınc və bantın təqdim edildiyi qeyd edilib. 17 aprel 1916-cı il tarixdə isə "podpolkovnik" hərbi rütbəsinə layiq görülüb. Çox təssüf ki, xidmət dəftərçəsində onun Çar ordusundakı hərbi xidməti yalnız 17 aprel 1916-cı il tarixə kimi qeyd edilib və sonrakı hərbi xidməti barədə xidmət dəftərçəsində məlumat yoxdur. "Polkovnik" hərbi rütbəsinin dəqiq alma tarixi bilinmir.

Cümhuriyyət Hərbi nazirinin 09 yanvar 1919-cu il tarixli 20 №-li əmrində "polkovnik" hərbi rütbəsində Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilməsi qeyd edilib. 02 aprel 1919-cu il tarixdən 25 iyun 1919-cu il tarixədək Hərbi nazirin 171 №-li əmri ilə Hərbi məhkəmənin müvəqqəti üzvü seçilib. Hərbi nazirin 17 iyun 1919-cu il tarixli 299 №-li əmri ilə 14 iyun 1919-cu il tarixdən Süvari diviziyasının 1-ci Tatar süvari alayının komandiri vəzifəsinə təyin edilmiş hesab edilib. Həmin vəzifəyə təyin edildikdən çox qısa müddətdən sonra 01 avqust 1919-cu il tarixdə Hərbi nazirin 03 avqust 1919-cu il tarixli 347 №-li əmri ilə Süvari diviziyasının komandiri vəzifəsinin icraçısı təyin edilir. Nazirlər Şurası Sədrinin 02 avqust 1919-cu il tarixli 35 №-li əmri ilə xidmətdə fərqləndiyinə görə "general-mayor (süvari üzrə)" hərbi rütbəsi verilməklə Süvari diviziyasının komandiri vəzifəsinə təsdiq olunub. Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri və 16 avqust 1919-cu il tarixli 359 №-li əmrləri ilə Süvari diviziyasının komandiri vəzifəsinə təsdiq

olunması və ali hərbi rütbəyə layiq görülməsi ordu üzrə elan edilir. Hərbi nazir 04 dekabr 1919-cu il tarixdə 558 №-li əmri ilə ona 05 - 31 dekabr tarixlərdə əlavə olaraq Quba dəstəsinin rəisi vəzifəsini də həvalə edir. 31 dekabr 1919-cu il tarixdən Quba dəstəsinin Hərbi nazirin 11 yanvar 1920-ci il tarixli 21 №-li əmri ilə ləğv edilməsi ilə əlaqədar dəstəsinin rəisi vəzifəsində azad edilir və Süvari diviziyasının komandiri kimi həqiqi hərbi xidmətini davam etdirir.

General-mayor Novruzov Teymur bəy Kərim bəy oğlu Cümhuriyyət ordusunun yeganə və ilk süvari diviziyasının komandiri olmuşdur. 1920-ci il may ayının sonunda rus bolşevikləri ilə erməni daşnaklarının birləşmiş qüvvələrinə qarşı Cümhuriyyət ordusunun Gəncədə baş vermiş tarixi üsyanının təşkilatçılarından biri olub. Üsyan yatırıldıqdan sonra, Gürcüstan üzərindən Türkiyəyə keçib. Əmisi oğlu Cahangir bəy Novruzovun (Cahangir Berkerin xatirələrinə əsasən İstanbulda ağır işlər görməklə gündəlik güzaranını təmin edib. Kurs yoldaşı ağqvardiyaçı Vrangellə görüşdükdən sonra mühacirət etmək qərarına gəlir. Əvvəlcə Almaniyaya daha sonra isə Fransaya köçür. 23 yanvar 1961-ci il tarixdə Fransada Nitsada vəfat edir və orada dəfn edilir.

### 808. **Polkovnik NOVRUZOV** Nikolay (Kazım bəy) Yusif bəy oğlu

Hərbi nazirin şəxsi heyət üzrə əmrlərində Kazım bəyin adı dəfələrlə "Nikolay" kimi keçir. Böyük ehtimalla bu təxəllüsü o rus ordusunda xidmət edərkən götürmüşdür. Digər bir versiyaya görə o xristian dinini qəbul etdiyi üçün "Nikolay" adını götürmüşdür.

Ümumiyyətlə, Cümhuriyyət Hərbi nazirinin şəxsi heyət üzrə əmrlərində zabit heyətinin bir çox hallarda yalnız soyadları qeyd edilmişdir. Kazım bəy Novruzov Birinci Dünya müharibəsində 33-cü piyada diviziyasının topçu briqadasının

2-ci batareyasının komandiri vəzifəsində xidmət edib. Cümhuriyyət ordusunun zabiti və Kazım bəyin qardaşı olmuş Cahangir bəy Novruzovun xatirələrinə istinadən deyə bilərik ki, Hərbi nazirin əmrlərində Nikolay Novruzov kimi keçən məhz Kazım bəy Novruzovdur. Burada bir məqamı da qeyd etmək lazımdır ki, Cahangir bəy Novruzov onun Cümhuriyyət ordusunda artilleriya briqadasının komandiri olduğunu bildirmiş lakin arxiv sənədlərindən və Hərbi nazirinin hərbi hissələr üzrə ştatlarının elan edilməsi əmrində onun briqada komandiri deyil artilleriya divizionu (piyada taboruna bərabər) komandiri olduğunu görmək olar. Müsəlman Korpusunda və ya Qafqaz İslam Ordusunun tərkibindəki hərbi xidmətləri barədə məlumatlar isə yoxdur. Həmin dövrdəki əmrlər saxlanılmadığı üçün belə məlumatları əldə etmək mümkün olmamışdır.

Podpolkovnik Kazım bəy Novruzov rəsmi olaraq 10 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-cu il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 5-ci dağ artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 fevral 1919-cu il tarixli 84 №-li əmri ilə 05 fevral 1919-cu il tarixdən 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionu komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilir. Tabeliyində olan divizionda yüksək nizam-intizama və döyüş hazırlığına görə Hərbi nazir tərəfindən 28 iyun 1919-cu il tarixdə 314 №-li əmrlə ona “Təşəkkür” elan edilir. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə isə növbəti “polkovnik (artilleriya üzrə)” hərbi rütbəsi verilir. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionu komandiri kimi həqiqi hərbi xidmətdə olub.

809. **Kapitan NOVRUZOV** Vladimir (Rüstəm bəy)

10 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri ilə xidmət yeri 1-ci haubitsalı artilleriya divizionunun 1-ci haubitsalı artilleriya batareyasına dəyişdirilib. 31 oktyabr 1919-cu il tarixdə isə Hərbi nazirin 511 №-li əmri ilə yuxarı vəzifəyə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il taruxli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "kapitan (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Əlahiddə haubitsalı batareya komandirinin xəstəliyi ilə əlaqədar olaraq, 15 dekabr 1919-cu il tarixdən 13 mart 1920-ci il tarixədək Hərbi nazirin 576 №-li əmri ilə həmin haubistalı artilleriya batareyasının komandiri vəzifəsini müvəqqəti icraça edib. 13 mart 1920-ci il tarixdə əlahiddə haubitsalı artilleriya batareya komandiri xidmət yerinə qayıtdıqdan sonra Hərbi nazir 24 mart 1920-ci il tarixli 166 №-li əmri ilə kapitan Rüstəm bəy Novruzovu həmin tarixdən 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyasının komandiri vəzifəsinə təyin edir. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun 3-cü yüngül artilleriya batareyasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.



810. **Podyesaul NOVRUZOV** Cahangir bəy  Yusif bəy oğlu

(Türkiyə Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olarkən Cahangir Bərkər kimi tanınmışdır)

1894-cü ildə Bakı şəhərində hərbiçi ailəsində anadan olub. Cahangir bəy Novruzov rəsmi olaraq Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 10 dekabr 1918-ci il tarixdən "podyesaul" (Çar ordusunun Kazak qoşun hissələtinə aid hərbi rütbə və piyada qoşunlarında "ştabs-kapitan" hərbi rütbəsinə bərabər tutulub. Müasir dövrdə "kapitan" hərbi rütbəsi) hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podyesaul" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

1920-ci il may ayının sonu - iyunun ayının əvvəllərində Gəncə şəhərində rus bolşevikləri ilə erməni daşnaklarının birləşmiş qüvvələrinə qarşı məhşur Gəncə üsyanında iştirak edib. Üsyan yatırıldıqdan sonra, bir qrup sağ qalmış hərbiçilərlə İran ərazisindən Türkiyəyə keçib.

Bəzi mənbələrdə onun Cümhuriyyət ordusunda vaxtından əvvəl "kapitan" hərbi rütbəsi alması göstərilir. Müsəlman Korpusunun və Qafqaz İslam Ordusunun arxiv sənədləri saxlanılmadığına görə onun "podyesaul" hərbi rütbəsini nə vaxt alması məlum deyil. Lakin "podyesaul" hərbi rütbəsi Kazak qoşunları hissələrinə aid olduğuna görə belə bir fərziyyə irəli sürmək olar ki, bu rütbə Çar ordusunda ona verilmişdir. Belə ki, Müsəlman Korpusunda eləcə də Qafqaz İslam Ordusunda Kazak qoşun hissələri mövcud olmamışdır. Cümhuriyyət Hərbi nazirinin hərbi xidmətə qəbul əmrində isə bu rütbə ilə həqiqi

hərbi xidmətə qəbul edilmişdir. Onun Türk Silahlı Qüvvələrində həqiqi hərbi xidməti zamanı tərtib edilmiş xidmət dəftərçəsində ilkin “podporuçik” zabit hərbi rütbəsini 12 iyul 1913-cü il tarixdə aldığı göstərilmişdir. Qafqaz İslam Ordusunun Bakının azad edilməsi zamanı apardığı döyüş əməliyyatlarda yaxından iştirakı da xidmət dəftərçəsində qeyd edilib.

Türk ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi 12 iyul 1918-ci il (12 temmuz 1336-cı il) göstərilir. Böyük ehtimala bu tarix Nuru paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunda hərbi xidmətə daxil olma tarixidir. Lakin onun bir qrup Azərbaycanlı zabitlərlə Türkiyə ordusunun sıralarına qəbul edilmə tarixi 1920-ci il ilin iyun-iyul aylarına təsadüf edir. Türk ordusunda həqiqi hərbi xidmətdə olarkən tərtib edilmiş xidmət dəftərçəsində onun 1 iyun 1920-ci il tarixdən 1 avqust 1929-cu il tarixədək 4-cu Ordunun topçu birliyində xidmət etdiyi qeyd edilib. 23 avqust 1921-ci il tarixədək istiqlal savaşında yaxından iştirak etdiyi də xidmət dəftərçəsində göstərilib. 30 avqust 1942-ci ildə “polkovnik (albay)” və 30 avqust 1948-ci il tarixdə isə “general-mayor” hərbi rütbəsinə layiq görülüb. 1929-cu ildə topçu atış, 1930-cu ildə topçu atış üst zabit, 1938-ci ildə Konyada komandirlər və 1944-cü ildə isə Geliboluda topçu komandirləri kurslarında iştirak etməsi barədə xidmət dəftərçəsində qeydlər var. 1953-cü ildə isə ordudan ehtiyata buraxılıb.

811. **Praporşik NOVRUZOV** Ağa Səlim

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 23 dekabr 1919-cu il tarixdə Zəngəzur qəzasında erməni-daşnak qüvvələrinə qarşı aparılan döyüş əməliyyatlarında həlak olduğuna görə Hərbi

nazirin 27 yanvar 1920-ci il tarixli 54 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

812. **Praporşik NOVRUZOV** Əliş

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

813. **Praporşik NOVRUZLİNSKİ** Talış

Şuşa şəhər məktəbində təhsil alıb. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin alayın 7-ci piyada bölüyü komandiri vəzifəsinin müvəqqəti icraşısı təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

814. **Praporşik NOVOSELSKİ**

Milliyəti rus. 02 yanvar 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Qazax şəhərində yerləşən Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Təlim taboru Qazax şəhərində dislokasiya yeri saxlanılmaqla 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taboru adlanıb. Cümhuriyyət ordusunda xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

815. **Praporşik NƏBİYEV** Abdulla

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

816. **Podporuçik NƏZİROV** İsa

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə

əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

817. **Poruçik** **NEAVSKİ** Aleksandr Yevqeniyeviç

Milliyəti rus. 12 yanvar 1919-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Şuşa qəza hərbi rəisi yanında yola salma məntəqəsi rəisi vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 13 mart 1920-ci il tarixli 150 №-li əmri ilə Ordu Qərargahının General-Kvartirmeyster idarəsinə xidmət yeri dəyişdirilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordu Qərargahının General-Kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.

818**. Praporşik** **NURİYEV** Məmməd

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 aprel 1920-ci il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

819. **Polkovnik NİKİTİN**

Milliyəti rus. 24 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 37 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun texniki vəzifəsinə təyin edilib. Öz arzusu ilə Hərbi nazirin 15 fevral 1919-cu il tarixli 254 №-li əmri ilə 12 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

820. **Polkovnik NİJARADZE** İlya Kostantinoviç

Milliyəti gürcü. 1863-cü ildə anadan olub. 20 iyun 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının təsərrüfat hissəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

821. **Ştabs-kapitan NİŞKİANİDZE** Valerian Vissarionoviç

Milliyəti gürcü. 14 iyul 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 514 №-li əmri ilə Mühəndis məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Qarabağda aparılan döyüş əməliyyatlarında iştirak etmək barədə əmr alan kimi xəstə olmasını bəhanə gətirərək raportla cəbhəyə ezam edilməsindən imtina etmişdir. Xəstə kimi qeydiyyatda olduğu halda hər gün şəhərdə avara-avara gəzməklə məşğul olduğunu bilən kimi Hərbi nazir onun dərhal ordu sıralarından tərxis

edilməsi barədə göstəriş vermiş və 24 aprel 1920-ci il tarixdə Hərbi nazirin 219 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərzasində yaşamaq hüququndan məhrum edilməklə Cümhuriyyət ordusu sıralarından tərxis edilmişdir.

822. **Podpolkovnik ODİŞELİDZE**

Milliyəti gürcü. 01 sentyabr 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 397 №-li əmri ilə Hərbi Nazirliyin Avtomobil hissə rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 518 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 07 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralıarından tərxis edilib.

823. **Podporuçik ORUCOV** Əmir Aslan

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb.

Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

824. **Podporuçik ÖMƏR-ZADƏ** Məmmədhilmi

07 dekabr 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 13 dekabr 1919-cu il tarixli 569 №-li əmri ilə Hərbi Nazirliyin Avtomobil hissəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi Nazirliyin Avtomobil hissəsində həqiqi hərbi xidmətdə olub.

825. **Podporuçik PAŞAYEV** Hüseyn bəy

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

826. **Praporşik PAŞA-ZADƏ** Cabbar

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin

alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

827. **Polkovnik PANKOV** Vasiliy Saviç

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının Müfəttiş bölməsinin baş adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Baş Qərargah idarəsi 01 mart 1920-ci il tarixdən Ümumi Qərargah birləşdirilərək Ordu Qərargahı yaradıldığına görə həmin əmrlə Ordu Qərargahının Növbətçi General idarəsinin inspektor şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordu Qərargahının Növbətçi General idarəsinin inspektor şöbəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

828. **Praporşik PQRİKAREV**

Milliyəti rus. 13 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

## 829. **Polkovnik PROZOROV**

Milliyəti rus. 15 yanvar 1920-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 yanvar 1920-ci il tarixli 38 №-li əmri ilə 2-ci piyada diviziyasının İntendantı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının İntendantı kimi həqiqi hərbi xidmətdə olub.

## 830. **Praporşik POLUMORDVİNOV**

Milliyəti rus. 14 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib (Göndəriş vərəqəsi №21). Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq Təlim taboru Qazax şəhərində dislokasiya yeri saxlanılmaqla 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taboru adlanıb və xidmət yeri həmin 3-cü piyada taborunda saxlanılıb. Cümhuriyyət ordusunda xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib

.

## 831. **Poruçik POLTORJİSKİ** Əli

Polşa tatarı. 06 fevral 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 154 №-li əmri

ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 30 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 549 №-li əmri ilə xidmət yeri Lənkaran ehtiyat piyada taboruna dəyişdirilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (piayada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 832. **Kapitan POTAPOV**

Milliyəti rus. 21 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri ilə 01 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 833. **Podpolkovnik PORXAEV**

Milliyəti rus. 09 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin Yerli briqadası rəisinin idarəsinin tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

834. **Kapitan POPOV**

Milliyəti rus. 27 mart 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə Gəncə qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Öz arzusu ilə Hərbi nazirin 29 iyun 1919-cu il tarixli 315 №-li əmri ilə 01 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

835. **Podpolkovnik PONİROVSKİ** Qeorqi

Milliyəti rus. 01 iyul 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə Bakı şəhəri komendant idarəsinin adyutantı vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podpolkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Bakı şəhəri komendant idarəsində həqiqi hərbi xidmətdə olub.

836. **Polkovnik POŞEV** Xasbulat bəy Poşeviç

Milliyıti tatar. 10 iyun 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 12 iyun 1919-cu il tarixli 289 №-li əmri ilə Biləcəri dəmir yolu stansiyası komendantı vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 23 iyul 1919-cu il tarixli 333 №-li əmri ilə 20 iyul 1919-cu il tarixdən Gəncə dəmir yolu stansiyasının komendantı vəzifəsinə keçirilib. 09 fevral 1920-ci il tarixdə isə Hərbi nazirin 08 fevral 1920-ci il tarixli 86 №-li əmri ilə Biləcəri dəmiryolu stansiyasının komendantı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi

“polkovnik” hərbi rütbəsində Biləcəri dəmiryolu stansiyasının komendantı kimi həqiqi hərbi xidmətdə olub.

837. **Podpolkovnik PROSENKO**

Milliyəti ukraynalı. 15 dekabr 1918-ci il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

838. **Poruçik PODDUBNIY**

02 yanvar 1919-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. Xidmət yerinə gedib çıxmadığına görə Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə 02 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb.

839. **Polkovnik PERELNİQİN**

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə Artilleriya Emalatxanasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Artilleriya Emalatxanasının rəisi kimi həqiqi hərbi xidmətdə olub.

840. **Ştabs-rotmistr PEREKRESTOV**

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

841. **Poruçik PETROV**

Milliyəti rus. 08 yanvar 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu ul tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmət etdiyi 5 (beş) ay ərzində yerli dili öyrənə bilmədiyinə və nəticədə qoşunların hazırlanmasında gözlənilən nəticələr əldə etmədiyinə görə Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 №-li əmri ilə 25 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

842. **Ştabs-kapitan PETROV** Mixail

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri 1-ci dərəcəli Ləki Artilleriya anbarının artilleriya pirotexniki vəzifəsinə təyin edilib. 28 iyul 1919-cu il tarixdə təxminən saat günorta 4 radələrində Ləki stansiyasının Qize zavodunun və Artilleriya anbarının yaxınlığında naməlum səbəbdən biyan köklərinin alışması nəticəsində güclü yanğın baş vermişdir.

Anbar rəisinin rəhbərliyi altında və mülki şəxslərin köməyi ilə yanğın tez bir zamanda söndürülmüş və yanan saraydan artilleriya mərmiləri və partlayıcı maddələr təhlükəsiz yerə çıxarılmışdır. Bununlada dəhşətli partlayışın qarşısı alınmışdır. Göstərdiyi cəzarətə və məharətlə yanğının söndürülməsindəki iştirakına görə Hərbi nazir 11 avqust 1919-cu il tarixli 352 №-li əmri ilə ştabs-kapitan Mixail Petrova "Təşəkkür" elan etmişdir. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "ştabs-kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci dərəcəli Ləki Artilleriya anbarında həqiqi hərbi xidmətdə olub.

843. **Poruçik PEYKAROV** Pyotr

Milliyəti rus. 01 oktyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 oktyabr 1919-cu il tarixli 474 №-li əmri ilə Baş Qərargah idarəsinin baş adyutantının köməkçisi vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 01 mart 1920-ci il tarixdən Baş Qərargah idarəsi ilə Ümumi Qərargah idarəsi birləşdirilərək Ordu Qərargahı yaradılıb və Ordu Qərargahının baş adyutant köməkçisi vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordu Qərargahının baş adyutant köməkçisi kimi həqiqi hərbi xidmətdə olub.

844. **Yesaul** Fon **PESOLD**

09 iyun 1919-cu il tarixdə "yesaul" (Çar ordusunda Kazak qoşun hissələrinə aid hərbi rütbə. Piyada qoşunlarında "kapitan" hərbi rütbəsi) hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il

tarixli 301 №-li əmri ilə 1-ci haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə yuxarı vəzifəyə 1-ci süvari-dağ artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. 25 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 511 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionunun 5-ci dağ artilleriya batareyasının komandiri vəzifəsinə keçirilib. 15 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 576 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionunun təsərrüfat hissəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "yesaul" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionunun təsərrüfat hissə rəisi kimi həqiqi hərbi xidmətdə olub.



845. **General-mayor PURSELADZE**

Aleksandr Mixayıloviç

Milliyəti gürcü. Çar ordusunda 12-ci Velikolusk piyada alayında həqiqi hərbi xidmətdə olub və həmin alayın komandiri vəzifəsinədək yüksəlib. Hərbi xidməti dövründə 1915-ci ildə "2-ci dərəcəli müqəddəs Anna (qılıncla)", "4-cü dərəcəli müqəddəs Vladimir (qılınc və lenta ilə)", "4-cü dərəcəli müqəddəs Georgi" ordenləri və 1917-ci ildə "Georgi silahı" ilə təltif edilib.

09 sentyabr 1919-cu il tarixdə "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə general vəzifəsinə təyin edilib. 24 sentyabr 1919-cu il tarixdə Hərbi nazirin 429 №-li əmri ilə Yerli briqada idarəsinin rəisi vəzifəsinə təyin edilir. 03 oktyabr 1919-cu il tarixdən isə Hərbi nazirin 04

oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə xidmət yeri təkrarən Hərbi nazirin yanında tapşırıqlar üzrə general vəzifəsinə dəyişdirilir. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 518 №-li əmri ilə müvəqqəti olaraq Xankəndi qarnizonu rəisi vəzifəsinin icraçısı ona həvalə edilir. Hərbi nazirin 527 №-li 13 noyabr 1919-cu il tarixli əmri ilə isə Hərbi Nazirliyin və bütün hərbi hissələrin qəfil təftişi üzrə xüsusi komissiyanın sədri vəzifəsi ona həvalə edilir. Xankəndi qarnizonu rəisi kimi vəzifə borclarının icrasına səhlənkar yanaşdığına görə Hərbi nazirin 16 fevral 1920-ci il tarixli 103 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

846. **Praporşik PUŞKAREV**

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə siyahılarının üzləşməsi zamanı “praporşik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 18 fevral 1919-cu il tarixli 84 №-li əmri ilə 10 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

847. **Ştabs-rotmistr PLAVSKİ** Viktor

Milliyəti polyak. 06 aprel 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 186 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “ştabs-kapitan (süvari üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna

kimi “ştabs-kapitan” hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

848. **Podpolkovnik PXAKADZE** Semen

Milliyəti gürcü. Gürcüstan ordusunda əlahiddə süvari divizonunun komandiri olub. 20 iyun 1919-cu il tarixdə “rotmistr” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Gürcüstan Hökümətinin 02 iyul 1919-cu il tarixli 455 №-li əmri ilə əvvəlki xidmətlərində fərqləndiyinə görə “podpolkovnik” hərbi rütbəsi verildiyinə görə Hərbi nazirin 12 avqust 1919-cu il tarixli 354 №-li əmri ilə həmin rütbəsi Cümhuriyyət ordusu üzrə elan edilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin təsərrüfat hissə üzrə köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

849. **Ştabs-kapitan RATUŞEV**

Milliyəti rus. 12 mart 1919-cu il tarixdə “ştabs-kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 aprel 1919-cu il tarixli 205 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 01 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

850. **Praporşik RƏCƏBOV** Abdulbaqi

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 01 aprel 1920-cu il tarixdə Hərbi nazirin 182 №-li əmri ilə Kürd atıcı taboruna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

851. **Poruçik RƏHİMOV** Rəhim

12 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-ci il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının təlim komandasının rəisi təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

852. **Podporuçik RƏHİMOV** Səftər

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının 1-ci piyada taborunun 2-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

853. **Podporuçik RƏHİMBƏYOV** Hidayət bəy Məşədi Süleyman bəy oğlu

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini artilleriya ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il

tarixli 243 №-li əmri ilə növbəti “praporşik (artilleriya üzrə)” hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

854. **Podporuçik RƏFİBƏYOV** Cəmil bəy

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Nümunəvi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.



855. **Podpolkovnik RƏFİBƏYOV** Səməd bəy Məşədi bəy oğlu

(Türk Silahlı Qüvvələrindəki xidmət dəftərçəsində adı Əbdülsəməd bəy Sayqın və ya Əbdülsəməd bəy Sayqın Rəfibəyzadə kimi qeyd edilmişdir)

1892-ci ildə Gəncə şəhərinin Balabağban qəsəbəsində anadan olub. 1916-cı ildə Tiflis kadet korpusunu bitirib və “podporuçik” hərbi rütbəsində 7-ci Qafqaz sərhəd alayında hərbi xidmətə başlayıb. 1918-ci ilin yanvarında yeni

yaradılan Müsəlman korpusunun 1-ci Bakı piyada alayında “poruçik” hərbi rütbəsində piyada bölüyünün komandiri kimi bolşevik-daşnak dəstələrinə qarşı vuruşub. Nümunəvi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 02 iyul 1918-ci il tarixli əmri ilə “ştabs-kapitan” hərbi rütbəsinə layiq görülüb. 1918-ci ilin noyabr ayının 7-də Cümhuriyyət Hərbi Nazirliyi fəaliyyətə başlayanda Hərbi nazirin hərbi hissələr üzrə zabit heyətinin elan edilməsi üzrə 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə “kapitan (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. 26 avqust 1919-cu il tarixdə Hərbi nazirin 373 №-li əmri ilə Lənkaran ehtiyat piyada taborunun komandiri vəzifəsinə təyin edilir. 01 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 551 №-li əmri ilə yeni yaradılan 7-ci Şirvan piyada alayının komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilir. Nümunəvi xidmətlərinə görə Hərbi nazirinin təqdimatı ilə Nazirlər Şurası Sədrinin 25 yanvar 1920-ci il tarixli 46 nömrəli sərancamı ilə vaxtından əvvəl “podpolkovnik” hərbi rütbəsi verilməklə Hərbi nazirin 27 yanvar 1920-ci il tarixli 54 nömrəli əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri vəzifəsinə təyin edilir. Həmin təyin əmrində Hərbi nazir əlavə olaraq bunları qeyd etmişdir: “Mənim 26 avqust 1919-cu il tarixli 373 №-li əmri ilə kapitan indi isə podpolkovnik Rəfibəyov daha əvvəl yeni yaradılan Lənkaran ehtiyat taboruna komandiri təyin edilmişdir. Ölkə və gənc ordumuzun qarşısında məsuliyyətini dərk edən Rəfibəyov bütün enerjisini və biliyinin taborun formalaşmasına yönəldərək qısa müddət ərzində yüksək nəticələr əldə etməklə döyüş qabiliyyətli bir hərbi hissəni formalaşdırdı. Təcürbəli və savadlı bir zabit kimi daha sonra 01 dekabr 1919-cu il tarixli 551 №-li əmrimlə yeni yaradılan 7-ci Şirvan piyada alayının komandiri təyin edildi. İşgüzarlığı və

şəxsi heyətə qayğısını nəzərə alaraq, xüsusi təqdimatla Rəfibəyova vaxtından əvvəl "podpolkovnik" hərbi rütbəsi verilməsi üçün Hökümət qarşısında vəsatətlə çıxış etdim və Hökümətin 25 yanvar 1920-ci il tarixli əmri ilə ona "podpolkovnik" hərbi rütbəsi verildi. Əmri elan etməklə səmimi qəlbdən podpolkovnik Rəfibəyova vicdanlı və səmimi xidmətinə görə "Təşəkkür" elan edirəm və əminəm ki, yeni xidmət yerində də ona verilən etimadı doğruldaraq qısa müddət ərzində hərbi hissəni lazımı səviyyəyə qaldıracaqdır".

Cümhuriyyət ordusunun Qarabağdakı 1-ci Cavanşir piyada alayının komandiri kimi 1920-ci ilin mart və aprel aylarında Xankəndində və Əskəranda milli hökumətimizə qarşı qiyam qaldırmış erməni daşnakları ilə döyüşlərdə şəxsi qəhrəmanlıq göstərənlərdən biri olub. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri kimi həqiqi hərbi xidmətdə olur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqda onunla barışmayıb, 1920-ci ilin iyun ayında rus bolşevikləri ilə erməni daşnaklarının birləşmiş qüvvələrinə qarşı Qarabağ üsyanında qeyri-bərabər döyüşlərdə peşəkar zabit kimi vuruşub. Üsyan yatırıldıqdan sonra, komandiri olduğu hərbi hissənin yerdə qalan bir qrup heyəti ilə birlikdə Türkiyəyə keçib.

Türk ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi 01 iyul 1918-ci il (01 temmuz 1336-cı il) göstərilib. Böyük ehtimala bu tarix Nuru paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunda hərbi xidmətə daxil olma tarixidir.

Əslində Qarabağdakı Cümhuriyyət ordusunun üsyanı yatırıldıqdan sonra hərbi hissəsinin qalıqları ilə Türkiyəyə keçərək 01 iyul 1920-ci il tarixdən Şərq Cəbhəsində Türk ordusunun tərkibində Azərbaycan süvari alayı komandirinin müavini kimi həqiqi hərbi xidmətə başlayıb. Həmin vəzifədə 1921-ci ilin mart ayına kimi xidmət edib. "Ermənistan hərəkatı" və "İraq cəbhəsi" adlanan döyüş əməliyyatlarında birbaşa iştirak

edib. 1921-ci ilin mart ayından 1922-ci ilin noyabr ayına kimi Şərq Cəbhəsi qərargahında tərcümə şöbəsinin rəisi olub. 1922-ci ilin noyabr ayında 1924-cü ilin noyabr ayına kimi 6-cı süvari diviziyasının 15-ci süvari alayı komandirinin müavini olub. 1924-cü ilin noyabr ayından 1928-c ilə kimi isə həmin diviziyanın qərargahında müxtəlif vəzifələrdə xidmət edib. 1928-1930-cu illər Hərbi Məktəbdə təkmilləşdirmə kurslarında təhsil alıb. 1930-cu ildə təhsilini bitirdikdən sonra 13-cü süvari alayında süvari bölük komandiri vəzifəsinə təyin edilib. Həmin alayda 1932-ci ilədək xidmət edib. 1932-ci ildən 1935-ci ilədək müxtəlif vəziflərdə olub və 1935-ci ildə 5-ci süvari alayı qərargahında xidmətdə olarkən alay komandiri vəzifəsini icra edib. Həmin alayda 1937-ci ilədək xidmət edir. 1938-ci ildən 1940-cı ilədək 41-ci süvari alayı komandirinin müavini vəzifəsində xidmət edib. 1940-cı ildə 3-cü Ordunun kəşfiyyat şöbəsinin rəisi təyin edilir və 1942-ci ilədək həmin vəzifədə xidmət edir. 15 avqust 1942-ci il tarixdən 28 avqust 1948-ci ilədək 45-ci süvari alayının komandiri vəzifəsində xidmət edir. 28 avqust 1948-ci ildə isə 2-ci süvari briqadasının komandiri təyin edilir və 28 avqust 1948-ci ilədək həmin vəzifədə xidmət edir.

Bəzi mənbələrdə onun Türk ordusuna həqiqi hərbi xidmətə qəbul edilərkən "polkovnik" hərbi rütbəsində olması barədə qeyd edilən məlumatlar yanlışdır və həqiqətə uyğun deyil. Belə ki, Səməd bəy Rəfibəyov Cümhuriyyət ordusunda vaxtından əvvəl 25 yanvar 1920-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsinə layiq görülmüşdür. Eyni zamanda 02 avqust 1952-ci ildə Türk Silahlı Qüvvələrində xidməti zamanı tərtib edilmiş xidmət dəftərçəsindən aydın görünür ki, Cümhuriyyət ordusundan ayrıldığı zamanı "podpolkovnik" hərbi rütbəsində olmuş və ona yalnız 30 avqust 1942-ci ildə Türk ordusunda "polkovnik (albay)" hərbi rütbəsi verilmişdir. Rəfibəyov Səməd bəy Məşədi bəy oğlu və ya Əbdülsəməd bəy Sayqın (Əbdülsəməd bəy Sayqın Rəfibəyzadə) 30 avqust 1948-ci ildə

“general-mayor” hərbi rütbəsinə layiq görülüb. 02 avqust 1952-ci ilədək Quru Qoşunların İnspeksiya qrupunun üzvü olub və həmin vəzifədən ehtiyata buraxılıb. Rəfibəyov Səməd bəy Məşədi bəy oğlu Türk ordusundakı hərbi xidməti zamanı İstiqlal savaşında yaxından iştirak edib, “Hərb” və “İstiqlal” medalları ilə təltif edilib. Rəfibəyov Səməd bəy Məşədi bəy oğlu və ya Əbdülsəməd bəy Sayqın Türk ordusunda general rütbəsi alan ilk Cümhuriyyət zabiti olmuşdur. Xidmət dəftərçəsindəki qeydiyyata görə sonuncu qeydiyyat yeri Ankara şəhəri Sakarya məhəlləsi ev 28t ünvanı olub.

856. **Podporuçik RƏFİBƏYOV** Hüseyn

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

857. **Praporşik RƏSULOV** Abbas

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb.

Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

858. **Podporuçik RƏSULOV** Həsən

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

859. **Praporşik RƏŞİDOV** Süleyman

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi

rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

860. **Podporuçik RƏHİMOV** Ağa Baba

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

861. **Polkovnik ROMIŞEVSKİ**

Milliyəti rus. 03 aprel 1920-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 08 aprel 1920-ci il tarixli 201 №-li əmri ilə Bakı Ərzaq Mağazasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Bakı Ərzaq Mağazasının rəisi kimi həqiqi hərbi xidmətdə olub.

862. **Kapitan ROMANOV**

Milliyəti rus. 23 dekabr 1918-ci il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Poylu dəmir yolu stansiyasının komendantı vəzifəsinə təyin edilib. 03 may 1919-cu il tarixdə Poylu dəmir yolu stansiyasında xidmət aparan 3-cü Gəncə piyada alayının qaravul heyətinə naməlum şəxslər tərərəfindən silahlı basqın edildiyi zaman komendantın sayıqlığı və cəsarəti nəticəsində basqın dəf edilmişdir. Göstərdiyi şücaətə görə kapitan Romanova Hərbi nazir 15 may 1919-cu il tarixli 249 №-li əmri ilə “Təşəkkür” elan etmişdir. Hərbi nazirin 23 iyul 1919-cu il tarixli 333 №-li əmri ilə 20 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

863. **Kornet ROSTOMOV** Pavel

19 iyun 1919-cu il tarixdə “kornet” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 13 mart 1920-ci il tarixli 153 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

864. **Qvardiya polkovniki ROZENMEYER** Vladimir Vladimiroviç

Alman əsilli rus. 12 may 1919-cu il tarixdə “qvardiya polkovniki” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 may 1919-cu il tarixli 253 №-li əmri ilə Hərbi Nazirliyin Artilleriya idarəsi rəisinin texniki hissə üzrə müavini vəzifəsinin icraçısı təyin

edilib. Hərbi nazirin 20 iyun 1919-cu il tarixli 304 №-li əmri ilə Gürcüstan Respublikasının Hərbi Nazirliyindən hərbi əmlakın alınması üzrə komissiyanın üzvü təyin edilib. 18 mart 1920-ci il tarixdə Hərbi nazirin 159 №-li əmri ilə Artilleriya idarəsində təşkilati-ştat tədbirlərin keçirilməsi ilə əlaqədar Artilleriya idarəsi Ordunun Artilleriya təchizatı idarəsi adlanıb və Ordunun Artilleriya təchizatı idarəsi rəisinin texniki hissə üzrə müavini vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi "qvardiya polkovnik" hərbi rütbəsində Ordunun Artilleriya təchizatı idarəsi rəisinin texniki hissə üzrə müavini vəzifəsində həqiqi hərbi xidmətdə olub.

865. **Poruçik RZABƏYOV** Nəsrulla bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podporuçik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbinin kiçik zabiti vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 16 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 26 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib. 15 fevral 1919-cu il tarixdə isə təkrarən həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 83 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 23 iyun 1919-cu il tarixli 310 №-li əmri ilə hərbi topoqrafiya işinin öyrənilməsi və sonra hərbi topoqrafiya şöbəsində müvafiq vəzifəyə təyin olunması məqsədi ilə Hərbi Nazirliyin Hərbi topöoqrafiya şöbəsinə ezam edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (piyada üzrə)" hərbi rütbəsi verilib. 13 mart 1920-ci il tarixdə Hərbi nazirin 150 №-li əmri ilə xidmət yeri Ordunun Qərargahına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

866. **Praporşik RZA-ZADƏ** Adil Əli

11 mart 1920-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 145 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının zabit heyətinin siyahılarına daxil edilməklə Hərbi dəmiryolçular məktəbinə ezam edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Hərbi dəmiryolçular məktəbində xidməti ezamiyyətdə olub.

867. **Podporuçik RZAYEV** Bahadur

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 1919-cu ilin mart ayının 1-də Cümhuriyyət Hərbi Nazirliyi tərəfindən Naxçıvan qəzasına ezam edilmiş zabit heyətinin tərkibində olub. Naxçıvan bölgəsinə ezam edilmiş zabit heyətinin rəhbəri 2-ci Bakı piyada alayının zabiti podpolkovnik Hüseyn bəy Ququşevin Ümumi Qərargah rəisinə 03 may 1919-cu il tarixli 174 nömrəli raportundan (daxil olan №3846 07.05.1919-cu il) aydın olur ki, Hərbi Nazirlik Naxçıvan bölgəsinə hərbi hissələrin formalaşdırması üçün 01 mart 1919-cu il tarixdə 12 (on iki) zabit ezam edib. Həmin zabitlər Azərbaycan Xalq Cümhuriyyətinin cənub-qərb bölgəsinin Şərur-Naxçıvan qəzası qoşunları komandanı Kərbalayı Xan Naxçıvanskiyə müvəqqəti olaraq tabe edilib. Raportda praporşik Bahadur Rzayevin Şərur qəzasına hərbi hissələrin formalaşdırması üçün təyin edildiyi göstərilir. Raportda praporşik Bahadur Rzayevin Şərur qəzasında xidmət yerində olarkən 04 mart 1919-cu il tarixdə "Daralaqez" erməni partizan

dəstəsinin komandirindən Çiv və Dənzik müsəlman kəndlərinin təslim edilməsi, təslim edilməzsə həmin kəndlərin erməni partizan dəstələri tərəfindən yerlə-yeksan ediləcəyi barədə rəsmi ultimatum aldığı bildirilir. Praporşik Rzayev göstərilən ərazidə olarkən həmin kəndlərin ətrafının nizami erməni hərbi hissələri tərəfindən tutulduğunu görür və həmin gecə 30 (otuz) əsgərlə erməniləri həmin kəndlərə yaxın yüksəklikdən vurub çıxararaq onların Arpa kəndinə çəkilməsinə nail olur. Arpa kəndinin ətrafındakı tutulmuş yüksəkliklərə isə silahlı qaravul qoyur. Bu taktiki maneviri ilə ermənilərin məskunlaşdığı Arpa kənd əhalisinin Azərbaycan Respublikasının cənub-qərb hökəmitini tanımasına nail olur. Raportda həmçinin 11 mart 1919-cu il tarixdə praporşik Rzayevin nəzarət etdiyi rayonun ərazisində nüfüz sahibi olan Məşədi Ələsgərin himayədarlığı altında müsəlman əhalisinin üsyan qalxdığı, elə həmin gün praporşik Rzayevin əsgərlərlə onun kəndini mühasirəyə alması, Məşədi Ələsgəri həbs etməsi, ondan Hökuməti tanıması barədə yazılı iltizam alması və onu həmin kənddə zabit təyin etməsi və bununla da həmin ərazidə sakitliyi bərpa etməsi bildirilir.

Bündan əlavə, podpolkovnik Hüseyn bəy Ququşev raportunda göstərir ki, 17 mart 1919-cu il tarixdə Surmali kürdləri praporşik Rzayevin nəzarətində olan rayondan 800 (səkkiz yüz) baş iri buynuzlu mal-qaranı qaçırdıqları üçün dərhal Naxçıvan bölgəsinə ezam edilmiş digər praporşikləri Sultanovu, Vəkilovu, Usubovu, Şamxalovu və Badırxanovu tabeliyində olan əsgərləri ilə birlikdə praporşik Rzayevə tabe edərək və ondan qaçırılmış mal-qaranın geri qaytarılmasını təmin etməyi əmr etmişdir. Praporşik Rzayev dəstəsi ilə Arazın o biri tayına keçərək silahlı kürdləri təqib etmiş və həyatını riskə ataraq şəxsən onlarla görüşmüş və mal-qaranın geri qaytarılmasına nail olmuşdur. Praporşik Rzayev 10 aprel 1919-cu il tarixdə sərhəd müsəlman kəndi Yaicada olarkən ermənilər onu əsir götürmək üçün həmin kəndi gecə mühasirəyə almış, lakin praporşik Rzayev səhərə yaxın tabeliyində olan 40

(qırx) əsgərlə döyüşlə mühasirədən çıxmış və ermənilərin arxa cinahına keçərək onlara ağır zərbə vuraraq onların geri çəkilməsinə nail olmuşdur. Bu döyüşdə ermənilər döyüş meydanında 10 nəfər əsgərini ölü qoyaraq Xaçik kəndinə geri çəkilmişdirlər. 14 mart 1919-cu il tarixdə ermənilər təkrarən Yaica kəndinə hücuma keçmiş, lakin bu dəfədə 5 nəfər itki verməklə geri çəkilmişdirlər. Bütün yuxarıda göstərilənləri nəzərə almaqla Naxçıvan bölgəsinə ezam edilmiş zabit heyətinin rəhbəri podpolkovnik Hüseyn bəy Ququşev praporşik Bahadur Rzayevə Naxçıvan bölgəsində xidməti ezamiyyətdə olarkən döyüşlərdə fərqləndiyinə görə vaxtından əvvəl "podporuçik" hərbi rütbəsi verilməsi barədə Hərbi Nazirlik qarşısında vəsatət qaldırmışdır.

Naxçıvan və Şərur qəzalarındakı qoşunların komandanı olaraq Kəlbəli Xan Naxçıvanski də praporşik Bahadur Rzayev üçün hazırladığı 23 aprel 1919-cu il tarixli 15 nömrəli attestasiya vərəqində onun Şərur qəzasında qoşunların formalaşdırılmasına cavabdeh təyin edildiyini və vəzifə borclarını vicdanla yerinə yetirdiyini, tabeçiliyində olanlar arasında böyük hörmət sahibi olduğunu bildirməklə onun kimi zabitdən ayrılmasını böyük təəssüflə qeyd etmişdir. Yuxarıda göstərilənləri nəzərə alaraq, Hərbi nazir xüsusi təqdimatla praporşik Rzayev barəsində Nazirlər Şurası Sədrinin qarşısında vəsatət qaldırmış və Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 27 №-li əmri ilə ona döyüşdə fərqləndiyinə görə vaxtından əvvəl "podporuçik (piyada üzrə)" hərbi rütbəsi verilmişdir. Hərbi rütbənin verilməsi Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə elan edilmişdir. 30 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 604 №-li əmri ilə xidmət yeri 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına dəyişdirilmişdir. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

868. **Praporşik RZABƏYOV** Neymətulla

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. 13 mart 1920-ci il tarixdə xidmət yeri Ordu Qərargahına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

869. **Milis praporşiki RİZAYEV** Kərbalay Kərim

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

870. **Milis praporşiki RİZAYEV** Cəfər bəy

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının

komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

871. **Poruçik RİTS**

25 oktyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 495 №-li əmri ilə Mühəndis məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 10 fevral 1920-ci il tarixli 96 №-li əmri ilə 06 fevral 1920-ci il tarixdən Hərbi Nazirliyin Avtomobil hissə rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Hərbi Nazirliyin Avtomobil hissə rəisi kimi həqiqi hərbi xidmətdə olub.

872. **Praporşik RƏHİMOV** Məmməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 26 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 545 №-li əmri ilə Bakı İstehkam rayonunun mövqe batareyasına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.

873. **Podporuçik RƏHİMOV** Məmmədhüseyn

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Astrabad hərbi gəmisi təyin edilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

874. **Podporuçik RƏHİMOV** Mikayıl

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

875. **Kornet RÜSTƏMOV** Paşa

12 may 1895-ci il tarixdə Yelizavetpol quberniyasının Uxaraiplinski kəndində anadan olub. 24 iyul 1914-cü il tarixdə Yelizavetpol qəza hərbi rəisi tərəfindən könüllü həqiqi hərbi xidmətə çağırılıb və Tatar süvari alayına göndərilib. Tatar süvari alayında 05 dekabr 1916-cı il tarixədək atlı vəzifəsində xidmət edib. 05 dekabr 1916-cı il tarixdə "kiçik uryadnik", 15 sentyabr 1917-ci il tarixdə isə "baş uryadnik" hərbi rütbələrinə layiq görülüb. 31 may 1916-cı il tarixdə döyüşlərdə fərqləndiyinə görə "4-cü dərəcəli Georgi xaçı" medalı ilə təltif edilib (№ 1300516). 01 oktyabr 1917-ci il tarixdə "podpraporşik" hərbi rütbəsi verilib. 12 sentyabr 1918-ci il tarixdə Zığ yüksəkliyindəki döyüşlər zamanı zabit çatışmamazlığından süvari bölüyünün komandanlığını öz üzərinə götürüb. Piyada birliklərinin süvari bölmələri ilə birlikdə Hövsan tərəfdən Zığ

yüksəkliyinə hücum zamanı podpraporşik Rüstəmov Suraxanı tərəfdən düşmənin müdafiə cinahına çıxaraq onun müdafiə mövqeyindən çıxmasına nail olmuş və düşməni təqib edərək geri çəkilən düşmən qüvvələrinin ardınca Bakı ərazisinə Qara şəhər tərəfdən girməyə müvəffəq olmuşdur. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrindəki zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podpraporşik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi xidmətdə fərqləndiyinə görə Hərbi nazirin 09 yanvar 1919-cu il tarixli 12 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. 29 mart 1919-cu il tarixdə Hərbi nazirin 156 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının təlim komandasının komandiri vəzifəsinə təyin edilib. Nümunəvi hərbi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "kornet (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

### 876. **Praporşik RÜSTƏMOV** İsgəndər

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və həmin Məktəbin kiçik zabiti vəzifəsinə təyin edilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboruna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda həqiqi hərbi xidmətdə olub.

877. **Podporuçik RÜSTƏMBƏYOV** Baxış

06 dekabr 1918-ci il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və həmin alayın adyutantı vəzifəsinə təyin edilib. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

878. **Praporşik RÜSTƏMBƏYLİ** Həmid

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

879. **Kapitan SADIXBƏY**

19 aprel 1920-ci il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 216 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü

Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

880. **Ştabs-rotmistr SADIXOV** Zeynal bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının Ağdamda dislokasiya edilmiş 4-cü süvari bölüyünün komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 02 dekabr 1918-ci il tarixdə Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov Ağdamda yerləşən bölükdə yoxlama apararkən bölükdəki yüksək nizam-intizama və döyüş hazırlığına görə ona 05 dekabr 1918-ci il tarixli 8 №-li əmri ilə "Təşəkkür" elan edib. Hərbi xidmətdə fərqləndiyinə görə isə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "ştabs-rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

881. **Podporuçik SADIXOV** Aslan Nəsir oğlu

04 aprel 1897-ci il tarixdə Yelizavetpol quberniyasında anadan olub. Yelizavetpol Ali ibtidai məktəbin 4 sinfini bitirib. 17 oktyabr 1917-ci il tarixdə Milli təlim komandasına qəbul edilib. 27 avqust 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində artilleriya ixtisası üzrə birinci dərəcə ilə bitirib və

1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

882. **Praporşik SADIXOV** Məmməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

883. **Praporşik SADIXOV** Lətif Abdulhüseyn oğlu

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

884. **Praporşik SADIXOV** Lətif Zeynalabdin oğlu

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 mart 1920-ci il tarixdə Hərbi nazirin 154 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

885. **Praporşik SADIXBƏYOV** Sadıx

İlkin zabit hərbi rütbəsi alanadək Cümhuriyyət ordusunda könüllü kimi həqiqi hərbi xidmətdə olub. 24 mart 1920-ci il tarixdə Hərbi Məktəbdə sınaq imtahanlarında iştirak edib və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “praporşik (piyada üzrə)” ilkin zabit hərbi rütbəsi verilməklə 1 №-li Zirehli qatar rəisinin sərancamına təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

886. **Ştabs-rotmistr SAQİTOV** Alim Xan

17 dekabr 1918-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li

əmri ilə növbəti “ştabs-kapitan” hərbi rütbəsi verilib. 01 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 551 №-li əmri ilə Süvari diviziyasının qərargahına xidmət yeri dəyişdirilib. Süvari hissələrdə hərbi xidmətdə olduğu üçün diviziya komandirinin vəsatəti ilə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə hərbi rütbəsi süvari qoşunları üzrə “ştabs-rotmistr” hərbi rütbəsinə uyğunlaşdırılıb. Cümhuriyyətin süqutuna kimi “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının qərargahında həqiqi hərbi xidmətdə olub.

887. **Podporuçik SALAMOV** Həsən

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

888. **Polkovnik SALTIKOV**

Milliyəti rus. 06 fevral 1919-cu il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 fevral 1919-cu il tarixli 67 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının Avtomobil hissə rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 437 №-li əmri ilə 16 sentyabr 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

889. **Polkovnik SALİKOV**

Milliyəti rus. 08 iyul 1919-cu il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri

ilə Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 16 avqust 1919-cu il tarixli 359 №-li əmri ilə yeni yaradılan 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun komandiri (briqada komandiri təyin edilənədək briqada komandiri vəzifəsinin müvəqqəti icraçısı həvalə edilməklə) vəzifəsinə təyin edilib. 11 oktyabr 1919-cu il tarixdə öz arzusu ilə Hərbi nazirin 458 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

890. **Ştabs-kapitan SALİYEV** Adil

24 avqust 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının piyada bölük komandiri kimi həqiqi hərbi xidmətdə olub.

891. **Praporşik SALEHOV** Şamil

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayına xidmət yeri dəyişdirilib. 10 aprel 1920-ci il tarixdə Qarabağda

aparılan döyüşlər əməliyyatları zamanı həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

892. **Praporşik SAFİYEV** İdris

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

893. **Praporşik SAFİYEV** Bilal

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə Ümumi Qərargahın Hərbi topoqrafiya şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ümumi Qərargahla Baş Qərargah idarəsi birləşdirilib Hərbi topoqrafiya şöbəsi Ordunun Topoqrafiya şöbəsi adlanıb və xidmət yeri həmin şöbədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Ordunun Topoqrafiya şöbəsində həqiqi hərbi xidmətdə olub.

894. **Podpolkovnik SAMBARSKİ**

09 dekabr 1918-ci il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi məhkəmə hissəsinin rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə 12 yanvar 1919-cu il tarixdən Hərbi Nazirliyin Hərbi məhkəmə hissəsinin rəisi və eyni zamanda Azərbaycan Hərbi Dairə Məhkəməsinin Hərbi prokuroru vəzifəsinin icraçısı təyin edilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il tarixli əmri ilə Hərbi Nazirliyin Hərbi məhkəmə hissəsinin rəisi və eyni zamanda Cümhuriyyət Hərbi Dairə Məhkəməsinin Hərbi prokuroru vəzifəsinə təsdiq olunub. Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 01 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

895. **Ştabs-kapitan SARMASTBƏYOV** Şahmar bəy

09 dekabr 1918-ci il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi rəisi sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 may 1919-cu il tarixdən Hərbi nazirin 255 №-li əmri ilə Hərbi məhkəmənin müvəqqəti üzvü seçilib. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə “ştabs-kapitan (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və Hərbi Məktəbin yünker taborunun komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-kapitan” hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

896. **Ştabs-kapitan SARSİDİS**

19 fevral 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsndə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 may 1919-cu il tarixli 264 №-li əmri ilə 06 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.

897. **Podporuçik SARICALİNSKİ** Qiyas bəy

06 avqust 1899-cu il tarixdə Yelizavetpol quberniyasında zadəgan ailəsində anadan olub. Şuşa Realnı Məktəbinin 5 sinfini bitirib. 18 yanvar 1918-ci il tarixdə Tatar süvari alayında könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 16 iyul 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının adyutantköməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Nümunəvi hərbi xidmətlərinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

898. **Podporuçik SARICALİNSKİ** Məmməd bəy

09 avqust 1900-cu il tarixdə Yelizavetpol quberniyasının Şuşa qəzasında zadəgan ailəsində anadan olub. Şuşa Realnı Məktəbinin 5 sinifini bitirib. 18 yanvar 1918-ci il tarixdə Tatar süvari alayında könüllü kimi həqiqi hərbi xidmətə qəbul edilib. 16 iyul 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbində hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 6-cı piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 my 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.



899. **General-mayor SƏLİMOV** Həbib bəy Hacı Yusif oğlu (Atası Yusif bəy İrəvan quberniyasında məhkəmə iclasçısı olub)

08 fevral 1881-ci ildə İrəvan quberniyasının Naxçıvan qəzasında andan olub. İrəvan Müəllimlər Seminariyası və İrəvan Gimnaziyasını 1-ci dərəcə ilə bitirib. 1900-cu ilin avqustun 12-də orduya könüllü yazılaraq 156-cı Yelizavetpol (Gəncə) piyada alayında 1 il 2 ay hərbi xidmət keçib və kiçik zabit hərbi rütbəsi alıb. 1902-ci ildə Tiflis Piyada Məktəbini bitirdikdən sonra 3-cü Qafqaz atıcı taborunda "podporuçik" rütbəsində həqiqi hərbi xidmətə başlayıb. 1905-ci

ildə tabor komandirinin adyutantı, 1907-ci ildə isə həmin taborda 3-cü piyada bölüyünün komandiri vəzifəsinə təyin olunub. 1907-ci ilin sentyabrında "müqəddəs Vladimir" ordeni ilə təltif edilib. 1908-1910-cu illərdə 5-ci Qafqaz atıcı taborunun tərkibində Naxçıvanın Culfa sərhədində xidmət edib, məxfi tapşırıqla Tehran şəhərinə göndərilib. 1912-ci ildə "kapitan" hərbi rütbəsi alıb. Sank-Peterburqda Baş Qərargahın Nikolayevsk Hərbi Akademiyasını bitirib.

Əlahiddə Azərbaycan Korpusunun Qərərgah rəisi olub. Qafqaz İslam Ordusunun və Azərbaycan qoşunlarını Gəncə şəhərindən Bakı şəhərinədək döyüş yürüşündə Cənub qrupunun komandanı olub. Bu yürüş zamanı avqustun 1-də Ələti, Atbulağı və Nəvaini azad edib. Bu nailiyyətlərinə görə hələ daşnak-bolşeviklərinə qarşı döyüş əməliyyatların davam etdiyi bir zamanda Nazirlər Şurası Sədrinin əmri ilə "polkovnik" hərbi rütbəsinə layiq görülüb.

Qafqaz İslam Ordusu Azərbaycanı tərk etdikdən sonra Cümhuriyyət Hərbi Nazirliyinin bərpasından sonra Hərbi nazirin 15 noyabr 1918-ci il tarixli 2 №-li əmri ilə Ümumi Qərargahın və Hərbi Nazirliyin Dəftərxana rəisi vəzifəsinə təyin edilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 28 fevral 1919-cu il tarixli 4 №-li və Hərbi nazirin 06 mart 1919-cu il tarixli 108 №-li əmri ilə "general-mayor" hərbi rütbəsinə layiq görülmüşdür. 12 avqust 1919-ci il tarixdə Hərbi nazirin 1919-cu ilin 354 №-li əmri ilə Lənkəran dəstəsinin komandanı təyin edilir və avqustun 14-də onun komandanı olduğu dəstə Lənkərana hərəkətə başlamış və yolboyu yerləşən rus kəndlərindən də silahlar toplamışdır. Dəstə avqustun 23-də Lənkərana çatmış və sürətli tədbirlər nəticəsində heç bir müqavimət görmədən qarşıya qoyulmuş vəzifələri yerinə yetirmişdir. Bölgənin qiyamçı rus mənşəli əhalisi tərk-silah edilmiş, polkovnik İlyaşeviçin rəhbərliyindəki rus hərbi qruplaşması təslim olmuşdur. Düşməndən qənimət kimi 1 təyyarə, 24 top və 60 pulemyot

götürülmüşdür. Muğan və Lənkəranı ana yurdu Azərbaycana qaytaran Həbib bəy Səlimov burada qısa müddətdə vali vəzifəsini də icra etmişdir.

Hərbi nazirin 12 sentyabr 1919-cu il tarixli 404 №-li əmri ilə 04 sentyabr 1919-cu il tarixdən Lənkaran qəzasından döyüş ezamiyyətindən qayıtmış hesab edilmişdir. Hərbi nazir 19 sentyabr 1919-cu il tarixdə 420 №-li əmrində general-mayor Həbib bəy Səlimovun komandanlığı altında Cümhuriyyət ordusunun məhdud kontingentinin Lənkəran qəzasında apardığı əməliyyatlara yekun verərkən bunları qeyd etmişdir: “Lənkəran şəhərinin azad edilməsi və həmin ərazilərdə Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinin bərqərar edilməsi və qayda-qanunun yaradılması üçün mənim tərəfimdən 3 qoşun növündən ibarət xüsusi dəstə yaradılaraq general-mayor Səlimovun rəhbərliyi ilə Lənkəran qəzasına göndərilmişdir. Hacıqabuldan Lənkarana və geriyə 430 verst suzsuz yolu isti havada bizim qoşunlarımız 15 gün ərzində itkisiz və xəstəsiz qət etmişdirlər. Yürüş zamanı heç bir hadisə baş verməmiş və yerli əhali incidilməmişdir. Həmin ərazidə olan yaşayış məntəqələrinin yerli əhalisi çox böyük fəxrlə zabit və əsgərlərin nizam-intizamlı hərəkətlərindən razılıq etmişdirlər. Mən şəxsən Lənkəran qəzasına səfərim zamanı buna şahid oldum. Nümunəvi nizam-intizamları və həqiqi hərbi görnüşləri ilə hər kəsdə xoş təəsürrat yaratmışdırlar və zəngin hərbi qənimətlə anarxiyadan əziyyət çəkən Muğan və Lənkəran qəzasını bir damla qan axıdılmadan Azərbaycan Xalq Cümhuriyyətinə qaytarmışdırlar. Bütün bunlar ağıllı, təcürbəli və qoşunların ehtiyacını bilən dəstənin rəisi general-mayor Səlimovun rəhbərliyi sahəsində baş vermişdir. Uğurlu əməliyyatına görə general-mayor Səlimova “Təşəkkür” elan edirəm. Bütün komandir, tibb heyətinə və eləcədə gənc əsgərlərimizə birinci uğurlu döyüş yürüşlərinə görə öz minnətdarlığımı bildirirəm. Əmr bütün bölmələrdə oxunsun”.

10 dekabr 1919-cu il tarixdə general-mayor Həbib bəy Səlimov Hərbi nazirin 568 №-li əmri ilə Korpus komandiri səlahiyyətləri və vəzifə maaşı verilməklə Bakı qarnizonuna daxil edilən hərbi hissələr tabe edilməklə Bakı İstehkam rayonunun rəisi vəzifəsinə təyin edilir. 17 fevral 1920-ci il tarixdə Hərbi nazirin 105 №-li əmri ilə Ümumi Qərargahın yenidən təşkil edilməsi üzrə komissiyanın sədri təyin edilir, elə həmin əmrlə Bakı İstehkam rayonunun rəisi vəzifəsini icra etməklə Cümhuriyyət Ordusunun Baş Qərargah rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilir. 20 fevral 1920-ci il tarixdə isə Hərbi nazir 108 №-li əmri ilə bir daha onun Bakı İstehkam rayonu rəisi vəzifə maaşı saxlanılmaqla Cümhuriyyət Ordusunun Baş Qərargah rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilməsini elan edir. 02 mart 1920-ci il tarixdə Hərbi nazirin 128 №-li əmrinə əsasən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, Baş Qərargah idarəsi Ümumi Qərargah idarəsi ilə birləşdirilərək Ordu Qərargahı yaradılıb. Həmin əmrlə general-mayor Həbib bəy Səlimov Cümhuriyyət ordusunun Ordu Qərargahının rəisi vəzifəsinə təyin edilir.

1920-ci ilin martında isə Qarabağda erməni daşnak qüvvələrinin xain qəfil hücumlarının qarşısının alınması məqsədi "Əsgəran müharibəsi" adı ilə məşhur olan döyüş əməliyyatlarına rəhbərlik edir.

900. **Praporşik SƏLİMOV** Salman

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il

tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

901. **Praporşik SƏLİMOV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəlində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında Hökümətin konvoy bölüyündə "praporşik" hərbi rütbəsində həqiqi həqbi xidmətdə olduğu qeyd edilib. 08 noyabr 1919-cu il tarixdə Hökümətin konvoy bölüyü ləğv edildiyinə görə Hərbi nazirin 26 noyabr 1919-cu il tarixli 545 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi həqbi xidmətini davam etdirmək üçün göndərilir. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

902. **Praporşik SƏLİMXANOV** İbrahim

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri Gəncə Praporşiklər Məktəbi rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və həmin məktəbin kiçik zabiti vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

903. **Podporuçik SEYİDOV** Adil

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə “praporşik” hərbi rütbəsi verilib. 27 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

904. **Kornet SƏMƏNDƏROV** Mir Mehti

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri “kornet” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “kornet” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

905. **Polkovnik** (hərbi mühəndis) **SAVKİN**

Milliyəti rus. 1870-ci ildə anadan olub. Nikolayev Hərbi Mühəndis Məktəbini və Baş Qərargahın Mühəndis

Akademiyasını bitirib. Hərbi Akademiyaya qəbul olmadan öncə Qafqaz hərbi dairəsində 4 il mühəndis taborunda xidmət edib. Hərbi Akademiyanı bitirdikdən sonra əsasən Kars qalasında hərbi və mülki qurğuların tikintisinə və eləcədə su kəmərinə cavabdeh olub. Birinci Dünya müharibəsində Qafqaz cəbhəsində 4-cü sahə üzrə iş icraçısının köməkçisi və Ərzurum mövqesinin mühəndis rəisi vəzifələrində xidmət edib. Xəstəliyi ilə əlaqədar olaraq əvvəlcə Batum və daha sonra Kars qalalarında hərbi xidmətdə olub. Qafqaz cəbhəsinin Mühəndis idarəsinin ixtisarından sonra ştatdan kənar qalıb. 16 noyabr 1918-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Diplomatik nümayəndəliyi vasitəsi ilə Hərbi nazirə Azərbaycan Xalq Cümhuriyyətində ixtisası üzrə və ya kargüzar vəzifəsində belə xidmət etməyə razı olduğunu bildirib. Tiflis şəhərinin Andreyevsk küçəsi ev 10 ünvanında yaşayıb. 19 dekabr 1918-ci il tarixdə Ümumi Qərargahın Növbətçi Generalı polkovnik Qaytabaşının imzası ilə Gürcüstan ordusunun Baş Qərargahının Mühəndis idarəsi rəisi polkovnik Takayşviliyə polkovnik Savkinin tanıyıb tanımaması barədə sorğu göndərilib. Həmin sorğuya əsasən 01 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusunda hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Mühəndis şöbəsi 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlandırılıb və Hərbi Nazirliyin Mühəndis İdarəsinin rəisi vəzifəsinə təsdiq edilib. 16 avqust 1919-cu il tarixdə Hərbi nazirin 359 №-li əmri ilə öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib. Tərxis əmrində Hərbi nazir ona 5 (beş) aydan artıq Cümhuriyyət ordusunda vicdanlı və qüsursuz xidmətlərinə görə “Təşəkkür” elan edib.

906. **Podporuçik SƏMƏDOV** Əziz

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

907. **Praporşik SƏMƏDBƏYOV** Əli Mustafa

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 mart 1919-cu il tarixli 167 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

908. **Praporşik SƏİDOV** Səməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 mart 1919-cu il tarixli 167 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

909. **Praporşik SƏİDBƏYOV** Cəlal

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

910. **Ştabs-kapitan SAVİÇ**

Milliyəti rus. Baş Qərargahın Nikolayev Hərbi Akademiyasının sonuncu kurs dinləyicisi olub. 27 fevral 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 mart 1919-cu il tarixli 110 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahı rəisinin sərancamına ezam edilib. Hərbi nazirin 12 iyun 1919-cu il tarixli 289 №-li əmri ilə Süvari diviziyası qərargahının baş adyutantı vəzifəsinə təyin edilib. 04 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 453 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 01 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

911. **Ştabs-kapitan SERETELİ** Simon Zaxaroviç

Milliyəti gürcü. 01 sentyabr 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. Sənədləri qaydasında olmadığı üçün əmrlə verilməsi gecikdirilib, faktiki olaraq orduda xidmət edib və Xaçmaz dəstəsində mövqelərin möhkəmləndirilməsində iştirak edib və Hərbi nazirin 15 yanvar 1920-ci il tarixli 32 №-li əmrinin birinci paraqrafı ilə 01 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətdə hesab edilib. Hərbi nazirin 15 yanvar 1920-ci il tarixli 32 №-li əmrinin ikinci paraqrafı ilə isə 23 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

03 mart 1920-ci il tarixdə təkrarən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 11 mart 1920-ci il tarixli 148 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının zabit heyətinin siyahılarına daxil edilməklə Mühəndis Məktəbi və Bakı İstehkam rayonunun mühəndis işlərinə cavabdehin sərancamına ezam edilib.

Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Mühəndis Məktəbi və Bakı İstehkam rayonunun mühəndis işlərinə cavabdehin sərancamında olub.

912. **Kapitan SERQEYEV** Vyaçislav Nikolayeviç

Milliyəti rus. Çar ordusunda 129-cü Bessarabiya piyada alayında hərbi xidmətdə olub. 10 may 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 241 №-li əmri ilə Biləcəri dəmiryolu stansiyası komendantının köməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 08 fevral 1920-ci il tarixli 86 №-li əmri ilə 09 fevral 1920-ci il tarixdən Kürdəmir dəmiryolu stansiyasının komendantı vəzifəsinə keçirilib. 30 mart 1920-ci il tarixdə Hərbi nazirin 176 №-li əmri ilə 21 mart 1920-ci il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

913. **Podpolkovnik SEMYONOV**

Milliyəti rus. 30 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 60 №-li əmri ilə Ağstafa dəmir yolu stansiyasının komendantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 23 iyun 1919-cu il tarixli 310 №-li əmri ilə xidməti uyğunsuzluğa görə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

914. **Podpolkovnik SOSXALOV** Konstantin Moiseviç

Milliyəti rus. 28 mart 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 200 №-li əmri ilə 1-ci piyada diviziyasının İntendantı nəzdində tapşırıqlar üzrə baş zabiti vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin

süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində 1-ci piyada diviziyasında həqiqi hərbi xidmətdə olub.

915. **Kapitan SEYİDƏLİYEV** Ağacəfər

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində hərbi hissələr üzrə zabit heyətinin üzləşmə siyahılarında “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 21 mart 1919-cu il tarixdən Süvari diviziyasının 3-cü Şəki süvari alayına xidmət yeri dəyişdirilib. 15 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 32 №-li əmri ilə Ümumi Qərargaha keçirilib. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ümumi Qərargahla Baş Qərargah idarəsi birləşdirildiyi üçün həmin tarixdən xidmət yeri Ordu Qərargahında saxlanılıb. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “kapitan (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

916. **Kapitan SEYİDOĞLU** Məcid

Milliyəti türk. 13 mart 1920-ci il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 13 mart 1920-ci il tarixli 153 №-li əmri ilə 7-ci Ağdaş piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində 7-ci Ağdaş piyada alayında həqiqi hərbi xidmətdə olub.

917. **Praporşik SEYİD-ZADƏ** Mir Davud

1900-cu ildə Yelizavetpol quberniyasında anadan olub. Gəncə Ali ibtidai məktəbində təhsil alıb. 2-ci Müsəlman artilleriya briqadasının tərkibində könüllü olaraq Bakının azad edilməsi uğrunda döyüşlərdə iştirak edib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində artilleriya ixtisası üzrə birinci dərəcə ilə bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

918. **Praporşik SEYİDRZAYEV** Mir Məmməd

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

919. **Polkovnik SEYFFULİN** İsgəndər Mirzə Taşkmuxvled

03 oktyabr 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Ümumi Qərargahın Yerli briqada idarəsi rəisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə 01 mart 1920-ci il

tarixdən Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin Səfərbərlik və yerli qoşunlar şöbəsinin rəisi vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

920. **Podpolkovnik** Knyaz **İDOMONOV-ERİSTOV** Nikolay Levonoviç

Milliyəti rus. Çar ordusunda sonuncu xidmət yeri 16-cı Tver draqun alayında olub. 01 aprel 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 175 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin müavini vəzifəsinə təyin edilib. Hərbi nazirin 23 oktyabr 1919-cu il tarixli 490 №-li əmri ilə isə Süvari diviziyasının qərargah rəisi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Süvari diviziyasının qərargah rəisi kimi həqiqi hərbi xidmətdə olub.

921. **Podpolkovnik SİAMAŞVİLİ** Vladimir Samoyloviç

Milliyəti gürcü. 08 iyul 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-ci il tarixli 323 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 328 №-li əmri ilə isə 5-ci Bakı piyada alayının 2-ci piyada taborunun komandiri vəzifəsinə təsdiq olunub. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podpolkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi

rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 2-ci piyada taboru komandiri kimi həqiqi hərbi xidmətdə olub.

922. **General-mayor** Knyaz **SİSİANOV**

Milliyəti gürcü. 31 iyul 1919-cu il tarixdə "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 iyul 1919-ci il tarixli 344 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisi vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə 03 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

923. **Rotmistr** Knyaz **SİSİANOV** Pavel Nikolayeviç

Milliyəti gürcü. 17 iyul 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş adyutantı vəzifəsinə təyin edilib. 01 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 551 №-li əmri ilə Süvari diviziyasının qərargahına xidmət yeri dəyişdirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Süvari diviziyasının qərargahında həqiqi hərbi xidmətdə olub.



924. **Poruçik** Knyaz **SİSİANOV** Nikolay Davidoviç

Milliyəti gürcü. 13 sentyabr 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və

Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 418 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 5-ci batareya komandiri vəzifəsini icra edib. Hərbi nazirin 26 noyabr 1919-cu il tarixli 545 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 15 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

925. **Kornet** Knyaz **SİSİANOV** Qeorqiy

Milliyəti gürcü. 31 yanvar 1920-ci il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1920-ci il tarixli 77 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

926. **Podporuçik SİLOSANNİ**

Milliyəti gürcü. 09 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Gəncə qəza hərbi rəisi idarəsinin yolasalma məntəqəsinin rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 aprel 1919-cu il tarixli 210 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

927. **Poruçik SİMAKOV** Maqomet Gəray Vəliyeviç

Milliyəti tatar. 01 sentyabr 1919-cu il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul

edilib və Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 433 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin baş adyutantının köməkçisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun General-Kvartirmeyster idarəsinin baş adyutantının köməkçisi vəzifəsinə təsdiq edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordunun General-Kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.

928. **Podporuçik SİNÇİLİYEV** Ömər Xəlil oğlu

Milliyəti tatar. 1892-ci ildə Ryazan quberniyasının Kassiyski qəzasının Podlipok kəndində anadan olub. 22 yanvar 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 11 iyun 1919-cu il tarixdə Hərbi nazirin 285 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib. 20 iyul 1919-cu il tarixdən təkrarən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 23 iyul 1919-cu il tarixli 333 №-li əmri ilə Baş Qərargah idarəsində kiçik zabit vəzifəsinə təyin edilib. 06 mart 1920-ci il tarixdə Hərbi nazirin 131 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Hərbi nazirin 26 aprel 1920-ci il tarixli 223 №-li əmri ilə 18 aprel 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

929. **Polkovnik SEREBRYANNİKOV** Yevqeniy Vasilyeviç

Milliyəti rus. 03 dekabr 1918-ci il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 dekabr 1918-ci il tarixli 23 №-li əmri ilə Hərbi Naziliyin İntendant idarəsinin rəisi vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 164 №-li əmri ilə aşağı vəzifəyə Süvari diviziyasının İntendantı vəzifəsinə keçirilib. 13 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 572 №-li əmri ilə Hərbi Naziliyin İntendant idarəsi rəisinin müavini vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq 02 mart 1920-ci il tarixdən Hərbi Naziliyin İntendant idarəsi Ordunun İntendant idarəsi adlanıb. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Ordunun İntendant idarəsində həqiqi hərbi xidmətdə olub.

930. **Ştabs-rotmistr SEYİDBƏYOĞLU** Emin bəy

01 aprel 1920-ci il tarixdə “ştabs-rotmistr” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 182 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmət yerinə gəlib çıxmadığına görə Hərbi nazirin 26 aprel 1920-ci il tarixli 223 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

931. **Polkovnik SULTANOV** Mehti bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində “podpolkovnik” hərbi rütbəsində Ləki stansiyasındakı artilleriya anbarının rəisi vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 28 iyul 1919-cu il tarixdə təxminən saat

günorta 4 radələrində Ləki stansiyasının Qize zavodunun və Artilleriya anbarının yaxınlığında naməlum səbəbdən biyan köklərinin alışması nəticəsində güclü yanğın baş verir və anbarın şəxsi heyətinin və mülki şəxslərin köməyi ilə yanğın tez bir zamanda söndürülür. Onun rəhbərliyi ilə yanan saraydan artilleriya mərmiləri və partlayıcı maddələr təhlükəsiz yerə çıxarılır. Bununla da dəhşətli partlayışın qarşısı alınır. Göstərdiyi cəzarətə və məharətlə yanğının söndürülməsinə rəhbərliyinə görə Hərbi nazir tərəfindən 11 avqust 1919-cu il tarixdə 352 №-li əmri ilə podpolkovnik Mehti bəy Sultanova "Təşəkkür" elan edir və yanğının söndürülməsində iştirak etmiş hər bir əsgərə 100 (yüz) rubl həcmində pul mükafatı verilməsini əmr edir. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülür. Hərbi nazirin 09 yanvar 1920-ci il tarixli 13 №-li əmri ilə 05 yanvar 1920-ci il tarixdən 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının komandiri vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

932. **Ştabs-rotmistr SULTANOV** Məhəmməd

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 09 mart 1919-cu il tarixli 118 №-li əmri ilə 06 mart 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

933. **Rotmistr SULTANOV** Səlim bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "rotmistr (süvari üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 01 yanvar 1920-ci il tarixli 12 №-li əmri ilə yeni yaradılan Kürd süvari divizionunun komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Kürd süvari divizionunun komandiri kimi həqiqi hərbi xidmətdə olub.

934. **Podporuçik SULTANOV** Nəsirağa Müseyibağa oğlu

09 may 1892-ci il tarixdə Yelizavetpol quberniyasının Krixlı kəndində anadan olub. Yelizavetpol Mixayılovsk Peşə məktəbində təhsil alıb. 22 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində ikinci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin alayın 6-cı piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 29 aprel 1919-cu il tarixli 225 №-li əmri ilə növbəti "praporşik" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi

nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

935. **Poruçik SULTANOV** Adil Əsgər bəy oğlu

1900-cu ildə Yelizavetpol quberniasında zadəgan ailəsində anadan olub. Gəncə Kişi Gimnaziyasının 6 sinfini bitirib. 05 yanvar 1918-ci il tarixdə həqiqi hərbi xidmətə Müsəlman ehtiyat süvari alayında 1-ci dərəcəli könüllü kimi qəbul edilib. 07 mart 19180ci il tarixdə "kiçik uryadnik" hərbi rütbəsinə layiq görülüb. 25 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və Gəncə Podpraporşiklər Məktəbində həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında təlim komandasının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin göstərişinə əsasən podpolkovnik Əlibəyov tərəfində 3-cü Gəncə piyada alayında qəfil daxili xidmətin aparılması yoxlanılması zamanı yalnız podpraporşik Sultanovun komandiri olduğu komandada nizam-intizam və daxili xidmət təqdirəlayiq olduğuna görə Hərbi nazir xidməti vəzifəsinin icrasına vicdanla yanaşdığına görə podpraporşik Sultanovun vaxtından əvvəl növbəti hərbi rütbəyə təqdim olunması barədə göstəriş vermiş və onun doğma vətən üçün xidmətinin digərlərinə nümumə kimi göstərilməsini tövsiyyə etmişdir (Hərbi nazirin 20 mart 1919-cu il tarixli 137 №-li əmri). Hərbi nazirin 22 mart 1919-cu il tarixli

139 №-li əmri ilə növbəti “praporşik” hərbi rütbəsinə layiq görülüb. Hərbi xidmətdə fərqləndiyinə görə isə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə vaxtından əvvəl “poruçik (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında təlim komandasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

936. **Praporşik SULTANOV** Saleh

05 may 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

937. **Praporşik SULTANOV** Xosrov

24 arpel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini “praporşik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

938**. Podporuçik SULTANOV** Yisif

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri

ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

939. **Podporuçik SULTANOV** Daraq

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Hərbi Məktəb rəisinin sərancamında saxlanılıb. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

940. **Ştabs-rotmistr SULTANOV** Zülfiqar bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşdirilmə siyahılarında “poruçik” hərbi rütbəsində sabiq Azərbaycan Korpusu komandirinin adyutantı kimi sərancamda olduğu qeyd edilib. Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə Hərbi nazir müavinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il tarixli və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə vaxtından əvvəl “ştabs-rotmistr (süvari üzrə)” hərbi rütbəsi verilib. Xidməti zərurətlə əlaqədar olaraq Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 314 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının 1-ci süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının 1-ci süvari bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

941. **Podporuçik SULTANOV** Məhərrəm

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

942. **Podporuçik SULTANOV** Musa

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci Piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.



943. **Podporuçik SULTANOV** Fruddin

(Türkiyə Cümhuriyyəti ordusunda **Firudin bəy Daryalı** kimi tanınıb)

1900-cu ildə Laçın qəzasının Təzəkənd kəndində anadan olub. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 18 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 535 №-li əmri ilə 08

noyabr 1919-cu il tarixdən Qarabağ General Qubernatorunun sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün ezam edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb.

Podporuçik Fruddin Sultanov 1920-ci ilin iyun ayında Qarabağ üsyanında yaxından iştirak edib. Üsyandan sağ qurtulan hərbi hissələrin qalıqları ilə İran üzərindən Türkiyəyə keçir və Türkiyə ordusunun tərkibində Azərbaycan alayının bölmələri ilə qurtuluş savaşında iştirak edir. 1920-ci ilin payızından başlayaraq, 1921-ci ilin əvvəllərinə qədər şərqi Anadolunun ermənilərdən təmizlənməsiylə sona çatan “Şərq hərəkatı”nda igidliklə vuruşur. Sarıqamışın, Kağızmanın, Qarsın, İğdırın və Gümrünün geri alınması əməliyyatlarında iştirak etmiş, bu döyüşlərdə yaralanaraq qazi ünvanı almışdır.

Bəzi mənbələrdə onun Kazanda hərbi təhsil alması ilə bağlı verilən məlumatlar yanlışdı. Çünki, Fruddin Sultanov 1918-ci ilin yazında Gəncədə fəaliyyətə başlayan Gəncə Podpraporşiklər Hərbi məktəbinin ilk məzunlarından biridir. Eyni zamanda onun adının “Fərman” olması ehtimalı da düzgün deyildir. General Səməd bəy Mehmandarovun şəxsi heyət üzrə əmrlərində onun adı “Firuddin” kimi keçir. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Qarabağ General Qubernatorunun sərancamında həqiqi hərbi xidmətdə olub.

944. **Praporşik SULTANOV** İsgəndər

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 17 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 33 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayına

xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

945. **Praporşik SULTANOV** Fərhad

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 2-ci piyada taborunun 6-cı piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.



946. **General-leytenant SULKEVİÇ** Məmməd bəy (Masey) Aleksandroviç

Milliyətcə polşa tatarı olub və 20 iyun 1865-ci ildə Nekruşany məçidindəki qeydiyyata görə vaxtilə Polşa ərazisində yerləşmiş Kemeyşi malikanəsində anadan olmuşdur. Onun atası Aleksandr Sulkeviç Qusar alayında “polkovnik” hərbi rütbəsində xidmət edib. İlk hərbi təhsilini Məmməd bəy (Masey) Sulkeviç Voronej Kadet Korpusunda və Peterburqdakı Mixaylov Artilleriya Məktəbində əldə etmişdir. Çar ordusunda zabit kimi həqiqi hərbi xidmətə 1886-cı ildə başlamışdır. Hələ 30 yaşı belə olmadığı halda 1894-cü ildə Rusiya İmperiyasının Baş Qərargahının Hərbi Akademiyasının bitirir. 1910-cu ildə “general-mayor”, 1915-ci ildə isə “general-leytenant” hərbi rütbələrinə layiq görülür.

1900-1901-ci illərdə Rus-Çin və 1904-1905-ci illərdə isə Rus-Yapon müharibələrində iştirak edir. Rus-Yapon müharibəsində general Səməd bəy Mehmandarovla və Əliağa Şıxlinski ilə tanış olur. Birinci Dünya müharibəsində isə, öncə korpusun qərargah rəisi daha sonra isə Şimal cəbhəsinin 3-cü piyada diviziyasının və 37-ci piyada korpusunun komandiri vəzifələrində xidmət edir.

Fevral inqilabından sonra, 1917-ci ilin iyulunda Kazanda Rusiya müsəlmanlarının qurultayında yaradılan "Əsgəri Şuraya" rəhbərlik etmiş və Müvəqqəti hökümətin qərarı ilə Rumınya cəbhəsində olan hərbi hissələrdən üç diviziya tərkibli "Müsəlman Korpusunun" yaradılmasına başlamış və həmin korpusun komandiri vəzifəsinə təyin edilmişdir. Qeyd etmək lazımdır ki, həmin korpusun komandir heyəti əsasən polşa tatarlarından təmsil olunurdu.

General-leytenant Məmməd bəy Sulkeviç 1918-cu ilin son aylarına kimi Krımda yaradılmış yerli hökümətin baş naziri, eyni zamanda müdafiə və daxili işlər naziri kimi fəaliyyət göstərmişdir. Könüllü Ordunun Krımı işğalından sonra oranı tərk etmiş və Azərbaycana pənah gətirmişdir.

Tam artilleriya generalı Səməd bəy Mehmandarov Çar ordusunda yaxşı tanınan və savadlı türk-müsəlman əsilli hərbiçilərin Cümhuriyyət ordusuna cəlb edilməsini daimi diqqət mərkəzində saxladığına gğrə hələ rus-yapon müharibəsindən tanıdığı generalı böyük məmuniyyətlə Cümhuriyyət ordusuna dəvət etmişdir. Cümhuriyyət ordusunun Baş Qərargah rəisi vəzifəsinin təsis edilməsi ilə bağlı Hərbi nazir Səməd bəy Mehmandarov Hökümətə ünvanladığı məktubda göstərirdi ki, qoşun hissələrin təlim-tərbiyəsi, ordunun müharibəyə hazırlaşdırılması ilə gündəlik cari məsələlərin, təsərrüfat problemlərinin bir orqanda yəni həmin dövürdə mövcüd olan Ümimi qərargahda birləşdirilməsi gözlənilən nəticəni vermir. Ordu böyüdükcə onun təsərrüfat məsələləri, təchizat və təminat qayğıları da artır. Onların həlli xeyli vaxt apardığından ordunun

təşkili, döyüş hazırlığının lazımi səviyyədə aparılması üçün kifayət qədər vaxt ayırmaq mümkün olmur. Belə bir boşluğun aradan qaldırılması üçün Baş Qərargahın təsis edilməsini məqsədəuyğun hesab edirdi. O, qeyd edir ki, belə bir strukturun yaradılmamasına səbəb indiyədək hazırlıqlı kadrın olmaması idi. Hərbi nazir hökümətə ünvanladığı məktubunda əlavə edirdi ki, üç müharibə iştirakçısı, təcürbəli hərbiçi general-leytenant Məmməd bəy Sulkeviçin Azərbaycana gəlişi belə bir strukturun təşkili üçün imkan yaratmışdır. Məhz bu səbəbdən, general-leytenant Məmməd bəy Sulkeviçinin Cümhuriyyət ordusunun Baş Qərargah rəisi vəzifəsinə təyin edilməsi barədə Hökümət qarşısında vəsatət qaldırır. Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarovun 26 mart 1919-cu il tarixli 147 nömrəli əmri ilə general-leytenant Məmməd bəy Sulkeviç 19 mart 1919-cu il tarixdən Ordunun Baş Qərargah rəisi vəzifəsinin icrasına buraxılır və həmin tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmiş hesab edilir. Cümhuriyyət ordusuna qəbul olunma əmrində general Sulkeviçin adı Məmməd bəy kimi keçir, ona görədə onun Cümhuriyyət ordusuna qəbul olunmadan öncə Masey adını dəyişərək Məmməd bəy adını götürdüyünü ehtimal etmək olar. Həmin əmrin 2-ci və 4-cü paraqrafları Baş Qərargaha General-kvartirmeystr, Hərbi-topoqrafiya, Qoşunların daşınması üzrə idarənin, Rabitə və Avtomobil hissəsinin tabe edilməsi barədədir. 3-cü paraqrafda isə Baş Qərargaha qoşunların təşkili, təlimi və dislokasiya edilməsi kimi əlavə vəzifələr həvalə edilir. Eyni zamanda həmin əmrlə Baş Qərargah rəisinin Hərbi Şuraya üzv seçildiyi göstərilir.

General Məmməd bəy Sulkeviç öncə vəzifənin icrasına buraxılmış və elə Hökümətin qərarı ilə Baş Qərargahın ştatının təsdiqi ilə 26 mart tarixindən həmin vəzifəyə təsdiq olunmuşdur. Hərb nazirinin 28 mart 1919-cu il tarixli 157 nömrəli əmri ilə Baş Qərargahın ştatının elan edilməsi ilə Baş Qərargahın tabeliyində olan idarələrin tabeliyində olan bölmələr bir daha

açıqlanmışdır. Baş Qərargaha tabe olan General-kvartirmeystrə operativ-səfərbərlik, nizami və hesabat hissələrin, kəşfiyyat və əks-kəşfiyyat, rabitə bölməsinin daxil olduğu göstərilirdi. Hərbi nazir eyni zamanda hərbi attaşeliyin idarə edilməsini də Baş Qərargahın tabeliyinə vermişdir. Məhz, Məmməd bəy Sulkeviçin Cümhuriyyət Ordusuna qəbul edilməsindən dərhal sonra ordunun "düşünən beyni" formalaşdırılmışdır. Həmin tarixədək bu vəzifələr qismən də olsa, Ümumi Qərargahın rəisi general-mayor Həbib bəy Səlimov tərəfindən icra edilmişdir.

General-leytenat Məmməd bəy Sulkeviçin Baş Qərargah rəisi vəzifəsinə təyin edilməsi ordu hissələrinin formalaşmasına, quruculuq işlərinin sürətinə və keyfiyyətinə böyük təsir göstərmişdir. 2-ci Bakı piyada və 3-cü Şəki süvari alaylarının formalaşdırılması və təşkili tezliklə başa çatdırılmışdır. 1919-cu ilin yazından və yayından başlayaraq isə Azərbaycanın şimal sərhədləri boyunca formalaşan Denikin təhlükəsinin qarşısının alınması üçün müdafiə tədbirlərinin həyata keçirilməsində də Baş Qərargah rəisi kimi onun xüsusi rolu olmuşdur. Arxiv sənədlərdən aydın olur ki, həmin dövrlərdə həyata keçirilən bir çox əsaslı müdafiə tədbirlərinin müəllifi general Sulkeviçdir. 1919-cu ilin iyulun 8-də Hərbi nazirə ünvanladığı raportda general-leytenant Məmməd bəy Sulkeviç şimal sərhədləri ilə bərabər Bakınında dənizdən qorunmasına xüsusi diqqət yetirilməsini vacib saymışdır. Həştərxandan Könüllü ordunun və bölşeviklərin dəniz qüvvələrinin istənilən vaxt Bakıya desant ata biləcəyini qeyd edərək müdafiə üçün yerləşdirilmiş topların yetərli olmadığını və bu məqsədlə bir sıra tədbirlərin dərhal həyata keçirilməsini lazım bilmişdir. Onun göstərdiyi tədbirlər aşağıdakılardan ibarət idi: 1) Dənizin müdafiəsi, 2) dənizdən şəhərin həndəvərinin artilleriya müdafiəsinin təşkil edilməsi, 3) İngilislərin getməsi ilə əlaqədar dənizdəki ticarət limanları Yollar Nazirliyinin sərancamına keçməsi ilə əlaqədar Hərbi nazirliyin strateji xarakterli məsələlərini nəzərə almaqla bütün hərbi dəniz məsələlərinin Hərbi nazirliyin əlində cəmlənməsini.

Bu tədbirlərin yerinə yetirilməyəcəyi təqdirdə şimal sərhədi, cəbhənin sağ cinahı və arxası dənizdən təhlükəyə məruz qala biləcəyinin qeyd etmişdir. General Sulkeviçə görə dənizin müşahidəsinin təşkili həm sahil kəşfiyyatı, həm də üzən vasitələrlə əldə edilməli idi.

Təklif edilirdi ki, İngilislərin "Qars", "Ərdahan" və "Göy Təpə" hərbi gəmilərinin Azərbaycan tərəfinə verməsini gözləmək olmaz və Yollar Nazirliyinin təklif etdiyi 2 ədəd paroxodun alınmasını, toplar və pulemyotlar quraşdırılmaqla onların döyüş imkanının artırılmasını və onların heyətinin azərbaycanlılarla komplektləşdirilməsi təmin edilsin. General həmçinin şəhərin həndəvərinin artilleriya ilə müdafiə edilməsini və bununla da Bakı ətrafında peyda olmuş düşmən gəmilərindən müdafiə olunmasının mümkün olduğunu bildirirdi. O, bildirirdi ki, Bakının dəniz kənarında yerləşməsinin xüsusiyyətləri onu etibarlı çarpaz top atəşləri ilə müdafiə etmək imkanı verir. Onun fikirincə Bayıl, Zığ və Nargin adasında yerləşdirilmiş toplar şəhərin müdafiəsini xeyli gücləndirə bilərdi. Bunun üçün O, Gürcüstandan iri çaplı sahil toplarını almaqla nəinki şəhərin hətta dəniz kənarında yerləşən digər məntəqələrin və hətta sahil boyunca uzanan dəmir yolu xəttinin də mühafizəsinin təşkil etməyin mümkün olacaqğını bildirirdi.

1919-cu ilin avqust ayında ingilislərin Bakını tərk etməsi və şimaldan gələn təhlükənin artması ilə əlaqədar general Sulkeviç 2-ci piyada diviziyasının komandirinə göndərdiyi teleqramda bildirirdi ki, Bakı şəhərinin şimal tərəfdən qorunması həmin diviziyanın piyada alaylarına tapşırılacaqdır və onlara əlavə olaraq 5 minlik partizan dəstəsi veriləcəkdir. General Sulkeviç Cümhuriyyət ordusunda nizamnamələrin təkmilləşdirilməsi sahəsində də xüsusi rol olmuşdur. Belə ki, hərbi hissələrdə döyüş hazırlığının təşkili ilə yaxından tanış olduqdan sonra, 1919-cu ilin aprel ayının 12-də Hərbi nazirə yazdığı raportda qoşunların təlim-tərbiyəsinin qurulmasında rus ordusundan qalma nizami, piyada, süvari, topçu və çöl nizamnamələrinin,

habelə piyada və topçular üçün atış təlimatlarının yenilənməsini və yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsinin vacib olduğunu bildirirdi. General-leytenant Sulkeviç öz raportunda yazırdı ki, "bizim əsgərlərimizin öyrədilməsindəki çətinliklərin həlli əyani nümayiş, praktiranın nəzəriyyəyə görə üstünlük təşkil etməsini tələb edir". Nizamnamələrin təkmilləşdirilməsi ilə əlaqədar general-leytenant Sulkeviç təklif edirdi ki, üç komissiya yaradılsın. Birinci piyada komissiyası, bu komissiya piyadalar üçün sıra və atış nizamnamələrini, ikinci komissiya süvari komissiyası, bu komissiya isə süvari nizamnaməsinin təkmilləşdirməli idi. Nəhayət üçüncü komissiya, bu komissiya ümumi komissiya adlanacaqdır və həmin komissiyanın üzvləri bütün qoşun növlərinin nümayəndələrini təmsil etməli idilər. Birinci komissiyaya 2-ci piyada diviziyasının komandiri general-mayor İbrahimağa Usubovu, ikinci və üçüncü komissiyaya isə Süvari diviziyasının qərargah rəisi general-mayor Amaşukelinin sədr təyin edilməsinin təklif etmişdir. O, bildirirdi ki, nizamnamələrin məzmunu yalnız döyüş hazırlığına ictiqamətləndirilməlidir.

General-leytenant Sulkeviç həmçinin ingilislərin Bakıda olmaqlarından yararlanaraq Hərbi nazirlə razılaşdırdıqdan sonra ingilis komandanlığı ilə ingilis toplarından Cümhuriyyət ordusunun hərbi qulluqçularının topçu işinin öyrənilməsinə kömək göstərilməsi üçün danışıqlar aparmış və razılıq alındıqdan sonra topların öyrənilməsi üçün 2-3 zabitin rəhbərliyi ilə 50-80 nəfərlik qrupların yaradılmasını məqsədəuyğun hesab etmiş və bu kurslara şəxsi heyətin cəlb edilməsi üçün hərbi hissə komandirlərinə göstəriş vermişdir.

Generalın Cümhuriyyət ordusu üçün gördüyü digər mühüm işlərindən biri də vəzifəyə təyin edildiyi gündən ölkənin səfərbərlik planının hazırlanması ilə məşğul olması idi. Belə bir tapşırıq ona Hərbi nazir tam artilleriya generalı Səmədbəy Mehmandarov tərəfindən verilmişdir. Onun 1919-cu ilin aprel ayının 8-də Hərbi nazirə yazdığı məruzədə səfərbərliklə bağlı

maraqlı təkliflər verdiyini görmək olar. General bildirirdi ki, səfərbərliklə bağlı müvafiq hüquqi bazanın olmaması müəyyən çətinliklər yaradır. O, səfərbərlik planının hazırlanması üçün Cümhuriyyətin Tiflisdəki hərbi attaşesinə "Səfərbərlik təlimatı"nın əldə edilib göndərilməsinə dair tapşırığın verdiyini bildirir və hazırkı durumda səfərbərlik məsələsinin aşağıdakı formada həll edilməsini təklif edirdi. Onun fikirincə səfərbərlik edilən vaxt silah gəzdirməyi bacaran bütün müsəlman əhalisinin çağrışa cəlb edilməsidir. Səfərbərlik elan edilən vaxt səfərbərliyə cəlb edilənlər yaxınlıqdakı hərbi hissələrə gələrək hərbi vəziyyət dövrü üçün nəzərdə tutulan ştatı tamamlamalı və əyər səfərbərliyə cəlb edilənlərin sayı hissənin ştatından çox olardısa onda onlar malik olduqları silahın və atların miqdarına görə könüllü partizan dəstələrində birləşməli idirlər. Belə bir prinsipi rəhbər tutması Sulkeviçin fikrincə hüquqi bazası olmadığı bir vaxtda səfərbərliyin daha asan həyata keçirilməsinə zəmin yarada bilməsi idi. Onun təklifinə görə səfərbərliyə cəlb edilənlər öz paltarlarında, silahları və varsa atları ilə gəlməli idilər. Hərbi hissələrin ştatlarından artıq olan səfərbərliyə cəlb edilmiş əhalidən isə partizan dəstələrinin yaradılması və onların nizami hərbi hissələr ilə döyüş əməliyyatları zamanı əlaqələrinin qurulması sahəsindəki işlərin görülməsini vacib sayırdı. Məhz bunun nəticəsi olaraq, 1919-cu ilin iyul ayının 11-də Hərbi Nazirliyin Hökümətə göndərdiyi təklifə əsasən həmin ilin 18-23 iyul tarixlərində Hökümət tərəfindən geniş müşavirə keçirildi və partizan dəstələrinin yaradılması və onların maliyyələşdirilməsi barədə təkliflər qəbul olundu. General Sulkeviçin bununla əlaqədar Gəncə, Xankəndi, Zaqatala qarnizon rəislərinə, Xaçmaz dəstəsinin komandirinə, Qarabağ və Qazax general qubernatorlarına və Bakı Möhkəmləndirilmiş istehkam hissəsinin rəisinə teleqramlar göndərərək süvari və piyada partizan dəstələri üçün səfərbərliklə bağlı siyahıların dəqiqləşdirilməsini tələb və xahiş etmişdir. General həmçinin partizanlarla sınaq toplanışlarının keçirilməsini vacib saymış və

bununla əlaqədar Hərbi nazirin qarşısında vəsatət qaldırmışdır. Bunun nəticəsi olaraq, 1919-cu ilin noyabr ayında Dövlət Müdafiə Komitəsində partizanların səfərbərliklə toplanması məsələsi müzakirə olunmuş və mühüm qərarlar qəbul edilmişdir. General-leytenant Məmməd bəy Sulkeviçin rəhbərliyi altında Baş Qərargah tərəfindən ümumi səfərbərlik elan edildiyi təqdirdə dəmir yol xətlərinin qorunması haqqında təlimat da hazırlanmışdır. Təlimata uyğun olaraq, Azərbaycan dəmir yolu xətləri beş sahəyə bölünmüşdür: Poylu-Qovlar, Qovlar-Yevlax, Yevlax-Hacıqabul, Hacıqabul-Biləcəri-Bakı, Biləcəri-Samurçay. Təlimatda həmçinin bütün dəmir yolu xətti, habelə Şollar su kəməri mövcud olan dəmir yolu mühafizə bölmələri tərəfindən qorunmalı olduğu göstərilirdi. General Məmməd bəyin Cümhuriyyət ordusu üçün Hərbi dəmiryolçular məktəbinin yaradılmasında da böyük əməyi olmuşdur. Həmin məktəbin yaradılması və 10 avqust 1919-cu il tarixdən fəaliyyətə başlaması Hərbi nazirinin 390 nömrəli 04 sentyabr 1919-cu il tarixli və 07 oktyabr 1919-cu il tarixli 459 nömrəli əmrləri ilə qey edilmişdir.

General Məmməd bəy həmin dövürlərdə bölşeviklərin və digər xarici düşmənlərin orduya sızma imkanlarının və təxribatlarının qarşısının alınması məqsədi ilə kəşfiyyat və əks-kəşfiyyata cavabdeh bir qurumun rəisi kimi bir sıra qabaqlayıcı tədbirlərin görülməsində də böyük rolu olmuşdur. Onun vəzifəyə təyin olunmasından dərhal sonra 1919-cu ilin mart ayının 31-də Cümhuriyyətin Daxili İşlər Nazirinin müavini general-mayor Ağabəyova yazdığı məktub buna sübutdur. O, yazırdı ki: “1919-cu il aprelin 5-də qoşun hissələrinin Bakıya gəlməsi ilə bağlı olaraq, Hərbi nazir şəhərdə əks-kəşfiyyat işinin təşkil etməyi əmr etmişdir. Bu məqsədlə yasovul Yusifov Daxili İşlər Nazirliyi orqanlarına ezam olunur. Yasovul Yusifov əks-kəşfiyyat orqanları ilə Daxili İşlər Nazirliyi orqanları arasında bir əlaqə yaradacağı qeyd edilir və bildirirdi ki, Bakı şəhərində casus şəbəkəsinin mövcudluğu şübhə doğurmadığı bir

vaxtda onlara qarşı mübarizə işini ruslara və ermənilərə tapşırmaq olmaz. Bu məsul işə yalnız türk xalqlarının nümayəndələri cəlb edilməlidirlər”. Həmin məktubu general belə bitirmişdir: “Güman edirəm ki, Siz də bu fikirdəsiniz ki, biz hər ikimiz vətən naminə bu vacib işi qətiyyətlə həll etməliyik. Bu iş respublika naminə elə sonsuz sədaqət tələb edir ki, onu heç bir pulla almaq mümkün deyil”. Generalın rəhbərliyi altında istər erməni qoşunlarının, istərsə də Denikin qoşunlarının fəaliyyətləri və planları barədə məlumat toplamaq üçün təşkil edilən kəşfiyyat kifayər qədər səmərəli işləmişdir. Bunun nəticəsi idi ki, Cümhuriyyətin istiqlaliyyəti üçün təhlükə törədən qüvvələrin hərəkətləri və niyyətləri barədə Hərbi Nazirliyin əlində zəruri məlumatlar olmuşdur. General Məmməd bəy Sulkeviç bütün varlığı ilə hərbiçi idi, öz peşəsinə kifayət qədər bələd olan bir şəxs idi və hərbiçilərdən də ancaq öz xidməti vəzifələri ilə məşğul olmağı tələb edirdi. General hərbi hissə komandirlərindən təkidlə tələb edirdi ki, hər cür siyasibazlıqdan uzaq olsunlar və yalnız öz vəzifə borclarının icrası ilə məşğul olsunlar. Onun 4-cü Zaqatala piyada alayının komandiri polkovnik Dibirova ünvanladığı teleqram bunu bir daha sübut edir. General Sulkeviç yazırdı: “Hər vasitə ilə siyasətə qoşulmaqdan uzaq olun. Bunun üçün başqa orqanlar mövcuddur. Böyük həcimli məktublar göndərməklə teleqrafı yükləməyin. Vacib və cıxılmaz hallarda baş verənlərin qısa mahiyyətini çatdırın”. Bunun nəticəsi olaraq, onun tərəfindən hazırlanan və ordunun istifadəsinə verilən, Hərbi nazirin 12 oktyabr 1919-cu ildə 466 nömrəli əmri ilə qüvvəyə minmiş «Məxfi sənədlərin tərtib edilməsi, icrası və göndərilməsi qaydaları haqqında» təlimatı nümunə göstərmək olar.

Generalın Cümhiriyyət ordusu üçün ən böyük xidmətlərindən biri də Gürcüstanla bağlanan hərbi sazişin ərsəyə gəlməsi olmuşdur. Bu səbəbdən general dəfələrlə Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarovla və ya ayrılıqda Gürcüstanın Tiflis şəhərində xidməti ezamiyyətlərdə

olmuşdur. Hərbi nazirinin 11 iyul 1919-cü il tarixli 285 nömrəli, 19 oktyabr 1919-cu il tarixli 488 nömrəli, 10 noyabr 1919-cu il tarixli 519 nömrəli və 15 dekabr 1919-cu il tarixli 576 nömrəli əmrləri onun Gürcüstana xidməti ezamiyyətləri barədədir. Şübhəsiz ki, bu səbəbdən 1919-cu ilin iyunun 16-da iki ölkə arasında imzalanmış hərbi sazişi Cümhuriyyətin Xarici işlər naziri Məmmədyusif Cəfərov, Hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarov ilə yanaşı general-leytenant Sulkeviçdə imzalamışdır. Tiflisidə imzalanmış üç il müddətinə on maddəli həmin sazişin əsas mahiyyəti respublikaların hər hansı birinə xarici müdaxilə olacağı halda digər respublika ona mümkün hərbi köməyi göstərməsi idi. Bu sazişin imzalanması həmin dövürdə Cümhuriyyət Hökuməti, habelə siyasətçilər tərəfindən son dərəcə yüksək qiymətləndirilmişdir. Sazişdən əlavə, iki dövlət arasında hərbi-texniki əməkdaşlıq haqqında sənəd də imzalandı. Həmin sənədə müvafiq olaraq, Gürcüstan həm hərbi-texnika və sursat baxımından, həm də kadrların hazırlanması baxımından Azərbaycana dəyərli kömək göstərməsini öz öhdəsinə götürdü. İki ölkə arasında hərbi əməkdaşlığın uğurlu davamı kimi 1920-ci il yanvar ayının 20-də təsis edilmiş Azərbaycan-Gürcüstanın müştərək Hərbi Şurasına Hərbi nazirin müavini general-leytenant Əliağa Şıxlınski ilə yanaşı Baş Qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviçdə seçilmişdi.

General-leytenant Məmməd bəy Sulkeviç Baş Qərargah rəisi kimi xidmətə başladığı aylardan Qarabağda vəziyyəti daimi nəzarət altında saxlamışdır. 1920-ci ilin yanvarında Qarabağda vəziyyət mürəkkəbləşəndə özü də bölgəyə gəlmiş Ağdama iki ədəd zirehli avtomobil göndərmişdir. Vəziyyətlə tanış olduqdan sonra bölgədə hərbi texnikanın sayının artırılmasını məqsədəuyğun hesab etmişdir. O, həmçinin Qarabağın müdafiəsi üçün Qarabağın özündə əlavə kürd dəstələrinin yaradılması ideyasının da müəllifidir. O, vaxtı ilə Türkiyədə yaradılmış olan kürd qeyri-nizami alayların nümunə gətirərək

Qarabağda yaşayan yüksək hərbi keyfiyyətlərə malik kürd əhalisindən istifadə edilməklə süvari və piyada hissələrin yaradılmasını mümkün hesab etmişdir. General Məmməd bəyin bu təklifi Hərbi nazir Səməd bəy Mehmandarov tərəfindən bəyənilmiş və 1920-ci ilin əvvələrində Hərbi nazirin əmri ilə Kürd atıcı taborunun və Süvari divizionunun yaradılması barədə müvafiq əmr verilmişdir. Hətta Hərbi Məktəb yenidən təşkil olunarkən orada Kurd bölməsinin yaradılması Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 507 nömrəli əmri ilə təsdiq edilmişdir.

Generalın Cümhuriyyət ordusunda göstərdiyi xidmətlər və sədaqət Hərbi nazir tam artilleriya generalı Səmədbəy Mehmandarov tərəfindən daimi yüksək qiymətləndirmişdir. 1919-cu ilin 18 sentyabrında Parlamentdə hərbi qulluqçuların vəzifə maaşlarında Baş Qərargah rəisi üçün 6225 rubl təsdiq olunmasına baxmayaraq, Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov 21 sentyabr 1919-cu il 422 nömrəli əmri ilə vəzifə maaşlarını elan edərkən əmrdə «şəxsən Sulkeviç üçün» yazmaqla daha yüksək, Nazir müavinin vəzifə maaşı qədər maaş verməsini göstərmişdir.

General-leytenant Məmməd bəy Sulkeviç Hərbi nazirin 17 fevral 1920-ci il tarixli 105 nömrəli əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis olunmuşdur. Cümhuriyyətin müdafiə qüdrətinin möhkəmləndirilməsi üçün çox dəyərli xidmət göstərmiş Məmməd bəy Sulkeviçin ordudan nə səbəbdən tərxis olunması Cümhuriyyət ordusunun bu günə kimi açılmamış qaranlıq səhifələrindən biridir. Ancaq general Sulkeviç ordudan ayrıldıqdan sonra Azərbaycanı tərk etməmiş Cümhuriyyət Hökümətinin çox məsul tapşırıqlarını yerinə yetirmişdir. O, Nazirlər Şurası Sədrinin əmri ilə Bakıdan keçərək Rusiyaya hərəkət edən Könüllü Ordu qalıqlarından silah və təchizatı qəbul edən idarələrarası komissiyanın sədri təyin edilmişdir. Ehtiyata buraxıldıqdan sonra Hərbi nazirin 17 aprel 1920-ci il tarixli 208 №-li əmri ilə Şuşaya təcili xidməti ezamiyyətə getməsi də bu günə kimi açılmamış qaranlıq səhifələrindən biridir. Ezamiyyət

xərclərinin qarşılanması ilə əlaqədar ona Hərbi Nazirliyin büdcəsindən 9200 rubl vəsaiti də ayrılmışdır.

947. **Podporuçik SURMAVA** Qriqoriy

Milliyəti rus. 20 iyun 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334№-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilmişdir. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il tarixli və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

948. **Kapitan SUMARKOV** Nikolay Serqeyeviç

Milliyəti rus. 01 mart 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 06 mart 1919-cu il tarixli 108 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Piyada taboru komandiri vəzifəsinin içraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

949. **Podpolkovnik SUŞİLNİKOV** Boris Fedoroviç

Milliyəti rus. 31 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li

əmri ilə Cümhuriyyət ordusunda Sılahlara nəzarətçi vəzifəsinə təyin edilmişdir. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il tarixli 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "polkovnik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordunun Sılahlara nəzarətçisi kimi həqiqi hərbi xidmətdə olub.

950. **Polkovnik SÜLEYMANOV**

Əlahiddə Azərbaycan Korpusunda 1-ci Bakı atıcı alayının komandiri olub. Cümhuriyyət Hərbi Nazirliyi fəaliyyətə başlayandan sonra xidmət etməyib. Hərbi nazirin 03 iyun 1919-cu il tarixli 276 №-li əmri ilə 01 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb.

951. **Praporşik SÜLEYMANOV** Abdulla

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərəncamına keçirilib. 04 oktyabr 1919-cu il tarixdə isə Hərbi nazirin 453

№-li əmri ilə Lənkaran ehtiyat piyada taboruna xidmət yeri dəyişdirilib. Hərbi nazirin 14 mart 1920-cu il tarixli154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.

952. **Praporşik SÜLEYMANOV** Abdulla

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 aprel 1920-ci il tarixdə xidmət yeri Kürd atıcı taboruna dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

953. **Praporşik SÜLEYMANOV** Abdülrəşid

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Gəncə Praporşiklər Məktəbinin yünkerlərin siyahılarında "podpraporşik" hərbi rütbəsində təhsil alması göstərilib. 01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

954. **Praporşik SÜLEYMANOV** Cümşüd

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd atıcı taboru komandirinin komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

955. **Praporşik SÜLEYMANBƏYOV**

14 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-ci il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

956. **Podporuçik SUİD-HƏSƏNOV** Mir Musa

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri

ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

957. **Praporşik SƏFƏROV** Əhməd

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

958. **Podporuçik SƏFƏRƏLİBƏYOV** İrza

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

959. **Podporuçik SƏFƏRƏLİBƏYOV** Xuduş

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə

əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

960. **Podporuçik SƏLİMBƏYOV** Əbülfəz

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

961. **Podporuçik SƏLİMOV** Rəmzi Məhəmməd oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taborunun 3-cü piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüş xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

962. **Podporuçik-mühəndis SKADATS**

Milliyəti litvalı. 17 aprel 1920-ci il tarixdə "podporuçik-mühəndis" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 22 aprel 1920-ci il tarixli 233 №-li əmri ilə Əlahiddə süvari-dağ batareyasının artilleriya silahları üzrə texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik-mühəndis" hərbi rütbəsində Əlahiddə süvari-dağ batareyasında həqiqi hərbi xidmətdə olub.

963. **Polkovnik SIRTLANOV**

Milliyəti rus. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin zabit heyətinin 1918-ci ilin noyabr ayının əvvəllərində hərbi hissələr üzrə üzləşmə siyahılarında "polkovnik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının artilleriya divizionunun komandiri vəzifəsinin müvəqqəti icraçısı kimi həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 12 dekabr 1918-ci il tarixdə Hərbi nazirin 12 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

964. **Polkovnik SOKOLOV** Vasiliy Nikolayeviç

Milliyəti rus. 14 yanvar 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə Ümumi Qərargahın General-Kvartirmeysteri vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 fevral 1919-cu il tarixli 69 №-li əmri ilə 08 fevral 1919-cu il tarixdən 1-ci piyada diviziyası komandirinin sərancamına ezam edilib. 28 aprel 1919-cu il tarixdən Hərbi nazirin 10 may 1919-ci il tarixli 241 №-li əmri ilə 1-ci piyada diviziyasının qərargah rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi

“polkovnik” hərbi rütbəsində 1-ci piyada diviziyasının qərargah rəisi kimi həqiqi hərbi xidmətdə olub.

965. **Kapitan SOKOLOV** Qavril Filipoviç

Milliyəti rus. 18 yanvar 1919-cu il tarixdə “kapitan” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Mühəndis şöbəsi 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlanıb və xidmət yeri həmin idarədə saxlanıb. 18 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 159 №-li əmri ilə Mühəndis idarəsi Ordunun Mühəndis təchizatı idarəsi kimi yenidən təşkil edilib. Cümhuriyyətin süqutuna kimi “kapitan” hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

966. **Yesaul SOKOLOV**

Milliyəti rus. 06 yanvar 1919-cu il tarixdə “yesaul” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hacıqabul dəmiryolu stansiyasının komendantı vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 06 iyun 1919-cu il tarixli 282 №-li əmri ilə Hacıqabul dəmiryolu stansiyası komendantlığının ixtisar edilməsi ilə əlaqədar olaraq öz xahişi ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

967. **Polkovnik SOLOMKO** Serqey Viktoroviç

Milliyəti ukraynalı. 07 sentyabr 1919-cu il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi

hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 399 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin Mənzil şöbəsinin yanacaq, işıqlandırma vasitələri və binaların kirayəsi bölməsinin rəisi vəzifəsinə təyin edilib. 18 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 159 №-li əmri ilə Mühəndis idarəsi Ordunun Mühəndis təchizatı idarəsi kimi yenidən təşkil edilib və Ordunun Mühəndis təchizatı idarəsinin Mənzil şöbəsinin yanacaq, işıqlandırma vasitələri və binaların kirayəsi bölməsinin rəisi vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

968. **Polkovnik SOFİYEV** Nuh bəy Abbasqulu bəy oğlu

1894-cü ildə Tiflis quberniyasının Borçalı vilayətində anadan olub, azərbaycanlıdır. Atası - Abbasqulu bəy Tersk kazak qoşunlarının Volqsk alayının starşınası olub, anası isə - Mixaline Stepanovna Yakubovskaya, polşa tatarı olub. Qafqaz İslam Ordusunun tərkibində bolşevik-daşnak qüvvələrinə, Çentrokaspi diktaturasına və ingilislərə qarşı döyüşlərdə iştirak edib. Osmanlı İmperiyasının "5-ci dərəcəli Mecidiye" ordeni ilə təltif edilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin zabit heyətinin 1918-ci ilin noyabr ayının əvvəllərində hərbi hissələr üzrə üzləşmə siyahılarında "podpolkovnik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 18 dekabr 1918-ci il tarixdə Hərbi nazirin 24 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin müavini vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 82 №-li əmri ilə 1-ci Tatar süvari alayının fəxri siyahılarında saxlanılmaqla 13 fevral 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri vəzifəsinə təsdiq olunub. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 28

fevral 1919-cu il 4 №-li və Hərbi nazirin 06 mart 1919-cu il 108 №-li əmri ilə “polkovnik” hərbi rütbəsinə layiq görülüb. Tabeliyində olan hərbi hissədə yüksək nizam-intizama və döyüş hazırlığına görə Hərbi nazir tərəfindən 28 iyun 1919-cu il tarixdə 314 №-li əmrlə “Təşəkkür” elan edilib. 03 avqust 1919-cu il tarixdə isə Hərbi nazirin 347 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının komandiri vəzifəsinə keçirilib. 1920-ci ilin yanvar ayında qısa müddətdə Hərbi nazirin 21 №-li əmri ilə Qusar qarnizonunun rəisi vəzifəsi də ona həvalə edilib. 1919-cu ilin avqustunda Lənkəran və 1920-ci ilin mart-aprel aylarında Qarabağda erməni daşnaklarına qarşı hərbi əməliyyatlarda iştirak edib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

969. **Podporuçik SOFİYEV** Ağa bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin zabit heyətinin 1918-ci ilin noyabr ayının əvvəllərində hərbi hissələr üzrə üzləşmə siyahılarında “podporuçik” hərbi rütbəsində Poylu dəmiryolu stansiyasının komendantının köməkçisi vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 62 №-li əmri ilə 09 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.

970. **Praporşik SOFİYEV** Alay

28 noyabr 1900-cu il tarixdə Tiflis quberniyasında zadəgan ailəsində anadan olub. Tiflis Müsəlman məktəbini bitirib. 01 yanvar 1918-ci il tarixdə Müsəlman mühəndis taborunda həqiqi hərbi xidmətə qəbul edilib. 14 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbində hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində

Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 10 fevral 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 8-ci piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

971. **Praporşik SOFİYEV** Yusif

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və 4-cü piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

972. **Podpolkovnik STANKEVİÇ** Dmitriy

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Divizionun təsərrüfat hissə rəisi vəzifəsini icra edib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il 563 №-li əmri ilə növbəti "podpolkovnik (artilleriya üzrə)" hərbi rütbəsi

verilib. Cümhuriyyətin süqutuna kimi “podpolkovnik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

973. **Polkovnik STRELYAYEV**

Milliyəti rus. 24 dekabr 1918-ci il tarixdə “polkovnik” hərbi rütbəsində 01 fevral 1919-cu il tarixlərdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidməti vəzifəsinə səhlənkar yanaşdığına və sərxoşluq etdiyinə görə Hərbi nazirin 09 fevral 1919-cu il tarixli 67 №-li əmri ilə 01 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

974. **Polkovnik STAVİSKİ**

Milliyəti rus. 21 dekabr 1918-ci il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun komandiri vəzifəsinə təyin edilib. 30 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 51 №-li əmri ilə 11 yanvar 1919-cu il tarixdən Hərbi Nazirliyin İntendant idarəsi rəisinin müavini vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 20 aprel 1919-cu il tarixli 213 №-li əmri ilə 30 mart 1919-cu il tarixdən artilleriya divizionu komandiri vəzifə maaşı verilməklə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təsdiq edilib. 13 iyul 1919-cu il tarixdə Hərbi nazirin 322 №-li əmri ilə 11 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

975. **Kapitan-mühəndis SPERANSKİ** Veniamin Mixayloviç

07 oktyabr 1919-cu il tarixdə "kapitan-mühəndis" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 13 oktyabr 1919-cu il tarixli 468 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin smeta və hesabatların yoxlanması üzrə mühəndisi vəzifəsinə təyin edilib. 18 mart 1920-ci il tarixdə Hərbi nazirin 159 №-li əmri ilə Mühəndis idarəsi həmin tarixdən Ordunun Mühəndis təchizatı idarəsi adlanıb və həmin idarənin Smeta və hesabatların yoxlanması üzrə mühəndisi vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan-mühəndis" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

976. **Podpolkovnik SVANADZE** İllarion Vasilyeviç

Milliyəti gürcü. 20 iyun 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 314 №-li əmri ilə Gəncə şəhərinin komendantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

977. **Podporuçik ŞABAROV**

Milliyəti rus. 26 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmət yerini özbaşına tərk etdiyinə görə Hərbi nazirin 02 aprel 1919-cu il tarixli 171 №-li əmri ilə 02 mart 1919-cu il tarixdən

Cümhuriyyət ordusu siyahılardan çıxarılıb və tutularaq məsuliyyətə cəlb edilməsi barədə göstəriş verilib.

978. **Praporşik ŞABANOV** Fərrux

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

979. **Praporşik ŞAYLİKOV** Sultan

24 arpel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "praporşik (süvari üzrə)" hərbi rütbəsində süvari ixtisası üzrə Kürd bölməsini bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri Kürd süvari divizionu komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

980. **Podporuçik ŞAMXORSKİ** Ağalar

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamında göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

981. **Poruçik ŞAMXORSKİ** İmran bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 29 mart 1919-cu il tarixdə Hərbi nazirin 156 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayına xidmət yeri dəyişdirilib. 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə Hərbi Məhkəmənin müvəqqəti üzvü seçilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il 25 №-li və Hərbi nazirin 01 iyun 1919-cu il 275 №-li əmri ilə növbəti "kornet" hərbi rütbəsi verilib. 01 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 451 №-li əmri ilə Süvari diviziyasının qərargahına keçirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il 167 №-li əmri ilə növbəti "poruçik (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyasının qərargahında həqiqi hərbi xidmətdə olub.

982. **Praporşik ŞAMXALOV** İbrahim

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının

4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

983. **Podporuçik ŞAHTAXTİNSKİ** İlyas bəy

18 dekabr 1894-cü il tarixdə İrəvan quberniyasının Naxçıvan qəzasında bəy ailəsində anadan olub. İlkin təhsilini İrəvan kişi gimnaziyasında alıb. 10 avqust 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub. 18 noyabr 1918-ci il tarixdə həmin məktəbi “podpraporşik” hərbi rütbəsində birinci dərəcə ilə bitirir və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Alay komandirinin 25 noyabr 1918-ci il tarixli 2 №-li əmri ilə şəxsi heyətin siyahısına daxil edilib. Alay komandirinin nizami hissə üzrə 02 dekabr 1918-ci il tarixli 8 №-li əmri ilə alayın adyutantı vəzifəsinin icrasına buraxılıb. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il 25 №-li və Hərbi nazirin 01 iyun 1919-cu il 275 №-li əmri ilə vaxtından əvvəl “podporuçik” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazir müavini tam artilleriya generalı Şıxlinskinin ingilis atlarının lüzumsuz olaraq xidmətdə istifadə edilməsinin qadağasını yerinə yetirməyərək 30 sentyabr 1919-cu il tarixdə ingilis atı ilə şəhərə çıxdığına görə intizam cəzası qaydasında 01 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin

449 №-li əmri ilə "Töhmət" elan edilib. Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 503 №-li əmri ilə yuxarı vəzifəyə 2-ci piyada diviziyasının baş adyutantı vəzifəsinə təyin edilir. 30 noyabr 1919-cu il tarixdə isə Hərbi nazirin 553 №-li əmri ilə Baş Qərargahın Baş idarəsinin baş adyutantının köməkçisi vəzifəsinin icraçısı təyin edilir. Həbs edilərək istintaq altında olduğuna görə Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından siyahılardan çıxarılıb.

984. **Praporşik ŞAHTAXTİNSKİ** İsmayıl bəy

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 30 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboruna xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunun adyutantı vəzifəsində həqiqi hərbi xidmətdə olub.

985. **Ştabs-kapitan ŞAHTAXTİNSKİ**

17 iyun 1919-cu il tarixdə "qvardiya poruçiki" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 25 iyun 1919-cu il tarixli 311 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin əmrlə Hərbi nazir onun hərbi rütbəsinin ordudakı mövcud "ştabs-kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə uyğunlaşdırıb. 15 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 576 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-cı dağ artilleriya divizionunun 5-ci

dağ-artilleriya batareyasının komandiri vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-kapitan” hərbi rütbəsində 2-ci Artilleriya briqadasının 2-cı dağ artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

986. **Poruçik ŞİPİLOV** Nikolay Semenoviç

25 dekabr 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 601 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Təşkilatı ştat tədbirləri ilə əlaqədar Mühəndis idarəsi Ordunun Mühəndis təchizatı idarəsi adlandırıldığı üçün Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə həmin idarənin kargüzarı vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsində həqiqi hərbi xidmətdə olub.

987. **Podporuçik ŞİRİNOV** Mehti

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

988. **Podporuçik ŞİRİNBƏYOV** Xosrov

16 may 1896-cı il tarixdə Yelizavetpol quberniyasının Şuşa qəzasında zadəgan ailəsində anadan olub. Qori Müəllimlər Seminariyasın bitirib. 30 iyun 1918-ci tarixdə Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və hərbi təhsil almaq üçün Gəncə Podpraporşiklər Məktəbinə göndərilib. 18

noyabr 1918-ci ildə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının zabit heyətinin siyahılarına daxi edilməklə Poylu dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsini icra etməyə ezam edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti “praporşik” hərbi rütbəsi verilib. Hərbi nazirin 23 iyul 1919-cu il tarixli 333 №-li əmri ilə 20 iyul 1919-cu il tarixldən Poylu dəmir yolu stansiyası komendantı vəzifəsinin icraçısı təyin edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Poylu dəmir yolu stansiyası komendantı vəzifəsinin icraçısı kimi həqiqi hərbi xidmətdə olub.

989. **Praporşik ŞİRİNBƏYOV** Nadir

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taborunun 3-cü piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə “praporşik” hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və həmin alayın 2-ci pulemyot bölüyünün komandiri vəzifəsinə təyin edilib. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

990. **Podporuçik ŞİRVANSKİ** Çingizxan

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

991. **Praporşik ŞİRVANSKİ** (MƏMMƏDOV) Muxtar Səfər oğlu

1899-cu ildə Bakı quberniyasının Şamaxı qəzasında kiçik tacir ailəsində anadan olub. Ali ibtidai məktəbi bitirib. 20 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və həqiqi hərbi xidmətini davam etdirmək üçün Məktəb rəisinin sərancamında saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 11-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik" hərbi rütbəsi verilib. 11 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 145 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

992. **Kapitan ŞİMKEVİÇ**

01 dekabr 1918-ci il tarixli "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və

Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə 26 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

993. **Podporuçik ŞİŞLO**

07 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Gəncə əşya anbarının hesabdarı vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə 26 mart 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

994. **Ştabs-kapitan ŞEYDAYEV** Məmməd bəy

10 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il 320 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəb adlanıb və həmin Məktəbin 1-ci yünker bölüyünün komandir vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.



995. **Polkovnik** Knyaz **ŞERVAŞİDZE** Mixail Levanoviç

Milliyəti gürcü. 1871-ci ildə anadan olub. 08 sentyabr 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 20 noyabr 1919-cu il tarixli 541 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 25 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

996. **Ştabs-kapitan ŞƏRİFOV** Daniel bəy

14 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazaxda dislokasiya edilmiş təlim piyada taboru komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 06 yanvar 1919-cu il tarixli 11 №-li əmri ilə təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Qazaxda dislokasiya edilmiş təlim piyada taboru 3-cü Gəncə piyada alayı tərkibinə 3-cü piyada taboru kimi daxil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının 7-ci piyada bölüyünün komandiri vəzifəsinə təyin edilib. 24 yanvar 1920-ci il tarixdə isə Hərbi nazirin 30 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin müavini vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda həqiqi hərbi xidmətdə olub.

997. **Podporuçik ŞƏRİFOV** Əlimürsəl

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

998. **Praporşik ŞƏRİFOV** Ağa Səlim

1914-cu ilin sentyabr ayından Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub. 30 dekabr 1917-ci il tarixdə Müsəlman Korpusunun Müsəlman süvari divizionuna keçirilib. Lənkaranda Muğan dəstəsi ilə döyüşlərdə iştirak edib və sağ ayağının diz nahiyəsindən yaralanıb. Göstərdiyi igidliyə görə ilkin "praporşik" zabit hərbi rütbəsi verilməsi üçün təqdim edilib, lakin xidmət dəftərçəsi, tibb kitabçası və Moskva Peşə Məktəbini bitirməsi haqqında attestatı Bakıda 1918-ci ilin mart qırğınları zamanı divizionun dəftərxanasında yanıb. "Azərbaycan" qəzetinin 13-cü nömrəsində bu barədə elan da verilib. Bütün yuxarıda göstərilənlər Müsəlman süvari divizionunun komandiri olmuş ştabs-rotmistr Məlikbəyov tərəfindən verilmiş arayışda göstərilmiş və podpolkovnik Xosrov Mirzə Qacar tərəfindən təsdiq edilmişdir. 01 may 1918-ci il tarixdən 11 sentyabr 1918-ci il tarixədək isə Tatar süvari alayının tərkibində Hacqabul, Kürdəmir və Bakı istiqamətlərində erməni-bolşevik qüvvələrinə qarşı döyüş əməliyyatlarında iştirak edib. 1918-ci ilin oktyabr ayının sonunda Hökumətin konvoy taqımına 1-ci dərəcəli baş uryadniki kimi hərbi xidmətini davam etdirməyə göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik (süvari üzrə)" hərbi rütbə verilməklə Hökumətin konvoy taqımında zabit kimi həqiqi hərbi xidmətə qəbul edilib.

Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə 06 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

999. **Ştabs-kapitan ŞƏKƏROV** Yunis Məşədi oğlu

14 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Qazaxda dislokasiya edilmiş təlim piyada taboru 3-cü Gəncə piyada alayı tərkibinə 3-cü piyada taboru kimi daxil edilib Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə xidmət yeri həmin alayda saxlanılıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il 563 №-li əmri ilə növbəti "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 01 fevral 1920-ci il tarixli 62 №-li əmri ilə Kürd atıcı taborunun komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Kürd atıcı taborunun komandiri kimi həqiqi hərbi xidmətdə olub.

1000. **Praporşik ŞƏMSƏDDİNSKİ** Musa

Gəncə Müsəlman Seminariyasının 5 sinfini bitirib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin alayın 2-ci piyada bölüyünün komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

1001. **Praporşik ŞƏFİYEV** Abdulla

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

1002. **Ştabs-kapitan ŞTOLL**

Milliyəti alman. 17 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının piyada tabor komandiri vəzifəsinə təyin edilib. Qarabağ General qubernatorunun Hərbi nazirə ünvanladığı 13 iyul 1919-cu il tarixli 1019 nömrəli məlumatında Şuşa şəhərinin adsız yüksəkliyində xidmət aparan və ştabs-kapitan Ştolun tabeliyində olan poruçik Yan Kosinskinin komandiri olduğu piyada bölüyünün şəxsi heyətinin ermənilərin qəfil hücumu zamanı qəhramanlıq göstərmələri əsas qüvvələrdən uzaqda olmalarına baxmayaraq düşmənin üstün qüvvələrinin hücümü qarşılığında öz döyüş mövqeylərini tərk etməyərək mərdliklə döyüşmələri qeyd edilmişdir. Qarabağ General qubernatorunun məlumatına əsaslanaraq Hərbi nazir tabor komandiri kimi ona 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə "Təşəkkür" elan etmişdir. Hərbi nazirin 02 fevral 1920-ci il tarixli 65 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərzasində yaşamaq hüququndan məhrum edilməklə 01 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.



1003. **Tam artilleriya generalı ŞIXLİNSKİ** Əliağa İsmayıl Ağa oğlu

23 aprel 1865-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Qazaxlı kəndində anadan olub. Atası İsmayıl Ağa Əliqazax oğlu Qazax qəzasının Qazaxlı kəndində aztorpaqlı mülkədarı olub.

1876-cı ildə Tiflisdəki Ter-Akopov Özəl gimnaziyasında təhsil alıb. Tiflis Kadet Korpusuna daxil olur və 1883-cü ildə Korpusu fərqlənmə ilə bitirir. 01 sentyabr 1883-cü il tarixdə Sank-Peterburqdakı Mixaylovsk Artilleriya Məktəbinə daxil

olur. 11 avqust 1886-cı il tarixdə həmin məktəbi “podporuçik” hərbi rütbəsində birinci dərəcə ilə bitirərək 39-cu artilleriya briqadasının 5-ci artilleriya batareyasına təyinat alır. 07 oktyabr 1886-cı il tarixdə həmin briqadanın 2-ci artilleriya batareyasına keçirilir. 14 iyun 1888-ci il tarixdə isə 1-ci artilleriya batareyasına keçirilir. 23 noyabr 1888-ci il tarixdə “poruçik” hərbi rütbəsi verilir. 26 oktyabr 1886-cı il tarixdən 06 may 1887-ci il tarixədək, 12 oktyabr 1887-ci il tarixdən 14 iyun 1888-ci il tarixədək, 28 noyabr 1888-ci il tarixdən 28 fevral 1889-cu il tarixədək, 02 oktyabr 1889-cu il tarixdən 27 may 1890-cı il tarixədək və 15 oktyabr 1891-ci il tarixdən 30 aprel 1892-ci il tarixədək briqadanın təlim komandasında ştat vəzifəsində qalmaqla müəllim vəzifələrini icra edir. 19 iyun 1890-cı il tarixdən 19 yanvar 1891-ci il tarixədək briqada məhkəməsinin üzvü olur. 15 iyul 1894-cü il tarixdə “ştabs-kapitan” hərbi rütbəsi verilir. 02 may 1895-ci il tarixdə 39-cu artilleriya briqadasının 1-ci artilleriya batareyasına xidmət yeri dəyişdirilir. 19 iyul 1898-ci il tarixdə “kapitan” hərbi rütbəsi verilir. 03 iyul - 10 sentyabr 1899-cu il tarixlərdə dövlət hesabına Pyatiqorski də mineral sularda müalicə alır. 10 sentyabr 1898-ci il tarixdən 20 may1899-cu il tarixədək isə briqadanın təlim komandasının rəisi vəzifəsini icra edir. 08 iyul 1899-cu il tarixdə növbəti “1900-cu il üçün briqadanın Zabit şərəf məhkəməsi”nin üzvü seçilir. 21 iyul 1899-cu il tarixdən 14 fevral 1900-cu il tarixədək həmin briqadanın 1-ci artilleriya batareyasının komandiri vəzifəsini icra edir. 17 fevral 1900-cu il tarixdə Əlahiddə Zabaykalye artilleriya divizionu komandirinin sərancamına göndərilir. 17 may 1900-cu il tarixdə həmin divizionun 1-ci artilleriya batareyasının baş zabiti təyin edilir. 11-28 iyun 1900-cu il tarixlərdə müvəqqəti olaraq 2-ci Şərqi-Sibir səyyar artilleriya parkının rəisi vəzifəsini icra edir. 20-27 oktyabr 1900-cu il tarixlərdə isə Çançulin şəhərinə göndərilmiş ekspedisiya dəstəsinə komandanlıq edir. 03-12 dekabr 1900-cu il tarixlərdə Əlahiddə Zabaykalye artilleriya

divizionunun 1-ci artilleriya batareyası komandiri vəzifəsini müvəqqəti olaraq icra edir. 23 dekabr 1900-cu il tarixdə 1-ci batareyanın təsərüffat hissə rəisi təyin edilir. 04 iyul 1900-cu il tarixdən 21 mart 1902-ci il tarixədək Çin yürüşündə iştirak edib. 16-17 iyun 1901, 02-20 oktyabr 1901, 14 noyabr 1901-ci il tarixdən 01 mart 1902-ci il tarixədək həmin divizionunun 1-ci artilleriya batareyası komandiri vəzifəsini müvəqqəti icra edir. 16-17 iyun 1902 və 17-30 mart 1902-ci il tarixlərdə divizion komandiri vəzifəsini müvəqqəti icra edib. 26-29 mart 1902-ci il tarixlərdə Taoxovyan kəndində Xunxuzlara qarşı döyüşən dəstəyə rəhbərlik edir. 15 may 1902-ci il tarixdə 2-ci artilleriya batareyası komandiri vəzifəsinin müvəqqəti icraçısı olub. 22 may 1902-ci il tarixdə 1-ci artilleriya batareyasının təsərüffat hissə rəisi vəzifəsini təhvil verib və 10 iyun 1902-ci il tarixdə 2-ci artilleriya batareyasına keçirilib. 23-29 avqust 1902-ci il tarixlərdə və 28 sentyabr 1902-ci il tarixdən 05 oktyabr 1903-cü il tarixədək 2-ci artilleriya batareyası komandiri vəzifəsini icra edib. 12-27 oktyabr 1902-ci il tarixlərdə Bodune şəhərində Xunxuzlara qarşı döyüş əməliyyatları aparmaq üçün ezam edilmiş dəstəyə rəhbərlik edib. 01 noyabr 1902-ci il tarixdən 19 yanvar 1903-cü il tarixədək Xabaridəki müvəqqəti hərbi məhkəmənin ehtiyat üzvü olub. 01 may 1904-cü il tarixdə 4-cü Qərbi-Sibir atıcı briqadasına keçirilib. 03 may tarixdən 22 dekabr 1904-cü il tarixədək Rus-Yapon müharibəsində iştirak edib. 19-26 may 1904-cü il tarixlərdə briqadanın 1-ci atıcı artilleriya batareyasına müvəqqəti komandanlıq edib. 03 may 1904-cü il tarixdə Şisaliteza kəndindəki və Sanşilipu kəndi ilə Ezim-Çjou şəhəri arasındakı, 13 may 1904-cü il tarixdə Kinçjousski mövqelərindəki, 13-15 iyul 1904-cü il tarixdə Port-Artur qalasındakı ön mövqelərdəki, 17 iyul 1904-cü il tarixdə Volçi dağlarındakı və 17 iyul – 22 dekabr 1904-cü il tarixlərdə isə Port-Artur qalasının yaponlar tərəfindən mühasirəsi zamanı aparılan döyüşlərdə iştirak əməliyyatlarında iştirak edib. 30 iyun 1904-cü il tarixdə 2-ci batareyanın

təsərüffat hissə rəisi təyin edilib. 13 noyabr 1904-cü il tarixdə Yapon qoşunlarının 3 №-li qalasının və 3 №-li istehkam hissəsinin müdafiəsi zamanı sol ayağından şrapnel gülləsi ilə yaralanıb. 22 dekabr 1904-cü il tarixdə Port-Artur qalasının Yaponlara təslimi zamanı kapitulyasiya şərtlərinə əsasən ağır yaralı kimi Port-Artur qalasının səyyar hospitalında saxlanılıb, əsir alınmayıb. Yapon hərbi komissiyası tərəfindən xidmətə yararsız hesab edilib və öhdəlik götürmədən 9-cu səhra hospitalının şikəst olmuş heyəti ilə Çifa üzərindən Rusiyaya göndərilib. 25 may 1905-ci il tarixdə Odessa hərbi dairəsinin 15-ci artilleriya briqadasının 6-cı artilleriya batareyasına təyin edilib. 29 iyun 1905-ci il tarixdə həmin briqadanın 4-cü artilleriya batareyasına keçirilib. 07 iyun – 07 avqust 1905-ci il tarixlərdə Pyatiqorsk mineral sularda müalicə kursu alıb. 26 noyabr 1905-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsi verilib. Hərbi Nazirliyin 25 yanvar 1906-cı il tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş "Böyük knyaz Mixail Nikolayeviçin adına venzel döş nişanı"nın gəzdirməsinə icazə verilib. 26 yanvar 1906-cı il tarixdə Artilleriya məktəbindəki zabit kurslarına göndərilib. 01 fevral 1906-cı il tarixdə dəyişən heyətin siyahına daxil edilib və 01 avqust 1906-cı il tarixdə kursu "əla" qiymətlərlə bitirib. 4 aylıq məzuniyyətdən sonra 29 noyabr 1906-cı il tarixdə xidmət yeri olan 15-ci artilleriya briqadasına qayıdıb. 22 yanvar 1907-ci il tarixdə Artilleriya məktəbinə[1] müəllim kimi ezam edilib. 22 sentyabr 1907-ci il tarixdə Azrtilleriya məktəbindən ezamiyyətdən qayıdıb və 15-ci artilleriya briqadasının 7-ci artilleriya batareyasının baş zabiti təyin edilib. 09 dekabr 1907-ci il tarixdə 29-cu artilleriya briqadasının 5-ci artilleriya batareyasının komandiri təyin edilir. 29 yanvar – 09 fevral 1908-ci il tarixlərdə 29-cu briqadanın 2-ci artilleriya divizionu komandiri vəzifəsini müvəqqəti icra edib. 14 fevral 1908-ci il tarixdə Artilleriya məktəbinə rəhbər vəzifəyə ezam edilir və 15 fevral 1908-ci il tarixdə həmin məktəbdə təhsil alan zabit dinləyicilər komandasında qərargah zabiti vəzifəsinin icraçısı

təyin edilir. 26 sentyabr 1908-ci il tarixdə məktəbin "zabit şərəf məhkəməsi"nin və "Zabit təşkilat komitəsi"nin üzvü seçilir. 10 noyabr 1908-ci il tarixdən "müqəddəs Georgi" hərbi ordeninin əsasnaməsinə, "Qızıl silah" və "İgidliyə görə" medalın haqqında Qanunvericiliyə baxılması üçün tam piyada generalı X.Roopanın rəhbərliyi altında komissiyada iştirak edir. 26 noyabr 1908-ci il tarixdə xidmətdə fərqləndiyinə görə "polkovnik" hərbi rütbəsi verilməklə zabit dinləyicilər komandasında qərargah zabiti vəzifəsinə təsdiq olunur. 30 iyul 1909-cu il tarixdə Artilleriya məktəbinin səhra bölməsinin dəyişən zabit heyəti dinləyiciləri komandasının rəisi təyin edilir. 04 avqust 1910-cu il tarixdə 21-ci artilleriya briqadasının 1-ci divizionunun komandiri vəzifəsinə keçirilir. 30 yanvar 1912-ci il tarixdə Zabit Artilleriya məktəbinə ezam edilir və dəyişən zabit heyəti komandasının baş rəhbəri vəzifəsinin icraçısı təyin edilir. 18 avqust 1912-ci il tarixdə həmin vəzifəyə təsdiq edilir. 28 iyun 1912 və 09 avqust 1912-ci il tarixlərdə Serqievski poliqonunda aeroplanların tətbiqi proqramının və hədəflərin hərəkətini təmin edən mexaniki vasitələrin tətbiqi üzrə komissiyalarının işində yaxından iştirak edir. 27 oktyabr 1912-ci il tarixdə məktəbin "Zabit təşkilat komitəsi"nin sədri seçilir. 02 yanvar 1913-cü il tarixdə Artilleriya məktəbi rəisinin müavini vəzifəsinin icraçısı təyin edilir. 21 fevral 1913-cü il tarixdə "Romanovlar Evinin 300 illik çarlığına" dair parlaq-tunc xatirə yubiley medalının gəzdirməsinə icazə verilir. 14 aprel 1913-cü il tarixdə "general-mayor" hərbi rütbəsi verilməklə Artilleriya məktəbi rəisinin müavini vəzifəsinə təsdiq olunur. 24 iyun – 08 avqust və 08-19 sentyabr 1913-cü il tarixlərdə müvəqqəti olaraq Artilleriya məktəbi rəisi vəzifəsini icra edir. Xidmət dəftərçəsində 31 yanvar 1914-cü il tarixə olan məlumatlara əsasən xidməti üzrə cəzalandırılmamış və töhməti olmamışdır. Baş Artilleriya rəisinin 26 avqust 1914-cü il tarixli 83 nömrəli əmri ilə Artilleriya məktəbi rəisi vəzifəsinin icraçısı təyin edilir. 1-ci Dünya müharibəsinin başlanması ilə əlaqədar

olaraq, Artilleriya məktəbinin fəaliyyəti dayandırılır və 01 sentyabr 1914-cü il tarixdə Baş Artilleriya idarəsi rəisinin əmrinə əsasən Petroqrad hərbi dairəsinin hərbi-dairə artilleriya idarəsi rəisinin sərancamına təyin edilir. Hərbi-dairə artilleriya idarəsi rəisinin əmrinə əsasən Almanların Baltik dənizindən desant çıxarmasının qarşısının alınmasını dəf etmək üçün Petroqrad şəhərinin artilleriya rəisi təyin edilir. 31 yanvar 1915-ci il tarixdə Şimal-Qərb cəbhəsi komandanının sərancamına Ağır artilleriya üzrə döyüş hazırlığına rəhbərlik etmək üçün təyin edilir. 23 may 1915-ci il tarixdən Şimal-Qərb cəbhəsi komandanının Artilleriya hissələri üzrə tapşırıqçı-generalı vəzifəsinə təyin edilir. 1915-ci ilin avqustunda cəhbənin iki hissəyə ayrılmasından sonra Qərb cəhbəsi komandanının Artilleriya hissələri ürə tapşırıqçı-generalı təyin edilir. 14 sentyabr 1915-ci il tarixdə Baş komandanın qərargahına ezam edilir. 31 oktyabr 1915-ci il tarixdən 16 aprel 1916-cı il tarixədək Baş komandanın tapşırıqlar üzrə generalı vəzifəsini icra edir (diviziya komandiri səlahiyyətli və "general-leytenant" ştat kateqoriyalı). 16 aprel 1916-cı il tarixdən Qərb cəbhəsi ordusunun artilleriya üzrə müffətişi vəzifəsini icra edir. 02 aprel 1917-ci il tarixdə "general-leytenant" hərbi rütbəsinə layiq görülür. 02 aprel 1917-ci il tarixdən 09 sentyabr 1917-ci il tarixədək Qərb cəbhəsi ordusunun artilleriya üzrə müffətişi, 09 sentyabr 1917-ci il tarixdən 11 noyabr 1917-ci il tarixədək isə Qərb cəbhəsinin 10-cu Ordusunun komandiri vəzifələrində xidmət edir. 02 dekabr 1917-ci il tarixdə xəstəliyi ilə əlaqədar ehtiyata buraxılır və Qafqaz hərbi dairəsinin ehtiyatına keçirilir. Çar ordusunda həqiqi hərbi xidməti zamanı aşağıdakı orden və medallarla təltif edilmişdir: 21 aprel 1891-cı il tarixdə "3-cü dərəcəli müqəddəs Stanislav", 26 fevral 1896-cı il tarixdə "3-cü dərəcəli müqəddəs Anna", 21 may 1901-ci il tarixdə Çinlərə qarşı döyüşlərdə fərqləndiyinə görə "2-ci dərəcəli müqəddəs Stanislav" (qılıncla), 01 iyun 1904-cü il tarixdə "2-ci dərəcəli müqəddəs Anna" (qılıncla), 11 sentyabr 1905-ci il tarixdə "4-cü

dərəcəli müqəddəs Anna”(üzərində igidliyə görə yazısı ilə), 11 sentyabr 1905-ci il tarixdə “2-ci dərəcəli müqəddəs Anna” (qılıncla), 28 sentyabr 1905-ci il tarixdə Port Artur qalasının mühasirəsi zamanı yaponlara qarşı döyüşlərdə göstərdiyi şəxsi şücaətə və igidliyə görə “4-cü dərəcəli müqəddəs Georgi” (13-17 oktyabr 1904-cü il tarixdə Port-Artur qalasında 3 №-li istehkam hissəsinin müdafiəsi zamanı tabeliyində olan yarım batareya ilə üstün düşmən qüvvələrinin piyada hissələrinin qalanın alınmasına imkan verməmiş, batareyanın tuşlayıcısı qismində şəxsən özü tuşlayıcı kimi düşmənin artilleriya bölmələrinin susdurmasına nail olmuşdur), 23 oktyabr 1905-ci il tarixdə Yaponlara qarşı döyüşlərdə fərqləndiyinə görə “4-cü dərəcəli müqəddəs Vladimir” (qılınc və bant ilə), 06 dekabr 1913-cü il tarixdə “3-cü dərəcəli müqəddəs Vladimir”, 18 fevral 1915-ci il tarixdə “1-ci dərəcəli müqəddəs Stanislav”, 26 may 1915-ci il tarixdə “1-ci dərəcəli müqəddəs Anna”(qılıncla), 06 dekabr 1915-ci il tarixdə “2-ci dərəcəli müqəddəs Vladimir” (qılıncla) ordenləri və 22 fevral 1907-ci il tarixdə “1904-1905-ci illərdə Rus-Yapon müharibəsi” gümüşü xatirə medalı ilə təltif edilmişdir. Bundan əlavə ona 22 mart 1905-ci il tarixdə Port-Arturun müdafiəsi zamanı göstərdiyi igidliyə görə üzərində “İgidliyinə görə” yazılmış qızıl silah hədiyyə edilmişdir.

1917-ci ilin sonunda Tiflis şəhərinə gəlir və Xüsusi Zaqafqaziya Komitəsinin sərancamına əsasən Müsəlman Korpusunun yaradılmasına başlayır. 1918-ci ilin aprel-may aylarında ümumi şəkildə korpus yaradılır. 28 may 1918-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra isə 26 iyun 1918-ci il tarixdə Nazirlər Şurasının sərancamına əsasən Müsəlman korpusu Əlahiddə Azərbaycan Korpusu adlanır. 1918-ci ilin iyul ayında Korpusun idarə heyəti istinad olmaqla korpus özü ləgv edilir (general-leytenant Əliağa Şıxlinskinin komandanlığı altında korpusun idarə heyəti saxlanılır). Korpusun hərbi hissələri 5-ci Qafqaz və 15-ci Çanaqqala türk diviziyaları ilə Qafqaz İslam Ordusunun

tərkibində birləşdirilir. Qafqaz İslam Ordusu Azərbaycanı tərk edtdikdən sonra Hərbi Nazirlik fəaliyyətə başlayandan sonra Nazirlər Şurası Sədrinin 28 dekabr 1918-ci il tarixli əmri ilə Hərbi nazirin müavini vəzifəsinə təyin edilir və Hərbi nazirin 03 yanvar 1919-cu il tarixli 4 №-li əmri ilə vəzifəyə təyin edilməsi ordu üzrə elan edilir. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 32 №-li əmri ilə Cümhuriyyət ordusunun bütün xüsusi növ silahlarına (artilleriya və mühəndis), hərbi təhsil və texniki müəssisələrə, eləcədə artilleriya və mühəndis anbarlarına nəzarət ona həvalə edilir. Nazirlər Şurası Sədrinin 28 iyun 1919-cu il 29 №-li və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə "tam artilleriya generalı (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülür. 30 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 506 №-li əmri ilə Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın sədri təyin edilir. Cümhuriyyətin süqutuna kimi Hərbi nazirin xəstəliyi ilə əlaqədar olaraq 31 dekabr 1919-cu il tarixdən 12 fevral 1920-ci il tarixədək və 06 aprel 1920-ci il tarixdən 24 aprel 1920-ci il tarixədək Hərbi nazir vəzifəsinin müvəqqəti icraçısı da olub.

Həyat yoldaşı: Nigar xanım Palavandova (Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbovun dul qızı) ilə 27 oktyabr 1909-cu il tarixdə ailə həyatı qurub. Bu nigahdan övladları olmayıb.

Hərbi nazirin müavini olduğu müddətdə yaşadığı ünvan: Bakı şəhəri, Nikolayevskaya küçəsi, ev 25 ünvanında yaşamışdır.



1004. **General-mayor ŞIXLİNSKİ** Cavad bəy Məmmədtağı oğlu

03 yanvar 1875-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Aşağı Salahlı

kəndində anadan olub. Tam artilleriya generalı Əliağa Şıxlinskinin qardaşı oğludur. Tiflis Kadet Korpusunu və Peterburq Mixayılovsk Artilleriya Məktəbini bitirib. Çar ordusunda 39-cu artilleriya briqadasında 1-ci artilleriya batareyasının komandiri olub. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə "polkovnik" hərbi rütbəsində 27 dekabr 1918-ci il tarixdən Artilleriya idarəsi rəisinin artilleriya qoşunlarının təftişi üzrə müavini vəzifəsinə təyin edilir. Hərbi nazirin 24 fevral 1919-ci il tarixli 98 №-li əmri ilə 22 fevral 1919-cu il tarixdən 1-ci piyada diviziyasının komandiri vəzifəsinin icraçısı vəzifəsinə keçirilir. Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov 21 aprel 1919-cu il tarixli 211 №-li əmrində Cavad bəy Şıxlinski haqqında bunları qeyd etmişdir: "Xidməti və şəxsi keyfiyyətlərinə çoxdan bələd olduğum polkovnik Cavad bəy Şıxlinski diviziya komandiri təyin edildiyi qısa müddət ərzində diviziyanın tabeliyində olan alaylarda xidmət müsbət tərəfə inkişaf etməkdədir. Əminəm ki, zəngin biliyi, təcürbəsi və vətənpərvərliyi ilə tezliklə diviziyada tam hərbi nizam-intizamın yaradılmasına nail olacaqdır". Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "general-mayor (artilleriya üzrə)" hərbi rütbəsi verilməklə 1-ci piyada diviziyasının komandiri vəzifəsinə təsdiq edilir. 27 iyun 1919-cu il tarixdə Hərbi nazirin 312 №-li əmri ilə Xankəndi qarnizonuna ümumi nəzarət etməklə Gəncə qarnizonunun rəisi vəzifəsi ona həvalə edilir. 28 iyun 1919-cu il tarixdə Hərbi nazirin 314 №-li əmri ilə ona Qarnizonda və tabeliyində olan hərbi hissələrdə yüksək nizam-intizama və döyüş hazırlığına görə "Təşəkkür" elan edilir. 10 aprel 1920-ci il tarixdə Hərbi nazirin 203 №-li əmri ilə Korpus komandirinin səlahiyyət və vəzifə maaşı verilməklə Gəncə istehkam rayonunun (Qazax, Şamxor və Gəncə qəzaları daxil olmaqla) rəisi təyin edilir.

Cümhuriyyətin süqutuna kimi qərargahı Gəncə şəhərində dislokasiya edilməklə 1-ci piyada diviziyasının komandiri vəzifəsində həqiqi hərbi xidmətdə olub.



1005. **Polkovnik ŞIXLİNSKİ** Rüstəm bəy Məmmədağa oğlu

1878-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Aşağı Salahlı kəndində anadan olub. General-mayor Cavad bəy Şıxlinskinin qardaşı olub. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə "podpolkovnik" hərbi rütbəsində 27 dekabr 1918-ci il tarixdən Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun komandiri vəzifəsinə təyin edilir. 20 fevral 1919-cu il tarixli 94 №-li əmrlə isə 05 fevral 1919-cu il tarixdən Əlahiddə haubitsalı artilleriya divizionunun komandiri vəzifəsinə keçirilir. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 28 fevral 1919-cu il 4 №-li və Hərbi nazirin 06 mart 1919-cu il tarixli 108 №-li əmri ilə "polkovnik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülür. 04 aprel 1919-cu il tarixdə Hərbi nazirin 175 №-li əmri ilə Cümhuriyyət ordusu üçün atların alınması üzrə komissiyanın sədri vəzifəsi ona həvalə edilir. Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 186 №-li əmri ilə 07 aprel 1919-cu il tarixdən Gəncə Praporşiklər Məktəbinin rəisi vəzifəsinə təyin edilir. 15 oktyabr 1919-cu il tarixdən Gəncə Praporşiklər Məktəbi Hərbi Məktəbi adlanır. 01 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 551 №-li əmri ilə 2-ci Artilleriya briqadasının komandiri vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

1006. **Praporşik ŞIXLİNSKİ** İsrafil

10 sentyabr 1897-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasında zadəgan ailəsində anadan olub. Qori Müəllimlər Seminariyasını bitirib. 31 yanvar 1918-ci il tarixdə Müsəlman Korpusunun 1-c Müsəlman süvari alayında alay üzrə 34 №-li əmrlə həqiqi hərbi xidmətə qəbul edilib. Xidmətdə fərqləndiyinə görə alay komandirinin 106 №-li əmri ilə "kiçik uryadnik" hərbi rütbəsinə layiq görülüb. 06 iyun 1918-ci il tarixdə isə alay üzrə 157 №-li əmrlə "baş uryadnik" hərbi rütbəsi verilib. 11 iyun 1918-ci il tarixdə hərbi təhsil almaq üçün Gəncə Podpraporşiklər Məktəbinə göndərilib.

18 noyabr 1918-ci il tarixdə "podpraporşiklər" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və Məktəb rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Təşkilat-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və xidmət yeri həmin məktəbin 2-ci yünker bölüyündə saxlanıb. Cümhuriyyətin süqutunadək "praporşik" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətəd olub.

1007. **Podporuçik ŞIXLİNSKİ** Əli Ağa oğlu

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və Əlahiddə Zaqatala piyada taborunun təlim komandasının rəisi təyin edilib. Hərbi nazirin 22 mart 919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il

tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında təlim komandasının rəisi kimi həqiqi hərbi xidmətdə olub.

1008. **Praporşik ŞIXLİNSKİ** Abdulla Ağa

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 5-ci dağ-artilleriya batareyasının zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 may 1919-cu il tarixli 274 №-li əmri ilə "praporşik (dağ artilleriyası üzrə)" hərbi rütbəsi verilib. Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 57 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və qeydiyyat üçün (səhra artilleriya ixtisası üzrə) Qazax qəzasına göndərilib.

1009. **Podporuçik ŞIXLİNSKİ** Kazım

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik"

hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

1010. **Praporşik ŞIXLİNSKİ** Şərif

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

1011. **Praporşik ŞIX-ZADƏ** Yunis Məşədi Cəfər oğlu

1896-ci ildə Yelizavetpol quberniyasının Gəncə şəhərində anadan olub. Gəncə Müsəlman Dini seminariyasını bitirib. 14 aprel 1918-ci il tarixdə həqiqi hərbi xidmətə dağ-artilleriya ixtisası üzrə qəbul edilib. 20 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə qəbul edilib və 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Məktəb rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. 03 yanvar 1919-cu il tarixdə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına xidmət yeri dəyişdirilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1012. **Podporuçik ŞIXMƏMMƏDBƏYOV** Xalid

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının zabit heyətinin siyahılarına daxil edilməklə 2-ci piyada diviziyasının qərargahına ezam edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının qərargahında ezamiyyətdə olub (2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının zabit heyətinin siyahılarında saxlanılmaqla).

1013. **Rotmistr** Mir Fuad Xan **TALIŞİNSKİ**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Ləzgi süvari alayının ləğv edilməsi zamanı alayın komandiri olmuş yüzbaşı (indiki "kapitan" hərbi rütbəsi) Hüseyn (türk) tərəfindən ona təhkim olunmuş 3 pulemyotun həmin alayın ştabs-rotmistri Əliyevə təhvil verməsi barədə əmr almış, lakin həmin əmri icra etməmişdir. Daha sonra 1-ci Tatar süvari alayı komandirinin müavini podpolkovnik Şahzadə Qacar tərəfindən həmin pulemyotların ştabs-rotmistr Sultanova təhvil verməsi barədə təkrar tapşırıq alsada, həmin silahları öz təşəbbüsü ilə mülki məmur Yusif Nəzərovun rəhbərliyi altında 19 (on doqquz) silahlı süvari nəfəri ilə güya ki, Zaqatalada yenidən təşkil olunacaq Ləzgi alayına göndərmişdir. Özü isə həmin məlumatları dəqiqləşdirmək üçün Gəncə şəhərinə

getmişdir. Hərbi nazirin 08 fevral 1919-cu il tarixli 63 №-li əmrində qeyd edilir ki, "ştabs-rotmistr Mir Fuad Xan Talışinskinin diqqətsizliyi və səhlənkarlığı nəticəsində 19 (on doqquz) silahlı süvari nəfəri mülki məmurun rəhbərliyi altında qalmış və nəzərdə tutulmayan yerə göndərilmişdir. Onun gənc olmasını nəzərə alaraq, Hərbi nazir həmin əmrdə onun 1(bir) ay müddətinə intizam cəzası qaydasında həbs edilərək hauptvaxta saxlanılmasını əmr etmişdir".

Hərbi nazirin 14 aprel 1919-cu il tarixli 201 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının adyutantı vəzifəsinə təyin edilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 1014. **Poruçik** Xan **TALIŞİNSKİ**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 30 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 548 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna keçirilib. Hərbi nazirin 17 dekabr 1919-cu il tarixli 587 №-li əmri ilə isə 16 dekabr 1919-cu il tarixdən Bakı İstehkam rayonunun Nargin adasındakı mövqe batareyasının rəisi təyin edilib.

### 1015. **Praporşik TALIBOV** Neymətulla

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci

piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik" hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. 11 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

1016. **Praporşik TALIBOV** Əhət

18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 4-cü dağ-artilleriya batareyasının zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun 4-cü dağ-artilleriya batareyasında həqiqi hərbi xidmətdə olub.

1017. **Praporşik TAĞIBƏYOV** Rüstəm

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

1018. **Podporuçik TAĞIYEV** İlyas

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1019. **Kornet TAĞIYEV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 51 №-li əmri ilə 08 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1020. **Podporuçik TAĞIYEV** Əziz

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 8-ci Ağdaş piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1021. **Podporuçik TAĞIYEV** İbrahim

Şuşa şəhər məktəbində təhsil alıb. 18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və 5-ci piyada bölüyü komandirinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti “praporşik” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına keçirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

1022. **Praporşik TAĞIYEV** Məmməd Əli

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidməti vəzifəsini yerinə yetirərkən 06 fevral 1920-ci il tarixdə həlak olduğuna görə Hərbi nazirin 30 mart 1920-ci il tarixli 176 №-li əmri ilə Cümhuriyyət ordusu sıyahılarından çıxarılıb.

1023. **Praporşik TAĞIYEV** Nadir

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1024. **Rotmistr TAKANAYEV** Fatix bəy Muhəmməd

05 may 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 11 may 1919-cu il tarixli 244 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. 1919-cu ilin iyun ayının 3-dən 4-nə keçən gecə hərbi hissəni özbaşına tərk etmiş əsgərləri geri qaytarmaq üçün praporşik Mahmudağa Vəkilovu 5 (beş) süvari heyəti ilə Xınalı kəndinə qanunsuz olaraq ezam etdiyinə və nəticədə praporşik Mahmudağa Vəkilov həlak olduğuna görə

Hərbi nazir 10 iyun 1919-cu il tarixli 290 №-li əmri ilə ona intizam cəzası qaydasında "Töhmət" elan etmiş və həmin əmrdə bildirmişdir ki, "fərari əsgərlərin tutularaq geri qaytarılması yerli icra orqanlarının vəzifə borcudur. Komandirlər tərəfindən bir daha bellə halların baş verməsinə şərait yaradılarsa onların cinayət məsuliyyətinə cəlb ediləcəkdir". 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə Hərbi Məhkəmənin müvəqqəti üzvü seçilib. Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 365 №-li əmri ilə Baş Qərargahın General-Kvartirmeyster idarəsinin baş adyutantı vəzifəsinə təyin edilib. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq, 18 mart 1920-ci il tarixdə Hərbi nazirin 159 №-li əmri ilə Ordunun General-Kvartirmeyster idarəsinin baş adyutantı vəzifəsinə təsdiq edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Ordunun General-Kvartirmeyster idarəsində həqiqi hərbi xidmətdə olub.

1025. **Podporuçik** Məmməd Şefik Həsən **TAKSİNOĞLU**

Milliyəti türk. 01 yanvar 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1920-ci il tarixli 7 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının zabit heyətinin siyahılarına daxil edilməklə Hərbi dəmiryolçular məktəbinə xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi dəmiryolçular məktəbinə xidməti ezamiyyətdə olub.



1026. **General-leytenant-hərbi mühəndis TARXANOV** Qennadiy Nikolayeviç

Miliyyəti rus. 08 sentyabr 1854-cü ildə anadan olub. 1874-cü ildə Sank Peterburqdakı Nikolayev Hərbi Mühəndis Məktəbini və 1881-ci ildə Baş Qərargahın Nikolayev Hərbi Akadeniyasını 1-ci dərəcə ilə bitirib. Çar ordusunda sonuncu vəzifəsi Qafqaz Hərbi Dairəsi qoşunlarının mənzil təminatı idarəsinin rəisi olub. Hərbi xidməti dövründə 1878-ci ildə "3-cü dərəcəli müqəddəs Stanislav (qılınc və lent ilə)", 1893-cü ildə "2-ci dərəcəli müqəddəs Anna", 1913-cü ildə isə "3-cü dərəcəli müqəddəs Anna", 1906-cı ildə "1-ci müqəddəs Vladimir" və 1916-cı ildə isə dərəcəli "2-ci müqəddəs Vladimir" ordenləri ilə təltif edilib.

25 avqust 1919-cu il tarixdə Gürcüstan Respublikasının Tiflis şəhərindən ehtiyatdan "general-leytenant-hərbi mühəndis" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 386 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsi rəisi vəzifəsinə təyin edilib. 30 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 506 №-li əmri ilə Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın üzvü seçilib. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun Mühəndis təchizatı idarəsinin rəisi vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi "general-leytenant" hərbi rütbəsində Ordunun Mühəndis təchizatı idarəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.



1027. **Polkovnik TARXANOV** Yevqeniy Qennadieviç

Milliyəti rus. 10 dekabr 1881-ci ildə anadan olub. Cümhuriyyət Ordusunun Mühəndis təchizatı idarəsinin rəisi general-leytenant-hərbi mühəndis Tarxanov Qennadiy Nikolayeviç oğludur.

18 fevral 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 97 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya batareyasının komandiri vəzifəsinə təyin edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "polkovnik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya batareyasının komandiri kimi həqiqi hərbi xidmətdə olub.

1028. **Polkovnik TAUREN** Aksel Aleksandroviç

17 mart 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və piyada taborunun komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

1029. **Poruçik TATİYEV**

Milliyəti rus. 20 iyun 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə Əlahiddə haubitsalı artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində Əlahiddə haubitsalı artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

1030. **Kornet TATİYEV** Mixayıl

Milliyəti rus. 01 dekabr 1919-cu il tarixdə “kornet” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1919-cu il tarixli 576 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə 14 aprel 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1031. **Podporuçik TATİYEV** Dmitriy

Milliyəti rus. 22 sentyabr 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 26 sentyabr 1919-cu il tarixli 434 №-li əmri ilə 2-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

1032. **Ştabs-kapitan TƏLƏT-ZADƏ** Əhməd Müzəffər bəy

01 aprel 1920-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 182 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

1033. **Podporuçik** hərbi təyyarəçi Xan Afşar **TEMURÇİN**

Milliyəti tatar. 17 avqust 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 avqust 1919-cu il tarixli 370 №-li əmri ilə həqiqi hərbi xidmətini davam etdirmək üçün Baş Qərargah rəisinin sərancamına ezam edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

1034. **Polkovnik TUQANOV** Maqommed bəy

25 may 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 03 avqust 1919-cu il tarixli 347 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandiri vəzifəsinə təyin edilib. 24 mart 1920-ci il tarixdə Hərbi nazirin 163 №-li əmri ilə aşağı vəzifə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin müavini vəzifəsinə

keçirilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

1035. **Polkovnik TUMANOV** Nikolay Dmitriyeviç

Milliyəti rus. 01 fevral 1866-cı ildə anadan olub. 1885-ci ildə Tiflis Kadet Korpusunu və 1886-cı ildə isə Aleksandrovski Hərbi Məktəbini[1] bitirib.

20 sentyabr 1919-cu il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 438 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının təsərrüfat hissəsinin rəisi vəzifəsinə təyin edilib. 14 dekabr 1919-cu il tarixdə Hərbi nazir tərəfindən alayı təftiş etmək üçün göndərilmiş polkovnik Jilyayevin məruzəsinə əsasən alayda çörək bişirilməsi üçün Qusar sakini Hacıağa Quliyevlə bağlanmış müqavilə şərtlərinə baxılmış və məlum olmuşdur ki, müqavilənin şərtlərinə əsasən tədarükçü Hacıağa Quliyev hər bir pud una görə alaya yalnız bir pud çörək verməli və hər çörək bişirənə alaydan üç əsgər ayrılmalıdır. Undan əmələ gələn artım isə tədarükçüyə qalmalıdır. Belə bir müqavilə xəzinədən ayrılan vəsaitin israfına gətirib çıxaracağını bildirən Hərbi nazir tədarükçü ilə müqavilənin ləğv edilməsini və çörəyin alayın öz imkanları hesabına bişirilməsini əmr etmişdir. Bu müqavilənin bağlanması alay komandanlığının təsərrüfat işinin bilməməsi ilə əlaqədar olduğuna əminliyini bildirən Hərbi nazir 18 dekabr 1919-cu il tarixli 580 №-li əmri ilə alay komandirinə xəbərdarlıq və diqqətsizliyinə görə isə təsərüffat hissə rəisi polkovnik Tumanova intizam cəzası qaydasında "Töhmət" elan etmişdir. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

1036. **Podporuçik TUMANOV** Qeorqiy

Milliyəti rus. 25 mart 1920-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 189 №-li əmri ilə Gəncə Əşya anbarının xidmət komandasının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Gəncə Əşya anbarında həqiqi hərbi xidmətdə olub.

1037. **Ştabs-kapitan** Knyaz **TUMANOV** Aleksandr Mixayloviç

Milliyəti rus. 20 iyun 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 323 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 14 iyul 1919-cu il tarixdə Hərbi nazirin 328 №-li əmri ilə 1-ci süvari-dağ artilleriya batareyasına xidmət yeri dəyişdirilib. 24 yanvar 1920-ci il tarixdə isə Hərbi nazirin 30 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionuna keçirilib. Divizionun adyutantı vəzifəsini icra edib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri "ştabs-kapitan (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

1038. **Praporşik TURABOV** Turab

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün

göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.



1039. **General-mayor** (səhra artilleriyası üzrə) **TLEXAS** Murad Gəray bəy

Milliyəti çərkəz. 1874-cü ildə Rusiya İmperiyasının Kuban vilayətinin Yekatinador (indiki Krasnodar) şəhərində hərbiçi ailəsində anadan olub. İlk təhsilini Maykop şəhərində alıb. Peterburq Mixayılovsk Artilleriya Məktəbinin bitirib. 1912-1913-cü illərdə "kapitan" hərbi rütbəsində 51-ci artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub. Port-Artur və Birinci Dünya müharibələrində iştirak edib. Əlahiddə Azərbaycan Korpusunun tərkibindəki 2-ci atıcı artilleriya briqadasının komandiri olub. 1918-ci ilin yayında "general-mayor" hərbi rütbəsi alan ilk Cümhuriyyət zabiti olub.

1918-ci ilin noyabr ayının 7-də Hərbi Nazirlik fəaliyyətə başlayan kimi Hərbi nazirin 15 noyabr 1918-ci il tarixli 2 №-li əmri ilə Hərbi Nazirliyin Artilleriya şöbəsinin rəisi vəzifəsinin icraşısı təyin edilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə Hərbi Nazirliyin Artilleriya İdarəsinin rəisi vəzifəsinə təyin edilib. 20 iyun 1919-cu il tarixdə Hərbi nazirin 304 №-li əmri ilə Cümhuriyyət ordusu üçün Gürcüstan Respublikasının Hərbi Nazirliyindən hərbi əmlakın alınması üzrə komissiyanın sədri təyin edilib. Təşkilati-ştat dəyişikliyinin aparılması ilə əlaqədar olaraq, Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 396 №-li əmri ilə Hərbi Nazirliyin Baş Artilleriya İdarəsinin rəisi və Korpus komandiri səlahiyyəti verilməklə Bakı İstehkam

rayonunun rəisi vəzifəsinə təyin edilib. 19 sentyabr 1919-cu il tarixdə Hərbi nazir 421 №-li əmrində general-mayor Murad Gəray bəy Tlexasın Gürcüstan Respublikasındakı fəaliyyətinə qiymət verərəkən bunları qeyd etmişdir: "Artilleriya idarəsinin rəisi kimi mənim tərəfimdən Gürcüstan Respublikasının Tiflis şəhərinə ordu üçün vacib silah və digər hərbi ləvazimatların alınması üzrə komissiyanın sədri kimi ezam edimişdir. Bəzi çətinliklərə baxmayarq öz vəzifə borclarına vicdanla yanaşmış, qısa müddət ərzində ordu üçün münasib qiymətlərə vacib və qiymətli silah və hərbi əmlak alaraq onların Gəncə və Bakıya göndərilməsini təşkil etmişdir. General Tlexasa qüsursuz və vicdanlı xidmətinə görə "Təşəkkür" elan edirəm". 30 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 506 №-li əmri ilə Hərbi Nazirliyin, hərbi hissələrin ştatlarının yenidən tərtib edilməsi və geyim formasının işlənməsi üzrə komissiyanın üzvü seçilib. 01 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 551 №-li əmri ilə Baş Artilleriya idarəsi rəisi vəzifəsindən azad edilib və Bakı İstehkam rayonunun rəisi və Bakı Hərbi General-Qubernatoru vəzifəsinə təyin edilib. 10 dekabr 1919-cu il tarixdə isə 551 №-li əmrə dəyişiklik edilərək Bakı İstehkam rayonunun rəisi vəzifəsindən azad edilməklə Hərbi nazirin 568 №-li əmri ilə Bakı Hərbi General-Qubernatoru vəzifəsinə təyin edilib. Hərbi nazir 04 dekabr 1919-cu il tarixli 559 №-li əmrində onu Bakı Hərbi General-Qubernatoru vəzifəsinə təyin edilməsi ilə əlaqədar qeyd edirdi "Artilleriya Baş idarəsinin rəisi general-mayor Tlexasın vəzifəsinin icrasına başlaması demək olar ki, Hərbi Nazirliyin, idarələrin və ordunun sıfırdan yaradılması vaxta təsadüf edirdi. General-mayor Tlexas doğma ordumuzun yaradılmasında mənim ən yaxın silahdaşlarımdan biri olmuşdur. Heyrətamiz xidmətçi, ordunun silahlandırılmasına, ölkə üzrə səpələnmiş artilleriya silahlarının toplanmasına, artilleriya emalatxanalarının və anbarlarının yaradılmasına vicdanla böyük əmək sərf etmişdir. İndi, ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi məqsədi ilə mən ona daha

yüksək vəzifənin verilməsi məqsədi ilə Artilleriya Baş idarəsi rəisi vəzifəsindən azad edilməsini məqsədəuyğun hesab etdim. Bir il ərzində xidmətdəki nümunəvi səylərinə və yüksək nəticələrinə görə hörmətli Murad Gəray bəyə səmimi qəlbdən "Təşəkkür" elan edirəm".

1040**. Podporuçik TİŞENKO-MİŞENKO** İpafiy

Milliyəti ukraynalı. 28 noyabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Gəncə hərbi lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsinə təyin edilib. 24 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 43 №-li əmri ilə vəzifəsindən azad edilib və Hərbi nazirin 24 fevral 1919-cu il tarixli 98 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1041. **Podporuçik TRİFİNOV**

Milliyəti rus. 22 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1-ci piyada diviziyası qərargahının sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 27 avqust 1919-cu il tarixli 374 №-li əmri ilə 21 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1042. **Podporuçik TRETYAKOV** Leonid Qriqoriyeviç

Milliyəti rus. 07 may 1919-cu il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 11 may 1919-cu il tarixli 244 №-li əmri ilə Baş Qərargah idarəsinin Topoqrafiya bölməsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün

göndərilib. Hərbi nazirin 15 oktyabr 1919-cu il tarixli 474 №-li əmri ilə Baş Qərargah idarəsinin Topoqrafiya bölməsinin kiçik iş icraçısı vəzifəsinə təyin edilib. Təşkilati-ştat dəyişikləri ilə əlaqədar olaraq 18 mart 1920-ci il tarixdə Hərbi nazirin 159 №-li əmri ilə Ordunun Topoqrafiya şöbəsinin kiçik iş icraçısı vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Ordunun Topoqrafiya şöbəsində həqiqi hərbi xidmətdə olub.

1043. **Podpolkovnik TONQİYEV** Səid

Milliyəti çeçen. 25 iyul 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 iyul 1919-cu il tarixli 344 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 12 sentyabr 1919-cu il tarixli 403 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayına keçirilib. Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 581 №-li əmri ilə 07 dekabr 1919-cu il tarixdən Süvari diviziyasının 3-cü Şəki süvari alayının komandiri vəzifəsinə təyin edilmiş hesab edilib. Cümhuriyyətin süqutundan sonra Polşa ordusunda xidmət etmiş Vəli bəy Yadigarın (Cümhuriyyət ordusunda Yadigarov Vəli bəy Sadıq bəy oğlu kimi adı keçir) 1960-cı ilin aprel ayının 27-də Argentinada mühacirətdə olarkən "Mücahid" jurnalında çap olunan "40 illik köləlik nizamı" adlı xatirələrində podpolkovnik Səid Tonqiyevin alayın şəxsi heyətindən fərqli olaraq Gəncə üsyanına qatılmaması və müavini podpolkovnik Ehsan Xan Naxçıvanski ilə birlikdə Gəncə üsyanını yatırmağa gedən rus əsgərləri tərəfindən Yayla stansiyasında qətl edildiyi bildirilir.

1044. **Praporşik TOMTİYEV** Əhməd

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 3-cü piyada taborunun 11-ci piyada bölüyünün komandiri vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.



1045. **General-mayor USUBOV** Ibrahim ağa Musa ağa oğlu

06 may 1875-ci il tarixdə Yelizavetpol quberniyasında hərbiçi ailəsində anadan olub. Atası Musa ağa Yusuf oğlu Çar ordusunda "poruçik" rütbəsində həbi xidmətdə olub və 22 iyun 1891-ci il tarixdə vəfat edib.

Tiflis Kadet Korpusunda təhsil alıb. 01 sentyabr 1892-ci il tarixdə 2-ci Konstantinovsk[1] Hərbi məktəbinə daxil olub və 08 avqust 1894-cü il tarixdə həmin məktəbi "podporuçik" hərbi rütbəsində 1-ci dərəcə ilə bitirib. 08 avqust 1894-cü il tarixdə 122-ci Tambov piyada alayına təyinat alır. 15 may 1898-ci il tarixdə "poruçik" və 15 may 1902-ci il tarixdə isə "ştabs-kapitan" hərbi rütbələrinə layiq görülür. 1904-1905-ci il tarixlərdə Rus-Yapon müharibəsində iştirak edib, kontuziya alıb. 11 may 1905-ci il tarixdən 122-ci Tambov piyada alayının 4-cü piyada bölüyünün komandiri vəzifəsinə təyin edilir. Döyüşlədə fərqləndiyinə görə 07 may 1905-ci il tarixdə növbəti "kapitan" hərbi rütbəsi verilib. 14 avqust 1914-cü il tarixdə

122-ci Tambov piyada alayının 1-ci piyada taborunun komandiri vəzifəsinə təyin edilir. 13 avqust 1914-cü il tarixdə Kozlov alayı istiqamətində cəhbənin yarılmış boşluğunu tutaraq düşmən artilleriyasının atəş açmasına imkan vermədiyi üçün 08 dekabr 1914-cü il tarixdə növbəti "podpolkovnik" hərbi rütbəsinə layiq görülür. Hərbi xidmətdə və döyüşlərdə fərqləndiyinə görə 01 avqust 1915-ci il tarixdə vaxtından əvvəl "polkovnik" hərbi rütbəsi alır. 08 dekabr 1916-cı il tarixdə 122-ci Ural piyada alayının komandiri təyin edilir. 07 noyabr 1915-ci il tarixdə ona İmperator tərəfindən "Təşəkkür" elan edilir. 05 may 1917-ci il tarixdə isə 133-cü piyada diviziyasının piyada briqadasının komandiri vəzifəsinin icraçısı təyin edilir. 01 iyul 1917-ci il tarixdə "general-mayor" hərbi rütbəsi verilməklə 133-cü piyada diviziyasının piyada briqada komandiri vəzifəsinə təsdiq edilir. Çar ordusunda həqiqi hərbi xidməti zamanı aşağıda göstərilən ordenlərlə təltif edilmişdir: 19 mart 1905-ci il tarixdə "4-cü dərəcəli müqəddəs Anna (üzərində igidliyə görə yazısı ilə)", 11 dekabr 1905-ci il tarixdə yaponlara qarşı döyüşlərdə fərqləndiyinə görə "4-cü dərəcəli müqəddəs Vladimir (qılınc və bant ilə)", 21 noyabr 1906-cı il tarixdə "3-cü dərəcəli müqəddəs Stanislav (qılınc və bant ilə)", 06 dekabr 1909-cu il tarixdə "3-cü dərəcəli müqəddəs Anna", 06 fevral 1913-cü il tarixdə "2-ci dərəcəli müqəddəs Stanislav", 01 mart 1915-ci il tarixdə "2-ci dərəcəli müqəddəs Anna (qılıncla)" (26 avqust 1914-cü il tarixdə 372 №-li yüksəklikdəki düşmən döyüş mövqeyini tərk etməsində göstərdiyi igidliyə görə), 09 sentyabr 1915-ci il tarixdə "4-cü dərəcəli müqəddəs Georgi" (04 oktyabr 1914-cü il tarixdə piyada taboruna komandanlıq edərkən Mizines kəndi yaxınlığındakı yüksəkliyə hücum zamanı həmin yüksəklikdəki düşməni iki eşalonlu səngərlərini tərk etməyə məcbur etdiyinə, üç gün ərzində avstryalıların Peremışl qalasından artilleriya atəşi ilə dəstəklənən hücumlarını dəf etməklə öz qüvvələrinin döyüş tapşırığının yerinə yetirilməsinə imkan yaratdığına görə) və 29 dekabr 1916-cı il

tarixdə “3-cü dərəcəli müqəddəs Vladimir (qılıncla)” ordenləri ilə təltif edilmişdir. 29 aprel və 17 may 1917-ci il tarixlərdə əvvəllər təqdim edilmiş “2-ci dərəcəli müqəddəs Stanislav” ordeninə aid qılınc və “3-cü dərəcəli müqəddəs Anna” ordeninə aid qılınc və bantla ona təqdim edilib.

Cümhuriyyət Hərbi nazirinin 15 noyabr 1918-ci il tarixli 2 №-li əmri ilə Hərbi Nazirliyin Atıcılıq üzrə müfəttişi və hərbi təhsil müəssisələrinin rəisi vəzifəsinə təyin edilir. 09 yanvar 1919-cu il tarixdə isə Hərbi nazirin 20 №-li əmri ilə Hərbi Nazirin tapşırıqçısı vəzifəsinə keçirilir. 14 may 1919-cu il tarixdə Hərbi nazirin 245 №-li əmri ilə Bakı şəhərində yerləşən Cümhuriyyət ordusuna aid hərbi hissələr və müalicə müəssisələri tabe edilməklə qarnizon rəisi vəzifəsi həvalə edilir. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 2-ci piyada diviziyasının komandiri təyin edilir. 23 sentyabr 1919-cu il tarixdən 17 fevral 1920-ci il tarixədək Hərbi nazirin 438 №-li əmri ilə xüsusi tapşırıqla İtaliyaya xarici ezamiyyətə göndərilir. Xarici ezamiyyətdən qayıtdıqdan sonra Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə 2-ci piyada diviziyasının komandiri vəzifəsində qalmaqla Bakı İstehkam rayonu rəisinin müavini (Bakı İstehkam rəisi vəzifə maaşı verilməklə) vəzifəsi həvalə edilir.

Həyat yoldaşı: Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbovun kiçik qızı Gövhər xanım Qaibova ilə 1910-cu ildə ailə həyatı qurub (tam artilleriya generalı Əli ağa Şıxlinski ilə bacanaq olublar). Bu nigahdan: İsmayıl adlı oğlu, Sureyya və Nigar xanım adlı qızları olub.

1046. **Podporuçik USUBBƏYOV** Eyyub

24 iyul 1895-ci il tarixdə anadan olub. Tiflis Texniki məktəbin 2 sinfini bitirib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının

1-ci yüngül artilleriya divizionu komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Briqadanın rabitə rəisi vəzifəsinin icraçısı olub. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə “praporşik” hərbi rütbəsi verilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri “podporuçik (artilleriya üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

1047. **Praporşik USUBOV** Mikayıl

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində artilleriya ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə “praporşik” hərbi rütbəsi verilib. Hərbi nazirin 21 iyun 1919-cu il tarixli 305 №-li əmri ilə Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. 28 iyul 1919-cu il tarixdə ezamiyyətdən qayıtdıqdan sonra Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayına təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 553 №-li əmri ilə isə Ağstafa dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində Ağstafa dəmir yolu stansiyası komendantının köməkçisi kimi həqiqi hərbi xidmətdə olub.

1048. **Podyesaul USPENSKİ**

Milliyəti rus. 09 dekabr 1918-ci il tarixdə “podyesaul” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə

qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Ümumi Qərargahın Əməliyyat şöbəsinin baş zabiti vəzifəsinə təyin edilib. 04 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 454 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1049. **Praporşik USATOV**

Milliyəti rus. 20 dekabr 1918-ci il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Yevlax dəmir yolu stansiyasının komendantı vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 102 №-li əmri ilə öz arzusu ilə 25 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1050. **Ştabs-rotmistr URUMOV**

20 yanvar 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 15 oktyabr 1919-cu il tarixli 473 №-li əmri ilə öz arzusu ilə 08 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1051. **Kornet URUMOV**

19 yanvar 1919-cu il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi

nazirin 01 iyun 1919-cu il tarixli 275 №-li əmri ilə 26 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

### 1052. **Podpolkovnik UMANES**

15 fevral 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Xankəndi ərzaq mağazasının rəisi vəzifəsinə təyin edilib. Xankəndi ərzaq mağazası ləğv edildiyi üçün Hərbi nazirin 26 dekabr 1919-cu il tarixli 595 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatal piyada alayı komandirinin sərəncamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatal piyada alayında həqiqi hərbi xidmətdə olub.

### 1053. **Polkovnik ÜMİDOV**

05 yanvar 1920-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 09 yanvar 1920-ci il tarixli 13 №-li əmri ilə 1-ci dərəcəli Ləki artilleriya anbarının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində 1-ci dərəcəli Ləki artilleriya anbarının rəisi kimi həqiqi hərbi xidmətdə olub.

### 1054. **Poruçik VALOBUYEV**

Milliyəti rus. 01 yanvar 1919-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya bölməsi rəisinin

sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat dəyişikləri ilə əlaqədar olaraq 18 mart 1920-ci il tarixdə Hərbi nazirin 159 №-li əmri ilə Hərbi topoqrafiya bölməsi Ordunun Topoqrafiya şöbəsi adlanıb və xidmət yeri həmin şöbədə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Ordunun Topoqrafiya şöbəsində həqiqi hərbi xidmətdə olub.

1055. **Sotnik VASİLİYEV**

Milliyəti rus. 17 aprel 1920-ci il tarixdə "sotnik" (Çar ordusunda Kazak qoşunlarına aid hərbi rütbə. Piyada qoşunlarında "poruçik" hərbi rütbəsinə, hal-hazırda isə "baş leytenant" hərbi rütbəsinə bərabər hərbi rütbə) hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 22 aprel 1920-ci il tarixli 234 №-li əmri ilə 2-ci Artilleriya briqadasının artilleriya silahları üzrə texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "sotnik" hərbi rütbəsində 2-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

1056. **Polkovnik VASİLEVSKİ**

Milliyəti rus. 15 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına (Göndəriş vərəqəsi №13) həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 yanvar 1919-cu il tarixli 35 №-li əmri ilə 01 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1057. **Poruçik VAÇNADZE** Ziya

Milliyəti gürcü. 07 may 1919-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə Əlahiddə Zaqatala piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və birləşmiş taborun komandiri (сводный батальон)* vəzifəsinə təyin edilib. 14 iyul 1919-cu il tarixdə təkrarən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "poruçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Qarabağda erməni-daşnak qüvvələrinə qarşı aparılan döyüş əməliyyatlarında yaralanaraq 19 aprel 1920-ci il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

*сводный батальон – bir neçə ayrı-ayrı bölmələrin şəxsi heyətindən təşkil eilmiş qarışıq tabor.

1058. **Kapitan** Knyaz **VAÇNADZE** David

Milliyyəti gürcü. 08 sentyabr 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri

ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 7-ci Şirvan piyada alayında həqiqi hərbi xidmətdə olub.



1059. **General-mayor VƏKİLOV** İbrahim ağa Paşa ağa oğlu

07 may 1853-cü ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Qırıx Salahlı kəndində anadan olub. Atası Zaqafqaziya süvari müsəlman alayının praporşiki olub. 1866-cı ildə Tiflis 3-cü Mejavoy Gimnaziyasının hazırlıq bölməsinə daxil olub və 1875-ci ildə həmin Gimnaziyanı bitirib. 1875-ci ildə Peterburq Hərbi Topoqrafiya Məktəbinə daxil olur və 1879-cu ildə həmin məktəbi "praporşik" hərbi rütbəsində bitirərək Qafqaz hərbi dairəsinin hərbi topoqrafiya şöbəsində topoqrafiya işləri üzrə iş icraçısı vəzifəsinə təyinat alır. 1891, 1894, 1896 və 1897-ci illərdə İstanbuldakı rus səfirliyinin hərbi attaşesinin sərəncamında xidmət edib. Rus-Fars, Qafqaz, Krım və Qars vilayətlərinin topoqrafik xəritələrinin hazırlanmasında və dəqiqləşdirilməsində iştirak edib. 1911-ci ildə Qafqaz hərbi dairəsinin hərbi topoqrafiya şöbəsinin çəkiliş bölməsinin rəisi təyin edilib. 02 aprel 1917-ci il tarixdə nümunəvi xidmətinə görə "polkovnik" hərbi rütbəsinə layiq görülüb. Çar ordusunda hərbi xidmətdə olarkən 1894-cü il ildə "2-ci dərəcəli müqəddəs Stanislav", 1897-ci ildə "2-ci dərəcəli müqəddəs Anna" və 1903-cü ildə "4-cü dərəcəli müqəddəs Vladimir" ordenləri ilə təltif edilib. 1918-ci ilin əvvəllərində Azərbaycan qayıdıb. 14 may 1919-cu il tarixədək Gəncə General Qubernatoru vəzifəsində işləyib. 30 mart 1919-cu il tarixdə Gəncə General

Qubernatoru vəzifəsində olarkən “general-mayor” hərbi rütbəsinə layiq görülüb.

14 may 1919-cu il tarixdə “general-mayor” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. Nazirlər Şurası Sədrinin 06 may 1919-cu il tarixli və Hərbi nazirin 14 may 1919-cu il tarixli 248 №-li əmri ilə Hərbi Nazirliyin Toqoqrafiya şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə Ordu Qərargahının Hərbi topoqrafiya şöbəsinin rəisi vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi “general-mayor” hərbi rütbəsində Ordu Qərargahının Hərbi topoqrafiya şöbəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

### 1060. **Polkovnik VƏKİLOV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri kimi həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Alaydakı hərbi intizamın aşağı olmasına görə Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli 22 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri vəzifəsindən azad edilib. Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 181 №-li əmri ilə 01 fevral 1919-cu il tarixdən aşağı vəzifəyə Hərbi Nazirliyin İntendant idarəsinin Əşya anbarının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar “polkovnik” hərbi rütbəsində Ordunun İntendant idarəsinin Əşya anbarı rəisi kimi həqiqi hərbi xidmətdə olub.

1061. **Polkovnik VƏKİLOV** Qalib bəy İbrahim ağa oğlu (Atası Ordunun topoqrafiya şöbəsinin rəisi olmuş general-mayor İbrahim ağa Vəkilovdur)

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında "podpolkovnik" hərbi rütbəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 15 noyabr 1918-ci il tarixli 2 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisi vəzifəsinin müvəqqəti icraşısı təyin edilib. 04 fevral 1919-cu il tarixdə Hərbi nazirin 56 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin müavini vəzifəsinə təsdiq olunub. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 11 mart 1919-cu il tarixli 123 №-li əmri ilə Mühəndis şöbəsinin 15 fevral 1919-cu il tarixdən Mühəndis idarəsi adlandırılması ilə əlaqədar Hərbi Nazirliyin Mühəndis idarəsi rəisinin müavini vəzifəsinə təsdiq edilib. 09 sentyabr 1919-cu il tarixdə isə Hərbi nazirin 396 №-li əmri ilə Bakı İstehkam rayonu rəisinə birbaşa tabe edilməklə Bakı İstehkam rayonunda mühəndis işlərinə cavabdehlik də ona həvalə edilib. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar Mühəndis idarəsi həmin tarixdən Ordunu Mühəndis təchizatı idarəsi adlandırılıb və xidmət yeri həmin idarədə saxlanılmışdır. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (mühəndis qoşunları üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Ordunu Mühəndis təchizatı idarəsi rəisinin müavini və Bakı İstehkam rayonunda mühəndis işlərinə cavabdeh kimi həqiqi hərbi xidmətdə olub.

1062. **Rotmistr VƏKİLOV** Gəray bəy Abbasqulu bəy oğlu

1884-cü ildə anadan olub. Atası Abbasqulu bəy Məmmədhəsən oğlu Vəkilov Çar ordusunu polkovniki olub. Tiflis Kadet Korpusunu bitirib. Birinci Dünya müharibəsində iştirak edib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alay komandirinin təsərrüfat hissə üzrə köməkçisi vəzifəsində həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "rotmistr" (piyada qoşunlarında "kapitan" müasir dövürdəki "mayor" hərbi rütbəsi) hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

Həyat yoldaşı: 1913-cü ildə Sitarə xanım Məmməd qızı Bədəlova ilə ailə həyatı qurub. Bu evlilikdən 1914-cü ildə Böyükağa, 1916-cı ildə Rüstəm, 1921-ci ildə Fərrux adlı oğulları və 1920-ci ildə isə Sona (Süfiyyə) adlı qızları olmuşdur.



1063. **Kornet VƏKİLOV** Lütfəli bəy Abbasqulu bəy oğlu

1890-cı ildə anadan olub. Atası Abbasqulu bəy Məmmədhəsən oğlu Vəkilov Çar ordusunu polkovniki olub. Böyük qardaşı rotmistr Gəray bəy Vəkilovla eyni alayda xidmət edib. 26 iyun 1918-ci il tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. Qafqaz İslam Ordusunun tərkibində "praporşik' hərbi

rütbəsində həqiqi hərbi xidmətdə olub. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmət keçdiyi qeyd edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "kornet (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

1064. **Podporuçik VƏKİLOV** Bahadur bəy

1899-cu ildə Yelizavetpol quberniyasının Qazax qəzasında bəy ailəsində anadan olub. Tiflis Gimnaziyasında təhsil alıb. 15 may 1918-ci il tarixdə könüllü olaraq Müsəlman Korpusunda həqiqi hərbi xidmətə qəbul edilib. 01 sentyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində piyada ixtisası üzrə birinci dərəcə ilə bitirib və Məktəb rəisinin sərancamında həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Məktəb rəisi podpolkovnik Kəsəmənskinin 28 fevral 1919-cu il tarixli attestasiya vərəqində onun yüksək nizam-intizama və mənəvi keyfiyyətlərə malik olduğu qeyd edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və xidmət yeri həmin məktəbdə saxlanılıb. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

1065. **Podporuçik VƏKİLOV** Sadıx bəy

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini "podpraporşik" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 1919-cu ilin mart ayının 1-də Cümhuriyyət Hərbi Nazirliyi tərəfindən Naxçıvan qəzasına ezam edilmiş zabit heyətinin tərkibində olub. 01 mart 1918-ci il tarixdən 01 may 1919-cu il tarixədək Şərur-Naxçıvan qəzası qoşunları komandanı Kərbalayı Xan Naxçıvanskinin tabeliyində xidmət edib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə "praporşik" hərbi rütbəsi verilib. 15 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 473 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı keçirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

Cümhuriyyətin süqutundan sonra Polşa ordusunda xidmət etmiş Vəli bəy Yadigarın (Cümhuriyyət ordusunda Yadigarov Vəli bəy Sadıq bəy oğlu kimi adı keçir) 1960-cı ilin aprel ayının 27-də Argentinada mühacirətdə olarkən "Mücahid" jurnalında çap olunan "40 illik köləlik nizamı" adlı xatirələrində podporuçik Sadıx bəy Vəkilovdan (Vəkilli Sadıq kimi qeyd edib). Onun qeydlərinə görə podporuçik Sadıx Vəkilov həmin dövürdə Süvari diviziyası qərargahında 3-cü Şəki süvari alayı üzrə əlaqələndirici zabit olmuşdur və diviziya komandiri general-mayor Teymur Novruzovun 3-cü Şəki süvari alayının Gəncə üsyanına qatılma əmrini də alaya podporuçik Sadıx Vəkilov təqdim etmişdir. Həmin əmrə görə, "3-cü Şəki süvari alayı gecə hərəkət edərək cəbri yürüşlə Gəncəyə gəlməli idi".

1066. **Podporuçik VƏKİLOV**

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvələrində zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında “podporuçik” hərbi rütbəsində Hökümətin konvoy bölüyü komandirinin sərancamında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hökümətin konvoy bölüyü ləğv edildiyi üçün Hərbi nazirin 26 noyabr 1919-ci il tarixli 545 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

1067. **Praporşik VƏKİLOV** Nəsib ağa Əsəd ağa oğlu

1899-cu ildə Qazax qəzasında hərbiçi ailəsində anadan olub. Qori Seminariyasında təhsil alıb. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə “praporşik” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1068. **Podporuçik VƏKİLOV** Zəkəriyyə

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 mart 1919-cu il

tarixli 139 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Mühəndis Məktəbinə mühəndis işinin öyrənilməsi üçün ezam edilib. Mühəndis Məktəbində kursu bitirərək sınaq imtahanlarını müvəffəqiyyətlə verdiyinə görə Hərbi nazirin 13 mart 1920-ci il tarixli 153 №-li əmri ilə hərbi rütbəsi mühəndis qoşunlarında hərbi rütbəyə uyğunlaşdırılmaqla Mühəndis Məktəbi rəisinin sərancamında hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (mühəndis qoşunları üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Mühəndis Məktəbində həqiqi hərbi xidmətdə olub.

1069. **Podporuçik VƏKİLOV** İsrafil

18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini “podpraporşik” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. 15 dekabr 1919-cu il tarixdə isə Hərbi nazirin 576 №-li əmri ilə Bakı İstehkam rayonunun mövqe batareyasına keçirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində Bakı İstehkam rayonunun mövqe batareyasında həqiqi hərbi xidmətdə olub.

1070. **Praporşik VƏKİLOV** Mahmudağa Əbdürrəhmanağa oğlu

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. İyun ayının 3-dən 4-nə keçən gecə hərbi hissəni özbaşına tərk etmiş əsgərləri geri qaytarmaq üçün bölük komandiri tərəfindən 5 süvari əsgər ilə Xınalı kəndinə ezam edilmiş və həmin kənddə fərarilik etmiş iki əsgəri tutaraq saxlamışdır. Üçüncü fərari əsgərin arxasınca yollanarkən evlərin birindən onlara tərəf silahın tuşlandığını gördükdə "Axmaqlıq etmə, mən sənə toxunmayacam yalnız fərari əsgərin arxasınca gəlmişəm" deyərək qaranlıqda diqqəti özünə çəkmişdir. Xaincəsinə açılan güllə onu ölümcül yaralasada tam sakinliyini qorumuş və atdan düşərək uzanaraq ölmüşdür. Bunulada zabit şərəfini üstün tutaraq tabeliyində olan süvari əsgərləri qorumaq üçün xaincəsinə açılan gülləni özünə istiqamətləndirmişdir. Hərbi nazir 10 iyun 1919-cu il tarixli 290 №-li əmrində onun bu fədakarlığını, cəsurluğunu və tabeliyində olan şəxsi heyət üçün öz canını qurban verməsini yüksək qiymətləndirmiş və atası Əbdürrəhmanağa Vəkilova oğlunun cənazə xərclərinin qarşılanması üçün Hərbi Nazirliyin büdcəsindən 5000 (beş min) rubl həcmində birdəfəlik yardımın ayrılmasını əmr edilmişdir.

Xidməti vəzifəsini yerinə yetirərkən həlak olduğu üçün Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.



1071. **General-mayor VƏZİROV** Fridun bəy Cəlal bəy Qiyas oğlu

19 aprel 1850-ci ildə Tiflisdə zadəgan ailəsində anadan olub. Tiflis klassik gimnaziyasını bitirib. Hərbi xidmətə 1868-ci inin aprel ayında Belarus qusar alayında kiçik zabit kimi qəbul edilib. 1870-ci ildə Yelizavetqrad Süvari Məktəbini bitirib. 08 noyabr 1876-cı il tarixdə 15-ci Tver draqun alayına keçirilib. 1877-1878-ci illərdə Rus-Türk müharibəsində 15-ci Tver draqun alayının 4-cü eskadronunun komandiri olub. 1882-ci ilin may ayında Qafqaz hərbi dairə məhkəməsinin üzvü olub. 11 noyabr 1890-cı il tarixdə 28-ci Novqorod draqun alayına keçirilib. 13 oktyabr 1897-ci il tarixdə xidmətdə fərqləndiyinə görə "polkovnik" hərbi rütbəsi verilib. 28 yanvar 1900-cu il tarixdə 10-cu Novotrousko-Yekatrinslavski draqun alayının komandiri təyin edilib. Həmin alayın tərkibində Varşava və Rılski şəhərlərində hərbi xidmətdə olub. 1906-cı ilin aprel ayının 18-də "general-mayor" hərbi rütbəsində geyim forması daşımaq hüququ ilə ordudan ehtiyata buraxılır. Çar ordusunda hərbi xidməti zamanı 1882-ci ildə "3-cü dərəcəli müqəddəs Stanislav (qılınc və bant ilə)", 1893-cü ildə "2-ci dərəcəli müqəddəs Stanislav (qılınc və bant ilə)", 1898-ci ildə "4-cü dərəcəli müqəddəs Vladimir" ordenləri və 1905-ci ildə isə 2-ci dərəcəli "25 il qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

01 avqust 1919-cu il tarixdə ehtiyatdan "general-mayor" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 07 avqust 1919-cu il tarixli 351 №-li əmri ilə Bakı şəhərinin hərbi komendantı (general-mayor vəzifəsi) vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində Bakı şəhərinin hərbi komendantı kimi həqiqi hərbi xidmətdə olub.

1072. **Polkovnik VƏZİROV** Azad bəy

15 noyabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 11 №-li əmri ilə Gəncə qəza hərbi rəisi vəzifəsinin icraçısı (Qazax qəzası daxil olmaqla) təyin edilib. Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 88 №-li əmri ilə Bakı qəza hərbi rəisi vəzifəsinə keçirilib. 27 may 1919-cu il tarixdə Hərbi nazirin 268 №-li əmri ilə Bakı şəhərinin hərbi komendantı vəzifəsinə təyin edilir. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olarq 01 avqust 1919-cu il tarixdən Bakı şəhərinin hərbi komendantı vəzifəsinin "general-mayor" ştat kateqriyalı vəzifə olması ilə əlaqədar Hərbi nazirin 07 avqust 1919-cu il tarixli 351 №-li əmri ilə Bakı şəhərinin hərbi komendantının müavini vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi "polkovnik" hərbi rütbəsində Bakı şəhərinin hərbi komendanturasında həqiqi hərbi xidmətdə olub.

1073. **Praporşik VƏZİROV** Bahadur

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini süvari ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

1074. **Praporşik VƏZİROV** Cəlal

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini artilleriya ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1 №-li Zirehli qatarın artilleriya bölməsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1 №-li Zirehli qatarda həqiqi hərbi xidmətdə olub.

1075. **Praporşik VƏZİROV** Hüseyn

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Məktəb rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün saxlanılıb. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və həmin məktəbin 2-ci yunker bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

1076. **Podporuçik VƏLİYEV**

13 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 1-ci piyada taborunun piyada bölük komandiri vəzifəsinin icraçısı təyin edilib. 25 yanvar 1919-ci il tarixdə Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov tərəfindən 1-ci piyada taboru təftiş edilərkən tabeliyində olan əsgər Hərbi nazirin etdiyi iradlara məhəl qoymayaraq intizamsız davranış etdiyinə görə

Hərbi nazir tərəfindən 17 fevral 1919-cu il tarixli 85 №-li əmri ilə intizamsızlıq etmiş əsgərə 7 (yeddi) sutka, podporuçik Vəliyevə isə 3 (üç) sutka hauptvaxtada saxlanılmaqla həbs cəza verilmişdir. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1077. **Podporuçik VƏLİYEV (ABDUL-VƏLİYEV)**

Ümumi Qərargah rəisinin 1-ci piyada diviziyası komandirinə ünvanladığı 19 dekabr 1918-ci il tarixli 461/170 nömrəli təcili teleqrammada onun 1-ci piyada diviziyası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərildiyi bildirilir. Həmin sənədə istinadən onun həmin tarixdən Cümhuriyyət ordusunda rəsmi olaraq həqiqi hərbi xidmətə qəbul edilməsi hesab etmək olar. Hərbi nazirin 24 dekabr 1918-cu il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboruna təyin edilir. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Təlim taboru Qazax çəhərində dislokasiya edilməklə Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taboru kimi təşkil edilib və xidmət yeri həmin taborda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1078. **Praporşik VƏLİYEV** Mahmud

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib.

Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

1079. **Praporşik VƏLİYEV** Vəli

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə xidmət yeri 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

1080. **Podporuçik VƏLİXANOV** Əhməd

09 yanvar 1900-cu il tarixdə Yelizavetpol quberniyasında anadan olub. Tiflis Gimnaziyasının 4 sinifin bitirib. 21 noyabr 1917-ci il tarixdə Milli Təlim Komandasında həqiqi hərbi xidmətə qəbul edilib. 23 iyun 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbində hərbi təhsil almaq üçün göndərilib. 18 noyabr 1918-ci il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 9-cu piyada bölüyünün kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq

görülüb. Hərbi nazirin 01 aprel 1920-ci il tarixli 182 №-li əmri ilə Kürd atıcı taboruna xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində Kürd atıcı taborunda həqiqi hərbi xidmətdə olub.

1081. **Ştabs-kapitan VƏZİROV** Heydər bəy

10 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və həmin məktəbin 2-ci yünker bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

1082. **Podpolkovnik VOLINSKİ**

12 dekabr 1918-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının baş adyutantın köməkçisi vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 11 oktyabr 1919-cu il tarixli 458 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1083. **Ştabs-kapitan VOLOTOVSKİ**

26 dekabr 1918-ci il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Vəzifə borclarına səhlənkar yanaşdığına görə Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə 02 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1084. **Podpolkovnik VOYÇEK**

11 yanvar 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Göyçay qəza hərbi rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 424 №-li əmri ilə 18 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1085. **Kapitan VOYNİK-SENOJENSKİ**

27 mart 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 mart 1919-cu il tarixli 151 №-li əmri ilə Xankəndi yerli lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində Xankəndi yerli lazaretin təsərüffat hissəsinin rəisi kimi həqiqi hərbi xidmətdə olub.

1086. **Podpolkovnik VETOŞNİKOV** Vladimir Aleksandroviç

Milliyəti rus. 14 dekabr 1918-ci il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi rəisinin müavini vəzifəsinə təyin edilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və həmin məktəbin Təsərrüfat hissəsi rəisi vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podpolkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Hərbi Məktəbdə həqiqi hərbi xidmətdə olub.

1087. **Poruçik VERÇİK**

14 dekabr 1918-ci il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Təlim taboru Qazax çəhərində dislokasiya edilməklə Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 28 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taboru kimi təşkil edilib və xidmət yeri həmin taborda saxlanılıb. Hərbi nazirin 14 mart 1919-cu il tarixli 126 №-li əmri ilə 13 mart 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1088. **Praporşik VERDİYEV** İsa

01 sentyabr 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xankəndi və Şuşa qarnizonlarına ermənilərin gecə qəfil hücumları nəticəsində 23 mart 1920-ci il tarixdə həlak olduğu üçün Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

1089. **Praporşik VEYİSOV**

27 yanvar 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 194 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

1090. **Polkovnik VİNİSKİ**

03 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə

Artilleriya idarəsi rəisinin texniki hissə üzrə müavini vəzifəsinə təyin edilib. Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 187 №-li əmri ilə 03 aprel 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1091. **Kapitan VİLKANES** Pyotr İosifoviç

Milliyəti litvalı. 11 fevral 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və piyada taborunun komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

1092. **Podporuçik YAQİƏLİYEV** Məcid

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.



1093. **General-mayor YADİGAROV** Davud bəy Sadıq bəy oğlu

1881-ci ildə Borçalı qəzasının Təkəli kəndində anadan olub. 1903-cü ildə Peterburq Pajes Korpusunu bitirib.

15 dekabr 1918-ci il tarixdə "polkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda

həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 dekabr 1918-ci il tarixli 22 №-li əmri ilə Hərbi Nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 dekabr 1918-ci il tarixli 24 №-li əmri ilə isə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının komandiri vəzifəsinə təyin edilir. Hərbi nazirin 38 №-li 22 yanvar 1919-cu il tarixli əmrinin tələblərini pozaraq Cümhuriyyət ordusunda (25 noyabr 1918-ci il tarixdən hesablanmaqla) 6 (altı) aydan az xidmət etmiş zabiti (ştabs-rotmistr Seyidəliyevi) məzuniyyətə buraxdığına görə[1] Hərbi nazirin 11 mart 1919-cu il tarixli 119 №-li əmri ilə ona "Töhmət" elan edilib. Əmrdə onun təkrarən belə diqqətsizliyinə yol verəcəyi halda vəzifəsindən azad ediləcəyi barədə xəbərdarlıq da edilmişdir. 28 iyun 1919-cu il tarixdə isə tabeliyində olan hərbi hissədə yüksək nizam-intizama və döyüş hazırlığına görə Hərbi nazir tərəfindən 314 №-li əmrlə "Təşəkkür" elan edilib. 01 avqust 1919-cu il tarixdə Hərbi nazirin 347 №-li əmri ilə yuxarı vəzifəyə Süvari diviziyası komandirinin müavini vəzifəsinə irəli çəkilir. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 08 oktyabr 1919-cu il 39 №-li və Hərbi nazirin 23 oktyabr 1919-cu il tarixli 492 №-li əmri ilə "general-mayor" hərbi rütbəsinə layiq görülür. 07 dekabr 1919-cu il tarixdə Hərbi nazirin 560 №-li əmri ilə aşağı vəzifə Hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə keçirilir. 01 mart 1920-ci il tarixdə Hərbi Nazirlikdə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə yuxarı vəzifəyə Ordu Qərargahında Ezamiyyətlər və tapşırıqlar üzrə general vəzifəsinin icraçısı təyin edilir. Cümhuriyyətin süqutuna kimi "general-mayor" hərbi rütbəsində Ordu Qərargahında həqiqi hərbi xidmətdə olub.

[1] Hərbi nazir 22 yanvar 1919-cu il tarixli 38 №-li əmrinin 7-ci paraqrafında zabit heyətinin yalnız altı ay Cümhuriyyət ordusunda həqiqi hərbi xidmət etdikdən sonra məzuniyyət hüququnun olduğu qeyd edilib. Bu əmrin tələblərinin yerinə

yetirilməsi qeyri-şərtsiz olaraq bütün komandir heyəti tərəfindən yerinə yetirilməsi əmr edilib.

1094. **Rotmistr YADİGAROV** Danil bəy

06 dekabr 1918-ci il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının 2-ci süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "rotmistr (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.

1095. **Rotmistr YADİGAROV** Məmməd bəy

07 yanvar 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı 3-cü süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. 06 mart 1920-ci il tarixdə Hərbi nazirin 131 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına xidmət yeri dəyişdirilib. Xankəndi və Şuşa qarnizonlarına ermənilərin gecə qəfil hücumları nəticəsində 23 mart 1920-ci il tarixdə həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət Ordusu siyahılarından çıxarılıb.

1096. **Ştabs-rotmistr YADİGAROV** Rəhim bəy

18 yanvar 1919-cu il tarixdə "kornet" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və

Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (süvari üzrə)" hərbi rütbəsi verilib. Döyüş əməliyyatlarında fərqləndiyinə görə isə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "ştabs-rotmistr (süvari üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-rotmistr" hərbi rütbəsində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında həqiqi hərbi xidmətdə olub.



1097. **Kornet YADİGAROV** Vəli bəy Sadıq bəy oğlu

Cümhuriyyət ordusunun general-mayoru Yadigarov Davud bəyin qardaşıdır. Cümhuriyyətin süqutundan sonra Polşa ordusunda Vəli bəy Yadigar adı ilə xidmət edib və "polkovnik" hərbi rütbəsinədək yüksəlib.

31 sentyabr 1898-ci ildə Tiflis quberniyasının Borçalı qəzasının Təkəli kəndində zadəgan ailəsində anadan olub. 1916-cı ildə Tiflis Kadet Korpusunu bitirib və 1-ci Dağıstan süvari alayında həqiqi hərbi xidmətə başlayır. Həmin alayın tərkibində 1-ci Dünya müharibəsində iştirak edib. Brusilov hücumunun iştirakçısı olub.

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi dəqiq bilinməsə də onun Nazirlər Şurası Sədrinin Konvoy taqımında "kornet" hərbi rütbəsində həqiqi hərbi xidmətdə olduğu 1918-ci ilin noyabr ayının əvvələrində Hərbi Nazirliyin zabit heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında qeyd edilib. Daha sonra Hərbi nazirin 06 yanvar 1919-cu il tarixli 9

№-li əmri ilə 1-ci Tatar süvari alayına xidmət yeri dəyişdirilir. 08 aprel 1919-cu il tarixdə isə Hərbi nazirin 186 №-li əmri ilə 05 aprel 1919-cu il tarixdən Süvari diviziyasının 3-cü Şəki süvari alayının pulemyot bölüyünün komandiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayının pulemyot bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

Azərbaycanın Bolşevik işğalından sonra 1920-ci ilin may ayının sonu-iyun ayının əvvələrindəki Gəncə üsyanında yaxından iştirak edib. Vəli bəy Yadigar 1960-cı ildə "40 illik köləlik nizamı" adlı yazısında Sovet işğalı və Cümhuriyyət ordusunun üsyanı ilə əlaqədar maraqlı faktlar qeyd etmişdir. Üsyan yatırıldıqdan sonra Gürcüstana oradan isə 1921-ci ildə ilk öncə Türkiyəyə mühacirət edir. 1922-ci ilin payızında isə Rumıniya üzərindən Polşaya keçir. Polşa ordusunda müqavilə əsasında hərbi xidmətə qəbul edilir və 1924-1925-ci illər Qrudzyondz şəhərindəki Mərkəzi Süvari Məktəbində təhsil alır. 1925-ci ildə "stabs-rotmistr" hərbi türbəsində Lansute şəhərindəki 10-cu süvari alayının 4-cü eskadronuna komandanlıq edir. 1932-ci ildə Polşa Silahlı Qüvvələrinin Hərbi Akademiyasını fərqlənmə ilə bitirir və "rotmistr" hərbi türbəsində Baranoviç şəhərindəki süvari alayı qərargahında vəzifəyə təyin edilir. 1936-cı ildə 7-ci Lyublinsk Ulan alayı komandirinin müavini təyin edilir. Keçmiş silahdaşları onu son dərəcə yüksək mədəniyyətə, həyat tərzinə malik insan, həm də olduqca tələbkar zabit kimi xatırlayırdılar. 1939-cu ilin sentyabr ayında faşist Almaniyası Polşaya hücüm edəndə Mazoveski süvari briqadasının qərargah rəisi vəzifəsində olub. 1940-cı ildə əsirlikdən azad edildikdən sonra Varşavaya qayıdır və gizli Krayovoy ordusuna qoşulur. 1942-ci ildə həmin Ordunun Baş qərargahında "podpolkovnik" hərbi rütbəsində süvari şöbəsinin rəisi kimi fəaliyyət göstərir. 1944-cü ildə Armiya Krayovanın tərkibinə daxil olan "Olen" alayının komandiri kimi Varşava üsyanında iştirak edir. 1945-ci ildə "polkovnik" hərbi rütbəsində

İtaliyada olan 2-ci Polşa Korpusunun tərkibinə ezam edilir. Polşanın Sovet ordusu tərəfindən işğalından sonra Vəli bəy Yadigar əvvəlcə İngiltərəyə daha sonra isə Argentinaya mühacirət edir. 1971-ci il dekabrın 13-də Buenos-Ayresdə vəfat edir. Öz vəsiyyəti ilə nəşi 1991-ci ildə Varşavaya gətirilərək Tatar qəbirstanlığında yenidən dəfn edilir. Dəfn mərasimində mərhumun qızı - Züleyxa xanım Yadigar-Kalinovskaya da iştirak edir.

Həyat yoldaşı: 1938-ci ildə Polşada Vande Eminoviç adlı xanımla ailə həyatı qurur. Bu evlilikdən 1942-ci ildə Züleyxa adlı qızları olur.

1098. **Praporşik YADİGAROV** Adil bəy

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. İstintaq altında olduğuna görə Hərbi nazirin 16 fevral 1919-cu il tarixli 76 №-li əmri ilə 10 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1099. **Podporuçik YARKOVSKİ**

14 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Qazax şəhərində dislokasiya edilmiş Təlim taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Xidmət yerinə getmək istəmədiyinə görə Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 29 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

1100. **Polkovnik YAREMENKO**

Milliyəti ukraynalı. 18 sentyabr 1919-cu il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Alay komandirinin müavini vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında həqiqi hərbi xidmətdə olub.

1101. **Podpolkovnik YAMONT**

20 dekabr 1918-ci il tarixdə “podpolkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilməsi ilə bağlı yazdığı 17 dekabr 1918-ci il tarixli 53 qeydiyyat nömrəli raportda əvvəllər 9-cu Qafqaz atıcı alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Həmin raportda qeydiyyat yeri Tiflis şəhəri Nikolayevsk küçəsi 70, mənzil 4 ünvanı göstərilib. Hərbi nazirin 22 iyun 1919-cu il tarixli 307 №-li əmri ilə 19 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1102. **Poruçik YANSUPOV**

01 sentyabr 1919-cu il tarixlərdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 439 №-li əmri ilə 2-ci Artilleriya briqadası komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib.

Cümhuriyyətin süqutuna kimi “poruçik” hərbi rütbəsində 2-ci Artilleriya briqadasında həqiqi hərbi xidmətdə olub.

1103. **Ştabs-kapitan YAN KOSİNSKİ** Boris

Millyəti polyak. 28 yanvar 1919-cu il tarixdə “poruçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının piyada bölük komandiri vəzifəsinə təyin edilib. Qarabağ General qubernatorunun 13 iyul 1919-cu il tarixli 1019 nömrəli məlumatından aydın olur ki, Şuşa şəhərində adsız yüksəklikdə xidmət aparan 1-ci Cavanşir piyada alayının piyada bölüyünün komandiri poruçiki Yan Kossinski komandiri olduğu piyada bölüyünün şəxsi heyəti ilə həmin tarixdə ermənilərin qəfil hücumu zamanı qəhramanlıq göstərmiş əsas qüvvələrdən uzaqda olsalarda belə öz döyüş mövqeylərini tərk etməmiş və düşmənin hücumlarının qarşısını almaqla döyüş mövqelərini mərdliklə qorumuşlar. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə göstərdiyi şücaətə görə piyada bölüyünün komandiri poruçiki Yan Kossinskiyə “Təşəkkür” elan edilmişdir. Hərbi xidmətdə fərqləndiyinə görə isə Nazirlər Şurası Sədrinin 08 oktyabr 1919-cu il 41 №-li və Hərbi nazirin 23 oktyabr 1919-cu il tarixli 492 №-li əmri ilə “ştabs-kapitan (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Xankəndi və Şuşa qarnizonlarına ermənilərin gecə qəfil hücumları nəticəsində 23 mart 1920-ci il tarixdə döyüş əməliyyatları zamanı həlak olduğuna gğrə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri Cümhuriyyət ordusu siyahılarından çıxarılıb.

1104. **Polkovnik YAKİMİDİ**

22 iyul 1919-cu il tarixdə “polkovnik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə Süvari

diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 92 №-li əmri ilə 22 dekabr 1919-c il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.

1105. **Ştabs-rotmistr YUSUFXANOV** Şah Abbas bəy

19 aprel 1920-ci il tarixdə “ştabs-rotmistr” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 216 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “ştabs-rotmistr” hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayında həqiqi hərbi xidmətdə olub.

1106. **Podporuçik YAKOVLEV**

Milliyəti rus. 18 aprel 1919-cu il tarixdə “podporuçik” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 10 may 1919-cu il tarixli 241 №-li əmri ilə Bakı dəmiryolu stansiyası komendantının müavini vəzifəsinə təyin edilib. 27 iyul 1919-cu il tarixdə isə Hərbi nazirin 336 №-li əmri ilə Gəncə dəmiryolu stansiyası komendantının müavini vəzifəsinə keçirilib. Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 365 №-li əmri ilə 06 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarınan tərxis edilib.

1107. **Kornet YAKŞTAS**

Milliyəti litvalı. 20 iyun 1919-cu il tarixdə “kornet” hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 20 avqust 1919-cu il tarixli 369 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün

göndərilib. Cümhuriyyətin süqutuna kimi "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olub.

1108. **Yesaul YUSUPOV**

15 dekabr 1918-ci il tarixdə "yesaul" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 22 aprel 1919-cu il tarixli 210 №-li əmri ilə 20 aprel 1919-cu il tarixdən Cümhuriyyətin ordusu sıralarından tərxis edilib.

1109. **Podpolkovnik YUSUFBƏYOV** Əhməd bəy

24 aprel 1919-cu il tarixdə "kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 228 №-li əmri ilə Nuxa qəza hərbi rəisi vəzifəsinə təyin edilib. 11 may 1919-cu il tarixdə Hərbi nazirin 244 №-li əmri ilə Nuxa qarnizonu rəisi ona həvalə edilib. Hərbi xidmətdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 25 iyun 1919-cu il 28 №-li və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə "podpolkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində Nuxa qəza rəisi kimi həqiqi hərbi xidmətdə olub.

1110. **Praporşik YUSİFOV** Ağa Bala

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada

diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 21 iyun 1919-cu il tarixli 305 №-li əmri Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. Ezamiyyət müddəti başa çatdıqdan sonra Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1111. **Praporşik YUSİFBƏYOV** Məmməd Yusif

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 2-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

1112. **Podporuçik YELİSUYSKİ** (Nəcəfbəyov) Həşim bəy

Qori Müəllimlər Seminariyasında təhsil alıb. 18 noyabr 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbini

“podpraporşik” hərbi rütbəsində bitirib və 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Həmin alayın qeyri-nizami bölüyünün komandiri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə “praporşik” hərbi rütbəsi verilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 344 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayına xidmət yeri dəyişdirilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə “podporuçik (piyada üzrə)” hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi “podporuçik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında həqiqi hərbi xidmətdə olub.

1113. **Polkovnik YERİVANSKİ** Kərim Xan

Cümhuriyyət ordusunda Hərbi Nazirliyin fəaliyyətə başladığı 07 noyabr 1918-ci il tarixdən sonra həqiqi hərbi xidmətləri barədə məlumat yoxdur. Onun yalnız Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmrində Nazirlər Şurası Sədrinin 09 aprel 1919-cu il tarixli 14 №-li əmri ilə “qvardiya rotmistri” hərbi rütbəsinə layiq görüldüyü bildirilir. Hərbi nazir həmin əmrdə onun “qvardiya rotmistr” hərbi rütbəsini qüvvədə olan 1869-cu il tarixli “Hərbi xidmət haqqında” Əsasnamənin 412 maddəsinin 7-ci bəndinə əsasən piyada üzrə

"podpolkovnik" hərbi rütbəsinə uyğunlaşdırıb və hərbi xidmətdə fərqləndiyinə görə "polkovnik" hərbi rütbəsinə layiq görüb. Cümhuriyyət ordusunda heç bir hərbi vəzifə tutmayıb.

1114. **Praporşik** **YERİVANSKİ** Hüseyn Xan

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib.

1115**. Podporuçik** **SULTANOV YELİSUYSKİ** Süleyman Xan

03 yanvar 1899-cu il tarixdə Yelizavetpol quberniyasının Zaqatala qəzasında anadan olub. Zaqatala Ali ibtidai məktəbini bitirib. Tiflis Orta Mədəni-Texniki Məktəbinin 2-ci xüsusi sinifinin tələbəsi olub. Həqiqi hərbi xidmətə Ləzgi süvari alayında 1-ci dərəcəli könüllü kimi başlayıb. Alayin nəzdində təlim komandasındakı təlimdən sonra "baş uryadnik" hərbi rütbəsinə yüksəlib. Alayın tərkibində Qayabaşı, Qazlı məntəqələrində və Bakı ətrafında erməni-daşnak və bolşeviklərə qarşı döyüş əməliyyatlarında iştirak edib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini 1-ci dərəcə ilə artilleriya ixtisası üzrə bitirib və 2-ci Bakı piyada alayına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib və iki gündən sonra 1-ci Artilleriya briqadasına 1-ci yüngül artilleriya divizionu kiçik zabiti vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib.

Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasına 1-ci yüngül artilleriya divizionunda həqiqi hərbi xidmətdə olub.

1116. **Podporuçik YEVANGELİDİ**

21 dekabr 1918-ci il tarixdə "podporuçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə 1 №-li Zirehli qatar rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 fevral 1919-cu il tarixli 71 №-li əmri ilə 24 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş hesab edilib.

1117. **Ştabs-kapitan YEFİMOV**

Milliyəti rus. 10 fevral 1919-cu il tarixdə "ştabs-kapitan" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 82 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1118. **Ştabs-kapitan YURTIYEV** Əhməd Əhmədoviç

Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmrində "poruçik" hərbi rütbəsində Əlahiddə Zaqatala piyada taborunun 3-cü piyada bölüyünün komandiri vəzifəsində

xidmətdə olduğu qeyd edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "ştabs-kapitan (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "ştabs-kapitan" hərbi rütbəsində 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının 3-cü piyada bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

1119. **Praporşik YÜZBAŞİNSKİ** Sabir

18 noyabr 1919-cu il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti "praporşik (piyada üzrə)" hərbi rütbəsi verilib. 21 iyun 1919-cu il tarixdə Hərbi nazirin 305 №-li əmri Qazax qəzası üzrə xüsusi müvəkkilin sərancamına xidməti vəzifəsini yerinə yetirmək üçün ezam edilib. Ezamiyyət müddəti başa çatdıqdan sonra Hərbi nazirin 13 mart 1920-ci il tarixli 153 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına təyin edilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

1120. **Podporuçik ZAMANOV** Məmməd

10 may 1891-ci ildə Yelizavetpol quberniyasında anadan olub. Yelizavetpol Ali ibtidai məktəbin 4 sinfini bitirib. 20 may 1918-ci il tarixdə Gəncə Podpraporşiklər Məktəbinə daxil olub və həmin tarixdən Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib. 18 noyabr 1918-ci il tarixdə "podpraporşik" hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini artilleriya ixtisası üzrə bitirib və 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun artilleriya taqım komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 mart 1919-cu il tarixli 139 №-li əmri ilə növbəti "praporşik (artilleriya üzrə)" hərbi rütbəsi verilib. Döyüşlərdə fərqləndiyinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (artilleriya üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun artilleriya taqım komandiri kimi həqiqi hərbi xidmətdə olub.

1121. **Poruçik ZAMORA-XROMIX**

Milliyəti rus. 25 mart 1919-cu il tarixdə "poruçik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 27 mart 1919-cu il tarixli 160 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun artilleriya texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun artilleriya texniki kimi həqiqi hərbi xidmətdə olub.

1122. **Milis praporşiki ZEYNƏDİNSKİ** Mirzə

Cənub-qərbi Azərbaycan qoşunlarında həqiqi hərbi xidmətdə olub. Cənub-qərbi Azərbaycan qoşunlarının komandanı və general qubernatorun köməkçisi Bəhrəm Xan Naxçıvanskinin vəsatəti əsasında Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri igidliklərə görə hərbi rütbə verilməsi üçün Hərbi nazirin qarşısında vəsatət qaldırılıb. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri "milis praporşiki" rütbəsi verilib.

1123. **Polkovnik ZEYNALOV** Mahmudağa bəy

Baş Qərargahın Nikolayev Hərbi Akademiyasının sonuncu kurs dinləyicisi olub. 28 aprel 1919-cu il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 01 may 1919-cu il tarixli 231 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargah rəisinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üşün göndərilib. Hərbi nazirin 10 may 1919-cu il tarixli 241 №-li əmri ilə 28 aprel 1919-cu il traixdən Hərbi Nazirliyin General-kvartirmeyster idarəsi rəisi vəzifəsinin icraçısı təyin edilmiş hesab edilib. 27 may 1919-cu il tarixdə Hərbi nazirin 257 №-li əmri ilə Cümhuriyyət ordusu üçün "Səfərbərlik üzrə təlimat"ın hazırlanması üzrə komissiyanın sədri təyin edilir. Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 325 №-li əmri ilə isə Xaçmaz dəstəsinin qərargah rəisi (diviziyanın qərargah rəisi vəzifə səlahiyyətləri və maaşı verilməklə) təyin edilir. 14 iyul 1919-cu il tarixdə Hərbi nazirin 328 №-li əmri ilə 2-ci piyada diviziyasının qərargah rəisi (Xaçmaz dəstəsinin qərargah rəisi vəzifəsinidə icra etməklə) təyin edilir. Nümunəvi hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "polkovnik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb.

Cümhuriyyətin süqutuna kimi “polkovnik” hərbi rütbəsində 2-ci piyada diviziyasının qərargah rəisi kimi həqiqi hərbi xidmətdə olub.

1124. **Praporşik ZEYNALOV** Astan

18 noyabr 1919-cu il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini piyada ixtisası üzrə bitirib və 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 31 mart 1919-cu il tarixli 169 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1125. **Podporuçik ZEYNALOV** Lətif

18 noyabr 1919-cu il tarixdə “podpraporşik” hərbi rütbəsində Gəncə Podpraporşiklər Məktəbini piyada ixtisası üzrə bitirib və 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 11 may 1919-cu il tarixli 243 №-li əmri ilə növbəti “praporşik (piyada üzrə)” hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Nümunəvi

hərbi xidmətlərinə görə Nazirlər Şurası Sədrinin 21 mart 1920-ci il və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 167 №-li əmri ilə "podporuçik (piyada üzrə)" hərbi rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi "podporuçik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

1126. **Praporşik ZEYNALOV** Əliheydər

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayında həqiqi hərbi xidmətdə olub.

1127. **Praporşik ZEYNALOV** Teymur

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin

31 oktyabr 1919-cu il tarixli 511 №-li əmri ilə Bakı hərbi komendant idarəsinin sərancamına ezam edilib. 19 aprel 1920-ci il tarixdə Hərbi nazirin 216 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayına xidmət yeri dəyişdirilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında həqiqi hərbi xidmətdə olub.

1128. **Praporşik ZEYNALOV** Əli Bala

05 may 1919-cu il tarixdə "praporşik" hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 236 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi "praporşik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında həqiqi hərbi xidmətdə olub.

1129. **Ştabs-rotmistr ZEİRBƏY** Süleyman Əli bəy

01 sentyabr 1919-cu il tarixdə "ştabs-rotmistr" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Alayın adyutantı vəzifəsinə təyin edilib. Hərbi nazirin 17 fevral 1920-ci il tarixli 105 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1130. **Praporşik ZÜLALOV** Cəfərqulu

01 sentyabr 1919-cu il tarixdə “praporşik” hərbi rütbəsində Gəncə Praporşiklər Məktəbini piyada ixtisası üzrə 1-ci dərəcə ilə bitirib və Hərbi nazirin 387 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına həqiqi hərbi xidmətini davam etdirmək üçün göndərilib. Cümhuriyyətin süqutuna kimi “praporşik” hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında həqiqi hərbi xidmətdə olub.

1131**. Podporuçik ZÜLFİQAROV** Əziz

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1132. **Podporuçik ZÜLFİQAROV** Hüseyn

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1133. **Podporuçik ZÜLFÜQAROV** İsgəndər

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini “podporuçik (piyada üzrə)” hərbi rütbəsində piyada ixtisası üzrə

bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1134. **Podporuçik ZEYNALOV** Abbas

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1135**. Podporuçik ZEYNALOV** Ramazan

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1136. **Podporuçi**k **ZEYNALOV** Astan

24 aprel 1920-ci ildə Cümhuriyyət Hərbi Məktəbini "podporuçik (piyada üzrə)" hərbi rütbəsində piyada ixtisası üzrə bitirib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 220 №-li əmri ilə 7-ci Şirvan piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq, Cümhuriyyət ordusunda zabit kimi hərbi xidmət keçməyib.

1137. **Poruçik ZEYNALOV** Səyyad Zeyalabdin oğlu

1886-cı ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Ağköynek kəndində anadan olub. Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kornet" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. 29 mart 1919-cu il tarixdə Hərbi nazirin 156 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayı 4-cü süvari bölüyünün komandiri vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 45 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə növbəti "poruçik (süvari üzrə)" hərbi rütbəsi verilib. Cümhuriyyətin süqutuna kimi "poruçik" hərbi rütbəsində Süvari diviziyasının 3-cü Şəki süvari alayı 4-cü süvari bölüyünün komandiri kimi həqiqi hərbi xidmətdə olub.

1138**. Polkovnik ZOLOTAREV**

Milliyəti rus. 19 dekabr 1918-ci il tarixdə "plokovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyə ezam edilib (yeni təyinat alanadək). Hərbi nazirin 07 fevral 1919-ci il tarixli 62 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

1139. **Podpolkovnik ZİLOV** Boris Dmitreviç

Milliyəti rus. 01 yanvar 1919-ci il tarixdə "podpolkovnik" hərbi rütbəsində Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Şuşa qəza hərbi rəisi vəzifəsinin icraçısı (Bərdə, Cavanşir, Karyaqin, Şuşa və Zəngəzur qəzaları daxil olmaqla) təyin edilib. Cümhuriyyətin süqutuna kimi "podpolkovnik"

hərbi rütbəsində Şuşa qəza hərbi rəisi vəzifəsinin icraçısı kimi həqiqi hərbi xidmətdə olub.



1140. **Podpolkovnik ZİYATXANOV** Şahverdi Xan Abülfət Xan oğlu

03 oktyabr 1869-cu ildə Yelizavetpol (indiki Gəncə) şəhərində Gəncənin məhşur Ziyatxanovlar (Ziyad oğlu) nəslində anadan olub. Yelizavetpol Gimnaziyasında ilkin təhsilini alıb. Hərbi xidmətə 29 noyabr 1890-cı il tarixdə Qafqazda yerləşən 44-cü Nijninovqorod draqun alayında sıravi kimi başlayıb. 12 avqust 1891-ci il tarixdə Yelizavetqrad[1] (bax əlavəyə) Süvari məktəbinə təhsil almaq üçün ezam edilib. 01 avqust 1893-cı il tarixdə Yelizavetqrad Süvari məktəbini 2-ci dərəcə ilə bitirdikdən sonra 44-cü Nijninovqorod draqun alayına təyinat alır. 04 sentyabr 1893-cü il tarixdə həmin alayın 5-ci eskadronuna kiçik zabit vəzifəsinə təyin olunur. 15 yanvar 1895-ci il tarixdə "kornet" hərbi rütbəsi verilir. 29 aprel 1895-ci tarixdə Qafqaz mühəndis briqadasına mühəndis və dəmir yolu işini öyrənmək üçün ezam edilir. 23 oktyabr 1895-ci il tarixdə kursu "əla" qiymətlərlə bitirdikdən sonra Qafqaz süvari alayına təyinat alır. 22 avqust – 26 oktyabr 1896-cı il tarixlərdə Kuban vilayətinin Armavir kəndinə hərbi atları siyahıya alınması üçün ezam edilir. 05 fevral 1897-ci il tarixdə Qafqaz süvari alayının 3-cü eskadronuna keçirilir. 15 mart 1898-ci il tarixdə "poruçik" hərbi rütbəsinə layiq görülür. 27 avqust – 01 oktyabr 1898-ci il tarixlərdə Bakı şəhərinə hərbi atların siyahıya alınması üçün ezam edilir. 15-23 iyun 1902-ci il tarixlərdə Aleksandropolda zabitlərin səhra çıxışında iştirak edib. 15 mart 1903-cü il tarixdə "ştabs rotmistr" hərbi rütbəsi verilib. 26 mart 1904-cü il tarixdə Sibir hərbi dairəsinə ezam edilir. 20 noyabr 1904-cü il tarixdə Sibir hərbi dairəsinin 1-ci Sunjen-Vladimir kazak alayına təyin

olunur. Ştabs-rotmistr hərbi rütbəsi kazak qoşunlarındakı "podyesaul" hərbi rütbəsinə uyğunlaşdırılır. 27 dekabr 1904-cü il tarixdə həmin Kazak alayının 2-ci bölüyünə təyin edilir. 17 iyun 1905-ci il tarixdə həmin alayın 1-ci bölüyünə dəyişdirilir. Həmin Kazak alayının tərkibində Rus-Yapon müharibəsində iştirak edir. Rus-yapon müharibəsində "igidliyə görə 4-cü dərəcəli müqəddəs Anna" və "3-cü dərəcəli müqəddəs Stanislav (qılınc və bantla)" ordenləri ilə təltif edilib. 16 dekabr 1905-ci il tarixdə xidmət yeri 2-ci Dağıstan süvari alayına dəyişdirlir. 12 aprel 1906-cı il tarixdə isə 44-cü Nijeqorod draqun alayına keçirilir. 1910-cu ilin dekabr ayında Yelizavetpol qubernatorunun yanında xüsusi tapşırıqlar üzrə baş zabit vəzifəsinə təyin edilir. 1911-ci ilin dekabr ayında "rotmistr" hərbi rütbəsinə layiq görülür. 1914-cü ilin iyul-avqust aylarında Qafqaz və Zaqafqaziya müsəlmanlarından hərbi hissələrin formalaşdırılması zamanı Tatar süvari alayı komandirinin müavini vəzifəsinə təyin edilir. Rusiyada baş verən oktyabr inqilabınadək həmin alayda xidmət edir və alayın tərkibində 1-ci Dünya müharibəsində iştirak edir. "Podpolkovnik" hərbi rütbəsini alma tarixi dəqiq bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "podpolkovnik" hərbi rütbəsində Süvari diviziyasının 1-ci Tatar süvari alayında həqiqi hərbi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə Türk qoşunlarından qalma intendant xidməti üzrə əmlakın qəbulu üzrə komissiyanın sədri təyin edilir. 29 mart 1919-cu il tarixdə Hərbi nazirin 156 №-li əmri ilə xidmət yeri Süvari diviziyasının 3-cü Şəki süvari alayına dəyişdirilir. Türk qoşunlarından qalma intendant əmlakının qəbulu və onun nümunəvi şəkildə çeşidlənməsində göstərdiyi xidmətinə görə Hərbi nazirin 17 aprel 1919-cu il tarixli 205 №-li əmri ilə "Təşəkkür" elan edilir. Səpmə yatalaq xəstəliyindən 06 iyun 1919-cu il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu siyahılarından çıxarılıb. Hərbi

nazir onun vəfatı ilə əlaqdar 09 sentyabr 1919-cu il tarixdə 398 №-li əmr imzalayır. Həmin əmrdə qeyd edilir ki, "Xidməti vəzifəsinin yerinə yetirərkən səpmə yatalaq xəstəliyindən vəfat edən podpolkovnik Ziyatxanov hər zaman öz xidməti vəzifəsinin icrasına vicdanla yanaşmış və xüsusi olaraq Türk ordusundan qalmış intendant əmlakının toplanması və çeşidlənməsi üzrə komissiyanın sədri kimi bu vəzifənin yüksəsk səviyyədə həyata keçirilməsi üçün böyük enerji sərf etmişdir. Vəfatı ilə əlaqədar ailəsinə onun müalicəsinə sərf olunmuş xərclərin qarşılanması nəqsədi ilə 5000 (beş min) rubl həcmində birdəfəlik maddi yardımın Hərbi Nazirliyin İntendantı tərəfindən verilməsinə göstəriş verilir. Ailəsinə isə təqaüd verilməsi barədə Nazirlər Şurası Sədrinin qarşısında vəsatət qaldırılması bildirilir ".

Həyat yoldaşı: Abraxanova Ağca bəyim Məhəmməd ağa qızı ilə ailə qurmuşdu.

# *HƏRBİ MƏMURLAR*

1. **ABDULLAYEV** Qafar Heydər oğlu

19 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 37 №-li əmri ilə 1-ci süvari-dağ batareyasının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci süvari-dağ batareyasının kiçik həkimi vəzifəsində xidmətdə olub.

2. Həkim (qadın) **ABROSİMOVA** Yevqeniy

Milliyəti rus. 29 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 174 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

3. **ABRAMENKO** Maksim Yefimoviç

Milliyəti ukraynalı. 09 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 aprel 1919-cu il tarixli 215 №-li əmri ilə 1-ci piyada diviziyası İntendantının kargüzarı vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının İntendantının kargüzarı vəzifəsinin müvəqqəti icraçısı vəzifəsində xidmətdə olub.

4. **ABRAMOV** Vasiliy Nikolayeviç

Milliyəti rus. 28 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 295 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayının kargüzarı vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li

əmri ilə təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 23 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

5. Həkim (qadın) **ABEZQAUZ-MALYATSKAYA** Dina

22 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 383 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

6. Quberniya katibi **ADAMOV** Serqey Kazimiroviç

Milliyəti rus. 23 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 yanvar 1919-cu il tarixli 5 №-li əmri ilə Nuxa qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Ümumi Qərargaha 19 dekabr 1918-ci il tarixdə üvanladığı ərizədə 1910-cu ildən 12 noyabr 1918-ci il tarixədək Şuşa və Zəngəzur qəzalarında hərbi səfərbərlik idarəsində kargüzar işlədiyini bildirib. Eyni zamanda bildirir ki, Gəncə qubernatorunun 12 noyabr 1918-ci il tarxili əmri ilə Zəngəzur qəzasında kargüzarlıq üzrə yazışmaların türk dilində aparılması ilə əlaqədar işdən azad edilib. Məlumat üçün bildirir ki, türk və erməni dillərini bilir. İşə qəbul edilərək Şuşa qəza hərbi idarəsində kargüzar vəzifəsinə təyin edilməsini xahiş edir. Ümumi Qərargah onu Nuxa deyil Şuşa qəzasına təyin edir.

Cümhuriyyətin süqutuna kimi Nuxa qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

7. **ADLER** Andrey

Milliyəti alman. 01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1919-ci il tarixli 6 №-li əmri ilə Baş Qərargah idarəsinin Hərbi topoqrafiya şöbəsinin trianqulyatoru vəzifəsinin icraçısı təyin edilir. Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun Hərbi topoqrafiya şöbəsinin trianqulyatoru vəzifəsinin icraçısı vəzifəsinə təsdiq edilir. Cümhuriyyətin süqutuna kimi Ordunun Hərbi topoqrafiya şöbəsinin trianqulyatoru vəzifəsində xidmətdə olub.

8. **ACALOV** Əmir

Tiflis quberniyasının Tiflis şəhər sakini. 01 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 521 №-li əmri Hərbi Məktəbin kvartirmeysteri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbin kvartirmeysteri vəzifəsində xidmətdə olub.

9. Kollec müşaviri **ARXİBAND** Moisey

Milliyəti yəhudi. 29 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 175 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

10. **AREFYEV** Mixayıl

08 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 78 №-li əmri ilə Xankəndi yerli lazaretin mirzəsi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Xankəndi yerli lazaretin mirzəsi vəzifəsində xidmətdə olub.

11. Titulyar müşavir **AREFYEV**

12 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-cu il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasında xidmətdə olub.

12. Həkim (qadın) **ARXANGELSKAYA** Mariya

Milliyəti rus. 29 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə qəbul edilib və Hərbi nazirin 441 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib və Xankəndi yerli lazaretinə xidməti vəzifəsini icra etmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

13. Həkim **ASLANOV** Əmir bəy

21 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 110 №-li əmri ilə Bakı İstehkan rayonunun mövqe batareyasının həkimi vəzifəsinə təyin edilib.

Cümhuriyyətin süqutuna kimi Bakı İstehkan rayonunun mövqe batareyasının həkimi vəzifəsində xidmətdə olub.

14. Həkim **AĞAYEV**

29 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə dəvət edilib və Hərbi nazirin 440 №-li əmri ilə Şuşa şəhərindəki Hərbi feldşerlər məktəbinin müəllimi (alayın baş həkimi vəzifə maaşı verilməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Şuşa şəhərindəki Hərbi feldşerlər məktəbinin müəllimi vəzifəsində xidmətdə olub.

15. Həkim **AĞAKİŞİBƏYOV**

29 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə dəvət edilib və Hərbi nazirin 440 №-li əmri ilə Şuşa şəhərindəki Hərbi feldşerlər məktəbinin müəllimi (alayın baş həkimi vəzifə maaşı verilməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Şuşa şəhərindəki Hərbi feldşerlər məktəbinin müəllimi vəzifəsində xidmətdə olub.

16. Quberniya katibi **AJAKİN** Mixayıl

13 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 153 №-li əmri ilə Ordunun Qərargahına göndərilib. Cümhuriyyətin süqutuna kimi Ordu Qərargahında xidmətdə olub.

17. Kollec reqistratoru **ALLAHVERDİYEV** Ağa

25 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 29 mart 1920-ci il tarixli 180 №-li əmri ilə Ordunun Təchizat idarəsinin tərcüməçisi vəzifəsinə

təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun Təchizat idarəsinin tərcüməçisi vəzifəsində xidmətdə olub.

18. Kapelmeyster **ALEKSEYEV** Pavel

14 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 16 avqust 1919-cu il tarixli 359 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kapelmeysteri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kapelmeysteri vəzifəsində xidmətdə olub.

19. **AXUND-ZADƏ** İdris

01 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Dəftərxana rəisinin sərancamına göndərilib. Hərbi nazirin 09 yanvar 1919-cu il tarixli 19 №-li əmri ilə 05 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

20. **AXUNDOV** Kərim

01 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 avqust 1919-cu il tarixli 376 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Zaqatala ərzaq mağazasının nəzarətçisi vəzifəsinə təyin edilib. 03 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 1 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə kiçik-zabiti (hərbi qulluqçu vəzifəsi) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə kiçik-zabiti vəzifəsində xidmətdə olub.

21. Mülki müşavir **ANDRUS**

18 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 296 №-li əmri ilə 10 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

22. Molla Mirzə Əliyə **AZUND-ZADƏ**

23 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının mollası vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının mollası vəzifəsində xidmətdə olub.

23. Kollec reqistratoru **ALLAHVERDİYEV**

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Hərbi Nazirliyin İntendant idarəsinin Gəncə Ərzaq mağazasının nəzarətçisi kimi işlədiyi qeyd edilib. Hərbi nazirin 07 may 1919-cu il tarixli 239 №-li əmri ilə 04 may 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

24. Feldşer **ALEYNİKOV**

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəlindəki şəxsi heyətin hərbi hissələr üzrə üzləşmə siyahılarında Süvari diviziyasının 1-ci Tatar süvari alayının

kiçik baytar feldşeri kimi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 163 №-li əmri ilə 03 tarixdən 1919-cu il tarixdən Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş baytar feldşeri vəzifəsinə keçirilmiş hesab edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş baytar feldşeri vəzifəsində xidmətdə olub.

25. **AZVERDOV** Heybət bəy

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 mart 1920-ci il tarixli 186 №-li əmri ilə Ordunun İntendant İdarəsi nəzdində kargüzar köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun İntendant İdarəsi nəzdində kargüzar köməkçisi vəzifəsində xidmətdə olub.

26. Axund **BARAT-ZADƏ**

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 19198-ci ilin noyabr ayının əvvələrindəki şəxsi heyətin hərbi hissələr üzrə üzləşmə siyahılarında Süvari diviziyasının 1-ci Tatar süvari alayının mollası kimi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 06 yanvar 1919-cu il tarixli 9 №-li əmri ilə Hərbi Nazirliyin Baş mollası təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin Baş mollası vəzifəsində xidmətdə olub.

27. Baş tibb feldşeri **BARMATİN** Aleksandr İvanoviç

21 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 29 sentyabr 1919-cu il tarixli 440 №-li əmri ilə Xankəndi yerli lazaretin aptek rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Xankəndi yerli lazaretin aptek rəisi vəzifəsində xidmətdə olub.

28. Saray müşaviri **BATALİN** Viktor Aleksandroviç

20 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 33 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə məhkəməsi hərbi müstəntiqi vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) təyin edilib. Cümhuriyyət ordusunda xidmətə qəbul edilənədək Gəncə Dairə Məhkəməsinin müstəntiqi vəzifəsində işləyib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il və Hərbi nazirin 27 may 1919-cu il tarixli 269 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə məhkəməsi hərbi müstəntiqi vəzifəsinə təsdiq olunub. 14 iyul 1919-cu il tarixdə Hərbi nazirin 321 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə məhkəməsinin hərbi kuryerin köməkçisi vəzifəsinə keçirilib. Hərbi nazirin 27 dekabr 1919-cu il tarixli 597 №-li əmri ilə 25 dekabr 1919-cu il tarixdən Cümhuriyyət Hərbi Dairə məhkəməsinin hərbi prokuroru vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyət Hərbi Dairə məhkəməsinin hərbi prokuroru vəzifəsində xidmətdə olub.

29. Hacı Molla Abbas Kərbalay **BAYRAMOĞLU**

01 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 sentyabr 1919-cu il tarixli 446 №-li əmri ilə Gəncə yerli lazaretin mollası vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin mollası vəzifəsində xidmətdə olub.

30. **BAYRAMOV**

01 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna

kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayında xidmətdə olub.

31. **BAYRAMOV** Paşa

02 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 sentyabr 1919-ci il tarixli 413 №-li əmri ilə İntendant idarəsinin Bakı intendant Əşya anbarının rəisinin köməkçisi vəzifəsinə təyin edilib. 08 mart 1920-ci il tarixdə Anbardan dövlət əmlakının oğurlanmasında şübhəli bilindiyi görə sənədləri hərbi məhkəməyə təqdim edildiyi üçün Hərbi nazirin 25 mart 1920-ci il tarixli 192 №-li əmri ilə 13 mart 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

32. Hərbi dövür üçün məmur **BRYUXANOV**

01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1920-ci il tarixli 46 №-li əmri ilə Baş Artilleriya idarəsinin kargüzar köməkçisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun Artilleriya təchizatı idarəsinin kargüzar köməkçisi vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun Artilleriya təchizatı idarəsinin kargüzar köməkçisi vəzifəsində xidmətdə olub.

33. Kollec müşaviri **BEKLEŞEV**

10 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1920-ci il tarixli 112 №-li əmri ilə Gəncə şəhərindəki Artilleriya anbarının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi

Gəncə şəhərindəki Artilleriya anbarının kargüzarı vəzifəsində xidmətdə olub.

34. Quberniya katibi feldşer **BELİK** Aleksandr Gerasimoviç

23 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevarl 1919-cu il tarixli 103 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının baş tibb feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının baş tibb feldşeri vəzifəsində xidmətdə olub.

35. Kollec katibi **BELOQERSKİ** Aleksandr

1919-cu ildə Mixaylovski adına Tiflis şəhər xəstəxanası nəzdində feldşer məktəbini bitirib. 26 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 sentyabr 1919-cu il tarixli 393 №-li əmri ilə Hərbi-sanitar qatarının feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi-sanitar qatarının feldşeri vəzifəsində xidmətdə olub.

36. Kollec katibi **BOQDANOV**

11 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 145 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında xidmətdə olub.

37. **BAYRAMBƏY** Cavanşir

Şuşa qəzasının Yüzbaşlı kənd sakini olub. 08 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 25 mart 1920-ci il tarixli 192 №-li əmri ilə Ordunun İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinin icraçısı (hərbi qulluqçu vəzifəsi) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinin icraçısı vəzifəsində xidmətdə olub.

38. Kollec reqistratoru **BUQABƏYOV** Barat

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 08 aprel 1920-ci il tarixli 201 №-li əmri ilə Bakı intendant ərzaq mağazasına cavabdeh köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı intendant ərzaq mağazasına cavabdeh köməkçisi vəzifəsində xidmətdə olub.

39. Kollec katibi **BULATOV** Mixayıl

04 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 06 fevral 1919-cu il tarixli 58 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

40. Həkim **BULİKOVSKİ** Edmund

27 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 151 №-li əmri ilə Xankəndi yerli lazaretin baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 08 fevral 1920-ci il tarixli 78 №-li əmri ilə Azərbaycan Xalq

Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 01 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib.

41. Kollec asessoru **BURAŞEV**

29 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 181 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının kargüzarı vəzifəsində xidmətdə olub.

42. Həkim **BUXQALTER**

20 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 484 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

43. Həkim **BLAJEVİÇ**

12 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 226 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kiçik həkimi (Bakı yerli lazaretinə cərrahiyə üzrə mütəxəsiss kimi ezam edilməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretində ezamiyyətdə olub.

44. **BOQDANOV** Konstantin

Milliyəti rus. 09 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 12 fevral

1920-ci il tarixli 92 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının baş adyutantının köməkçisi vəzifəsinin icraçısı (hərbi qulluqçu vəzifəsi) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordu Qərargahının baş adyutantının köməkçisi vəzifəsinin icraçısı olub.

45. Kollec assesoru **BORİSEVİÇ**

Milliyəti rus. Cümhuriyyət Ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəlindəki şəxsi heyətin hərbi hissələr üzrə üzləşmə siyahılarında Hərbi Nazirliyin İntendant idarəsinin məmuru kimi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə 14 yanvar 1919-cu il tarixdən Hərbi Dairə məhkəməsi prokurorunun katibi vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) təyin edilib. 25 sentyabr 1919-ci il tarixdə Hərbi nazirin 431 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində təkrarən dövlət xidmətinə qəbul edilmə hüququndan məhrum edilməklə 01 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

46. Podxorunji **BEZRUÇENKO**

Milliyəti ukraynalı. 20 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Gəncə qəza hərbi rəisinin sərancamına göndərilib. Hərbi nazirin 01 yanvar 1919-cu il tarixli 2 №-li əmri ilə 23 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib.

47. Saray müşaviri **BENDELOVİÇ** Pyotr Leonteviç

10 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli

39 №-li əmri ilə Hərbi Nazirliyin Artilleriya idarəsi rəisinin sərancamına göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun Artilleriya təchizatı idarəsi rəisinin sərancamında saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Ordunun Artilleriya təchizatı idarəsində xidmətdə olub.

48. Xorunjiy **BƏY-HACIYEV** Rəfayıl

31 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 iyun 1919-cu il tarixli 284 №-li əmri ilə Xankəndi yerli lazaretin mirzəsi vəzifəsinə təyin edilib. Hərbi nazirin 11 yanvar 1920-ci il tarixli 23 №-li əmri ilə Yevlax dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi Yevlax dəmir yolu stansiyası komendantının köməkçisi vəzifəsində xidmətdə olub.

49. **BƏHRƏMBƏY** Cavanşir

Şuşa qəzasının Yüzbaşlı kənd sakini olub. 08 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 25 mart 1920-ci il tarixli 192 №-li əmri ilə İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinin icraçısı (hərbi qulluqçu vəzifəsi) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinin icraçısı vəzifəsində xidmətdə olub.

50. Kapelmeyster **BROZQUL** Qriqoriy

Milliyəti rus. 11 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 iyul 1919-cu il tarixli 334 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kapelmeysteri vəzifəsinə təyin edilib.

Xankəndi və Şuşa qarnizonlarına ermənilərin gecə qəfil hücumları nəticəsində 23 mart 1920-ci il tarixdə həlak olduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusunun məmur heyəti siyahılarından çıxarılıb.

51. **CANHATOV XORANOV** Xan Gəray

20 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 42 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi hakimi vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda xidmətə qəbul edilməmişdən öncə Bakı Dairə Məhkəməsi prokurorunun köməkçisi işləyib. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi hakimi vəzifəsində xidmətdə olub.

52. Titulyar müşaviri **CEVARLİNSKİ** Mehti bəy

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 05 yanvar 1919-cu il tarixli 6 №-li əmrində Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baytar həkimi kimi xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 05 mart 1919-cu il tarixli 106 №-li əmri ilə ordu üçün atların alınması komissiyasının üzvü seçilib. 10 aprel 1919-cu il tarixli 192 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi baytar idarəsinin ezamiyyətlər üzrə baytar həkimi vəzifəsinə keçirilib. Hərbi nazirin 08 noyabr 1919-cu il tarixli 515 №-li əmri ilə xidməti zərurətlə əlaqədar olaraq 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. 02 mart 1920-ci il tarixdə isə Hərbi nazirin 128 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi baytar hissə rəisi təyin edilir. 18 mart 1920-ci il tarixdə təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 159 №-li əmri ilə

Ordunun Hərbi baytar hissəsi idarəsinin rəisi vəzifəsinə təsdiq olunub.

53. **CƏFƏROV** İlyas

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 184 №-li əmri ilə Bakı yerli lazaretinə ezam edilməklə süvari diviziyasının 3-cü Şəki süvari alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvari alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

54. **CAVADOV** Əliheydər

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 184 №-li əmri ilə 7-ci Şirvan piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

55. **CARÇİYEV** Hüseyn

02 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda xidmətdə olub.

56. Kollec reqistratoru **ÇİJİK** Boris

Milliyəti rus. 21 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 40 №-li əmri ilə Şuşa yerli lazaretin təsərüffat hissəsinin müdiri vəzifəsinə

təyin edilib. Cümhuriyyətin süqutuna kimi Şuşa yerli lazaretin təsərüffat hissəsinin müdiri vəzifəsində xidmətdə olub.

57. Provizor köməkçisi **ÇEREPANOV** İvan Vasilyeviç

Milliyəti rus. 30 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 158 №-li əmri ilə Ordunun Aptek Anbarının kiçik farmasevti vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun Aptek Anbarının kiçik farmasevti vəzifəsində xidmətdə olub.

58. Həkim **ÇERNYAVSKİ** Kostantin

Milliyəti rus. 30 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 505 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib və xidməti vəzifəsinin icrası üçün 6-cı Göyçay piyada alayına ezam edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

59. Kollec katibi **DOBRIŞEVSKİ**

10 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-ci il tarixli 39 №-li əmri ilə Hərbi Nazirliyin Baş Artilleriya idarəsinnin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 536 №-li əmri ilə 10 noyabr 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və məmur siyahılarından çıxarılıb.

60. Kollec reqistratoru **DOLQANEV** Fyodor

07 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 455 №-li əmri ilə 2-ci

piyada diviziyasının 6-cı Göyçay piyada alayının tibb feldşeri vəzifəsinə təyin edilib. Hərbi nazirin 16 fevral 1920-ci il tarixli 101 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə 14 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və məmur siyahılardan çıxarılıb.

61. Quberniya katibi **DONİŞEV** Dmitriy

15 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 534 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının tibb feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının tibb feldşeri vəzifəsində xidmətdə olub.

62. Quberniya katibi **DMİTRİYEV-LEONTEV**

15 dekabr 1918-ci il tarixli Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin kargüzarı vəzifəsinə tətin edilib. Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 56 №-li əmri ilə 29 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmurlar siyahılardan çıxarılıb.

63. Kollec katibi **DURNEV** Qennadiy

Milliyəti rus. 07 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusunda "quberniya katibi" mülki rütbəsində xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin mühasibi vəzifəsinə təyin edilib. 13 noyabr 1919-cu il tarixli 527 №-li əmri ilə Hərbi Nazirliyin və bütün hərbi hissələrin qəfil təftişi üzrə xüsusi

komissiyanın üzvü seçilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 46 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "kollec katibi" mülki rütbəsinə layiq görülüb. Hərbi nazirin 07 dekabr 1919-cu il tarixli 567 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə öz xahişi ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

64. Quberniya katibi **DRYAQİN** Vasiliy Stepanoviç

Milliyəti rus. 01 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 447 №-li əmri ilə Salyan qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Salyan qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

65. Həkim **DUNAYEV** Yevqeniy

23 iyun 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 318 №-li əmri ilə Xankəndi yerli lazaretin kiçik ordinatoru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Xankəndi yerli lazaretin kiçik ordinatoru vəzifəsində xidmətdə olub.

66. Həkim **DUXOVİÇ** Şabsi

15 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 oktyabr 1919-cu il tarixli 469 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

67. Titulyar müşavir **DİVANİN** Qriqori Stepanoviç

25 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 08 iyun 1919-cu il tarixli 286 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib və Bakı intendant ərzaq mağazasının (Balaxanı şosesi 75/76 və Sabunçu döngəsi 5 üvanında yerləşən) kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun İntendant idarəsi rəisinin sərancamında xidmətdə olub.

68. Kollec katibi **DİVANİN**

13 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 avqust 1919-cu il tarixli 351 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının təsərrüfat hissəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının təsərrüfat hissəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

69. **EMİN-ZADƏ** Abdul Qasım Əfəndi

22 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 115 №-li əmri ilə Hərbi Məktəbinin imamı vəzifəsinə təyin edilib. Xidmətə qəbul edilməmişdən öncə Bakı qazisi olub. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbinin imamı vəzifəsində xidmətdə olub.

70. İbrahim Şükri Əfəndi Məmməd Şakir **ƏFƏNDİ**

12 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1920-ci il tarixli 34 №-li əmri ilə 1-ci Süvari-dağ batareyasının kiçik baytar həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi

1-ci Süvari-dağ batareyasının kiçik baytar həkimi vəzifəsində xidmətdə olub.

71. Titulyar katibi **ƏLİYEV** Fərhad bəy

09 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 64 №-li əmri ilə Gəncə hərbi lazaretin təsərrüfat hissəsinin rəisi vəzifəsinə təyin edilib. Xidmətə qəbul edilənədək Gəncə şəhər idarəsində katib işləyib. Xidmət yerinə getməkdən imtina etdiyinə görə Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 90 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur sıyahılarından çıxarılıb və onun təyin əmri ləğv edilib. Hərbi nazir bir azərbaycanlı olaraq onun orduda xidmətdən imtina etməsi ilə əlaqədar 20 fevral 1919-cu il tarixli 90 №-li əmrində bunları qeyd etmişdir: "Heç şübhəsiz əminəm ki, öz qanımızdan və dinimizdən olan hər bir ziyalıya ehtiyac duyulduğu bu çətin dövürdə əsl vətən oğlu yeni yaradılan öz milli dövlətinə qarşı öz şəxsi maraqlarını üstün tutaraq belə hərəkətlər etməzdi. Azərbaycanlılar anlamalıdırlar ki, milli ordu hər bir azərbaycanlının özünə yaxşı şərait qurmaq üçün qəbul ediləcəyi bir təşkilat deyildir. Ordu – vətənin dayağıdır və ora ölkənin ən yaxşı oğulları qəbul edilməlidir. Öz şəxsi maraqlarını vətənin və xalqın maraqlarından üstün tutanlara orda yer yoxdur. Ordu çox təssüflə belə ziyalıdan ayrılır. Güman edirəm ki, bu cür vətəndaşlara digər dövlət işlərində də yer olmamalıdır. Əmrin surəti Nazirlər Şurasının Sədrinə məlumat üçün göndəriləcəkdir".

72. **ƏLİYEV** Teymur bəy

Kazan Universitetinin Hüquq fakultəsinin 4-cü kurs tələbəsi olub. 18 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 19 mart 1919-cu il tarixli 134 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsi nəzdində

məhkəmə işləri üzrə namizəd vəzifəsinin icraçısı kimi sınaq müddətinə işə götürülüb. Hərbi nazirin 31 dekabr 1919-cu il tarixli 605 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi prokurorun köməkçisi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi prokurorun köməkçisi vəzifəsində xidmətdə olub.

73. Kollec katibi **ƏLİBƏYOV**

18 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 159 №-li əmri ilə Goyçay qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Goyçay qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

74. Kollec katibi **ƏLİBƏYOV** Həsən bəy

23 noyabr 1919-cu il tarixli Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 553 №-li əmri ilə Hərbi Məktəbin kargüzarı vəzifəsinə təyin edilib. 11 fevral 1920-ci il tarixdə Hərbi nazirin 90 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

75. **ƏLİBƏYOV** İsa bəy

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 184 №-li əmri ilə 7-ci Şirvan piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

76. **ƏLİVERDOV** Bahadur bəy

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 184 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş həkimi vəzifəsində xidmətdə olub.

77. Həkim **ƏSGƏROV** Abbas Əsgər oğlu

24 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 228 №-li əmri ilə Gəncə Hərbi zavodun həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Gəncə Hərbi zavodun həkimi vəzifəsində xidmətdə olub.

78. **ƏSGƏR-ZADƏ** Mirzə Cəfər

25 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 may 1919-cu il tarixli 234 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının mollası vəzifəsinə təyin edilib. Hərbi nazirin 04 iyun 1919-cu il tarixli 279 №-li əmri ilə 01 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

79. Quberniya katibi **ƏFƏNDİYEV**

07 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə Əlahiddə Zaqatala piyada alayı komandirinin sərancamına göndərilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və

xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında xidmətdə olub.

80. Molla İbrahim **ƏFƏNDİYEV**

24 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 553 №-li əmri ilə Hərbi Məktəbin imamı vəzifəsinə təyin edilib. Xidmət yerinə gəlib çıxmadığına görə Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 102 №-li əmri ilə 30 noyabr 1919-cu il tarixli təyin əmri ləğv edilib.

81. Molla Səidəddin Hacı **ƏFƏNDİ-ZADƏ**

18 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 414 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının imamı vəzifəsində xidmətdə olub.

82. Kollec müşaviri **FYODROV**

Milliyəti rus. 05 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli 24 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 mart 1920-ci il tarixli 135 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsində xidmətdə olub.

83. Kollec asessoru **FYODOROV** Pyotr

Milliyəti rus. 15 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1920-ci il tarixli 56 №-li əmri ilə 1-ci dərəcəli Ləki Artilleriya anbarının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci dərəcəli Ləki Artilleriya anbarının kargüzarı vəzifəsində xidmətdə olub.

84. **FRİDRİXANOV** Vaslav Adamoviç

21 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə Hərbi Nazirliyin Dəftərzanasının kargüzarı (8-ci dərəcə üzrə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin Dəftərzanasının kargüzarı vəzifəsində xidmətdə olub.

85. Titulyar katibi **FON FİŞER**

Milliyəti alman. 20 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 avqust 1919-cu il tarixli 372 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 380 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqlərinin vəzifə bölgüsü aparılmışdır. Həmin əmrə əsasən titulyar katibi Fon Fişerə istintaq təcridxanası Bakı şəhərində olmaqla Republika üzrə bütün xüsusi əhəmiyyətli hərbi təsərrüfat cinayət işlərinin istintaqını aparması tapşırılmışdır. Xankəndində ermənilərin qəfil hücumu nəticəsində 23 mart 1920-ci il tarixdə həlak olduduğuna görə Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 210 №-li əmri ilə Cümhuriyyət ordusu siyahılarından çıxarılmışdır.

86. Kollec katibi **FURMAN**

Milliyəti yəhudi. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında Gəncə Podpraporşiklər Məktəbinin kargüzarı vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 521 №-li əmri ilə 29 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

87. Saray müşaviri **FİLONOVİÇ** Elpidifor Dmitriyeviç

06 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 dekabr 1919-cu il tarixli 567 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin mühasibi vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda xidmətə qəbul edilməmişdən öncə Cümhuriyyət Ədliyyə Nazirliyində kargüzar vəzifəsində işləyib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin mühasibi vəzifəsində xidmətdə olub.

88. Kollec reqistratoru **FƏTƏLİBƏYOV** Həsən bəy

18 dekabr 1886-cı ildə Şuşa qəzasının At-Emzalı kəndində zadəgan ailəsində anadan olub. 05 mart 1916-cı il tarixdə Qori Kişi Seminariyasını 271 №-li Şəhadətnamə ilə 1-ci dərəcə ilə bitirib. 01 iyul 1914-cü il tarixdə Qori Pristavı olarkən nümunəvi xidmətlərinə görə "4-cü dərəcəli Müqəddəs Vladimir oredni", "Rus-Yapon xatirə medalı" və "Romanovlar ailəsinin 300 illik yubiley medal"ları ilə təltif edilib. 1916-cı ildə Tatar süvari alayında xidmətə qəbul edilib. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında 1-ci Tatar süvari alayının

kvartirmeysteri vəzifəsində xidmətdə olduğu qeyd edilib. Süvari diviziyası komandirinin 04 yanvar 1919-cu il tarixli 4 №-li əmri ilə ailə vəziyyətinə görə xidmətdən azad edilib.

Həyat yoldaşı: Fətəlibəyova Adilə xanım – 12 aprel 1896-cı il təvəllüdlü. Qızı: Leyla xanım – 04 oktyabr 1913-cü il təvəllüdlü.

Oğlu: Ənvər bəy – 02 mart 1915-ci il təvəllüdlü.

## 89. Həkim **HACI-QASUMOV** Sultan Murad

09 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 64 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Xidmət yerinə getməkdən imtina etdiyinə görə Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 90 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur sıyahılarından çıxarılıb və onun təyin əmri ləğv edilib. Hərbi nazir bir azərbaycanlı olaraq onun orduda xidmətdən imtina etməsi ilə əlaqədar 20 fevral 1919-cu il tarixli 90 №-li əmrində bunları qeyd etmişdir: “Heç şübhəsiz əminəm ki, öz qanımızdan və dinimizdən olan hər bir ziyalıya ehtiyac duyulduğu bu çətin dövürdə əsl vətən oğlu yeni yaradılan öz milli dövlətinə qarşı öz şəxsi maraqlarını üstün tutaraq belə hərəkətlər etməzdi. Azərbaycanlılar anlamalıdırlar ki, milli ordu hər bir azərbaycanlının özünə yaxşı şərait qurmaq üçün qəbul ediləcəyi bir təşkilat deyildir. Ordu – vətənin dayağıdır və ora ölkənin ən yaxşı oğulları qəbul edilməlidir. Öz şəxsi maraqlarını vətənin və xalqın mara-qlarından üstün tutanlara orda yer yoxdur. Ordu çox təssüflə belə ziyalıdan ayrılır. Güman edirəm ki, bu cür vətəndaşlara digər dövlət işlərində də yer olmamalıdır. Əmrin sürəti Nazirlər Şurasının Sədrinə məlumat üçün göndəriləcəkdir”.

90. **HACI-QASIMOV** Yusif bəy

Moskva Universitetinin hüquq fakultəsini bitirib. 02 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 13 noyabr 1919-cu il tarixli 525 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi-məhkəmə işləri üzrə namizədi kimi sınaq müddətinə həmin vəzifənin icrasına buraxılıb. Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 210 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsinə təsdiq edilib. Həmin əmrdə ona istintaq təcridxanası Bakı şəhərində olmaqla Bakı quberniyası üzrə hərbi cinayət işlərinin ilkin istintaqını aparması tapşırılmışdır. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsində xidmətdə olub.

91. **HACIYEV** Hasbulat bəy İmam bəy oğlu

31 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 166 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Gəncə əşya anbarının tapşırıqlar üzrə məmuru (9-cu dərəcəli) vəzifəsinə təyin edilib. Hərbi nazirin 10 yanvar 1920-ci il tarixli 14 №-li əmri ilə 22 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

92. **HEYDƏR-ZADƏ** Molla Əli

29 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 602 №-li əmri ilə Bakı yerli lazaretin mollası vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin mollası vəzifəsində xidmətdə olub.

93. Quberniya katibi **HƏSƏNOV** Mirzə

18 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 109 №-li əmri ilə Baş Qərargahın Hərbi topoqrafiya şöbəsinin xəritə və ləvazimatlar anbarının müdiri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Həqbi topoqrafiya şöbəsinin xəritə və ləvazimatlar anbarının müdiri vəzifəsində xidmətdə olub.

94. Müharibə dövrü üçün məmur **HƏSƏNOV** Seyid

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərində məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamında olduğu qeyd edilib. Hərbi nazirin 21 dekabr 1918-ci il tarixli 25 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılarından çıxarılıb.

95. Mühəndis **HƏSƏNOV** Məmməd Ağa

01 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib Hərbi nazirin 25 mart 1920-ci l tarixli 192 №-li əmri ilə Gəncə Hərbi Dəri zavodunun rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Gəncə Hərbi Dəri zavodunun rəisi vəzifəsində xidmətdə olub.

96. Molla Məmməd **HƏMZƏ-ZADƏ**

01 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ

süvari alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının imamı vəzifəsində xidmətdə olub.

97. Molla Abdurəhman Əfəndi **HƏMZƏ-ZADƏ**

05 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 193 №-li əmri ilə həmin tarixdən 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının imamı vəzifəsində xidmətdə olub.

98. Ehtiyatda olan polkovnik **HƏŞİMBƏYOV** Həsən bəy

03 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 08 aprel 1920-ci il tarixli 201 №-li əmri ilə Bakı intendant Əşya anbarının rəisi (hərbi qulluqçu vəzifəsi) təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı intendant Əşya anbarının rəisi vəzifəsində xidmətdə olub.

99. Həkim **HÜSEUNOV** Ağa

05 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 183 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik həkimi (1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının Nuxa şəhərində yerləşən piyada taboruna hərbi sanitar xidmətinin təşkili üçün ezam edilməklə) təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

100. Saray müşaviri **XANBUDAQOV** Yusif bəy

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "kollec asessoru" məmur rütbəsində Hərbi Nazirliyin İntendant idarəsinin geyim emalatxanasının (Gəncə şəhəri Yelizavetskaya 6 ünvanında yerləşən) müdiri vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 438 №-li əmri ilə 23 sentyabr 1919-cu il tarixdən 17 fevral 1920-ci il tarixədək xüsusi tapşırıqla xarici ezamiyyətdə olub. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 46 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "saray müşaviri" məmur rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin geyim emalatxanasının müdiri vəzifəsində xidmətdə olub.

101. Hərbi dövür üçün məmur **XOLKİN**

17 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevral 1920-ci il tarixli 124 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında xidmətdə olub.

102. Kollec asessoru **XRULEVİÇ**

29 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1919-cu il tarixli 7 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş həkimi vəzifəsinə təyin edilib. 04 aprel 1919-cu il tarixdə Hərbi nazirin 174 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının baş həkimi vəzifəsinə keçirilib. 1-ci Tatar

süvari alayının Bakıya göndəriləcəyini eşidən kimi Gəncədə yeni yaradılan 3-cü Şəki süvari alayına keçirilməsini xahiş etmişdir. 3-cü Şəki süvari alayınında Gəncədən çıxarılacağını eşidən kimi yenidən Gəncədə saxlanılmasını və ya da ailə vəziyyəti ilə əlaqədar tərxis edilməsinin xahiş etmişdir. Hərbi nazir bu müraciətin təfsilatına varmadan, dərhal ordudan tərxis edilməsini və belə şəxslərin bir daha Azərbaycan Xalq Cümhuriyyətində dovlət qulluğuna qəbul edilməsinə imkan verməyəcəyini bildirmişdir. Məhz bu səbəbdən, Hərbi nazirin 05 iyun 1919-cu il tarixli 280 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş və məmur siyahılardan çıxarılmışdır.

103. Hərbi dövür üçün məmur **XUDOKORMOV**

Milliyəti rus. 25 aprel 1919-cu il tarixd Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə Süvari diviziyası intendantının kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 15 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

104. **XASAYEV** Məmməd

23 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda məmur kimi xidmətə qəbul edilib və Hərbi nazirin 310 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinin məmuru (8-ci dərəcə ilə) vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 mart 1920-ci il tarixli 132 №-li əmri ilə 01 mart 1920-ci il tarixdən Ordu Qərargahının Hərbi-topoqrafiya şöbəsinin hərbi topoqarfiya çəklişləri üzrə kiçik iş icraçısı vəzifəsinə keçirilib. 24 aprel 1920-ci il tarixdə Cümhuriyyət Hərbi Məktəbinin Kürd

bölməsini zabit sınaq imtahanlarında iştirak etməklə "praporşik (topoqrafiya üzrə)" hərbi rütbəsində bitirdiyinə görə Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 219 №-li əmri ilə zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilib və hərbi məmur siyahılarından çıxarılıb.

105. **İBRAHİMOV** Yunis

01 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 452 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi prokurorunun katibi vəzifəsinin icraçısı təyin edilib. Xidmətə qəbul edilməmişdən öncə Cümhuriyyət Hərbi Məhkəməsinin Bakı sahəsi üzrə hərbi müstəntiqin tərcüməçisi işləyib. 08 yanvar 1920-ci il tarixdə Barışıq Məhkəməsinin Zəngəzur şöbəsi hakiminin köməkçisi təyin edildiyi üçün həmin tarixdən Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 31 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

106. Kollec katibi **İRZABƏYOV** Bəhrəm bəy

04 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 565 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin şəxsi heyət üzrə kargüzarı vəzifəsinə təyin edilib. Xidmətə qəbul edilməmişdən öncə Daxili İşlər Nazirliyinin Dəftərxanasının 4-cü bölməsinin rəisi vəzifəsində işləyib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin şəxsi heyət üzrə kargüzarı vəzifəsində xidmətdə olub.

107. Titulyar müşavir **İKALİŞVİLİ** İlya

Milliyəti gürcü. 18 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 mart 1920-ci il tarixli 166 №-li əmri ilə Ordunun Qərargahına təyin

edilib. Cümhuriyyətin süqutuna kimi Ordu Qərargahında xidmətdə olub.

108. Quberniya katibi **İMAMQULİYEV**

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "quberniya katibi" məmur rütbəsində Hərbi Nazirliyin İntendant idarəsinin Bakı ərzaq mağazasının nəzarətçisi vəzifəsində xidmətdə olduğu qeyd edilib. Dövlət Nəzarəti müfəttişinin aktına əsasən Bakı ərzaq mağazasında ərzaq əmlakının saxlanılması və dövlət vəsaitinin israfçılığı üzrə faktlar müəyyən edildiyi görə Hərbi nazirin 05 yanvar 1920-ci il tarixli 9 №-li əmri ilə dərhal vəzifəsindən azad edilmiş, mağazadakı əmlakın komissiya tərəfindən yenidən yoxlanılması və günahının müəyyən edilməsinədək Bakı hərbi hauptvaxtında saxlanılmışdır. 09 fevral 1920-ci il tarixdə isə Hərbi nazirin 01 fevral 1920-ci il tarixli 88 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

109. Mustafa Şakir **İMAM-ZADƏ**

Nuxa şəhər sakini olub. 01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 20 fevral 1919-cu il tarixli 94 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taborunun Nuxa piyada bölüyünün imamı vəzifəsinə təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və 4-cü Nuxa piyada bölüyü həmin alayın 3-cü Nuxa piyada taboru kimi yenidən təşkil edildiyinə görə 3-cü Nuxa piyada taboruunun imamı kimi xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci

piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının 3-cü Nuxa piyada taboru nəzdində 2 taborlu 8-ci Ağdaş piyada alayı yaradılıb və 8-ci Ağdaş piyada alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 8-ci Ağdaş piyada alayının imamı vəzifəsində xidmətdə olub.

110. Kapelmeyster **İTYAKSOV**

01 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında xidmətdə olub.

111. Kollec katibi **İVANOV** Nikolay Aleksandroviç

Milliyəti rus. 01 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının kargüzarı vəzifəsinə təyin edilib. 27 aprel 1919-cu il tarixdə Hərbi nazirin 223 №-li əmri ilə 01 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 508 №-li əmri ilə təkrarən 24 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi dəmiryolçular məktəbinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi dəmiryolçular məktəbinin kargüzarı vəzifəsində xidmətdə olub.

112. Kollec müşaviri **İVANOV** Kostantin

Milliyəti rus. 10 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 may 1919-cu il tarixli 277 №-li əmri ilə Bakı yerli lazaretin baş həkimi vəzifəsinə təyin edilib. Xəstəliyi ilə əlaqədar olaraq Hərbi nazirin 01 fevral 1920-ci il tarixli63 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

113. Həkim **İVANOV** Semyon Vasilyeviç

Milliyəti rus. 15 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 may 1919-cu il tarixli 277 №-li əmri ilə Bakı yerli lazaretin kiçik ordinatoru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin kiçik ordinatoru vəzifəsində xidmətdə olub.

114. **İVLEV** Konstantin

Milliyəti rus. 10 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevral 1920-ci il tarixli 124 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayı komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayında xidmətdə olub.

115. Həkim (qadın) **İZMAYILOVA**

27 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 174 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi

nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

116. Quberniya katibi **JAJİN**

01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının silah texniki vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 dekabr 1919-cu il tarixli 611 №-li əmri ilə 01 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

117. Saray müşaviri **JDANOV**

27 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kargüzarı vəzifəsində xidmətdə olub.

118. Hərbi dövür üçün məmur **KABANOV**

16 fevral 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına

xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasında xidmətdə olub.

119. Kollec asessoru **KAMREZ** Avram Mixayloviç

Milliyəti yəhudi. 01 may 1919-cu il tarixlərdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 may 1919-cu il tarixli 277 №-li əmri ilə Bakı yerli lazaretin baş ordinatoru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin baş ordinatoru vəzifəsində xidmətdə olub.

120. **KALAÇNYUK** Miron

17 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 avqust 1919-cu il tarixli 371 №-li əmri ilə Bakı hərbi komendaturası idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı hərbi komendaturası idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

121. Həkim **KAZIMOV** Əli

10 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Gəncə hərbi lazaretin baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 15 yanvar 1919-cu il tarixli 27 №-li əmri ilə 13 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

122. **KAZIM-ZADƏ** Mirzə Əbdülsəttar

12 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 295 №-li

əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının imamı vəzifəsində xidmətdə olub.

123. Hərbi dövr üçün məmur **KARPENKO**

Milliyəti ukraynalı. 03 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 yanvar 1920-ci il tarixli 27 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

124. Həkim **KAFİTİN** Fayviş

29 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 175 №-li əmri ilə həmin tarixdən 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

125. Feldşer **KALİTOS**

Milliyəti litvalı. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş baytar həkimi vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 163 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının baş baytar həkimi vəzifəsinə keçirilib. 17 iyun 1919-cu il tarixdə Hərbi nazirin 298

№-li əmri ilə 01 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

126. Şəfqət bacısı **KATAYEVA** Vera

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Gəncə hərbi lazaretinin mirzəsi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq, Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə Gəncə hərbi lazareti - Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin yerli lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin mirzəsi vəzifəsində xidmətdə olub.

127. **KAPLUN**

04 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 26 noyabr 1919-cu il tarixli 546 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının silahlara nəzarətçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının silahlara nəzarətçisi vəzifəsində xidmətdə olub.

128. Həkim **KOPEV** Nikolay

Milliyəti rus. 13 dekabr 1918-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə 1-ci Artilleriya briqadasının artilleriya divizionunun kiçik həkimi vəzifəsinə təyin edilib. həmin tarixdən də tərxis edilib. Uzunmüddətli məzuniyyətə buraxılmasına icazə verilmədiyi üçün orduda xidmət etməkdən imtina edib və Hərbi nazirin 15 yanvar 1919-cu il tarixli 27 №-li

əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

129. Quberniya katibi **KOSENKO** Aleksandr

Milliyəti ukraynalı. 11 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 72 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş tibb feldşeri vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 158 №-li əmri ilə Gəncə hərbi lazaretinin baş tibb feldşeri vəzifəsinə keçirilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə Gəncə hərbi lazareti-Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretinin baş tibb feldşeri vəzifəsində xidmətdə olub.

130. Titulyar müşaviri **KOSSİNİÇ**

11 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 30 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda xidmətdə olub.

131. Kollec katibi **KOTELNİKOV**

Milliyəti rus. 21 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin kargüzar köməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 15 avqust 1919-cu il tarixli 364 №-li əmri ilə 05 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

132. Titulyar müşaviri **KONOPASKİ**

29 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 13 aprel 1919-cu il tarixli 199 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının silahlara nəzarət hissə rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının silahlara nəzarət hissə rəisi vəzifəsində xidmətdə olub.

133. **KONKOV** Anatoliy Nikolayeviç

Milliyəti rus. 01 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 may 1919-cu il tarixli 239 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərəncamında xidmətə göndərilib Bakı əşya anbarının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar Ordunun İntendant idarəsində xidmətdə olub.

134. Hərbi dövür üçün məmur **KOMAROV**

Milliyəti rus. 15 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 iyul 1919-cu il tarixli 344 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərəncamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında xidmətdə olub.

135. Mühəndis **KOLAR** İvan Eduardoviç

17 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 417 №-li əmri ilə ştatlar təsdiq olunanadək Artilleriya Baş idarəsinin Hərbi zavod rəisi vəzifəsinin icraçısı (alay komandiri vəzifə maaşı verilməklə)

təyin edilib. Hərbi nazirin 25 mart 1920-ci il tarixli 170 №-li əmri ilə 01 mart 1920-ci il tarixdən Ordunun Artilleriya təchizatı idarəsinin Hərbi zavodunun rəisi (diviziya komandirinin müavini vəzifə maaşı verilməklə) vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi Artilleriya təchizatı idarəsinin Hərbi zavodunun rəisi vəzifəsində xidmətdə olub.

136. **KAPELYUŞA**

08 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 30 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunda xidmətdə olub.

137. Hərbi dövür üçün məmur **KONSTANTİNOV**

Milliyəti rus. 01 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 yanvar 1920-ci il tarixli 33 №-li əmri ilə Süvari diviziyasının İntendantı rəisinin sərancamına xidmətə göndərilib və kargüzar vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasında xidmətdə olub.

138. Hərbi dövür üçün məmur **KORYUK** Afanasiy

Milliyəti rus. 06 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Kürd süvari divizionu komandirinin sərancamına xidmətə göndərilib. Qarabağda erməni-daşnak qüvvələrinə qarşı aparılan əməliyyatlar zamanı 07 aprel 1920-ci il tarixdən həlak olduğuna görə Hərbi nazirin

19 aprel 1920-ci il tarixli 216 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb.

139. Saray müşaviri **KOROBKOV**

Milliyəti rus. 18 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 327 №-li əmri ilə Gəncə qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Gəncə qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

140. Hərbi dövr üçün məmur **KOROBKO**

Milliyəti ukraynalı. 02 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixli 413 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Bakı əşya anbarının kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 556 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 12 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

141. Baytar həkim **KOROLKOV** Nikolay

Milliyəti rus. 10 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 192 №-li əmri ilə həmin tarixdən 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 388 №-li əmri ilə Azərbaycan Xalq Cünhuriyyətinin Dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə 26 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

142. Kollec reqistratoru **KOVALÇUK-KOVAL** Zaxar Lukian

17 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 423 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin Mənzil şöbəsinin kargüzarı vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Ordunun Mühəndis təchizatı idarəsinin Mənzil şöbəsinin kargüzarı vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun Mühəndis təchizatı idarəsinin Mənzil şöbəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

143. Saray müşaviri **KERBER**

27 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 174 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 05 iyun 1919-cu il tarixli 280 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

144. Həkim **KƏRİMOV** Məlikməmməd

16 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 101 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunun kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunun kiçik həkimi vəzifəsində xidmətdə olub.

145. Hərbi dövür üçün məmur **KOSTYURİN** Boris

Milliyəti rus. 16 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 mart 1920-ci il tarixli 138 №-li əmri ilə Kürd süvari divizionu komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi Kürd süvari divizionunda xidmətdə olub.

146. Baş tibb feldşeri **KOSTİKOV**

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə vaxti bilinmir. Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş tibb feldşeri vəzifəsində xidmətini davam etdirdiyi qeyd edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş tibb feldşeri vəzifəsində xidmətdə olub.

147. **KƏLBALAYEV** Həsən bəy

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 184 №-li əmri ilə həmin tarixdən 8-ci Ağdaş piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 8-ci Ağdaş piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

148. Həqiqi mülki müşavir həkim **KURDYUKOV** Leonid

Milliyəti rus. 01 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 12 mart 1919-cu il tarixli 124 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 12 mart 1919-ci il tarixli 128 №-li

(hərbi-sanitar heyəti üzrə) əmri ilə 1-ci piyada diviziyasının həkimi vəzifəsinə keçirilib. 09 iyul 1919-cu il tarixdə Hərbi nazirin 319 №-li əmri ilə 01 iyul 1919-cu il tarixdən öz arzusu ilə Cümhurittəy ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılarından çıxarılıb.

149. Ehtiyatda olan ştabs-kapitan **KURŞİNSKİ**

24 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 26 iyul 1919-cu il tarixli 335 №-li əmri ilə Şuşa qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 12 oktyabr 1919-cu il tarixli 465 №-li əmri ilə 11 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

150. Kollec müşaviri **KUSEV** Pavel

Milliyəti rus. 18 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 209 №-li əmri ilə Xankəndi yerli lazaretin baş həkimi vəzifəsinə təyin edilib. Səpmə yatalaq xəstəliyindən 31 iyun 1919-cu il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 318 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusunun hərbi məmur siyahılardan çıxarılıb. Həmin əmrdə Hərbi nazir onun xidmətlərinə qiymət verərkən bunları qeyd etmişdir: “31 iyun 1919-cu il tarixdə Xankəndində xidməti vəzifəsini yerinə yetirərkən səpmə yatalaq xəstəliyindən vəfat edib. Xəstə olduğu halda belə vəzifəsini icra etməkdə davam etmiş, bir gün də olsa belə yeni yaradılan lazareti başsız qoymamışdır. Xəstənin yanında olan Hərbi sanitar idarəsi rəisi vəzifəsinin müvəqqəti icraçısı həqiqi mülki müşavir Krasovskinin söyləməsinə görə huşsuz vəziyyətdə olduğu dövürdə belə yalnız lazaret barəsində sayıqlamış, oradakı işlərin onsuz başa çatdırılmayacağını söyləmişdir. Vəzifə borcuna sədaqətini yüksək

qiymətləndirərək özündən sonra qalmış həyat yoldaşı və 15 yaşlı oğluna 3000 (üç min) rubl həcmində birdəfəlik maddi yardımın verilməsi Hərbi Nazirliyin İntendant idarəsinə tapşırılmış və ailəsinə təqaüd kəsilməsi üçün Hökümət qarşısında vəsatət qadırılmışdır”.

151. Kapelmeyster **KUTİLEK**

01 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin kapelmeysteri vəzifəsinə təyin edilib. Ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbin kapelmeysteri vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbin kapelmeysteri vəzifəsində xidmətdə olub.

152. Kapelmeyster **KULİKOVSKİ**

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kapelmeysteri vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 15 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

153. Kapelmeyster **KURTIŞ**

17 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 iyun 1919-cu il tarixdən 279 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayının kapelmeysteri vəzifəsinə təyin edilib. Təşkilati-ştat

tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kapelmeysteri vəzifəsində xidmətdə olub.

154. Feldşer **KUZNESOV** Nikolay

Milliyəti rus. 12 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-cu il tarixli 18 №-li əmri ilə 1-ci Artilleriya briqadasının artilleriya divizionunun baş tibb feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının artilleriya divizionunun baş tibb feldşeri vəzifəsində xidmətdə olub.

155. Həqiqi saray müşaviri həkim **KRASNOVSKİ** Serqey Aleksandroviç

Milliyəti rus. 04 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 06 fevral 1919-cu il tarixli 58 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar idarəsinin həkimlərdən olan kargüzarı vəzifəsinə təyin edilib. 18 aprel 1919-cu il tarixdə Hərbi nazirin 209 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar idarəsinin tapşırıqlar və ezamiyyətlər üzrə həkimi vəzifəsinə keçirilib. Hərbi nazirin 307 №-li əmri ilə 22 iyun 1919-cu il tarixdən 10 iyul 1919-cu il tarixədək Hərbi Nazirliyin Hərbi sanitar idarəsi rəisi vəzifəsinin müvəqqəti icraçısı olub. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Hərbi sanitar idarəsinin tapşırıqlar və ezamiyyətlər üzrə həkimi vəzifəsində xidmətdə olub.

156. Kollec katibi **KRİVOŞEYN**

07 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 556 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 11 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

157. Quberniya katibi **KRIJİN**

10 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə Süavri diviziyasının 2-ci Qarabağ süvari alayının xəzinədarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süavri diviziyasının 2-ci Qarabağ süvari alayının xəzinədarı vəzifəsində xidmətdə olub.

158. Həkim (qadın**) KRUQ**

03 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 174 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

159. Mülki müşavir baytar həkim **KVİTAŞVİLİ**

Milliyəti gürcü. 09 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 320 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi baytar hissə rəisi vəzifəsinə təyin

edilib. Hərbi nazirin 07 fevral 1920-ci il tarixli 77 №-li əmri ilə həmin tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

160. Gizli müşavir **QABAYEV**

19 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 45 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar hissəsinin rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 22 iyun 1919-cu il tarixli 307 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

161. Kollec katibi **QADYUÇİ** Leonid Nikolayeviç

01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına xidmətə göndərilib və Bakı əşya anbarının hesabdarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində xidmətdə olub.

162. Həkim **QADIMBƏYOV** Əziz bəy Məmmədhüseyn oğlu

03 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 406 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik həkimi vəzifəsinə təyin edilib və Hərbi Nazirliyin Hərbi sanitar idarəsinə xidməti vəzifəsini icra etmək üçün ezam edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

163. **QAİBOV**

01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 may 1919-cu il tarixli 264 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının 3-cü piyada taborunun imamı (Qazax şəhərində yerləşən) vəzifəsinə təyin edilib. Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 426 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

164. Kollec asessoru **QAİBOV** Əli bəy

01 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 may 1919-cu il tarixli 277 №-li əmri ilə Bakı yerli lazaretin kiçik ordinatoru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin kiçik ordinatoru vəzifəsində xidmətdə olub.

165. Həkim **QAİBOV** Bahadur bəy

01 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə başlayıb və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 296 №-li əmri ilə Hərbi sanitar qatarının könüllü həkimi vəzifəsi həvalə edilib.

10 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar idarəsinin rəisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 18 mart 1920-cu il tarixli 159 №-li əmri ilə Ordunun Hərbi sanitar idarəsinin rəisi vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi Ordunun Hərbi sanitar idarəsinin rəisi vəzifəsində xidmətdə olub.

166. Həkim **QAJLAYEV** Məhəmməd Xan

14 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 31 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taborunun kiçik həkimi vəzifəsinə təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

167. **QAYDAYEV** İvan

Milliyəti rus. 20 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 183 №-li əmri ilə Gəncə hərbi lazaretin (Gəncə dəmiryolustansiyasının binsında yerləşən) təsərüffat hissə rəisinin köməkçisi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə Gəncə hərbi lazareti-Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin təsərüffat hissə rəisinin köməkçisi vəzifəsində xidmətdə olub.

168. Hərbi dövr üçün məmur **QAPOTÇENKO**

Milliyəti ukraynalı29 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 aprel

1919-cu il tarixli 181 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının araba karvanının rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının araba karvanının rəisi vəzifəsində xidmətdə olub.

169. Quberniya katibi **QAMBARAŞVİLİ**

Milliyəti gürcü. 20 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 iyul 1919-cu il tarixli 337 №-li əmri ilə Baş Qərargahın Baş idarəsinin baş adyutantının köməkçisi vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 454 №-li əmri ilə 01 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

170. Baytar feldşeri **QAŞQAROV**

01 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə başlayıb və Hərbi nazirin 17 iyun 1919-cu il tarixli 298 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının kiçik baytar feldşeri vəzifəsi həvalə edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvari alayının kiçik baytar feldşeri vəzifəsini könüllü olaraq icra edib.

171. Həkim **QƏNİ-ZADƏ** Əbdül Həmid

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında 1-ci piyada diviziyasının həkimi vəzifəsini müvvəqəti icra edən kimi qeyd edilib. Hərbi nazirin 15 yanvar 1919-cu il tarixli 27 №-li əmri ilə 13 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

172. Həkim **QƏNİYEV** Məmmədtağı

08 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 iyul 1919-cu il tarixli 338 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Səpmə yatalaq xəstəliyindən 26 yanvar 1920-ci il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 60 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb.

173. **QARAYEV** Əbülfəz

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 184 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyıtin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

174. Saray müşaviri **QARACƏMİRLİNSKİ** Qasım bəy

12 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 289 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 03 yanvar 1920-ci il tarixli 1 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Zaqatala ərzaq mağazasının nəzarətçisi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin Zaqatala ərzaq mağazasının nəzarətçisi vəzifəsində xidmətdə olub.

175. Kollec katibi **QASTEV**

02 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 dekabr 1918-cu il tarixli 39 №-li əmri ilə 1-ci Artilleriya briqadası komandirinin sərancamına xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasında xidmətdə olub.

176. Provizor köməkçisi **QELBUX**

30 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 158 №-li əmri ilə Xankəndi yerli lazaretin aptek rəisi vəzifəsinə təyin edilib. Səpmə yatalaq xəstəliyindən 20 iyun 1919-cu il tarixdə vəfat etdiyinə görə Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 318 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur sıyahılarından çıxarılıb.

177. Titulyar müşavir **QORÇİBAŞEV** Abdulhəmid bəy

11 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 №-li əmri ilə Hərbi Məktəbin tədris hissə rəisinin (sinif təlimatçısı) köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbin tədris hissə rəisinin (sinif təlimatçısı) köməkçisi vəzifəsində xidmətdə olub.

178. **QORODNİÇENKO** Konstantin

Milliyəti ukraynalı. 07 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 138 №-li əmri ilə Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin Hərbi nəqliyyat şöbəsinin məmuru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordu Qərargahının

General-Kvartirmeyster idarəsinin Hərbi nəqliyyat şöbəsinin məmuru vəzifəsində xidmətdə olub.

179. Hərbi dövür üçün məmur **QORELKİN** Vasiliy Filipoviç

13 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 11 may 1919-cu il tarixli 244 №-li əmri ilə Süvari diviziyası intendantının kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 16 fevral 1920-ci il tarixli 107 №-li əmri ilə 11 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

180. Titulyar müşavir **QORYAÇEV** Nikolay Mixayloviç

Milliyəti rus. 31 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taborunun silah texniki vəzifəsinə təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının silah texniki vəzifəsində xidmətdə olub.

181. Kollec müşaviri **QOLOVİN** Stepan Qavriloviç

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində "saray müşaviri" məmur rütbəsində Hərbi Nazirliyin İntendant idarəsinin maliyyə hissəsi üzrə kargüzarı vəzifəsində xidmətdə olduğu qeyd edilib. Nazirlər Şurası Sədrinin 24 noyabr 1919-cu il 46 №-li və Hərbi nazirin 08 dekabr 1919-cu il tarixli 563 №-li əmri ilə "kollec müşaviri" məmur rütbəsinə layiq görülüb. Cümhuriyyətin süqutuna kimi ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin maliyyə hissəsi üzrə kargüzarı vəzifəsində xidmətdə olub.

182. Kollec reqistratoru **QONÇAROV**

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında Süvari diviziyası qərargahının kargüzarı vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə 15 fevral 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kargüzarı vəzifəsinə keçirilib. 24 sentyabr 1919-cu il tarixdə isə Hərbi nazirin 429 №-li əmri ilə Lənkaran ehtiyat piyada taborunun kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və həmin alay qərargahının kargüzarı vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayın kargüzarı vəzifəsində xidmətdə olub.

183. Həqiqi mülki müşavir həkim **QEYNAS** Qriqoriy

Milliyəti litvalı. 07 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 08 aprel 1919-cu il tarixli 185 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbi 15 oktyabr 1919-cu il tarixdən Hərbi Məktəbi adlanıb və xidmət yeri həmin məktəbdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbin baş həkimi vəzifəsində xidmətdə olub.

184. **QRABOVSKİ** İosif

Milliyəti rus. 01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1920-ci il tarixli 46 №-li əmri ilə Baş Artilleriya idarəsinin kargüzar köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun Artilleriya təchizatı idarəsinin kargüzar köməkçisi vəzifəsində xidmətdə olub.

185. Titulyar müşaviri **QRABOVSKİ** Konstantin Vladimiroviç

Milliyəti rus. 25 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 29 mart 1920-ci il tarixli 179 №-li əmri ilə Ordunun Təchizat idarəsininin hüquq məsləhətçisi vəzifəsinə təyin edilib. Xidmətə qəbul olanadək Gəncə Qubernatoru Dəftərxanasının müdiri vəzifəsinəd işləyib. Cümhuriyyətin süqutuna kimi Ordunun Təchizat idarəsininin hüquq məsləhətçisi vəzifəsində xidmətdə olub.

186. **QRUŞİNSKAYA** Nina Vladimirovna

Milliyəti rus. 24 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 mart 1920-ci il tarixli 162 №-li əmri ilə Hərbi Nazirliyin Gəncə hərbi İntendant anbarının hesabçısı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin Gəncə hərbi intendant anbarının hesabçısı vəzifəsində xidmətdə olub.

187. Titulyar müşavir **QREÇİXİN**

31 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının silah texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının silah texniki vəzifəsində xidmətdə olub.

188. Həkim **QRİNEVA** Aqniya Fedotovna

Milliyəti rus. 14 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 19 mart 1919-cu il tarixli 138 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun kiçik həkimi vəzifəsində xidmətdə olub.

189. **QULU-ZADƏ** Məşədi Mehti Əli

Bakı şəhər sakini olub. 12 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 82 №-li əmri ilə Süvari diviziyasının

2-ci Qarabağ süvari alayının mollası vəzifəsinə təyin edilib. 04 aprel 1919-cu il tarixdə Hərbi nazirin 175 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının mollası vəzifəsinə keçirilib. Hərbi nazirin 18 sentyabr 1919-cu il tarixli 414 №-li əmri ilə isə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının imamı vəzifəsinə təyin edilib. 20 noyabr 1919-cu il tarixdə Hərbi nazirin 541 №-li əmri ilə 25 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib.

30 dekabr 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 fevral 1920-ci il tarixli 72 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının imamı vəzifəsində xidmətdə olub.

190. **QULİYEV** Abdulla

25 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 oktyabr 1919-cu il tarixli 500 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Bakı əşya anbarı rəisininköməkçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 08 aprel 1920-ci il tarixli 201 №-li əmri ilə 03 aprel 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

191. Saray müşaviri **QURQENİDZE** Aleksandr

Milliyəti gürcü. 29 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə qəbul edilib və Hərbi nazirin 01 oktyabr 1919-cu il tarixli 442 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 04 yanvar 1920-ci il tarixli 4 №-li əmri ilə öz xahişi ilə həmin tarixdən

Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

192. **QRİNİŞKİN** Nikolay

Milliyəti rus. 01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1920-ci il tarixli 77 №-li əmri ilə 2-ci piyada diviziyasının İntendantı rəisinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının intendant xidmətində xidmətdə olub.

193. Hərb dövrü üçün məmur **QRİQOREV**

Milliyəti rus. 01 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının Avtomobil hissəsinin texniki hissə müdiri vəzifəsinə təyin edilib. Türk Silahlı Qüvvələrindən qalmış əmlakın Gəncə dəmir yolu stansiyasında çeşidlənməsi və qəbulu üzrə komissiyanın üzvü olub. Hərbi nazirin 01 yanvar 1919-cu il tarixli 2 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusundan tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

194. Kollec katibi (mühəndis) **QOLUBEV**

Milliyəti rus. 05 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1920-ci il tarixli 147 №-li əmri ilə Mühəndis idarəsinin Gəncə iş icraçısının köməkçisi vəzifəsinə təyin edilib. Mütəmadi olaraq xəstə olduğuna görə Hərbi nazirin 22 aprel 1920-ci il tarixli 235 №-li əmri ilə 01 aprel 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

195. Mülki müşavir **LAURENTİ** Nikolay

Milliyəti gürcü. 07 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə 1-ci Artilleriya briqadasının artilleriya divizionunun baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 10 iyun 1919-cu il tarixli 284 №-li əmri ilə öz xahişi ilə 06 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

196. Ehtiyatda olan praporşik **LAVRENOV** Qeorqiy

Milliyəti rus. 18 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 579 №-li əmri ilə Xankəndi yerli lazaretin təsərrüfat hissə rəisinin köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Xankəndi yerli lazaretin təsərrüfat hissə rəisinin köməkçisi vəzifəsində xidmətdə olub.

197. **LEMMERMAN**

Milliyəti yahudi. 08 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 yanvar 1920-ci il tarixli 30 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taboru komandirinin sərancamına göndərilib. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə 28 yanvar 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

198. Kollec katibi **LEMZYAKOV**

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayının

kargüzarı vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının xəzinədarı vəzifəsinə keçirilib. 15 iyul 1919-cu il tarixdə Hərbi nazirin 326 №-li əmri ilə 01 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

199. Kollec katibi **LİÇMANOV**Qavril

Milliyəti rus. 07 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 fevral 1919-cu il tarixli 64 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar idarəsinin kargüzarı və məmuru vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 mart 1919-cu il tarixli 151 №-li əmri ilə Bakı yerli lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsində xidmətdə olub.

200. Kollec reqistratoru **LİSİSIN** Vasiliy

Milliyəti rus. 1919-cu ildə Mixayılovski adına Tiflis şəhər xəstəxanasının nəzdində feldşerlər məktəbini bitirib. 03 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 406 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının tibb feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının tibb feldşeri vəzifəsində xidmətdə olub.

201. Kollec asessoru **LİSOVSKİ**

Milliyəti rus. 04 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 12 fevral 1920-ci il tarixli 92 №-li əmri ilə Quba qəza hərbi rəisi

idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Quba qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

202. **LEBEDEV** Vladimir

Milliyəti rus. 07 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 138 №-li əmri ilə Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin Hərbi nəqliyyat şöbəsinin məmuru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordu Qərargahının General-Kvartirmeyster idarəsinin Hərbi nəqliyyat şöbəsinin məmuru vəzifəsində xidmətdə olub.

203. Feldşer **LEVÇENKO** Mefodiy Pavloviç

Milliyəti ukraynalı. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında Gəncə yerli lazaretin baş tibb feldşeri-aptekar köməkçisi vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 22 may 1919-cu il tarixli 260 №-li əmri ilə 08 may 1919-cu il tarixdən Gəncə yerli lazaretin aptek rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. 15 yanvar 1920-ci il tarixdə Hərbi nazirin 29 №-li əmri ilə 01 yanvar 1920-ci il tarixdən Gəncə yerli lazaretin aptek rəisi vəzifəsinə təsdiq olunub. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin aptek rəisi vəzifəsində xidmətdə olub.

204. Saray müşaviri **LOMOV**

Milliyəti rus. 25 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 mart 1919-cu il tarixli 162 №-li əmri ilə Artilleriya idarəsinin

Artilleriya Anbarının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Artilleriya təchizatı idarəsinin Artilleriya anbarının kargüzarı və zifəsində xidmətdə olub.

205. Kollec müşaviri **LYUBİNSKİ** Konstantin

Milliyəti rus. 05 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 sentyabr 1919-cu il tarixli 393 №-li əmri ilə 2-ciArtilleriya briqadasının 1-ciyüngül artilleriya divizionunun baş həkimi vəzifəsinə təyin edilib. Xəstəliyi ilə əlaqədar olaraq Hərbi nazirin 16 fevral 1920-ci il tarixli 101 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

206. **MALER**

07 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 535 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına xidmətə göndərilib. Hərbi nazirin 11 mart 1920-ci il tarixli 145 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

207. Həkim **MANELOV** Qeorqiy

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik həkimi vəzifəsində xidmətdə olduğu qeyd edilib. 07 aprel 1919-cu il tarixdə Hərbi nazirin 183 №-li əmri ilə 05 aprel 1919-cu il tarixdən Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının kiçik həkimi vəzifəsinə keçirilib. Cümhuriyyətin

süqutuna kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

208. Mirzə Axund **MAHMUD-ZADƏ**

Balaxanı-Sabunçu polismeysterliyinin Buzovna kənd sakini olub. 01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının mollası vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının mollası vəzifəsində xidmətdə olub.

209. Həkim **MAHMUDBƏYOV**

08 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada

diviziyasının 4-cü Quba piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

210. Kollec katibi **MATVEYEV**

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki məmur heyətinin hərbi hissələr üzrə üzləşmə siyahılarında 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının feldşeri vəzifəsində xidmətdə olduğu qeyd edilib. 30 aprel 1919-cu il tarixdə Hərbi nazirin 226 №-li əmri ilə 10 aprel 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

211. Kollec katibi **MATEŞEV**

Milliyəti rus. 14 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Cümhuriyyət Hərbi məhkəməsinin katibi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyət ordusunda xidmətə qəbul olunanadək Gəncə Dairə məhkəməsi prokurorunun katibi vəzifəsində işləyib. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyət Hərbi məhkəməsinin katibi vəzifəsində xidmətdə olub.

212. Mülki müşavir həkim **MARİNŞEVSKİ** İosif

15 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 77 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin baş həkimi vəzifəsinə təyin edilib. 12 mart 1919-cu il tarixdə Hərbi nazirin 129 №-li əmri ilə Süvari diviziyasının həkimi (Gəncə hərbi lazaretin nəzdindəki Mərkəzi Aptek Deposuna əmlakın qəbulu üzrə komissiyanın sədri vəzifəsini icra etməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin

süqutuna kimi Süvari diviziyasının həkimi vəzifəsində xidmətdə olub.

## 213. Həkim **MARQULİS** Abram

Milliyəti yəhudi. 09 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 394 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun kiçik həkimi vəzifəsində xidmətdə olub.

## 214. Həkim **MAŞKOVİÇ** Boris

14 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 472 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

## 215. **MELEXİN**

01 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının kargüzarı vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı

kimi adlanıb. 28 iyul 1919-cu il tarixdə Hərbi nazirin 339 №-li əmri ilə 15 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

17 avqust 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 oktyabr 1919-cu il tarixli 477 №-li əmri ilə 2-ci piyada diviziyası intendantının sərancamına göndərilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 23 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

216. **MAKİNSKİ** Teymur bəy

1874-cü ildə İrəvan şəhərində anadan olub. İrəvanda yaşayan Maku xanın törəmələrindən olub. İlkin təhsilini İrəvan Gimnaziyasında alıb. 1916-cı ildə Varşava Universitetinin hüquq fakultəsini birinci dərəcə ilə bitirib. Cənubi Qafqaz Seyminin Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurasının üzvü olub. Milli Şuranın 19 noyabr 1918-ci il tarixli "Azərbaycan Məclisi-Məbusanının (parlamentinin) təsisi haqqında" Qanununa əsasən, seçkisiz Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Ədliyyə nazirinin müavini olub. İrəvan quberniyasında yaşayan azərbaycanlıların erməni zülmündən qorunması məqsədilə 1919-cu ilin yanvarında Bakıda təsis edilmiş İrəvan Quberniyası Həmyerliləri Cəmiyyəti İdarə Heyətinin sədri seçilib.

Nazirlər Şurası Sədrinin 07 iyul 1919-cu il və Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 321 №-li əmri ilə 12 yanvar 1919-cu il tarixdən Cümhuriyyət Hərbi Məhkəməsinin sədri vəzifəsinə təyin edilmiş hesab edilib. 28 fevarl 1920-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan Respublikasında Diplomatik Missiyasının rəhbəri təyin

edildiyinə görə Nazirlər Şurası Sədrinin 07 fevral 1920-ci il və Hərbi nazirin 28 fevral 1920-ci il tarixli 124 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

217. Kollec katibi **MAZAN** Stepan

06 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 12 aprel 1919-cu il tarixli 124 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş tibb feldşeri (Mərkəzi Aptek Deposuna naryardların icrası üçün ezam edilməklə) vəifəsinə təyin edilib. Hərbi nazirin 30 mart 1919-cu il tarixli 158 №-li əmri ilə Ordunun Aptek Anbarının tibb feldşeri vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi Ordunun Aptek Anbarının tibb feldşeri vəzifəsində xidmətdə olub.

218. Hərbi dövür üçün məmur **MAZAYEV** İvan Vasilyeviç

06 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmri ilə Bakı qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. 20 aprel 1920-cu il tarixdə həbs edilərək istintaq altında olduğuna görə Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

219. **MEHMANDAROV** Kərim bəy

01 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü həkim kimi xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 296 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının 1-ci piyada taborunda (Şuşa şəhərində

yerləşən) sanitar hissəsinin yaradılması üçün ezam edilib. Hərbi nazirin 25 sentyabr 1919-cu il tarixli 430 №-li əmri ilə 03 sentyabr 1919-cu il tarixdən Şuşa şəhərindəki Hərbi feldşerlər məktəbinin rəisi vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi Şuşa şəhərindəki Hərbi feldşerlər məktəbinin rəisi vəzifəsinin icraçısı vəzifəsində xidmətdə olub.

220. **MEHMANDAROV** İbrahim

01 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 63 №-li əmri Bakı yerli lazaretin (Bakı şəhəri Bayıl) baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin baş həkimi vəzifəsində xidmətdə olub.

221. Quberniya katibi **MEHTİYEV**

01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Qusar ərzaq mağazasının nəzarətçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 dekabr 1919-cu il tarixli 580 №-li əmrində onun Hərbi Nazirliyin İntendant idarəsi tərəfindən Qusar qarnizonu və Quba dəstəsinə ərzaq tədarükü üçün Qusarda ərzaq mağazasının açılması üçün ezam edildiyi bildirilir. Həmin əmrdə göstərilir ki, alay komandirləri öz məruzələrində onun heç bir iş görmədiyi və hətta 4-cü Quba piyada alayı komandiri tərəfindən bu ehtiyatların saxlanılması üçün anbarların belə ayrıldığını ona bildirdiyi halda belə hərbi hissələr üçün un və taxıl ehtiyatını yaratmamışdır. Belə olduğu halda Hərbi nazir 03 yanvar 1920-ci il tarixli 1 №-li əmri ilə onu vəzifə borclarına səhlənkar yanaşdığına görə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə

həmin tarixdən Cümhuriyyət ordusundan tərxis etmiş və hərbi məmur siyahılardan çıxarmışdır.

222. Kollec müşaviri **MELNİKOV** Vladimir

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 05 yanvar 1919-cu il tarixli 6 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş baytar həkimi kimi xidmətdə olduğu qeyd edilib. 30 yanvar 1919-cu il tarixdə Hərbi nazirin 52 №-li əmri ilə 22 yanvar 1919-xu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb. 29 mart 1920-ci il tarixdə təkrarən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 178 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş baytar həkimi vəzifəsində xidmətdə olub.

223. Quberniya katibi **MEER** Vitold İosefiç

Milliyəti yəhudi. 05 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 yanvar 1919-cu il tarixli 25 №-li əmri ilə Gəncə hərbi lazaretinin aptek rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 mart 1919-cu il tarixli 151 №-li əmri ilə Bakı yerli lazaretinin aptek rəisi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretinin aptek rəisi vəzifəsində xidmətdə olub.

224. Mühəndis **MOQİLEVSKİ** Mixayıl

Milliyəti rus. 27 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 iyul 1919-cu il tarixli 342 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin mühəndisi vəzifəsinə təyin edilib. Təşkilari-ştat

tədbirləri ilə əlaqədar olaraq Cümhuriyyətin süqutuna kimi Ordunun Mühəndis təchizatı idarəsi mühəndisi vəzifəsində xidmətdə olub.

225. Kollec müşaviri **MOROZOV**

Milliyəti rus. 13 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1920-ci il tarixli 74 №-li əmri ilə Hərbi zavodun kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi zavodun kargüzarı vəzifəsində xidmətdə olub.

226. Kollec katibi **MOROZOV**

Milliyəti rus. 01 mart 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 01 may 1919-cu il tarixli 231 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kargüzarı vəzifəsində xidmətdə olub.

227. Hərbi dövür üçün məmur **MONTUZOV**

07 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 535 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına göndərilib. Hərbi nazirin 10 dekabr 1919-cu il tarixli 568 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 01 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

228. Molla Hacı Qutbəddin **MÜŞTEİD-ZADƏ**

21 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevral 1920-ci il tarixli 124 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci dağ-divizionunun imamı vəzifəsinə təyin edilib. Xidmət yerinə gəlib çıxmadığına görə Hərbi nazirin 27 mart 1920-ci il tarixli 168 №-li əmri ilə xidmətə qəbul əmri ləğv edilib və hərbi məmur siyahılarından çıxarılıb.

229. Kollec katibi **MƏMMƏDBƏYOV** Əhməd bəy Paşa bəy oğlu

01 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 yanvar 1919-cu il tarixli 53 №-li əmri ilə Quba qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 509 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

230. **MƏMMƏDBƏYOV** Zəkəriyə

06 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 fevral 1919-cu il tarixli 70 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının kiçik baytar feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının kiçik baytar feldşeri vəzifəsində xidmətdə olub.

231. **MƏMMƏDOV** Abdulla

09 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevral 1920-ci il tarixli 124 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada

alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında xidmətdə olub.

232. **MƏMMƏDOV** Cəbrayıl

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Hərbi Nazirliyin İntendant idarəsinin Gəncə intendant ərzaq mağazasının (Yelizavetpolskaya 92 üvanında yerləşən) müdiri vəzifəsində xidmətdə olduğu qeyd edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində xidmətdə olub.

233. **MƏMMƏDOV** Cəfər

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmrində Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamındaxidmətdə olduğu qeyd edilib. Gəncə qəza hərbi rəisi idarəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağrıldığına görə Hərbi nazirin 07 may 1919-cu il tarixli 239 №-li əmri ilə 30 aprel 1919-cu il tarixdən Cümhuriyyət ordusunun məmur heyəti siyahılarından çıxarılıb.

234. Quberniya katibi **MƏMMƏDOV** Həsən Yusif oğlu

17 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 may 1919-cu il tarixli 239 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndə rilib və Gəncə intendant ərzaq mağazası (Yelizavetpolskaya 92 üvanında yerləşən) müdirinin köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi

təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində xidmətdə olub.

235. İmam Məhəmməd Seyid Əfəndi **MƏHƏMMƏD SULTANOĞLU**

19 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 06 mart 1919-cu il tarixli 109 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taborunun imamı vəzifəsinə təyin edilib. 01 iyun 1919-cu il tarixdə Hərbi nazirin 275 №-li əmri ilə Əlahiddə Zaqatala piyada taboru 1-ci piyada diviziyasının 4-cüZaqatala piyada alayı kimi təşkil edilib və xidmət yeri həmin alayda saxlanılıb. 14 iyul1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

236. **MƏMMƏDOV** Hüseyn

08 may 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 may 1919-cu il tarixli 262 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində xidmətdə olub.

237. Molla Abdul Səməd **MƏMMƏDOĞLU**

11 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 oktyabr 1919-cu il tarixli 477 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyət

süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının imamı vəzifəsində xidmətdə olub.

238. Kollec müşaviri **MELNİKOV** Vladimir

Milliyəti rus. 29 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 178 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş baytar həkimi vəzifəsində xidmətdə olub.

239. **MİXAYLOV**

Milliyəti rus. 08 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 200 №-li əmri ilə həmin tarixdən 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayında xidmətdə olub.

240. Həkim (qadın) **MİXAYLOVA-JUKOVSKAYA** Aleksandra

Milliyəti rus. 13 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 aprel 1919-cu il tarixli 206 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayına ezam edilməklə Xankəndi yerli lazretin kiçik ordinatoruvəzifəsinə təyin edilib. Hərbi nazirin 19 noyabr 1919-cu il tarixli 537 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə həmin tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

241. Saray müşaviri silah texniki **MİXAYLOV**

Milliyəti rus. 24 sentyabr 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 sentyabr 1919-cu il tarixli 444 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının silahlara cavabdeh hissə rəisi vəzifəsinə təyin edilib və eyni zamanda Hərbi Məktəbinin Silahlara cavabdeh hissə rəisi vəzifəsinin icrası ona həvalə edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının silahlara cavabdehhissə rəisi vəzifəsində xidmətdə olub.

242. Kollec katibi həkim **MİXAYLOV** Nikolay Fedoroviç

Milliyəti rus. 10 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 may 1919-cu il tarixli 260 №-li əmri ilə Gəncə yerli lazaretin (Gəncə dəmiryolustansiyasının binasında yerləşən) kiçik ordinatoru vəzifəsinin icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin kiçik ordinatoru vəzifəsində xidmətdə olub.

243. Kollec asessoru Knyaz **MİKELADZE**

Milliyəti gürcü. 02 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixli 413 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin Bakı əşya anbarının rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 oktyabr 1919-cu il tarixli 500 №-li əmri ilə 23 oktyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

244. Həkim **MUDROX** Vladimir

13 avqust 1919cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 357 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 15 yanvar 1920-ci il tarixli 29 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

245. Kollec katibi **MYAQKOV**

09 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmri ilə 01 mart 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

246. Həkim **NAĞIYEV** Əli

09 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Gəncə hərbi lazaretin kiçik ordinatoru vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə Gəncə hərbi lazareti Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin kiçik ordinatoru vəzifəsində xidmətdə olub.

247. Kollec katibi **NATALENKO** İvan

Milliyəti uktaynalı. 07 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 fevral 1919-cu il tarixli 64 №-li əmri ilə Gəncə hərbi

lazaretinin mirzəsi vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə Gəncə hərbi lazareti Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin mirzəsi vəzifəsində xidmətdə olub.

248. Kollec reqistratoru (ehtiyatda olan praporşik) **NAUKİN** Eduard

25 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 dekabr 1919-cu il tarixli 558 №-li əmri ilə Ümumi Qərargah rəisinin sərancamına göndərilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Cümhuriyyətin süqutuna kimi Ordu Qərargahında xidmətdə olub.

249. **NURİOĞLU** Fətulla

Milliyəti türk. 04 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 yanvar 1920-ci il tarixli 24 №-li əmri ilə Bakı yerli lazaretin sünnü təriqəti üzrə dini ayinlərin yerinə yetirilməsi üzrə imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı yerli lazaretin sünnü təriqəti üzrə dini ayinlərin yerinə yetirilməsi üzrə imamı vəzifəsində xidmətdə olub.

250. Kollec müşaviri **NOVİSKİY** İosif Epazmoviç

10 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 25 mart 1920-ci il tarixli 191 №-li əmri ilə Ordunun Təchizat idarəsi nəzdində şöbə müdiri (7-ci dərəcə üzrə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Ordunun Təchizat idarəsi nəzdində şöbə müdiri vəzifəsində xidmətdə olub.

251. **NEFEDYEV** Serqey

08 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 200 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayında xidmətdə olub.

252. Kollec asessoru **NELYUBOV** Mixayıl İvanoviç

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayı komandirinin sərancamında xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 14 mart 1919-cu il tarixli 126 №-li əmri ilə xidmət etmədiyinə görə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb. 15 oktyabr 1919-cu il tarixdə təkrarən xidmətə qəbul edilib və Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 №-li əmri ilə Hərbi Məktəbin xəzinədarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbin xəzinədarı vəzifəsində xidmətdə olub.

253. Kollec reqistratoru **NƏZİROV** Yusuf

29 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 13 aprel 1919-cu il tarixli 199 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının araba komandasının komandiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 mart 1920-ci il tarixli 168 №-li əmri ilə 20 mart 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

254. Kollec katibi **ONOŞKO**

Milliyəti ukraynalı. 20 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li əmri ilə Hərbi Nazirliyin Artilleriya idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 20 iyun 1919-cu il tarixli 304 №-li əmri ilə Gürcüstan Respublikasının Hərbi Nazirliyindən hərbi əmlakın alınması üzrə komissiyanın üzvü seçilib. Təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Cümhuriyyətin süqutuna kimi Ordunun Artilleriya təchizatı idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

255. Saray müşaviri **OXREMENKO**

Milliyəti ukraynalı. 07 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin mühasibi vəzifəsinə təyin edilib. Hərbi nazirin 08 iyun 1919-cu il tarixli 286 №-li əmri ilə 03 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

256. Həkim **ORLOV** Vladimir

Milliyəti rus. 12 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 may 1919-cu il tarixli 260 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

257. Həkim **ORDUBATSKİ**

01 may 1919-cu il tarixlərdə Cümhuriyyət ordusunda könüllü xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 296 №-li əmri ilə Hərbi sanitar qatarının sarğı dəstəsinin həkimi vəzifəsi həvalə edilib. Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 319 №-li əmri ilə xidmətə qəbulla bağlı əmr ləğv edilib.

258. **PARÇEVSKİY**Aleksandr

16 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 101 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş həkimi vəzifəsində xidmətdə olub.

259. Həkim **PARPETOV**

22 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 318 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ciQubapiyada alayının kişik həkimi vəzifəsinə təyin edilib. Xidmətə ezamiyyətə getməkdən imtina etdiyinə görə Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 319 №-li əmri ilə 04 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

260. Quberniya katibi **PARNEVİÇ** Aleksandr

Milliyəti rus. 01 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 avqust 1919-cu il tarixli 349 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının feldşeri (Bakı yerli lazaretinə

xidməti vəzifəsinin icrası üçün ezam edilməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının feldşeri vəzifəsində xidmətdə olub.

261. **PAVLANDOV** Murtuz bəy

05 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 348 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin Hərbi Prokuroru vəzifəsinin müvəqqəti icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 dekabr 1919-cu il tarixli 596 №-li əmri ilə öz xahişi ilə 25 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

262. Hərbi dövr üçün məmur **PİSANKO** Yakov

Milliyəti ukraynalı. 01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 16 fevral 1920-ci il tarixli 107 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayı komandirinin sərancamına göndə rilib. Cümhuriyyət süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında hərbi məmur kimi xidmətdə olub.

263. **PODKOPAYEV** Semyon İvanoviç

12 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 avqust 1919-cu il tarixli 376 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib və ərzaq hissəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində hərbi məmur kimi xidmətdə olub.

264. Kollec müşaviri **POTAPOV** Qriqoriy

Milliyəti rus. 01 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Süvari diviziyasının həkimi vəzifəsinə təyin edilib. Süvari diviziyasının həkimi kimi Hərbi nazirə məruzə edib ki, Süvari diviziyasının tabelyində olan süvari alaylarında səpmə yatalaq epidemiyasına yoluxanlar yoxdu. Lakin araşdırma zamanı məlum olmuşdur ki, həmin epidemiyadan 3 (üç) əsgər vəfat edib. Eyni zamanda Gəncə hərbi lazaretin nəzdindəki Mərkəzi Aptek Deposuna tibbi dərmanların qəbulu üzrə komissiyanın sədri kimi subordinasiya qaydalarını pozaraq Depo barədə hesabatı birbaşa Hərbi nazirə təqdim etmişdir. Hərbi nazir yalan məlumat verdiyinə və yazışma qaydasını pozduğuna görə onu 12 mart 1919-cu il tarixli 129 №-li əmri ilə xidməti uyğunsuzluğa görə Cümhuriyyət ordusu sıralarından tərxis etmiş və hərbi məmur siyahılardan çıxarmışdır.

265. Provizor **POSTNİKOV** Pyotr İvanoviç

07 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 182 №-li əmri ilə Ordunun aptek anbarı (Gəncə şəhəri dəmiryolu stansiyası binası 24 yerləşən) rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 17 aprel 1919-cu il tarixli 206 №-li əmri ilə Ordunun aptek anbarının rəisi vəzifəsinə təyin edilməsi ləğvedilib. 31 mart 1920-ci il tarixdən Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 227 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

266. Hərbi dövür üçün məmur **PONAMAREV**

21 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 dekabr 1918-ci il

tarixli 26 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis şöbəsi rəisinin sərancamınagöndə rilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsində hərbi məmur kimi xidmətdə olub.

267. Titulyar müşaviri **POMOQAYBO**

07 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin ərzaq şöbəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 dekabr 1919-cu il tarixli 566 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə 01 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

268. Axund Əsgər **POLAD-ZADƏ**

01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun mollası (Praporşiklər Məktəbinin türk dilində tədris olunan yerli və digər dillər üzrə müəllimin maaşı verilməklə) vəzifəsinə təyin edilib. Xidmətə qəbul edilməmiş-dən öncə Zaqafqaziya Dini idarəsinin üzvü olub. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun mollası vəzifəsində xidmətdə olub.

269. Titulyar müşavir **POLEŞUK**

17 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə 2-ci piyada diviziyası intendantının sərancamına göndərilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində

yaşamaq hüququndan məhrum edilməklə 29 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

270. **POLYAKOV** Nikolay

Milliyəti rus. 07 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 503 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının kapelmeysteri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvari alayının kapelmeysteri vəzifəsində xidmətdə olub.

271. Titulyar müşavir **PEREBEYNOSOV** İlya İliç

14 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə məhkəməsinin katibinin köməkçisi vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 avqust 1919-cu il tarixli 367 №-li əmri ilə 14 avqust 1919-cu il tarixdən Hərbi Nazirliyin Hərbi Məhkəmə hissəsinin katibi vəzifəsinə təsdiq edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin Hərbi Məhkəmə hissəsinin katibi vəzifəsində xidmətdə olub.

272. Feldşer **PETROV**

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Gəncə hərbi lazaretin baş tibb feldşeri vəzifəsində hərbi məmur kimi xidmətdə olduğu qeyd edilib. Səpmə yatalaq xəstəliyindən vəfat etdiyinə görə Hərbi nazirin 30 mart 1919-cu il tarixli 158 №-li əmri ilə həmin tarixdən

Cümhuriyyət ordusunun hərbi məmur siyahılardan çıxarılıb. Xidməti vəzifəsinin icrası zamanı səpmə yatalaq xəstəliyindən vəfat etdiyinə görə ailəsinə 1000 (min) rubl həcmində birdəfəlik yardım verilib və həyat yoldaşına ayda 300 (üç yüz) rubl olmaqla təqaüd kəsilməsi üçün Nazirlər Şurası Sədrinin qarşısında vəsatət qaldırılıb.

273. Saray müşaviri **PETUŞKOV**

Milliyəti rus. 25 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının xəzinədarı vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 26 noyabr 1919-cu il tarixli 545 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 17 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

274. Həkim (qadın) **PELEXOVİÇ** Xristina

13 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 357 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Xidmət yerinə gəlib çıxmadığına görə Hərbi nazirin 14 dekabr 1919-cu il tarixli 571 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində bir daha dövlət

müəssisələrində xidmətə qəbul hüququnu itirməklə 13 avqust 1919-cu il tarixdən Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb.

275. Kollec müşaviri **PİXTOVNİKOV** Vyaçislav

15 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 31 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 182 №-li əmri ilə həmin tarixdən xidməti uyğunsuzluğa görə Cümhiriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

276. Kollec reqistratoru **PİPÇENKO**

Milliyəti ukraynalı. 28 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 183 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvar alayının baş tibb feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvar alayının baş tibb feldşeri vəzifəsində xidmətdə olub.

277. Kollec müşaviri **PLATONOV**

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyin 1918-ci ilin noyabr ayının əvvəllərindəki hərbi məmurların hərbi hissələr üzrə üzləşmə siyahılarında 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının baş həkimi vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 182 №-li əmri ilə həmin tarixdən xidməti uyğunsuzluğa görə Cümhiriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

278. Titulyar müşavir **PLAVTOV** Konstantin

Milliyəti rus. 27 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 338 №-li əmri ilə həmin tarixdən Süvari diviziyasının 3-cü Şəki süvari alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvar alayının baş həkimi vəzifəsində xidmətdə olub.

279. Feldşeri **PLETNEV**

20 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 52 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar feldşeri vəzifəsində xidmətdə olub.

280. Quberniya katibi **PLOTNİKOV** Vasiliy

Milliyəti rus. 01 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 may 1919-cu il tarixli 277 №-li əmri ilə Bakı yerli lazaretin mirzəsi vəzifəsinə təyin edilib. Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 383 №-li əmri ilə 21 avqust 1919-cu il tarixdən öz arzusu ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

281. Həqiqi dövlət müşaviri **PRİDATKOV** İvan Sidoroviç

07 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin

sərancamına göndərilib və əşya hissəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində hərbi məmur kimi xidmətdə olub.

282. Kollec müşaviri **PROKOPENKO** Aleksandr

Milliyəti ukraynalı. 29 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 mart 1919-cu il tarixli 163 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 oktyabr 1919-cu il tarixli 504 №-li əmri ilə həmin tarixdən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

283. Kollec müşaviri **PRUSAKOV** Nikolay

Milliyəti rus. 22 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 318 №-li əmri ilə Xankəndi yerli lazaretin baş ordinatoru vəzifəsinə təyin edilib. Hərbi nazirin 10 yanvar 1920-ci il tarixli 20 №-li əmri ilə 21 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

284. **RASSİ-ZADƏ** Molla Əhməd

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının mollası vəzifəsində xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə Süvari diviziyasının

1-ci Tatar süvari alayının mollası vəzifəsinə keçirilib. 29 mart 1919-cu il tarixdə isə Hərbi nazirin 156 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının mollası vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvari alayının mollası vəzifəsində xidmətdə olub.

285. Quberniya katibi **RAKİTİN** Viktor Andreeviç

01 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 noyabr 1919-cu il tarixli 513 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin pul hissəsi üzrə kargüzar köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin pul hissəsi üzrə kargüzar köməkçisi vəzifəsində xidmətdə olub.

286. Həkim **ROZENBERQ** İzrail

Milliyəti yəhudi. 15 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 578 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci dağ-artilleriya divizionunun baş həkimi vəzifəsinə təyin edilib. Öz xahişi ilə Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 61 №-li əmri ilə 12 yanvar 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

287. **ROZENBERQ** Karl

Milliyəti yəhudi. 11 fevral 1920-ci il tarixdə Hərbi Məktəb rəisinin 10 fevral 1920-ci il tarixli 436 №-li raportuna əsasən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 90 №-li əmri ilə Hərbi Məktəbin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Məktəbin kargüzarı vəzifəsində xidmətdə olub.

288. Kollec asessoru **ROMANOV** Serqey

Milliyəti rus. 24 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 219 №-li əmri ilə həmin tarixdən Hərbi Nazirliyin Dəftərxanasının Qanunların kodifikasiya şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin Dəftərxanasının Qanunların kodifikasiya şöbəsinin rəisi vəzifəsində xidmətdə olub.

289. Həqiqi mülki müşaviri **RÜSTƏMBƏYOV** Nikolay

04 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 06 fevral 1919-cu il tarixli 58 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi-sanitar idarəsi rəisinin yanında tapşırıqlar və ezamiyyətlər üzrə həkimi vəzifəsinə təyin edilib. 08 aprel 1919-cu il traixdə səpmə yatalaq xəstəliyindən vəfat etdiyinə görə Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 191 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb. Vəfatı ilə əlaqədar Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 318 №-li əmri ilə ailəsinə 3000 (üç min) rubl həcmində birdəfəlik maddi yardım verilib.

290. Titulyar müşavir **ROTŞTEYN** Qeorqiy

Milliyəti yəhudi. 07 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 fevral 1919-cu il tarixli 64 №-li əmri ilə Gəncə hərbi lazaretinin dərəcəli feldşeri vəzifəsinə təyin edilib. 20 fevral 1919-cu il tarixdə Hərbi nazirin 90 №-li əmri ilə 18 fevral tarixdən Gəncə hərbi lazaretinin təsərüffat hissəsinin rəisi vəzifəsinə keçirilmiş hesab edilib. Hərbi nazirin 27 mart 1919-cu il tarixli 151 №-li əmri ilə isə Hərbi Nazirliyin Hərbi-sanitar idarəsinin kargüzarı

vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi-sanitar idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

291. Hərbi dövür üçün məmur **ROEV**

28 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərancamına göndərilib. Hərbi nazirin 14 mart 1920-ci il taixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayında xidmətdə olub.

292. Kollec katibi **ROJNEV**

21 fevral 1919-cu il tarixdə Cümhuriyyət 0rdusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 105 №-li əmri ilə Artilleriya idarəsinin Artilleriya anbarının sılah texniki vəzifəsinə təyin edilib. Öz arzusu ilə 14 may 1919-cu il tarixdə Hərbi nazirin 251 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmir siyahılardan çıxarılıb.

293. Həkim **RUBSOV** Yevqeniy

13 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin kiçik həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 15 yanvar 1919-cu il tarixli 27 №-li əmri ilə 11 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

294. Həkim **RƏFİBƏYOV** Qəmbər bəy

23 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1919-cu il tarixli 7 №-li əmri ilə Gəncə hərbi lazaretin (Gəncə dəmiryolu stansiyasının binasında yerləşən) kiçik ordinatoru vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar Gəncə hərbi lazareti- Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretinin kiçik ordinatoru vəzifəsində xidmətdə olub.

295. **RƏFİ-ZADƏ** Tanqirverdi Əfəndi

11 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 avqust 1919-cu il tarixli 374 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının imamı vəzifəsində xidmətdə olub.

296. Kollec katibi **RƏSULBƏYOV** Cümşüd bəy

25 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 oktyabr 1919-cu il tarixli 500 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin əşya hissəsi üzrə kargüzar köməkçisi vəzifəsinə təyin edilib. 24 yanvar 1920-ci il tarixdən isə Hərbi nazirin 27 yanvar 1920-ci il tarixli 82 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti (zabit vəzifəsi) vəzifəsinə keçirilib. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə 07 mart 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

297. Titulyar müşaviri **RUDİNSKİ**

01 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 14 may 1919-cu il tarixli 247 №-li əmri ilə 01 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyhılardan çıxarılıb.

298. Saray müşaviri **RUDNEV**

02 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 mart 1919-cu il tarixli 161 №-li əmri ilə 1-ci haubitsalı artilleriya divizionunun xəzinədarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 aprel 1919-cu il tarixli 183 №-li əmri ilə Gəncə hərbi lazaretin təsərüffat hissəsinin rəisi vəzifəsinə keçirilib. Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmrinə əsasən təşkilati-ştat tədbirləri ilə əlaqədar Gəncə hərbi lazareti- Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. 31 avqust 1919-cu il tarixdə Hərbi nazirin 386 №-li əmri ilə 1-ci haubitsalı artilleriya batareyasının təsərrüfat hissəsinin rəisi vəzifəsinə xidmət yeri dəyişdirilib. 10 noyabr 1919-cu il tarixdə isə Hərbi nazirin 18 noyabr 1919-cu il tarixli 536 №-li əmri ilə xidməti zərurətlə əlaqədar olaraq Baş Artilleriya idarəsinin kargüzarı təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Artilleriya təchizatı idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

299. Titulyar müşaviri **RİTÇER**

Milliyəti alman. 29 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 sentyabr

1919-cu il tarixli 438 №-li əmri ilə 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayı komandirinin sərancamına hərbi məmur kimi xidmətə göndərilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayında xidmətdə olub.

300. **RİZAEV** Məmməd bəy

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmrində Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamında xidmətdə olduğu qeyd edilib. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 156 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxid edilib və hərbi məmur siyahılardan çıxarılıb.

301. Saray müşaviri mülki mühəndis **REMİZOV** Serqey

28 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 389 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin mühəndisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin mühəndisi vəzifəsində xidmətdə olub.

302. Hərbi dövür üçün məmur **RYABÇİNSKİ** Konstantin Pavloviç

Milliyəti rus. 11 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndə rilib və Gəncə intendant ərzaq mağazasının(Yelizavetpolskaya 92 üvanında yerləşən) kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsində xidmətdə olub.

303. Kollec katibi feldşer **RYUMİN** Vladimir

17 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar hissəsinin kargüzarı vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 175 №-li əmri ilə 01 fevral 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

304. Saray müşaviri **RYAZANSEV**

15 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 531 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 29 mart 1920-ci il tarixli 178 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının başk baytar həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının başk baytar həkimi vəzifəsində xidmətdə olub.

305. Titulyar müşaviri **SAFİKÜRDSKİ**

16 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə Məhkəməsinin hərbi prokurorun köməkçisi vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda xidmətə qəbul olunanadək Gəncə Dairə Məhkəməsi prokurorunun köməkçisi vəzifəsində işləyib. Gəncə Dairə Məhkəməsinin prokuroru təyin olunduğuna görə Hərbi nazirin 19 mart 1919-cu il tarixli 134 №-li əmri ilə 12 mart 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

306. Quberniya katibi **SARIYEV**

28 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyun 1919-cu il tarixli 295 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayının xəzinədarı vəzifəsinin icraçısı təyin edilib. Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı 14 iyul 1919-cu il tarixdən 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının xəzinədarı vəzifəsində xidmətdə olub.

307. Kollec reqistratoru **SAMOYLENKO** Aleksandr

Milliyəti ukraynalı. 15 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 469 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının tibb feldşeri vəzifəsinə təyin edilib. Hərbi nazirin 01 aprel 1920-ci il tarixli 183 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müəssisələrində işləmək hüququndan məhrum edilməklə həmin tarixdən Cümhuriyyət ordusundan tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

308. Saray müşaviri mülki mühəndis **SAXAROV** Vladimir Alekseviç

Milliyəti rus. 14 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 22 may 1919-cu il tarixli 265 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin rayon iş icraçısı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə

əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin rayon iş icraçısı vəzifəsində xidmətdə olub.

309. **SAVİK** Zenaida (qadın)

20 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 08 fevral 1920-ci il tarixli 78 №-li əmri ilə Şuşa yerli lazaretin təsərrüfat hissə müdirinin köməkçisi (eyni zamanda mirzəsi) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Şuşa yerli lazaretin təsərrüfat hissə müdirinin köməkçisi vəzifəsində xidmətdə olub.

310. **SUKKERBERQ** Valentin

01 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 24 aprel 1920-ci il tarixli 225 №-li əmri ilə Kürd atıcı taboru komandirinin sərancamına göndərilib. Cümhuriyyətin süqutuna kimi Kürd atıcı taborunda xidmətdə olub.

311. Həkim Bəy **SULTANOV** Əsgər

09 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 64 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunu kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun kiçik həkimi vəzifəsində xidmətdə olub.

312. Kollec asessoru **SULTANOV** Cabbar bəy

27 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 338 №-li əmri ilə 2-ci piyada diviziyasının həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin

süqutuna kimi 2-ci piyada diviziyasının həkimi vəzifəsində xidmətdə olub.

313. Həkim **SULTANOV** Məmmədtağı

15 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 469 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

314. Hərbi dövür üçün məmur **SİMAKOV**

15 dekabr 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 26 dekabr 1919-cu il tarixli 595 №-li əmri ilə 2-ci piyada diviziyasının İntendantının sərancamına göndərilib və kargüzar vəzifəsinə təyin edilib. Hərbi nazirin 29 yanvar 1920-ci il tarixli 57 №-li əmri ilə 22 yanvar 1920-ci il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

315. Kollec katibi **SİVUXİN** Anton

12 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 noyabr 1919-cu il tarixli 530 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar idarəsinin mühasibi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Hərbi sanitar idarəsinin mühasibi vəzifəsində xidmətdə olub.

316. Titulyar müşavir **SİZOV**

14 dekabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 12 yanvar 1920-ci il tarixli 12 №-li əmri ilə Süvari diviziyasının İntendantı rəisinin sərancamına gönədrilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasında xidmətdə olub.

317. Həkim **SEYİDOV**

25 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1920-ci il tarixli 69 №-li əmri ilə Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunun baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı İstehkam rayonunun əlahiddə Bakı qala taborunun baş həkimi vəzifəsində xidmətdə olub.

318. **SEQAL**

01 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 26 dekabr 1918-ci il tarixli 32 №-li əmri ilə Gəncə Praporşiklər Məktəbinin Orkestr komandasının kapelmeysteri vəzifəsinə təyin edilib. Hərbi nazirin 17 may 1919-cu il tarixli 255 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının kapelmeysteri vəzifəsinə keçirilib. 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 15 iyun 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb. 15 iyul 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyul 1919-cu il tarixli 339 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kapelmeysteri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının kapelmeysteri vəzifəsində xidmətdə olub.

319. Kollec müşaviri **SERYABRYAKOV** Pyotr

Milliyəti rus. 15 aprel 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 204 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun baş baytar həkimi vəzifəsində xidmətdə olub.

320. Kollec katibi **SEMİLTOV**

29 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 315 №-li əmri ilə həmin tarixdən Şuşa qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Xidmət etməkdən imtina etdiyinə görə Hərbi nazirin 18 iyul 1919-cu il tarixli 327 №-li əmri ilə 29 iyun 1919-cu il tarixli əmr ləğv edilib və hərbi məmur siyahılarından çıxarılıb.

321. Kollec müşaviri **STANOVSKİ**

08 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 fevral 1920-ci il tarixli 83 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun baş baytar həkimi vəzifəsində xidmətdə olub.

322. Hərbi dövür üçün məmur **STAROSTİN** Mixayl Petroviç

22 aprel 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 218 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin kargüzarı

vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

323. Saray müşaviri **STAXAYEV**

01 fevral 1919-cu il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1919-cu il tarixli 95 №-li əmri ilə Hərbi Nazirliyin İntendant İdarəsinin Ləki Ərzaq mağazasının nəzarətçisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 316 №-li əmri ilə 25 iyun 1919-cu il traixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılarından siyahılardan çıxarılıb. 24 avqust 1919-cu il tarixdə təkrarən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 oktyabr 1919-ci il tarixli 508 №-li əmri ilə Hərbi dəmiryolçular məktəbinin dəmir yolu və texniki əmlak bölməsinin rəisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi dəmiryolçular məktəbinin dəmir yolu və texniki əmlak bölməsinin rəisi vəzifəsində xidmətdə olub.

324. Baytar feldşeri **STEPANÇİKOV**

16 may 1919-cu il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 may 1919-cu il tarixli 250 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik baytar feldşeri vəzifəsinə təyin edilib. Hərbi nazirin 17 iyun 1919-cu il tarixli 298 №-li əmri ilə 01 iyun 1919-cu il traixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

325. Mülki müşavir həkim **SULAKOV** Afanasiy

27 noyabr 1918-ci il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli

18 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi sanitar hissə rəisi-baş həkim vəxifəsinə təyin edilib. Xidməti vəzifəsinə və vəzifə borclarına səhlənkar yanaşdığına görə Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 45 №-li əmri ilə 22 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

326. **SULTAN-ZADƏ** Nurməmməd Kərbalay Əsədulla oğlu

Naxçıvan qəzasının Aqlis-Kliya kəndinin sakini olub. 01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının mollası vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının mollası vəzifəsinə keçirilib. Məzuniyyətdən xidmət yerinə qayıtmadığına görə Hərbi nazirin 09 sentyabr 1919-cu il tarixli 398 №-li əmri ilə 30 may 1919-cu il traixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

327. Saray müşaviri **SKORUPSKİ**

01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 aprel 1919-cu il tarixli 223 №-li əmri ilə Süavri diviziyasının 2-ci Qarabağ süvari alayının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süavri diviziyasının 2-ci Qarabağ süvari alayının kargüzarı vəzifəsində xidmətdə olub.

328. Saray müşaviri **SKVORSOV**

22 dekabr 1918-ci il tarixdən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1919-cu il

tarixli 6 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının kiçik baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 07 mart 1920-ci il tarixli 135 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş baytar həkimi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş baytar həkimi vəzifəsində xidmətdə olub.

329. Kollec asessoru **SKRİPİN**

14 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 fevral 1919-cu il tarixli 65 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Bakı piyada alayının silah texniki vəzifəsinə təyin edilib. Təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq 25 iyun 1919-cu il tarixdə Hərbi nazirin 311 №-li əmri ilə 2-ci Bakı piyada alayı 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı kimi adlanıb və xidmət yeri həmin hərbi hissədə saxlanılıb. 14 iyul 1919-cu il tarixdə yenidən təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Quba piyada alayı 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayı kimi adlanıb. Hərbi nazirin 31 iyul 1919-cu il tarixli 346 №-li əmri ilə Ləki stansiyasındakı artilleriya anbarının silah texniki vəzifəsinə keçirilib. 31 iyul 1919-cu il tarixli 346 №-li əmrlə 15 iyul 1919-cu il traixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

330. Kollec reqistratoru **SKVORSOV**

20 yanvar 1919-cu il tarixdən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 52 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş baytar feldşeri vəzifəsinə təyin edilib.

Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının baş baytar feldşeri vəzifəsində xidmətdə olub.

331. Baytar feldşeri **SKUZA** Veçislav

04 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 aprel 1919-cu il tarixli 192 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun kiçik baytar feldşeri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun kiçik baytar feldşeri vəzifəsində xidmətdə olub.

332. Kollec müşaviri **SMİRNOV**

Milliyəti rus. 22 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1919-cu il tarixli 7 №-li əmri ilə Qazax şəhərinəd dislokasiya edilmiş Təlim taborunu həkimi vəzifəsinə təyin edilib. Daha sonra 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. 11 fevral 1919-cu il tarixdə səpmə yatalaq xəstəliyindən vəfat etdiyinə görə Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 103 №-li əmri ilə vəfat etdiyi tarixdən Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb. Hərbi nazirin 24 fevral 1919-cu il tarixli 98 №-li əmrində onun xidmətləri belə qiymətləndirilmişdir: "Ağdamda səpmə yatalaq epidemiyasının tuğyan etdiyi və hərbi tibbi personalın çatışmadığı bir zamanda öz təhlükəsizliyi haqqında bir an fikirləşməyərək daimi epidemiyaya tutulmuş şəxsi heyətin arasında olmuş və onlara tibbi yardım göstərmişdir. Xəstələndikdə belə xidmət yerini tərk etməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti onun vətən qarşısında böyük xidmətlərini unutmayacaq və onun ailəsinə lazımi maddi dəstəyi edəcəkdir". 12 mart 1919-cu il tarixli 128 №-li əmrdə isə xidməti vəzifəsini

yerinə yetirərkən vəfat etdiyinə görə ailəsinə 3000 (üç min) rubl birdəfəlik maddi yardım verilməsi, azyaşlı qızının və həyat yoldaşının yaşayışı üçün aylıq 1500 (min beş yüz) rubl olmaqla təqaüd kəsilməsi üçün Nazirlər Şurası Sədrinə müraciət edildiyi bildirilmişdir.

333. Saray müşaviri **SOKOLOV** İvan

Milliyəti rus. 05 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 52 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının kiçik baytar həkimi vəzifəsinə təyin edilib. Hərbi nazirin 10 fevral 1919-cu il tarixli 70 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş baytar həkimi vəzifəsinə keçirilib. 07 fevral 1920-ci il tarixdə Hərbi nazirin 77 №-li əmri ilə Hərbi 07 fevral 1920-ci il traixdən 01 mart 1920-ci il traixədək Hərbi Nazirliyin Hərbi baytar hissə rəisi vəzifəsinin müvəqqəti icraşısı (əvvəlki vəzifə maaşı saxlanılmaqla) təyin edilib. 29 mart 1920-ci il tarixdə Hərbi nazirin 178 №-li əmri ilə Ordunun Hərbi-baytar hissəsi idarəsinin ezamiyyətlər üzrə baş baytar həkimi vəzifəsinə təyin edilir. Cümhuriyyətin süqutuna kimi Ordunun Hərbi-baytar hissəsi idarəsinin ezamiyyətlər üzrə baş baytar həkimi vəzifəsində xidmətdə olub.

334. Titulyar müşaviri **SOLOVYOV** Konstantin Stepanoviç

Milliyəti rus. 16 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Göyçay qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Hərbi nazirin 18 mart 1920-ci il tarixli 159 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb. Cümhuriyyətin süqutuna kimi Ordunun Hərbi-baytar hissəsi

idarəsinin ezamiyyətlər üzrə baş baytar həkimi vəzifəsində xidmətdə olub.

335.Həkim **SOLOVYOV** Nikolay

Milliyəti rus. 07 aprel 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 182 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

336. **SOROKİN** Serqey İvanoviç

Milliyəti rus. 07 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 sentyabr 1919-cu il tarixli 409 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin Mənzil şöbəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaəqdar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin Mənzil şöbəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

337. Muxtar **SOYÜNOĞLU**

Gəncə şəhər sakini olub. 23 yanvar 1919-cu il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 06 mart 1919-cu il tarixli 109 №-li əmri ilə Gəncə hərbi lazaretinin mollası vəziffəsinə təyin edilib. Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Gəncə hərbi lazareti həmin tarixdən Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. 30 sentyabr 1919-cu il traixdə Hərbi nazirin 446 №-li əmri ilə 20 avqust 1919-cu il traixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

338. **STEPANOV**

Milliyəti rus. 16 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 324 №-li əmri ilə həmin tarixdən Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsinə təyin edilib. Cümhuriyyət ordusunda xidmətə qəbul edilənədək Gəncə Dairə Məhkəməsinin Barış Məhkəməsi hakiminin köməkçisi işləyib. Hərbi nazirin 31 avqust 1919-cu il tarixli 380 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqlərinin vəzifə bölgüsü aparılmışdır. Həmin əmrə əsasən Stepanov istintaq təcridxanası Bakı şəhərində olmaqla Bakı quberniyası üzrə hərbi cinayət işlərinin ilkin istintaqının aparması tapşırılmışdır. 19 aprel 1920-ci il traixdə Hərbi nazirin 210 №-li əmri ilə istintaq təcridxanası Bakı şəhərində olmaqla Republika üzrə xüsusi əhəmiyyətli hərbi təsərrüfat cinayət işlərinin istintaqının aparılması üzrə müstəntiqi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Republika üzrə xüsusi əhəmiyyətli hərbi təsərrüfat cinayət işlərinin istintaqının aparılması üzrə müstəntiqi vəzifəsində xidmətdə olub.

339. Mühəndis **STEPANOV** Mixayl Qeorqeviç

Milliyəti rus. 17 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 423 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin smeta və hesabatların yoxlanılması üzrə mühəndisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaəqdar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin smeta və hesabatların yoxlanılması üzrə mühəndisi vəzifəsində xidmətdə olub.

340. Titulyar müşavir **SVEŞNİKOV** İvan Dmitreviç

07 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 03 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib və Bakı intendant ərzaq mağazası (Balaxanı şosesi 75/76 və Sabunçu döngəsi 5 üvanında yerləşən) müdrinin köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaəqdar olaraq Ordunun İntendant idarəsində xidmətdə olub.

341. Titulyar müşavir **ŞAHTAXTİNSKİ** Heydər bəy

12 yanvar 1919-cu il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə məhkəməsinin hərbi müstəntiqi vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) təyin edilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il və Hərbi nazirin 27 may 1919-cu il tarixli 269 №-li əmri ilə Cümhuriyyət Hərbi Dairə məhkəməsinin hərbi müstəntiqi vəzifəsinə təsdiq olunub. 06 iyun 1919-cu il tarixdə Cümhuriyyət Ordusu sıralarından tərxis edilib və Hərbi nazirin 08 iyun 1919-cu il tarixli 283 №-li əmri ilə hərbi məmur siyahılardan çıxarılıb. Cümhuriyyət ordusunda xidmətə qəbul olunanadək Gəncə şəhər Barışıq şöbəsinin barışıq hakimi vəzifəsində işləyib.

342. Mülki müşavir həkim **ŞAHOV** Mixayl

28 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 319 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. 14 iyul 1919-cu il tarixdə

təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-cipiyada diviziyasının 4-cü Zaqatala piyada alayı 1-cipiyada diviziyasının 2-ciZaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 1-cipiyada diviziyasının 2-ci Zaqatala piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

343. Həkim **ŞAHTAXTİNSKİ** Əsədulla bəy Baxşəli bəy oğlu

21 fevral 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 111 №-li əmri ilə Xankəndi yerli lazaretin baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Xankəndi yerli lazaretin baş həkimi vəzifəsində xidmətdə olub.

344. Hacı Molla **ŞAHVERDİ-ZADƏ**

14 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 mart 1920-ci il tarixli 138 №-li əmri ilə Şuşa yerli lazaretin imamı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Şuşa yerli lazaretin imamı vəzifəsində xidmətdə olub.

345. Kollec asessoru **ŞAHMƏLİYEV**

18 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 19 mart 1919-cu il tarixli 134 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il və Hərbi nazirin 27 may 1919-cu il tarixli 269 №-li əmri ilə Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsinə təsdiq olunub. 31 avqust 1919-cu il traixdə Hərbi nazirin 380 №-li əmrlə ona istintaq təcridxanası

Gəncə şəhərində olmaqla Gəncə və Zaqatala quberniyası üzrə hərbi cinayət işlərinin ilkin istintaqını aparır vəzifəsi həvalə edilib. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyət Hərbi Məhkəməsinin hərbi müstəntiqi vəzifəsində xidmətdə olub. Cümhuriyyət ordusunda xidmətə qəbul olunanadək Gəncə Dairə Məhkəməsi müstəntiqi vəzifəsində işləyib.

346. Qubeniya katibi **ŞARŞUNOV** İvan Vasilyeviç

09 mart 1919-cu il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 01 may 1919-cu il tarixli 231 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kargüzarı vəzifəsinə təyin edilib. 16 fevral 1920-ci il traixdə Hərbi nazirin 02 mart 1920-cu il tarixli 128 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

347. Həkim **ŞAPİRO**

14 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 529 №-li əmri ilə 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun kiçik həkimi vəzifəsində xidmətdə olub.

348. Hərbi dövür üçün məmur **ŞENFELDT** Ans Eristoviç

Milliyəti yəhudi. 12 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 sentyabr 1919-cu il tarixli 423 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsinin mühəndis şöbəsinin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat

dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Mühəndis təchizatı idarəsinin Mühəndis şöbəsinin kargüzarı vəzifəsində xidmətdə olub.

349. Kollec reqistratoru **ŞKORİNOV**

24 noyabr 1918-ci il traixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 dekabr 1918-ci il tarixli 11 №-li əmri ilə Gəncə qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. Vəzifəsindən sui-istifadə edərək qəsdən tələbnamələrə bilərəkdən səhv məlumatlar daxil etdiyinə görə Hərbi nazirin 27 mart 1919-cu il tarixli 150 №-li əmri ilə 26 mart 1919-cu il traixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

350. Həqiqi dövlət müşaviri **ŞPAKOVSKİ** Pavel

Milliyəti rus. 01 yanvar 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1919-cu il tarixli 7 №-li əmri ilə Gəncə hərbi lazaretin (Gəncə dəmiryolu stansiyasının binasında yerləşən) baş həkimi vəzifəsinə təyin edilib. 19 yanvar 1919-cu il tarixdə Hərbi nazir tərəfindən Lazaret yoxlanılarkən oradakı anti-sanitariya və nizam intizamsızlığa görə Hərbi nazirin 24 yanvar 1919-cu il tarixli 43 №-li əmri ilə turtduğu vəzifəsindən azad edilib. 15 fevral 1919-cu il tarixdə Hərbi nazirin 77 №-li əmri ilə aşağı vəzifəyə Gəncə hərbi lazaretinin baş ordinatoru vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 aprel 1919-cu il tarixli 226 №-li əmri ilə təşkilati-ştat tədbirləri ilə əlaqədar olaraq Gəncə hərbi lazareti həmin tarixdən Gəncə yerli lazaret adlanıb və xidmət yeri həmin lazaretdə saxlanılıb. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretinin baş ordinatoru vəzifəsində xidmətdə olub.

351. **ŞUQAYEV** Pavel

Milliyəti rus. 14 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 472 №-li əmri ilə Gəncə yerli lazaretin mirzəsi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretin mirzəsi vəzifəsində xidmətdə olub.

352. Həkim **ŞULMAN** İsaak

Milliyəti yəhudi. 13 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 357 №-li əmri ilə 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kiçik həkimi vəzifəsində xidmətdə olub.

353. Saray müşaviri **TABAKENQ** Oskar

Milliyəti yəhudi. 24 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətdə olub və Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 103 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşamaq hüququndan məhrum edilməklə Hərbi nazirin 08 fevral 1920-ci il tarixli 78 №-li əmri 01 fevral 1920-ci il tarixdən Cümhuriyyət ordusundan tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

354. Əli Məmməd **TAĞIZADƏ**

24 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 166 №-li əmri ilə 7-ci Şirvan piyada alayının mollası vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayının mollası vəzifəsində xidmətdə olub.

355. Axund Əliya Məmməd **TAĞIZADƏ**

Lənkaran şəhər sakini olub. 01 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 fevral 1919-cu il tarixli 60 №-li əmri ilə Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının mollası vəzifəsinə təyin edilib. Xidmət yerinə gəlib çıxmadığına görə Hərbi nazirin 19 fevral 1919-cu il tarixli 82 №-li əmri ilə 01 fevral 1919-cu il tarixli əmr ləğv edilib və Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb.

356. Şəfqət bacısı **TARXANOVA** Nina

Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmrində Süvari diviziyasının 1-ci Tatar süvari alayının vakant feldşer vəzifəsində xidmətdə olduğu qeyd edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının feldşer vəzifəsində xidmətdə olub.

357. **TALIŞXANOV** Mir Həşim Xan

12 iyul 1919-cu il tarixdən Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 iyul 1919-cu il tarixli 326 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsinin icracısı (zabit maaşı və ərzaq payı verilməklə) təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun İntendant idarəsinin tapşırıqlar üzrə kiçik zabiti vəzifəsində xidmətdə olub. Cümhuriyyət ordusunda xidmətə qəbuladək Daxili İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə məmuru vəzifəsində işləyib.

358. Həkim **TALIŞİNSKİ** Əbülfətxan

08 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 iyul 1919-cu il tarixli 338 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

359. Həkim **TALINOVSKİ**

20 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 484 №-li əmri ilə həmin tarixdən 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının baş həkimi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 6-cı Göyçay piyada alayının baş həkimi vəzifəsində xidmətdə olub.

360. Kollec müşaviri **TAİROV** Yusif bəy

03 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 oktyabr 1919-cu il tarixli 453 №-li əmri ilə Hərbi Nazirliyin Dəftərxanasının İşlər müdiri vəzifəsinə təyin edilib. Hərbi nazirin 20 fevral 1920-ci il tarixli 108 №-li əmri ilə Hərbi Nazirliyin Dəftərxana rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin Dəftərxana rəisi vəzifəsinin müvəqqəti icraçısı vəzifəsində xidmətdə olub.

361. Kollec asessoru **TAİROV** Ələkbər bəy

01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 05 yanvar 1920-ci il tarixli 5 №-li əmri ilə Baş Qərargahın Hərbi Topoqrafiya şöbəsinin

katibi vəzifəsinə təyin edilib. 03 fevral 1920-ci il tarixli 67 №-li əmri ilə Baş Qərargahın Hərbi topoqrafiya şöbəsinin katibi (qərargah zabiti səlahiyyətləri və tabor komandiri vəzifə maaşı verilməklə) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Hərbi topoqrafiya şöbəsinin katibi vəzifəsində xidmətdə olub. Xidmətə qəbul olunanadək Təhsil Nazirliyinin Dəftərxanasında kargüzar kimi çalışıb.

362. **TAİRBƏYOV** İslam

20 oktyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 oktyabr 1919-cu il tarixli 511 №-li əmri ilə Ümumi Qərargahın poçt şöbəsinin jurnalisti vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordu Qərargahının poçt şöbəsinin jurnalisti vəzifəsində xidmətdə olub.

363. Kollec asessoru **TİXONOV**

05 noyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 dekabr 1919-cu il tarixli 570 №-li əmri ilə Hərbi Nazirliyin Baş Artilleriya idarəsinin silah texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordunun Artilleriya təchizatı idarəsinin silah texniki vəzifəsində xidmətdə olub.

364. Kollec katibi **TİXOMİROV**

Milliyəti rus. 11 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 27 sentyabr 1919-cu il tarixli 438 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru komandirinin sərəncamına göndərilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada

taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayında xidmətdə olub.

365. Baytar feldşeri **TİŞİN**

10 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda könüllü xidmətə qəbul edilib və Hərbi nazirin 17 iyun 1919-cu il tarixli 298 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayının kiçik baytar feldşeri vəzifəsinə təyin edilib. 14 iyul 1919-cu il tarixdə təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar Hərbi nazirin 328 №-li əmri ilə 1-ci piyada diviziyasının 4-cü Zaqatala piyada alayı həmin tarixdən 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayı kimi adlanıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 2-ci Zaqatala piyada alayının kiçik baytar feldşeri vəzifəsində xidmətdə olub.

366. Kollec reqistratoru **TKAÇEV** Pyotr Qriqoriyeviç

Milliyəti rus. 25 fevral 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 04 aprel 1919-cu il tarixli 174 №-li əmri ilə Gəncə hərbi lazaretin baş tibb feldşeri (3-cü piyada Gəncə alayına ezam edilməklə) vəzifəsinə təyin edilib. Hərbi nazirin 27 mart 1919-cu il tarixli 151 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş tibb feldşeri (3-cü piyada Gəncə alayında ezamiyyətdə saxlanılmaqla) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 1-ci Tatar süvari alayının baş tibb feldşeri vəzifəsində xidmətdə olub.

367. Mülki müşavir mühəndis **TEMİRXANOV** Zubair bəy

16 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 avqust 1919-cu il tarixli 368 №-li əmri ilə Hərbi Nazirliyin Mühəndis idarəsi rəisinin müavini (zabit vəzifəsi) (Mühəndis idarə rəisi təyin olunanadək idarə rəisi vəzifəsinin müvəqqəti icraçısı) vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordu Mühəndis təchizatı idarəsi rəisinin müavini (zabit vəzifəsi) vəzifəsində xidmətdə olub.

368. Saray müşaviri **TROİSKİ**

23 iyun 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 31 iyul 1919-cu il tarixli 346 №-li əmri ilə 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının silah texniki vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 4-cü Quba piyada alayının silah texniki vəzifəsində xidmətdə olub.

369. Mülki müşaviri **UKLADNİKOV**

12 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 15 yanvar 1919-cu il tarixli 25 №-li əmri ilə 1-ci piyada diviziyasının həkimi vəzifəsinə təyin edilib. 23 fevral 1919-cu il tarixdə səpmə yatalaq xəstəliyindən vəfat etdiyinə görə Hərbi nazirin 28 fevral 1919-cu il tarixli 103 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb. Hərbi nazirin 24 fevral 1919-cu il tarixli 98 №-li əmrində onun xidmətləri belə qiymətləndirilmişdir: “Ağdamda səpmə yatalaq epidemiyasının tuğyan etdiyi və hərbi tibbi personalın çatışmadığı bir zamanda öz təhlükəsizliyi haqqında bir an fikirləşməyərək daimi

epidemiyaya tutulmuş şəxsi heyətin arasında olmuş və onlara tibbi yardım göstərmişdir. Xəstələndikdə belə xidmət yerini tərk etməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti onun vətən qarşısında böyük xidmətlərini unutmayacaq və onun ailəsinə lazımi maddi dəstəyi edəcəkdir".

370. **USUBBƏYOV** Cahangir bəy

Şuşa şəhər sakini olub. 14 mart 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 25 mart 1920-ci il tarixli 192 №-li əmri ilə Bakı İntendant Əşya anbarında tapşırıqlar üzrə məmuru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Bakı İntendant Əşya anbarında tapşırıqlar üzrə məmuru vəzifəsində xidmətdə olub.

371. Şəfqət bacısı **UMANSKAYA**

Milliyəti rus. Cümhuriyyət ordusunda xidmətə qəbul edilmə tarixi bilinmir. Hərbi Nazirliyinin 1918-ci ilin noyabr ayının əvvəllərində hərbi hissələr üzrə məmur heyətinin üzləşmə siyahılarında 1-ci piyada diviziyasının şəfqət bacısı kimi xidmətdə olduğu qeyd edilib. 24 fevral 1919-cu il tarixdə səpmə yatalaq xəstəliyindən vəfat etdiyinə görə Hərbi nazirin 24 fevral 1919-cu il tarixli 98 №-li əmri ilə Cümhuriyyət ordusunun hərbi məmur siyahılarından çıxarılıb. Həmin əmrdə nazir bunları qeyd etmişdir: "Ağdamda səpmə yatalaq epidemiyasının tuğyan etdiyi və hərbi tibbi personalın çatışmadığı bir zamanda öz təhlükəsizliyi haqqında bir an fikirləşməyərək daimi epidemiyaya tutulmuş şəxsi heyətin arasında olmuş və onlara tibbi yardım göstərmişdir. Xəstələndikdə belə xidmət yerini tərk etməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti onun vətən qarşısında böyük xidmətlərini unutmayacaq və onun ailəsinə lazımi maddi dəstəyi edəcəkdir".

372. **VANİKOV** Naum Lvoviç

Milliyəti rus. 17 sentyabr 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 417 №-li əmri ilə həmin tarixdən Artilleriya Baş İdarəsinin Hərbi zavodunun mexaniki vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanadək, alay komandirinin köməkçisi vəzifə maaşı verilməklə) təyin edilmişdir. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordu Artilleriya təchizatı idarəsinin Hərbi zavodunun mexaniki vəzifəsində xidmətdə olub.

373. Hərbi dövür üçün məmur **VARSIBASOV**

01 yanvar 1920-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 fevral 1920-ci il tarixli 147 №-li əmri ilə Mühəndis idarəsinin Gəncə iş icraçısı dəftərxanasının kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Mühəndis idarəsinin Gəncə iş icraçısı dəftərxanasının kargüzarı vəzifəsində xidmətdə olub.

374. **VALDNER**

Milliyəti alman. 13 iyul 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 07 avqust 1919-cu il tarixli 351 №-li əmri ilə 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının xəzinədarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 2-ci piyada diviziyasının 5-ci Bakı piyada alayının xəzinədarı vəzifəsində xidmətdə olub.

375. Kollec katibi **VASKA**

01 avqust 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 20 avqust 1919-cu il tarixli 369 №-li əmri ilə Süvari diviziyasının 1-ci Tatar süvari

alayının kapelmeysteri vəzifəsinə təyin edilib. Hərbi nazirin 30 noyabr 1919-cu il tarixli 549 №-li əmri ilə Azərbaycan Xalq Cümhuriyyətində yaşamaq hüququndan məhrum edilməklə 18 noyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

376. Kollec asessoru həkim **VAŞENKO** Vladimir Nikolayeviç

Milliyəti ukraynalı. 06 mart 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 12 aprel 1919-cu il tarixli 124 №-li əmri ilə 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının kiçik həkimi (Mərkəzi Aptek Deposuna xidməti ezamiyyətə göndərilməklə) vəzifəsinə təyin edilib. 27 mart 1919-cu il tarixdə Hərbi nazirin 31 may 1919-cu il tarixli 277 №-li əmri ilə Xankəndi yerli lazaretin baş ordinatoru vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Xankəndi yerli lazaretin baş ordinatoru vəzifəsində xidmətdə olub.

377. Kollec reqistratoru **VOLKOV**

Milliyəti rus. 19 mart 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 mart 1919-cu il tarixli 154 №-li əmri ilə Cümhuriyyət Hökümətinin konvoy bölüyünün kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi Hökümətinin konvoy bölüyünün kargüzarı vəzifəsində xidmətdə olub.

Müəllifdən: Hərbi nazirin 14 iyul 1919-cu il tarixli 328 №-li əmri ilə Hökümətin konvoy bölüyünün həm inzibati həmdə təsərüffat fəaliyyəti Ümumi Qərargaha tabe edilmişdir. Həmin bölük əvvəllər Ümumi Qərargaha daha sonra isə ştat dəyişikliyi ilə əlaqədar Ordu Qərargahına bağlı olmuşdur.

378. Silah texniki **VOROBYOV**

Milliyəti rus. 01 sentyabr 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 14 sentyabr 1919-cu il tarixli 411 №-li əmri ilə Lənkaran ehtiyat piyada taborunun silahlara nəzarətçi vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Hərbi nazirin 14 mart 1920-ci il tarixli 154 №-li əmri ilə Lənkaran ehtiyat piyada taboru nəzdində 3 taborlu 7-ci Şirvan piyada alayı yaradılıb və xidmət yeri həmin alayda saxlanılıb. Cümhuriyyətin süqutuna kimi 7-ci Şirvan piyada alayının silahlara nəzarətçisi vəzifəsində xidmətdə olub.

379. Kollec reqistratoru **VİDADOV**

12 mart 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 01 may 1919-cu il tarixli 231 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kvartirmeysteri vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının kvartirmeysteri vəzifəsində xidmətdə olub.

380. Kollec reqistratoru **VİNOQRADOV**
Aleksandr Qeorqeviç

Milliyəti rus. 24 iyun 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 316 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib və şəxsi heyət üzrə hissənin kargüzarı vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordu İntendant idarəsində xidmətdə olub.

381. **VERDİYEV** Qəmbər

14 iyun 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 28 iyun 1919-cu il tarixli 316 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib və İntendant idarəsinin geyim emalatxanasının (Gəncə şəhəri Yelizavetskaya 6 ünvanında yerləşən) müdirinin köməkçisi vəzifəsinə təyin edilib. Cümhuriyyətin süqutuna kimi təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Ordu İntendant idarəsində xidmətdə olub.

382. Kollec reqistratoru **VƏKİLOV** Məcid bəy

20 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 25 sentyabr 1919-cu il tarixli 429 №-li əmri ilə həmin tarixdən 1-ci piyada diviziyasının 3-cü Gəncə piyada alayının tibb feldşeri vəzifəsinə təyin edilmiş hesab edilib. 14 oktyabr 1919-cu il tarixdə Hərbi nazirin 471 №-li əmri ilə öz xahişi ilə 20 sentyabr 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

383. Kollec asessoru **VƏZİROV** Cabbar bəy

16 may 1919-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 may 1919-cu il tarixli 262 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Hərbi nazirin 02 mart 1920-ci il tarixli 128 №-li əmri ilə 01 mart 1920-ci il tarixdən Hərbi Nazirliyin Dəftərxanasının Maliyyə-hesabat şöbəsi rəisi vəzifəsinin icraçısı təyin edilmiş hesab edilib. Cümhuriyyətin süqutuna kimi Hərbi Nazirliyin Dəftərxanasının Maliyyə-hesabat şöbəsi rəisi vəzifəsində xidmətdə olub.

384. **YAQUBOV** Məmməd

09 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 21 may 1919-cu il tarixli 262 №-li əmri ilə Hərbi Nazirliyin İntendant idarəsi rəisinin sərancamına göndərilib. 08 iyun 1919-cu il tarixdə Hərbi nazirin 286 №-li əmri ilə 31 may 1919-cu il tarixdən Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılarından çıxarılıb.

385. Kollec assesoru **YASTREBSOV**

12 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 30 №-li əmri ilə Cümhuriyyəti Hərbi Məhkəməsinin hərbi hakimi vəzifəsinin icraçısı (ştatlar təsdiq olunanədək) təyin edilib. Nazirlər Şurası Sədrinin 16 may 1919-cu il və Hərbi nazirin 27 may 1919-cu il tarixli 269 №-li əmri ilə Cümhuriyyəti Hərbi Məhkəməsinin hərbi hakimi vəzifəsinə təsdiq edilib. 28 fevral 1920-ci il tarixdə Hərbi nazirin 124 №-li əmri ilə Cümhuriyyəti Hərbi Məhkəməsinin sədri vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Cümhuriyyətin süqutuna kimi Cümhuriyyəti Hərbi Məhkəməsinin sədri vəzifəsinin müvəqqəti icraçısı vəzifəsində xidmətdə olub. Cümhuriyyət ordusunda xidmətə qəbul olunanadək Gəncə Dairə Məhkəməsi prokurorunun köməkçisi vəzifəsində işləyib.

386. Kollec asessoru **YAZVİNSKİ** Kozimir

22 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 30 yanvar 1919-cu il tarixli 52 №-li əmri ilə 1-ci Artilleriya briqadasının 2-ci dağ artilleriya divizionunun kiçik baytar həkimi vəzifəsinə təyin edilib. 17 iyun 1919-cu il tarixdə Hərbi nazirin 298 №-li əmri ilə 01 mart 1919-cu il tarixdən 1-ci Artilleriya briqadasının 2-ci dağ

artilleriya divizionunun baş baytar həkimi vəzifəsinə təyin edilmiş hesab edilib. 04 yanvar 1920-ci il tarixdə xidməti zərurətlə əlaqədar olaraq Hərbi nazirin 4 №-li əmri ilə Süvari diviziyasının 3-cü Şəki süvari alayının baş baytar həkimi vəzifəsinə keçirilib. Cümhuriyyətin süqutuna kimi Süvari diviziyasının 3-cü Şəki süvari alayının baş baytar həkimi vəzifəsində xidmətdə olub.

387. **YERMAKOV**

29 may 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 10 iyun 1919-cu il tarixli 290 №-li əmri ilə Salyan qəza hərbi rəisi idarəsinin kargüzarı vəzifəsinə təyin edilib. 16 iyul 1919-cu il tarixdə öz xahişi ilə Hərbi nazirin 01 oktyabr 1919-cu il tarixli 447 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilmiş və hərbi məmur siyahılardan çıxarılmış hesab edilib.

388. Saray müşavir baytar həkim **YERMONSKİ** Mixail

10 dekabr 1918-ci il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 17 dekabr 1918-ci il tarixli 18 №-li əmri ilə Hərbi Nazirliyin Hərbi baytar hissə rəisi vəzifəsinə təyin edilib. Hərbi nazirin 09 iyul 1919-cu il tarixli 320 №-li əmri ilə Cümhuriyyət ordusu sıralarından tərxis edilib və hərbi məmur siyahılardan çıxarılıb.

389. Həqiqi dövlət müşaviri **YERMOLAYEV** Serqey

Milliyəti rus. 16 yanvar 1919-cu il tarixdə Cümhuriyyət ordusunda xidmətə qəbul edilib və Hərbi nazirin 18 yanvar 1919-cu il tarixli 31 №-li əmri ilə Gəncə hərbi lazaretinin baş ordinatoru vəzifəsinə təyin edilib. Hərbi nazirin 24 yanvar

1919-cu il tarixli 43 №-li əmri ilə Gəncə hərbi lazaretinin baş həkimi vəzifəsinin müvəqqəti icraçısı təyin edilir. 30 aprel 1919-cu il tarixdə Hərbi nazirin 226 №-li əmri ilə Gəncə hərbi lazareti həmin tarixdən Gəncə yerli lazaret adlanır və xidmət yeri həmin lazaretdə saxlanılır. Hərbi nazirin 20 iyun 1919-cu il tarixli 304 №-li əmri ilə Gürcüstan Respublikasının Hərbi Nazirliyindən hərbi əmlakın alınması üzrə komissiyanın üzvü siyahılarına daxil edilir. Cümhuriyyətin süqutuna kimi Gəncə yerli lazaretinin baş ordinatoru vəzifəsində xidmətdə olub.

390. Hərbi dövür üçün məmur **YEVSTRATOV** Nikolay

